# ELM və HƏYAT

Azərbaycan Milli Elmlər Akademiyası

Elmi-populyar jurnal

**ISSN: 2710-0944 №2 (488), 2025**

*Jurnal 1961-ci ildən nəşr olunur*

## REDAKSİYA HEYƏTİ

**BAŞ REDAKTOR**

**İsa Həbibbəyli** - AMEA-nın prezidenti, akademik

**BAŞ REDAKTORUN MÜAVİNİ**

**Ağahüseyn Şükürov** - AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent

**ÜZVLƏR**

**Anar Rzayev** - Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı
**Dilqəm Tağıyev** - AMEA-nın vitse-prezidenti, akademik
**İbrahim Quliyev** - AMEA-nın vitse-prezidenti, akademik
**Ömər Eldarov** - Akademik
**Rasim Əliquliyev** - AMEA-nın vitse-prezidenti, akademik
**İradə Hüseynova** - AMEA-nın vitse-prezidenti, akademik
**Nərgiz Paşayeva** - AMEA-nın vitse-prezidenti, akademik
**Tofiq Nağıyev** - AMEA-nın vitse-prezidenti, akademik
**Gövhər Baxşəliyeva** - AMEA-nın vitse-prezidenti v.i.e., akademik
**Arif Həşimov** - AMEA-nın akademik-katibi, akademik
**Cəmil Əliyev** - AMEA Rəyasət Heyətinin üzvü, akademik
**Əhliman Əmiraslanov** - Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik
**İsmayıl Hacıyev** - AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik
**Fuad Əliyev** - AMEA-nın Gəncə Bölməsinin sədri, akademik
**Fərhad Xəlilov** - Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı
**Firəngiz Əlizadə** - Azərbaycan Bəstəkarlar İttifaqının sədri
**Oktay Qasımov** - AMEA-nın müxbir üzvü

**BEYNƏLXALQ HEYƏT**

**Se Fuçjan** - Çin İctimai Elmlər Akademiyasının prezidenti, akademik
**Müzəffər Şəkər** - Türkiyə Elmlər Akademiyasının prezidenti, professor, doktor
**Dərya Örs** - Türkiyə, Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumunun rəhbəri, professor
**Roin Metreveli** - Gürcüstan Milli Elmlər Akademiyasının prezidenti, akademik
**Şavkat Ayupov** - Özbəkistan Milli Elmlər Akademiyasının prezidenti, akademik
**Axılbek Kurişbayev** - Qazaxıstan Milli Elmlər Akademiyasının prezidenti, akademik
**Taliya Xabriyeva** - Rusiya Elmlər Akademiyası prezidentinin müavini, akademik
**Nikolay Sokolovski** - Polşa Elmlər Akademiyasının Ədəbi Tədqiqatlar İnstitutunun professoru
**Nikol Vasilyev** - Bolqarıstan Elmlər Akademiyası Arxeologiya İnstitutunun şöbə müdiri, akademik
**Stefani Sini** - İtaliya (professor)

**MƏSUL KATİB**

**Sərvan Kərimov** - AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin Dövri nəşrlər sektorunun baş mütəxəssisi

# BƏLƏDÇİ


**AKTUAL**

**İsa Həbibbəyli** - Böyük sənətə yüksək qiymət ....5

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI - 80**

**Əsmər Əliyeva** - AMEA-nın müasir inkişaf prioritetləri ....11

**Məmməd Sadıqov** - Elm dünyasının zirvəsində ....16

**FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏ - 80**

**İsmayıl Hacıyev** - Naxçıvan Muxtar Respublikası 1941-1945-ci illər müharibəsi dövründə ....19

**BİOTEXNOLOGİYA**

**İradə Hüseynova, Nurməmməd Mustafayev** -
Qədim insanların genləri: insanın təkamülü və formalaşmasının şahidləri ....24

**BİR MİLLƏT, İKİ DÖVLƏT**

**Coşqun Məmmədov** - Terrorsuz Türkiyə: bir millətin cəsarətlə
yazdığı yeni tarix Kədərin bitdiyi, ümidin doğduğu yeni bir dövr başlayır ....31

**AZƏRBAYCAN MİLLİ MƏTBUATI - 150**

**Esmira Cavadova** - Ziya işığına yığışan sönməzlər ....33

**QƏRBİ AZƏRBAYCAN TƏDQİQATLARI**

**Nigar Gözəlova** - Ofeliya xanım Bağırbəyovanın xatirələri: İrəvan xan ailəsinin tarixi və mədəni irsi ....36

**DÜNYA ELM ALƏMİNDƏ** ....40

**QARABAĞ ABİDƏLƏRİ**

**Rizvan Qarabağlı** - Qarabağlı memar İbrahimxəlil ....42

**YUBİLEY**

**Arzu Hacıyeva** - Böyük mütəfəkkir, görkəmli dövlət xadimi ....45

**Əli Qəhrəmanov** - Bəxtiyar Vahabzadə dramaturgiyası Naxçıvan teatrında ....49

**Aqil Əhmədov** - Azərbaycan şərqşünaslığının görkəmli nümayəndəsi: Həsən Mahmudov - 100 ....53

**FİLOLOGİYA VƏ DİLÇİLİK**

**Sevil Adıgözəlova** - Əlibəy Hüseynzadənin yaradıcılığında antroponimlərin tədqiqi ....58

**Hamlet Allahverdiyev** - Nizami Gəncəvinin "Xəmsə"sində təbiəti mühafizə... ....62

**Gülnarə İsmayılova, Vəfa Əliyeva** -
Avropada Nizami irsi və şairin əsərlərində "Şira" ulduzu ....65

**Bəxtiyar Tuncay** - Qriqori Hamama və onun "Alban dilinin qrammatikasi" ....69

**MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT**

**Fəridə Quliyeva** - Hüseyn Cavid obrazı tablolarda ....72

**Fəridə Mir-Bağırzadə** - Çətən xalçaları ....76

**Əzizağa Ələkbərli** - Azərbaycan-Qırğızıstan teatr əlaqələri ....79

**İQTİSADİYYAT**

**Azər Əliyev** - Büdcə daxilolmalarında sair gəlirlər ....82

**MERİDİAN** ....84

**MÜSAHİBƏ**

**Назмин Джафарова** - На страже культурного наследия ....86

**Sərvan Kərimov** - Etnoqrafiya sahəsində ilk elmlər doktoru ....90

**TARİX, ELM VƏ ALİM**

**Şəhla Xəlilova** - Konstitusiya və Suverenlik ili ....93

**Sadıx Nəbiyev** - İlk Azərbaycan Ensiklopediyası ....95

**Nəzakət Məmmədova** - Diferensial tənliklər,
Laplas şeytanı və bir az da Şredinger pişiyi haqqında düşüncələr ....99

**Cəmil Quliyev** - Böyük maarifpərvər şəxsiyyət ....104

**Samirə Mirbağırzadə** - Ərəb-islam sivilizasiyası ....107

**Səadət Məmmədova** - Alim - elmi fəaliyyətin subyekti kimi ....111

**BİLOLOGİYA VƏ TİBB**

**Şahvələd Əliyev** - Azərbaycanda müalicəvi (tibbi) turizmin inkişafı və coğrafiyası ....114

**Aişə Süleymanova** - Dayanıqlı gələcək üçün bioyanacaq ....119

**İlahə Cəfərova** - Mikroorqanizmlərin neft məhsullarına təsiri ....122

**Fidan Ələsgərova** - Seolit mineralının müalicəvi xüsusiyyətləri ....124

**SAĞLAMLIQ** ....126





**İsa HƏBİBBƏYLİ**
*Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik*

# Böyük sənətə yüksək qiymət

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı bəzi tədbirlər haqqında"kı 22 may 2025-ci il tarixli Sərəncamı ölkəmizdə milli mədəniyyətimizin tarixi ənənələrinin yaşadılmasına, memarlıq abidələrimizin qorunub saxlanılmasına, bərpa edilməsinə göstərilən qayğının, bu böyük mədəniyyəti yaradan tarixi simaların xidmətlərinə dövlət səviyyəsində bəslənilən hörmət və ehtiramın əyani ifadəsidir.**

Möminə xatun məqbərəsinin həm də Atabəylər türbəsi adlandırılması bu möhtəşəm memarlıq əsərinin Azərbaycan dövlətçiliyi baxımından da mühüm əhəmiyyətə malik olduğunu nümayiş etdirir. XII-XIII əsrlərdə (1136-1225) fəaliyyət göstərmiş Azərbaycan Atabəyləri dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvanın sifarişi ilə böyük Azərbaycan memarı Əcəmi Naxçıvani tərəfindən məharətlə inşa edilmiş Möminə xatun türbəsi XII əsrdə Azərbaycan dövlətinin milli mədəniyyətin inkişafına göstərdiyi diqqət və qayğını, dövlət və sənətkar münasibətlərini əyani şəkildə əks etdirir. Möminə xatun türbəsinin üzərində Azərbaycanın görkəmli dövlət xadimlərinin "dünyanın ədalətli hökmdarı, əzəmətli, qalib Şəmsəddin"in (Şəmsəddin Eldənizin), "dünyanın ədalətli və ülvi hökmdarı" Atabəy Məhəmməd Cahan Pəhləvanın adlarının yazılması bu abidənin dövlətçilik baxımından əhəmiyyətli olduğunu göstərən tarixi faktlardır. Həmçinin abidənin Atabəylər sarayında dövlətçilik sahəsində də fəaliyyət göstərən Möminə xatunun şərəfinə ucaldılması da Atabəylər məqbərəsinin dövlət siyasətinin də göstəricisi olduğunu nümayiş etdirir. Nəhayət, bu möhtəşəm məqbərədə Möminə xatunla yanaşı, Şəmsəddin Eldənizin və Məhəmməd Cahan Pəhləvanın da dəfn olunması bu əzəmətli abidənin yaradıldığı dövrdə hakimiyyətdə olan Azərbaycan dövlətinin adı ilə Atabəylər türbəsi adlandırılmasına haqq qazandırır.

Bu mənada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamında ölməz memarlıq əsəri olan Möminə xatun türbəsinin dövlətçilik baxımından da əhəmiyyətli abidə kimi qiymətləndirilməsi mühüm əhəmiyyətə malikdir: "Misilsiz gözəlliyə malik türbə Azərbaycanda həmin dövrdə yüksək inkişaf etmiş mədəniyyətin və dövlətçilik ənənələrinin mövcudluğunun əyani təcəssümüdür". Akademik Ziya Bünyadovun "Azərbaycan Atabəylər dövləti" adlı

monoqrafiyasında da Möminə xatun türbəsi Atabəylər dövlətinin XII əsrdə mədəniyyət sahəsindəki böyük nailiyyətlərindən biri kimi qiymətləndirilmişdir. Bu gün, müstəqillik dövründə Prezident İlham Əliyevin "dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi" kimi Möminə xatun türbəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında xüsusi Sərəncam imzalaması, müvafiq dövlət qurumlarına tapşırıqlar verməsi və maliyyə vəsaiti ayırması müstəqil Azərbaycan dövlətinin özünün mədəni-tarixi irsinin sahibi olduğunu, milli mədəniyyəti qorumaq və yaşatmaq işinə dövlət siyasəti miqyasında yüksək münasibət bəslənilməsini əyani şəkildə nümayiş etdirir.

Prezident İlham Əliyevin mühüm siyasi-tarixi əhəmiyyətə malik olan Sərəncamında Möminə xatun məqbərəsinin "dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi" kimi təqdim olunması obyektiv reallığı əks etdirir. Bu təyinat abidələrin ənənəvi təsnifatındakı "dünya əhəmiyyətli abidələr" bölgüsündən başqa, həm də Möminə xatun türbəsinin bənzərsiz memarlıq həllinə və təkraredilməz naxışlarına, orijinal həndəsi ölçülərinə və ornamentlərinə görə dünya memarlığının nadir incilərindən biri olduğunu bir daha əks etdirir. Dövlət Sərəncamındakı "XII əsrin görkəmli Azərbaycan memarı Əcəmi Naxçıvaninin dühası ilə yaradılmış bu nadir və monumental sənət nümunəsi öz kompozisiya həllinə, kamilliyinə və zərifliyinə görə bütövlükdə islam aləminin şah əsərləri sırasında xüsusi yer tutur" - sözləri Möminə xatun məqbərəsinin dünya əhəmiyyətli abidələr cərgəsində xüsusi mövqeyə malik olduğunu nəzərə çatdırır. Qeyd etmək yerinə düşər ki, görkəmli rus sənətşünası, Rusiya İncəsənət Akademiyasının həqiqi üzvü Mixail Vladimiroviç Alpatov (1902-1986) da Möminə xatun abidəsinin dünya memarlıq sənətindəki yerinə yüksək qiymət verərək yazmışdır: "XII əsrin sonlarında Azərbaycan ustalarının görkəmli əsəri olan Naxçıvandakı Möminə Xatun məqbərəsi özünün xüsusi gözəlliyi və zərifliyi ilə seçilir. Güclü və bir qədər kobud despotizmi əks etdirən Qahirə məqbərələrindən fərqli olaraq, Şərq hökmdarının həyat yoldaşının məzarı üzərində tikilən bu abidə daha nəcib, daha zərif, daha lirikdir... Qüllə qızılı bölgüyə yaxın olan tamamlanmış çoxbucaqlı formasındadır. Hər bir tərəfin çoxtərəfli tağla bəzədilmiş öz çərçivəsi vardır. Bununla belə, çərçivələrin özləri də qüllənin çoxtərəfli formasına bənzəyən bir növ üzlüklərdən ibarətdirlər. ...Belə inkişaf etmiş forma hissinə, belə klassik kompozisiya tamlığına və icra mükəmməlliyinə həmin illərdə Mərkəzi Avropa memarlığında rast gəlinmir. Naxçıvan türbəsindən klassik Şərq ədəbiyyatının ən yaxşı əsərləri olan Firdovsinin "Şahnamə" (X-XI əsrlər) və yaxud Nizaminin "Leyli və Məcnun" (XII əsrlər) ölməz poemasında olduğu kimi insanpərvərlik nəfəsi gəlir".

Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Əbdülvahab Salamzadə də Əcəmi Naxçıvaninin yaratdığı memarlıq abidələri ilə Nizami Gəncəvinin bədii əsərləri arasında sənətkarlıq baxımından yaxınlıq olduğunu müşahidə etmiş, hətta böyük Azərbaycan şairinin ustad memarın əsərləri ilə sanki tanış olması barədə ehtimal irəli sürmüşdür: "Möminə xatun türbəsini seyr edərkən Nizaminin bu türbənin inşasından on il sonra, 1196-cı ildə tamamladığı "Yeddi gözəl" poemasındakı memar Simnar surətini yada salmamaq mümkün deyildir. Elə bil ki, Nizami bu abidənin ornamentlərini görmüş və onlardan ilhamlanaraq Simnarın məharətli ornamentlərini qələmə almışdır".

Əcəmi Naxçıvani ilə Nizami Gəncəvinin görüşməsi ehtimalını Nizami Gəncəvinin Atabəy hökmdarı Qızıl Arslanla görüşünün ərazi etibarilə Naxçıvana yaxın olan Qərbi Zəngəzurun Şəki kəndində baş verməsi



**Şəkillər ilk dəfə çap olunur**

faktı daha da qüvvətləndirir. Məum olduğu kimi, görkəmli şərqşünas alim, professor Rüstəm Əliyev Nizami Gəncəvinin Atabəy hökmdarı Qızıl Arslanla Naxçıvanın Batabat yaylağına yaxın olan Qərbi Zəngəzurun Şəki şəhərində görüşməsi haqqında əsaslı elmi mülahizələr irəli sürmüşdür. Nəriman Həsənzadə də "Atabəylər" pyesində şair fəhmi ilə, Atabəylər sarayına yaxın olan bu iki qüdrətli sənətkarların görüşməsi ehtimalını daha da yaxınlaşdırmışdır. Tanınmış rus rəssamı A.Bondarenko isə Nizami Gəncəvinin və Əcəmi Naxçıvaninin görüşünə həsr olunmuş tablo yaratmış, fonda Mömінə xatun məqbərəsinin görüntülərini canlandırmışdır, Əlbəttə, bunlar Azərbaycanın görkəmli simalarının görüşməsinə dair ehtimallardır və əsaslı tədqiqata ehtiyacı vardır. Lakin böyük sənətkarların görüşüb-görüşməməsindən asılı olmayaraq Nizami Gəncəvi və Əcəmi Naxçıvani Azərbaycan intibah mədəniyyətinin qoşa qanadlarıdır.

Bütün bunlara görə Əcəmi Naxçıvaninin 1186-cı ildə Naxçıvan şəhərində ucaltdığı Mömінə xatun türbəsini Azərbaycan memarlığının daş "Xəmsə"si adlandırmaq olar. Dünya şöhrətli Nizami Gəncəvinin yaratdığı məşhur "Xəmsə" Şərq ədəbiyyatında ondan sonra yazılmış "Xəmsə"lər sırasında Baş Xəmsə olduğu kimi, Əcəmi Əbubəkr oğlu Naxçıvaninin Mömінə xatun məqbərəsi - Atabəylər türbəsi də Azərbaycan me-



marlıq sənətinin möhtəşəm Daş Xəmsəsidir. Möminə xatun məqbərəsində tətbiq edilmiş simmetrik tağlar sistemi Avropa memarlığından bir əsr qabaq Əcəmi Naxçıvani tərəfindən kəşf edilmişdir. Möminə xatun türbəsi, Yusif Küseyir oğlu gümbəzi və Cümə məscidi kimi nadir memarlıq abidələri yaratmış Əcəmi Naxçıvani Azərbaycan memarlıq məktəbinin yaradıcısı kimi qəbul olunur. Onun adı ilə bağlı olan memarlıq sənəti üsullarından Türkiyə, İran, Orta Asiya memarlığında və hətta Hindistandakı məşhur Tac Mahal sarayının inşasında yaradıcı şəkildə istifadə edilmişdir.

Nəhayət, Möminə xatun türbəsinin XII əsrdə Azərbaycan qadınının - Ananın şərəfinə ucaldılan abidə olması da bu əzəmətli türbənin orta əsrlərin ən böyük mədəni-siyasi hadisələrindən biri olduğunu əks etdirir. Bütün hallarda nəinki Şərq ölkələrində, türk-müsəlman dünyasında, hətta həmin dövrün Avropa dövlətlərində də Qadına - Anaya Möminə xatun məqbərəsi səviyyəsində ucaldılmış memarlıq abidəsi yoxdur. Möminə xatun türbəsi XII əsrdə Azərbaycan qadınına ucaldılmış nadir memarlıq abidəsidir. Bu, ölkəmizdə hələ orta əsrlərdən etibarən Qadına və Anaya bəslənilən xüsusi məhəbbət və ehtiramın əyani ifadəsidir. Möminə xatun məqbərəsi Azərbaycan qadınlığının möhtəşəm məbədidir. Möminə xatun abidəsi Azərbaycan dövlətçiliyində qadınların yüksək səviyyədə təmsil olunmasına, böyük bacarıq göstərməsinə və ehtiram qazanmasına nümunədir. Bu gün müstəqil Azərbaycan dövlətində qadınların yüksək dövlət məqamlarında səmərəli fəaliyyət göstərməsi Atabəylər hakimiyyətində Möminə xatunla başlanan dövlətçilik ənənəsinin uğurlu davamıdır.

Ən nəhayət, Möminə xatun türbəsi möhtəşəm mədəniyyət abidəsi olmaqla bərabər, Azərbaycan elminin də mühüm nailiyyətidir. Hündürlüyü 26 metr olan, 10 guşəli Möminə xatun məqbərəsinin dayanıqlığının təmin edilməsində riyazi qiymətləndirmədən və həndəsi simmetriyadan məharətlə istifadə olunmuşdur. Abidənin kompozisiyası dövrün memarlıq elminin prinsipləri əsasında formalaşdırılmışdır. Möminə xatun məqbərəsinin səthindəki firuzəyi kaşı bəzəklər və kufi yazıları Azərbaycan təsviri sənətinin və xəttatlıq sənətinin mühüm nailiyyətidir. Məqbərənin tikilməsi üçün istifadə edilmiş xüsusi tərkibə malik olan kərpic və

gəc növləri inşaat texnologiyası ilə kimya elminin sintezi əsasında alınmışdır. Deməli, Möminə xatun məqbərəsinin yaradıcısı Əcəmi Əbubəkr oğlu Naxçıvani dərin və yüksək elmi biliklərə malik olan qüdrətli alim-memar olmuşdur.

Azərbaycan ədəbiyyatında Əcəmi Naxçıvaninin həyatı və sənəti müxtəlif janrlarda yazılmış bədii əsərlərin mövzusunu təşkil etmişdir. Xalq şairi Nəriman Həsənzadənin "Atabəylər" dramı Əcəmi Naxçıvaninin sənətinə ucaldılmış böyük sənət abidəsidir. Xalq yazıçısı Hüseyn İbrahimovun "Əsrin onda biri" tarixi romanında Əcəmi Naxçıvaninin taleyi və sənəti yüksək bədii boyalarla işıqlandırılmışdır. Tanınmış yazıçı Yunus Oğuz da müstəqillik dövründə yazdığı "Atabəy Eldəniz" tarixi romanında Əcəmi Naxçıvaninin hərtərəfli işlənmiş bədii obrazını yaratmışdır.

Bundan başqa, Azərbaycan elmində hələ sovet hakimiyyəti illərindən Əcəmi Naxçıvani və Möminə xatun türbəsi haqqında müəyyən tədqiqatlar aparılmışdır. Akademik Ziya Bünyadovun "Azərbaycan Atabəylər dövləti" adlı monoqrafiyasında Əcəmi Naxçıvani və onun ucaltlığı memarlıq abidələrindən də bəhs olunmuşdur. Akademiyanın müxbir üzvləri Əbdülvahab Salamzadə, Xudu Məmmədov, Cəfər Qiyasi, memarlıq üzrə fəlsəfə doktoru, dosent Qadir Əliyev və başqaları Əcəmi Naxçıvani və Möminə xatun türbəsi haqqında geniş araşdırmalar aparmış, bu möhtəşəm sənət abidəsini elmi cəhətdən yüksək dəyərləndirmişlər. Bununla belə, Əbdülvahab Salamzadənin Əcəmi Naxçıvaniyə həsr edilmiş tədqiqatlarında Möminə xatun türbəsinə elmi cəhətdən əsaslandırılmış qiymət verilməklə bərabər, həm də bu böyük sənət abidəsinin ayrıca tədqiqata layiq olduğu da qeyd edilmişdir: "Türbənin bütün səthləri rəssamlıqla memarlığın sintezi şəklində təzahür edir. Möminə xatun türbəsi səthlərinin və bucaqlarının kitabə və həndəsi ornamentlərdən olan bəzəyi və gəc üzərindəki nəbati təsvirləri öz-özlüyündə monoqrafik bir əsərin mövzusu ola bilər".

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev 17 oktyabr 1999-cu ildə Möminə xatun məqbərəsini ziyarət etmiş, türbənin daxilində yaradılmış Atabəylər muzeyinin işi ilə tanış olmuşdur. Həmin tarixi görüşdə Azərbaycan Respublikasının gələcək Prezidenti İlham Əliyev də iştirak etmişdir. Əməkdar mədəniyyət işçisi Arif Qədimov Atabəylər muzeyindəki Azərbaycan dövlətçiliyinin tarixi səhifələrini əks etdirən nadir eksponatlar barədə Ulu öndərin qarşısında məlumat vermişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan memarlığının şah əsəri olan Möminə xatun məqbərəsinin qorunması, ərtaf ərazinin abadlaşdırılması və Atabəylər muzeyinin daha da zənginləşdirilməsi, türbənin tarixinin, memarlıq xüsusiyyətlərinin hərtərəfli şəkildə araşdırılıb öyrənilməsi haqqında tapşırıqlar vermişdir.

Ulu öndər 2002-ci ilin avqust ayının 9-da Azərbaycan Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsinə həsr olunmuş yığıncaqdakı nitqində bu fikri bir daha diqqət mərkəzinə çəkərək demişdir: "Mən burada tarix haqqında çox danışıram. Tarix, mədəniyyət, tarixi abidələr. memarlıq abidələri... Məsələn, Naxçıvanın ərazisini götürsək, bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri var. ...Bu tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqımın həm tarixini, həm də mədəniyyətini, adət-ənənələrini göstərən abidələrdir. Mən indi desəm ki, Möminə xatın türbəsi haqqında geniş təsvirli, müasir poliqrafiya səviyyəsində hazırlanmış alborn, onun haqqında tarixi mənbələr və başqa şeylər toplusu varmı? ...Ayrı-ayrı bukletlər var, broşürlər var. Ancaq elə bircə bu abidə

böyük bir kitaba bərabərdir. ...Həm memarlıq xüsusiyyətləri, həm mühəndis işləri, inşaat işləri, tikinti materialları, abidənin yaranması tarixi və sair, onun hər bir fraqmenti müasir poliqrafiya üsulundan istifadə edilərək albomda əks olunsa, bunun özü elə Azərbaycan mədəniyyətinin nə qədər zəngin olduğunu göstərəcəkdir".

Dövlət əhəmiyyətli bu çağırışı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı bəzi tədbirlər haqqında" imzaladığı Sərəncamı bir daha gündəmə gətirir. Azərbaycan alimləri Möminə xatun məqbərəsi haqqında müstəqil dövlətçilik və azərbaycançılıq ideyaları işığında, müasir tədqiqatlar əsasında yeni tarixi dövrün yüksək tələblərə cavab verən monoqrafik əsərlər və elmi-populyar kitablar yazıb xalqımıza çatdırmağa borcludurlar.

Memar Əcəmi Naxçıvaninin adı ölkəmizdə əbədiləşdirilmişdir. Dahi memarın adına Bakı şəhərində metro stansiyası, Bakıda və Naxçıvanda küçələr vardır. Əcəmi Naxçıvaninin Naxçıvan şəhərində ucaldılmış büstü mükəmməl sənət əsəridir. Bunlar Əcəmi Naxçıvaninin Möminə xatun türbəsinin baş tağında küfi xətlə həkk etdiyi "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar" - sözlərində ifadə olunan sənətin əbədiyyəti haqqındakı müdrik fikirlərin nə qədər böyük uzaqgörənliklə deyildiyini bir daha sübut edir.

Qeyd edilənlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konstruksiyası ilə bağlı tədbirlər haqqında"kı 22 may 2025-ci il tarixli Sərəncamında XII əsr Azərbaycan və Şərq memarlığının nadir nümunəsi olan Möminə xatun məqbərəsinin "islam aləminin şah əsərləri sırasında fəxri yer tutan monumental sənət nümunəsi" və "xalqımızın milli sərvəti" kimi qiymətləndirilməsinin siyasi-ideoloji baxımdan olduğu kimi, mədəni-tarixi və elmi cəhətdən də yüksək səviyyədə dəyərləndirilməsinin əməli ifadəsi olduğunu nümayiş etdirir.

Beləliklə, həm siyasi-tarixi əhəmiyyətinə və həm də nadir sənət əsəri kimi dünya memarlığı sahəsindəki xüsusi yerinə və qiymətinə görə özünəməxsus statusa malik olan Möminə xatun memarlıq abidəsinin dövlət səviyyəsində qorunması, bərpa edilməsi, konservasiya olunması haqqındakı mühüm əhəmiyyətə malik olan Sərəncamı müstəqil Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqımızın tarixi-mədəni irsinə verdiyi böyük dəyərin və göstərdiyi xüsusi qayğının əməli ifadəsidir. Müzəffər Ali Baş Komandanın Sərəncamı ölkəmizin və xalqımızın tarixində xüsusi yer tutmuş Azərbaycan Atabəyləri dövlətinin fəaliyyətinin, memarlıqda məktəb yaratmış Əcəmi Əbubəkr oğlu Naxçıvaninin tərcümeyi-halı və xidmətlərinin, Möminə xatun məqbərəsinin memarlıq xüsusiyyətlərinin daha dərindən və əsaslı şəkildə araşdırılıb tədqiq olunması sahəsində geniş perspektivlər açır. Heç şübhəsiz, bütün bunlar Möminə xatun məqbərəsinin bərpası və konservasiyası ilə məşğul olan təşkilatlarla bərabər, Atabəylər dövlətinin mədəniyyət siyasətinin möhtəşəm təcəssümü olan Möminə xatun abidəsinin tədqiqi ilə məşğul olacaq elmi qurumları da səfərbər edəcəkdir. Azərbaycan Respublikasının elm və mədəniyyət işçiləri, yaradıcı ziyalıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ölkəmizdə elmin, ədəbiyyatın və mədəniyyətin inkişafına göstərdiyi yüksək qayğıya görə dərin minnətdarlığımızı bildiririk. ●



**Əsmər ƏLİYEVA**
*AMEA Rəyasət Heyəti Aparatının Sənədlərlə iş və protokol şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru*

# AMEA-nın müasir inkişaf prioritetləri

**Azərbaycan Milli Elmlər Akademiyası ölkənin elmi potensialının inkişafında mühüm rol oynayan əsas və aparıcı qurumlardan biridir. AMEA-nın tabeliyində olan müəssisələr ölkədə fundamental elmi araşdırmaların mərkəzidir.**

1945-ci ildə Azərbaycan SSR Xalq Komissarları Sovetinin "Azərbaycan SSR Elmlər Akademiyasının yaradılması haqqında" 27 mart 1945-ci il tarixli, 316 saylı qərarı ilə ölkəmizdə Elmlər Akademiyasının təsis edilməsi rəsmiləşdirilmiş, Ümumi Yığıncaqda Azərbaycan Elmlər Akademiyasının ilk Nizamnaməsi qəbul olunmuşdur.

AMEA-nın yaradılması Azərbaycanın elmi potensialının sistemli şəkildə inkişaf etdirilməsi üçün mühüm tarixi hadisə olmuşdur.

AMEA fəaliyyət göstərdiyi ötən müddət ərzində inkişafla yanaşı, staqnasiya mərhələləri keçmişdir. Akademiyanın təşkilati strukturunun formalaşdırılması, elmi istiqamətlərin müəyyən edilməsi və yüksəkixtisaslı kadr potensialının yaradılması onun ilk dövrlərində əsas prioritetlərdən olmuşdur. Sonrakı illərdə Azərbaycan elminin inkişafı sürətlənmiş, yeni elmi məktəblər yaranmış, tədqiqat müəssisələri formalaşmış və Akademiya ölkə elminin aparıcı mərkəzinə çevrilmişdir. Lakin müəyyən dövrlərdə ictimai-siyasi hadisələrin təsiri altında Akademiyanın fəaliyyətində çətinliklər və tənəzzül müşahidə olunmuşdur. Bütün bunlara baxmayaraq, bu gün Azərbaycan Milli Elmlər Akademiyası akademik İsa Həbibbəylinin rəhbərliyi altında uğurla inkişaf etməkdə, müasir elmi tələblərə uyğun şəkildə fəaliyyətini davam etdirməkdədir.

Akademik İ.Həbibbəyli 26 oktyabr 2022-ci il tarixində Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi Yığıncağında AMEA-nın prezidenti seçilmiş və Azərbaycan Respublikasının Prezidenti tərəfindən bu vəzifəyə təsdiq olunmuşdur. Bu vəzifəyə qədər akademik 2013-2019-cu illərdə AMEA-nın vitse-prezidenti, 2019-2020-ci illərdə birinci vitse-prezidenti, 2020-2022-ci illərdə isə yenidən vitse-prezidenti seçilmişdir.

Akademiya İ.Həbibbəylinin rəhbərliyi ilə yeni dövrə qədəm qoymuş, onun təşəbbüsü ilə bir sıra islahatlar həyata keçirilməklə yeni hədəflər müəyyənləşdirilmişdir. Müasir dövrün çağırışlarına cavab verən bu islahatları aşağıdakı kimi sistemləşdirmək olar:

- AMEA-nın modernləşdirilməsi və struktur islahatlarının aparılması;
- İdarəetmə sisteminin optimallaşdırılması;
- Elmi tədqiqatların səmərəliliyinin artırılması və beynəlxalq səviyyədə inkişafı;



- Azərbaycan Respublikasının milli prioritetlərinə uyğun olaraq AMEA-nın strateji vəzifələrinin müəyyənləşdirilməsi;
- Gənc alimlərin dəstəklənməsi və elmi kadr hazırlığının gücləndirilməsi;
- Beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi və Azərbaycan elminin qlobal elm sisteminə inteqrasiyası;
- "Elektron Akademiya" hərəkatının inkişaf etdirilməsi və rəqəmsal texnologiyaların tətbiqi.

AMEA-nın modernləşdirilməsi və struktur islahatları istiqamətində atılan ən mühüm ilkin addımlardan biri Azərbaycan Milli Elmlər Akademiyasının yeni Nizamnaməsinin qəbul edilməsi ilə bağlı olmuşdur. Belə ki, akademik İ.Həbibbəyli 25 oktyabr 2022-ci ildə AMEA-nın Ümumi yığıncağında gündəliyə qoyulmuş "AMEA-nın yeni Nizamnaməsinin təsdiq edilməsi haqqında" məsələ ilə bağlı geniş çıxış etmiş, bu çərçivədə AMEA-nın əvvəlki Nizamnamələrinin tarixini təhlil edərək hazırlanmış yeni Nizamnamənin yenilikləri barədə ətraflı məlumat vermişdir. Həmçinin, Nizamnamənin bu elmi qurumun və ümumiyyətlə, elmin fəaliyyətini tənzimləyən və istiqamətləndirən mühüm dövlət sənədi olduğunu vurğulamışdır.

Akademik İ.Həbibbəylinin rəhbərliyi ilə AMEA-da hazırlanmış sözügedən yeni Nizamnamə 3 noyabr 2023-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmişdir. İ.Həbibbəyli bildirmişdir: "Yeni Nizamnamə Akademiyada yenilənmə proseslərinin və islahatların daha da məqsədyönlü şəkildə həyata keçirilməsinə hüquqi cəhətdən təminat verir və müasir dövrün tələbləri əsasında hərtərəfli inkişaf üçün geniş perspektivlər açır". *("Azərbaycanın elm məbədi və simaları - Azərbaycan Milli Elmlər Akademiyası-80". İsa Həbibbəyli, 5 fevral 2025-ci il, https://525.az/news/287157-azerbaycanin-elm-mebedi-ve-simalari--azerbaycan-milli-elmler-akademiyasi--80)*

AMEA-da aparılan struktur islahatlarının əsas hədəfi fəaliyyətin daha səmərəli, şəffaf və müasir tələblərə uyğun şəkildə qurulmasıdır. Akademik İ.Həbibbəyli, Akademiyada həyata keçirilən struktur islahatlarına xüsusi diqqət yetirmiş və bu çərçivədə müasir dövrün tələblərinə uyğun yeni şöbələrin yaradılmasını təmin etmişdir. Bu prosesdə AMEA-da paralel fəaliyyət göstərən müəssisələr və şöbələr birləşdirilmiş, oxşar sahələrdəki şöbələr, sektorlar və laboratoriyalar isə ləğv edilmişdir.

Bu gün AMEA-nın idarəetmə sistemi müasir dövrün tələblərinə uyğun olaraq yenilənmiş, həmçinin beynəlxalq təcrübədən faydalanmaqla daha effektiv bir struktur formalaşdırılmışdır. Akademik İ.Həbibbəyli qeyd etmişdir ki, "Hazırda müasir dövrün çağırışları əsasında Akademiyanın ayrı-ayrı struktur bölmələrinin yenidən formalaşdırılması üçün də zəruri islahatlar həyata keçirilir. Yeni tarixi dövrün tələblərinə uyğun olaraq bəşəri dəyərlərə və ümummilli maraqlara xidmət edən elmi istiqamətlərin müəyyən edilməsi və həyata keçirilməsi, struktur bölmələrin fəaliyyətinin yeniləşdirilməsi sahəsində atılan addımlar

Azərbaycan elminin ölkəmizdə yeni cəmiyyət quruculuğundakı rolunun daha da artırılmasına xidmət edir." *("Azərbaycanın elm məbədi və simaları - Azərbaycan Milli Elmlər Akademiyası-80". İsa Həbibbəyli, 5 fevral 2025-ci il, https://525.az/news/287157-azerbaycanin-elm-mebedi-ve-simalari--azerbaycan-milli-elmler-akademiyasi--80)*

AMEA-nın idarəetmə sisteminin optimallaşdırılması, fəaliyyətin daha effektiv, çevik və müasir tələblərə uyğun qurulması ilə bağlı görülmüş tədbirlər arasında elektron sənəd dövriyyəsinə keçid xüsusi önəm daşıyır. Belə ki, "Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" Azərbaycan Respublikasının Prezidentinin 1 avqust 2023-cü il tarixli Fərmanına əsasən, Elektron Hökumət İnformasiya Sisteminin infrastrukturunda dövlət orqanlarının (qurumlarının) elektron sənəd dövriyyəsi sistemləri arasında real vaxt rejimində və təhlükəsiz qaydada sənəd mübadiləsinin aparılması ilə bağlı inteqrasiyanın, eləcə də sənədlərin hərəkəti üzrə uçotun həyata keçirilməsini təmin edən Rəqəmsal Sənəd Dövriyyəsi altsisteminin yaradılması nəzərdə tutulmuş, bununla bağlı müvafiq dövlət orqanlarına aidiyyəti tapşırıqlar verilmişdir.

Fərmanın icrası məqsədilə AMEA-nın Rəyasət Heyətinin 11 sentyabr 2023-cü il və 9 iyul 2024-cü il tarixlərində qəbul olunan qərarlarına əsasən, AMEA-da elektron sənəd dövriyyəsinə keçid və təlimlərin təşkili məqsədilə müvafiq işlər görülmüşdür. Rəyasət Heyəti Aparatı və tabeliyindəki elmi-tədqiqat institutları, həmçinin regional elmi bölmə və mərkəzlərdə elektron sənəd dövriyyəsi sisteminə keçid prosesi uğurla tamamlanmış və 22 iyul 2024-cü ildən etibarən sənəd mübadiləsi rəqəmsal altsistem üzərindən aparılmağa başlanmışdır.

Akademik İ.Həbibbəyli elmi tədqiqatların səmərəliliyinin artırılmasını və onların beynəlxalq səviyyədə inkişafını prioritet istiqamətlərdən biri kimi müəyyən etmişdir. O, islahatlar dövrünün yeni mərhələsini dəyərləndirərək, fundamental tədqiqatların Azərbaycanın milli prioritetlərinə, azərbaycançılıq ideologiyasına, müstəqil dövlətçilik ideallarına və prinsiplərinə uyğun şəkildə daha məqsədyönlü istiqamətləndirilməsinin vacibliyini qeyd etmişdir. Belə ki, hazırda bu yanaşma elmi fəaliyyətin ölkənin strateji inkişaf hədəfləri ilə uyğunlaşdırılmasını təmin edir. (AMEA-nın 2 №li Ümumi Yığıncağı, 29 Noyabr 2023-cü il)

Akademik İ.Həbibbəylinin innovativ və yaradıcı yanaşması ictimai və humanitar elmlərin inkişafına da mühüm töhfə vermişdir. O, elmi-nəzəri problemlərin tədqiqinə, milli-mənəvi dəyərlərin qorunmasına, eləcə də fundamental araşdırmaların və milli maraqlara xidmət edən elmi fəaliyyətin davamlılığının təmin edilməsinə xüsusi önəm vermişdir: "İctimai və humanitar elmlər sahəsində ciddi elmi-nəzəri problemlərin araşdırılıb öyrənilməsinin davam etdirilməsi ilə paralel şəkildə xalqımızın çoxəsrlik tarixi inkişaf yolunda görkəmli xidmətləri olmuş tarixi şəxsiyyətlərin, xalq qəhrəmanlarının, yazıçı və şairlərin, elm xadimlərinin həyatı və mübarizə yollarına, böyük xidmətlərinə həsr olunmuş, müstəqillik qazanmış Azərbaycan xalqının milli maraqlarına və dövlətçilik mənafelərimizə cavab verən elmi tədqiqat işlərinin aparılmasına, monoqrafiyaların çap edilməsinə, dissertasiyaların müdafiə olunmasına xüsusi diqqət yetirilməli, geniş meydan açılmalıdır. Son dövrlər dünya ictimai və humanitar elmi düşüncəsinin yeni çağırışları və müstəqillik qazanmış ölkələrin ümumilli idealları da hər bir xalqın öz tarixi və ədəbi-tarixi şəxsiyyətlərinin çoxcəhətli fəaliyyətlərinin tədqiqinə xüsusi diqqət yetirilməsinə, onlar haqqında ciddi elmi əsaslarla yazılmış əsərlərin xalqımıza çatdırıl-

masına böyük zərurət doğurmuşdur." (AMEA Rəyasət Heyətinin iclası, 23 fevral 2023-cü il)

Akademik İ.Həbibbəyli çıxışlarında elmi tədqiqatların effektivliyinin artırılması və mühüm nəticələrin əldə olunması məqsədilə beynəlxalq təcrübədən faydalanmanın əhəmiyyətini vurğulamış, bu istiqamətdə də müvafiq tövsiyələr vermişdir: "Dünyada fərdi elmi tədqiqat planlarından və elmi tədqiqat fəaliyyəti ilə yanaşı, daha böyük nailiyyətləri dünya miqyasına, dünyəvi dəyərlər səviyyəsinə qalxa bilən mühüm elmi nəticələri əldə etmək üçün həm də kollektiv, qrup laboratoriya, bölmə, institutlararası, ölkələrarası, kollektiv qrupların, kollektiv yaradıcı heyətlərin müəyyən olunması və çalışması vacib şərtlərdən biridir." (AMEA-nın 2 №li Ümumi Yığıncağı, 29 Noyabr 2023-cü il)

Elmi tədqiqatların dövlət quruculuğu proseslərinə daha da yaxınlaşdırılması istiqamətində son dövrdə həyata keçirilən islahatlar akademik İ.Həbibbəyli tərəfindən bu sahədə atılmış ən uğurlu addım kimi qiymətləndirilir. O, eyni zamanda, elmin ölkəmizin inkişafına verdiyi töhfənin əhəmiyyətini vurğulayaraq, bu prosesin Azərbaycanın sosial, iqtisadi və mədəni tərəqqisinə xidmət etməsinə ünvanlandığını bildirmişdir.

"Azərbaycançılıq ideyasının, Müstəqil Azərbaycan Dövlətinin dövlət idealogiyası səviyyəsində təsbit olunması Azərbaycan xalqının Ümummilli lideri, Heydər Əliyevin Müstəqil Azərbaycan Dövləti, Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biridir. Məhz azərbaycançılıq ideyası Azərbaycanda milli birliyə, möhtəşəm həmrəyliyə nail olmağın strateji formuludur. Azərbaycançılıq anlayışı onun idealogiyasına qarşı özündə Azərbaycan dili, Azərbaycan xalqı, Müstəqil Azərbaycan Dövləti anlayışlarını birləşdirir. Bu, Azərbaycan dili, Azərbaycan xalqı, Azərbaycan Dövləti anlayışları Ulu Öndər Heydər Əliyevin dahiyanə kəşfidir." (AMEA-da "Yeni tarixi dövr və milli ideya" haqqında II müzakirə, 2 Aprel 2024-cü il)

Bu istiqamətdə AMEA-da bir sıra mühüm işlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Yeni tarixi dövr və milli ideya konsepsiyası və qarşıda duran vəzifələr" mövzusunda 10 yanvar 2024-cü il tarixindəki çıxışından sonra, AMEA-da bu konsepsiya ilə əlaqədar müzakirələr təşkil edilmişdir. 2024-cü ilin 16 yanvar, 2 aprel və 9 iyul tarixlərində alimlərlə keçirilən müzakirələrdə, qarşıya qoyulan vəzifələrin icrası və elmi fəaliyyətin yeni istiqamətləri barədə fikir mübadiləsi aparılmışdır. Bu müzakirələrdə əsas arqument kimi, Azərbaycanın elmi inkişafının milli ideya ilə əlaqələndirilməsi məsələsi diqqət mərkəzində olmuşdur. "AMEA öz işini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təsdiq etdiyi İnkişaf Strategiyası və milli prioritetlər əsasında qurmalıdır. Şübhəsiz ki, ölkəmizin İnkişaf Strategiyası və milli prioritetlərə cavab verən, ona istiqamətlənən elmi proseslərimiz, elmi tədqiqatlarımız həm də dünya elminin, bəşəri elmin də müddəalarını, o istiqamətdə gedən prosesləri, dünya elminə inteqrasiyanı da əsas götürməkdədir." (AMEA-da "Yeni tarixi dövr və milli ideya" haqqında II müzakirə, 2 Aprel 2024-cü il)

Akademik İ.Həbibbəylinin islahatlarının əsas hədəflərindən biri də gənc alimlərin dəstəklənməsi və elmi kadr hazırlığının gücləndirilməsidir. AMEA-nın strukturunun yenilənməsi, eləcə də elmi fəaliyyətin beynəlxalq standartlara uyğun və innovativ istiqamətə yönəldilməsi ilə bağlı həyata keçirilən bütün bu məqsədyönlü tədbirlər, eyni zamanda, gənc alimlərə yeni imkanlar yaratmaq, elmi və tətbiqi tədqiqatların inkişafını dəstəkləmək, həmçinin Azərbaycanın elmini dünya səviyyəsində tanıtmaq üçün mühüm addım-

lardır. Belə ki, bu məqsədlə "İlin Gənc Alimi" mükafatı təsis olunmuş, Gənc Alimlər və Mütəxəssislər Şurasının "Gənc tədqiqatçı" elmi-tədqiqat jurnalı çap olunmağa başlanılmış, beynəlxalq elmi mühitlə tanış olmaq və təcrübə mübadiləsi aparmaq imkanı yaratmaq üçün gənc alimlərin bir sıra beynəlxalq tədbirlərdə iştirak etmələrinə imkan yaradılmışdır.

Beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi və Azərbaycan elminin qlobal elm sisteminə inteqrasiyası sahəsində son dövrlər mühüm və uğurlu addımlar atılmışdır. Beynəlxalq elmi əlaqələr əhəmiyyətli dərəcədə genişlənmiş, AMEA bir sıra mötəbər təşkilatlara -Asiya Elmlər Akademiyaları və Cəmiyyətləri Assosiasiyası (AASSA), Avrasiya Universitetlər Birliyi (EURAS), Beynəlxalq Elmlər Akademiyaları Assosiasiyası (BEAA) və Beynəlxalq Elmi Şuraya (ISC) üzv qəbul edilərək beynəlxalq nüfuzunu artırmış və beləliklə, qlobal elmi əməkdaşlıqların inkişafına mühüm töhfə vermişdir. AMEA ilə Çin Xalq Respublikasının Honkonq şəhərində yerləşən Kore Akademiyası (Core Academy) arasında əlaqələr yaradılmış, akademik İsa Həbibbəyli və akademik Dilqəm Tağıyev bu təşkilatın həqiqi üzvləri seçilmişlər.

17 Noyabr 2023-cü il tarixdə "Nobel mükafatına aparan yolun dərsləri: Mif, reallıqlar, uğurlar və çağırışlar" mövzusunda keçirilmiş beynəlxalq konfransda -İ.Həbibbəyli beynəlxalq elmi konfransda Nobel mükafatının elmi dəyəri və qlobal əhəmiyyətini vurğulayaraq, onun əsas məqsədinin cəmiyyətə elmi və mənəvi töhfə vermək olduğunu qeyd etmişdir. Azərbaycan elminin Nobel mükafatına layiq görülmüş elmi proseslərə inteqrasiya edilməsini müzakirə edərək, bu istiqamətdə zəruri təşviqin artırılmasının və yeni elmi nəslin yetişdirilməsinin vacibliyini vurğulamışdır. Həmçinin elmi əməkdaşlığın və komanda işinin müasir dövrdə fundamental rol oynadığını qeyd etmişdir: "Nobel mükafatı istiqamətində dünya təcrübəsini yeni nəsillərə çatdırmaq, Nobel mükafatına gedən yolun dərslərini, çətinliklərini, maneələrini, bəzən anlaşılmazlıqlarını, uğurlarını, çağırışlarını bizim auditoriyamıza, elmi mühitimizə, xüsusən gənc alimlərimizə çatdırmaq, Azərbaycan reallıqları ətrafında fikir mübadiləsi etmək və yeni nəsillərdə, Azərbaycan cəmiyyətində də Nobel mükafatına doğru addımların atılmasını zaman-zaman təşviq etməkdən ibarətdir." (Nobel Mükafatı Laureatı Aziz Sancarla görüşə həsr olunmuş AMEA-nın Ümumi Yığıncağının xüsusi iclasında açılış nitqi, 3 İyun 2024-cü il)

Son dövrdə AMEA-da elektron elmin inkişafı məqsədilə "Elektron Akademiya" hərəkatı başlanmış və bu çərçivədə Rəyasət Heyəti Aparatı və elmi tədqiqat müəssisələrində müvafiq şöbələr yaradılmışdır. Onların əsas funksiyalarına AMEA əməkdaşlarının fəaliyyətinin Vikipediya Virtual Ensiklopediyasında gücləndirilməsi, institutların, elmi jurnalların, saytların monitorinqi və təkmilləşdirilməsi, elmmetrik bazalarda təmsilçiliyin artırılması və elmmetrik araşdırmalar daxildir.

Hərəkat çərçivəsində elmi müəssisələrin rəqəmsal mühitdə təmsilçiliyinin genişləndirilməsi, elmi nəşrlərin identifikasiyası və indeksləşdirilməsi, informasiya resurslarının inkişafı, sosial platformalarda fəaliyyətin optimallaşdırılması və beynəlxalq elmmetrik bazalara inteqrasiya istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir. Bu təşəbbüs AMEA-da elmi fəaliyyətin rəqəmsallaşdırılmasını və beynəlxalq elmmetrik bazalarda institutların təmsilçiliyini gücləndirmək məqsədi daşıyır.

Beləliklə, Azərbaycan Milli Elmlər Akademiyası yeniləşmə və islahatlar mərhələsinin açdığı yollarda irəliyə doğru inkişaf etməkdə davam edir.



**Məmməd SADIQOV**
*AR ETN akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu, coğrafiya üzrə fəlsəfə doktoru, dosent*

# Elm dünyasının zirvəsində

**Görkəmli alim və elm təşkilatçısı, akademik Zahid Xəlilov 1911-ci ildə Tiflisdə anadan olmuşdur. Onun nəsil - nəcabəti əslən Borçalıdandır. O, 1929-cu ildə Türk Pedaqoji Texnikumunu bitirib elə həmin il də Bakıya köçüb sənədlərini Azərbaycan Dövlət Universitetinin riyaziyyat şöbəsinə verir və oraya da daxil olur. O zamanlar universitetdə Azərbaycanda riyaziyyat tədrisinin əsasını qoyan və Peterburq Universitetinin yetirməsi sayılan Məmmədbəy Rəşidbəy oğlu Əfəndiyev Zahid Xəlilovun riyaziyyatla məşğul olmağına qayğı və diqqət yetirmişdir. Z.İ.Xəlilov 1932-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirib Tbilisiyə qayıdır və həmin ildən 1940-cı ilə qədər Tbilisi Dəmir yolu Nəqliyyatı Mühəndislər İnstitutunda dosent vəzifəsində işləyir.**

Tbilisi Universitetində və Gürcüstan Elmlər Akademiyasının Riyaziyyat İnstitutunda SSRİ, İtaliya, Almaniya və digər ölkələrdə təhsil alıb, fizika-riyaziyyat elmlər doktoru elmi dərəcəsini almış dünya şöhrətli akademik Nikolay İvanoviç Musxelişvili (Dünya Riyaziyyatçılar Məktəbinin sədri olmuş), professor Razmadze (Gürcüstan EA-nın Riyaziyyat İnstitutu onun adını daşıyır) kimi alimlər çalışırdı.

Belə elmi mühitə düşmək üçün Zahid müəllim uzun müddət yorulmadan, böyük həvəslə riyaziyyat, mexanika və fizikanın müxtəlif sahələrini əsl tədqiqatçı kimi öyrənir. Şübhəsiz ki, bu zəhmət, bu həvəs və bu hazırlığa sözün əsl mənasında Zahid Xəlilov kimi dahilər dözə bilərdi.

1937-ci ildə Z.İ.Xəlilov Tbilisidə Riyaziyyat İnstitutunun aspiranturasına daxil olaraq Gürcüstan riyaziyyatçılarının mühitinə düşdü. Onun ilk elmi rəhbəri görkəmli alim, professor Stefan Berqman olmuşdur. Onun rəhbərliyi altında mexanikanın ən böyük tətbiqi sahələrini araşdıraraq yeni elmi nəticələr əldə etmişdir. Stefan Berqman Amerikaya köçdükdən sonra Z.İ.Xəlilovun elmi rəhbəri akademik N.İ.Musxelişvili oldu.

Z.İ.Xəlilov aspirantura dövründə Gürcüstanın görkəmli alimlərinin, xüsusilə akademiklərdən N.İ.Musxelişvilinin və İ.N.Vekuanın böyük hörmətini qazandı, onların gözü qarşısında bir azərbaycanlı mütəxəssisi də riyaziyyat və mexanika dünyasına daxil oldu.

1940-ci ildə Tbilisidə Z.İ.Xəlilov "Kleb məsələsi və onun ümumiləşməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edib alimlik dərəcəsi alır və həmin ildə də Azərbaycan

Dövlət Universitetində işə dəvət olunur. ADU-da bir müddət dərs dedikdən sonra 1942-ci ilin yanvar ayında SSRİ EA-nın Azərbaycandakı filialının fizika sektoruna işə dəvət olunur (o zamanlar AEA yaranmamışdı, SSRİ EA-nın filialı fəaliyyət göstərirdi ki, orada da riyaziyyat sektoru yox idi). 1942-ci ilin aprel ayına qədər bu sektorun yeganə riyaziyyatçısı kimi işləyərək öz ətrafına bir neçə riyaziyyatçı (elmi dərəcələri olmayan) toplayıb nəzəri fizika və riyaziyyat bölməsini təşkil etdi və həmin bölməyə rəhbərlik ona tapşırıldı. 1941-1945-ci illərin həm iqtisadi, həm siyasi, həm də mənəvi cəhətdən çox ağır olduğu hamıya məlumdur. Bu illərdə Z.İ.Xəlilov riyaziyyatın aktual məsələlərinə həsr olunmuş altı sanballı elmi məqalə çap etdirdi ki, bu da ətrafına toplanmış gənc fizik və riyaziyyatçıları fədakarcasına işləməyə vadar etdi. Müharibə illərində Z.İ.Xəlilov çox qiymətli on üç elmi məqalə çap etdirdi. Bu məqalələr sonradan onun fizika-riyaziyyat elmləri doktorluğu dissertasiyasının əsasını təşkil edən və Azərbaycanın riyaziyyat və mexanika elmini "əyalət" elmindən dünyada tanınıb sayılan elm sahəsinə çevirməyə səbəb oldu. Bu çətin illərdə Z.İ.Xəlilov yazıb-yaratmaqla bərabər, rəhbərlik etdiyi elmi bölmələrin inkişaf edib institutlara çevrilməsinin təşkilində də yaxından iştirak etdi.

1945-ci ildə SSRİ EA-nın Azərbaycandakı filialları əsasında Azərbaycan EA yaradıldı. 1947-ci ildə Azərbaycan EA-nın Fizika İnstitutu ilə riyaziyyat sektorları birləşdirildi və riyaziyyat bölməsinin rəhbəri Z.İ.Xəlilov təyin olundu. 1946-cı ilin iyun ayında Tbilisidə Z.İ.Xəlilov "Sərhəd məsələlərinin parametrdən asılılığının tədqiqinə həsr olunmuş doktorluq dissertasiyasını müdafiə edib Azərbaycanda ilk fizika-riyaziyyat elmləri doktoru oldu. Onun bu müdafiəsi Gürcüstanın dahi alimlərini valeh etmişdir.



Z.İ.Xəlilovun doktorluq dissertasiyası və mexanikaya aid məqalələri 1950-ci illərdə ABŞ-da ingilis dilində çap olunmuşdur ki, bu da Azərbaycan riyaziyyatının dünyada tanınmasına səbəb oldu. Şübhəsiz ki, o zamanlar bu qeyri-adi bir hal hesab olunurdu. Axı, Azərbaycanda riyaziyyatın belə bir sıçrayışla inkişaf etməsinə inanmaq olmurdu.

Z.İ.Xəlilov nəinki Azərbaycanda, həm də keçmiş SSRİ-də riyaziyyatın müasir sahəsi sayılan funksional analizin yaradıcılarından biri hesab olunur. Bu sahədə keçmiş SSRİ-də ilk dərsliyin və ilk monoqrafiyanın müəllifi Z.İ.Xəlilov olmuşdur (1949). SSRİ EA-nın çox mötəbər jurnalı olan "Funksional analiz və onun tətbiqləri" jurnalının yaradıcılarından biri və ömrünün axırınadək onun redaksiya heyətinin üzvü olmuşdur.

"Xətti normalı fəzalarda xətti tənliklər" adlı monoqrafiyada Banax cəbrində sinqulya tənliklərin həlli üçün ümumi metod verir ki, bu

metod dünya riyaziyyatında "Zahid İsmayıl oğlu Xəlilov nəzəriyyəsi" adı ilə tanınıb. Z.İ.Xəlilovun bu yüksəlişi Azərbaycan riyaziyyatının yüksəlişi, Xəlilov riyaziyyat məktəbinin yüksəlişi demək idi. O, hərtərəfli, xeyirxah və halal insan olmaqla yanaşı, həm də böyük ziyalı idi. Onun çox gözəl nitqi, xoştəsirli baxışı, əla səliqəsi, gözəl xətti (həm lövhədə, həm də kağızda), qarşısındakını səbrlə dinləmək və ona inandırıcı, düzgün cavab vermək bacarığı var idi. Azərbaycan bəstəkarlarının musiqisini sevir və pianoda yaxşı çala bilirdi.

Z.İ.Xəlilovun və onun rəhbərlik etdiyi məktəbin funksional analizin müxtəlif məsələlərinin həllinə həsr etdikləri işlərin aktuallığı və sanballığı nəticəsində Bakı şəhəri bu sahənin ocağı kimi funksional analiz tədqiqatçılarının nüfuzlu mərkəzlərindən birinə çevrilib. Nəticədə 1959-cu ildə funksional analiz üzrə Ümumittifaq konfransı məhz Bakı şəhərində keçirilib. Konfransda dinlənilən məruzələr və ayrı-ayrı alimlərlə görüşlər Azərbaycan riyaziyyatının inkişafına başqalarının gözü ilə baxmağa imkan verdi. Həmin konfransda Zahid müəllim "Bonax fəzalarında opratorlu diferensial tənliklərin həllinin məhdudluğu və dayanıqlığı" adlı nəzəri-elmi problemlə məruzə etdi ki, bu da gələcəkdə həmin istiqamətdə dünyada görüləcək işlər üçün istinad nöqtəsi olacağı hesab edilirdi.

Azərbaycanda riyaziyyat tarixini işıqlandıran "Böyük Azərbaycan mütəfəkkiri Məhəmməd Nəsirəddin Tusi", "Otuz ildə Azərbaycanda riyaziyyatın inkişafı" adlı ilk elmi məqalələrin müəllifi və "Azərbaycanın dahi alimi Məhəmməd Nəsirəddin Tusinin anadan olmasının 750 illiyi"nə həsr olunmuş məcmuənin də redaktoru Zahid müəllimin özü olmuşdur.

Azərbaycanda riyaziyyata aid ilk sanballı və dəyərli əsərlərin - "İnsanlar indiki riyaziyyata necə gəlib çatmışlar" və "Dairənin kvadraturası" kitablarının müəllifi də Z.İ.Xəlilovdur. Bu kitablar Azərbaycan dilinin yüksək imkanlarından istifadə edilərək elə sadə ifadələrlə yazılıb ki, onları oxuyub başa düşmək üçün riyaziyyatçı olmağa belə ehtiyac olmamışdır. Belə kitabları yalnız Azərbaycan dili və ədəbiyyatını, riyaziyyat elmini, fəlsəfə və ictimai tarix elmlərini dərindən bilənlər yaza bilərdilər.

Z.İ.Xəlilov Azərbaycan dilində ilk riyaziyyat lüğətinin tərtibatçısı və təşkilatçısı olmuşdur.

Z.İ.Xəlilovun tam elmi irsini geniş oxucu kütləsinə çatdırmaq çox çətindir. Sovet dönəmində onun riyaziyyata aid 100-ə yaxın elmi məqaləsi çap olunub. Zahid müəllim elmi kadrların yetişməsinə və inkişafına da böyük fikir verirdi. Otuz iki ildən artıq ADU-da mühazirə və seminar dərsləri, ixtisas kursları deməklə yüksək ixtisaslı kadrların hazırlanmasında nümunə olmuşdur. Z.İ.Xəlilovun Azərbaycan elminin təşkilində böyük rolu olmuşdur. Uzun müddət Azərbaycan EA-nın Mexanika-Riyaziyyat İnstitutunun direktoru, akademik-katib, vitse-prezident və Azərbaycan EA-nın prezidenti olmuşdur. İctimai dövlət xadimi kimi SSRİ Ali və Millətlər Sovetinin deputatı olmuşdur. O, ömrünün axırına kimi keçmiş SSRİ-də həm sovet riyaziyyatçılarının, həm də sovet mexaniklərinin milli komitələrinin (yarandıqları gündən) üzvü olmuşdur. Elmin və mədəniyyətin inkişafındakı misilsiz xidmətlərinə görə, 1960-cı ildə Z.İ.Xəlilova Azərbaycan SSR-in Əməkdar elmi xadimi fəxri adı verilmişdir. O, "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" ordenləri və bir neçə medalla təltif olunmuşdur.

Z.İ.Xəlilov 1974-cü il fevralın 4-də 63 yaşında ömrünün ən müdrik bir çağında Bakı şəhərində dünyasını dəyişdi. Beləliklə, Borçalı dünyasında doğulan, bütövləşən və vətənləşən bir ürək yaşadı dünyamızda. O ürək ki, öz parlaqlığı ilə Azərbaycan elminə işıq saçan, sönməyən günəşə çevrildi.●



**İsmayıl HACIYEV**
*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*

# Naxçıvan Muxtar Respublikası 1941-1945-ci illər müharibəsi dövründə

**İkinci Dünya müharibəsində faşizm üzərində tarixi Qələbənin 80-ci ili tamam olur. Böyük qanlar və itkilər hesabına qazanılan bu qələbə, təbii ki, adi qalibiyyət deyildi. Bu, dünyanın yüzlərlə xalqının, Yer kürəsinin milyonlarla insanının eyni arzularını və məqsədini birləşdirib onu bəşəri həmrəyliyə çevirən tarixi bir hünər idi.**

Bu böyük Qələbənin əldə olunmasına Azərbaycan xalqının böyük töhfəsi və rolu olmuşdur. Çünki xalqımızın qəhrəman övladları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş, əsl qəhrəmanlıq nümunələrini dünyaya nümayiş etdirmişdir. 170 mindən çox azərbaycanlının orden və medallarla təltif edilməsi, 123 nəfərin Sovet İttifaqı Qəhrəmanı adına, 30 nəfərin isə "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülməsi bunun sübutudur. Xalqımızın oğul və qızları arxa cəbhədə öz layiqli payını vermişlər. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, "Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə şanlı töhfələr vermişdir"

## Naxçıvanlı döyüşçülər müharibə cəbhələrində

Faşist Almaniyası 1939-cu il avqustun 23-də hücum etməmək haqqında müqaviləni pozaraq 1941-ci il iyunun 22-də SSRİ üzərinə hücum etdi. 1941-ci ilin iyunun 30-da Dövlət Müdafiə Komitəsi yaradıldı.

Müttəfiq respublikalar kimi, Azərbaycan da bütün iqtisadi, maddi və insan resurslarını sovet dövlətinin mənafeyinə uyğun olaraq səfərbər etdi. Ümumiyyətlə, 1941-1945-ci illərdə Azərbaycandan Sovet ordusu sıralarına 700 min nəfərə qədər adam cəlb olunmuşdu ki, bunun da 11 min nəfərdən çoxu qadın idi [1, s. 299-300].

Müharibənin ilk günlərindən Naxçıvan Muxtar Respublikasında da hərbi səfərbərlik həyata keçirildi. Müharibənin ilk həftəsində 5 min nəfər naxçıvanlı orduya yollandı. On mindən çox əhali isə xalq qoşununa, qırıcı batalyonlara cəlb olundu. Ümumiyyətlə, müharibə illərində 29500 nəfər naxçıvanlı müharibə cəbhələrinə səfərbər olunmuş, düşmənə qarşı rəşadətlə vuruşaraq misilsiz şücaət göstərmişdir [11, s.67].

Muxtar respublikanın əhalisi düşməni məhv etmək üçün şəhər və kəndlərdə "Xalq qoşun dəstələri"nə yazılır, qırıcı batalyonlar təşkil edir, müəssisələrdə, idarələrdə və evlərdə özünümüdafiə dəstələri yaradırdılar. Müharibənin ilk dövründə Naxçıvan MSSR-də 1134 nəfəri əhatə edən 31 özünümüdafiə qrupu yaradılmışdı. Xalq drujinalarına ərizə verən 5264 nəfərdən 1755-i qadın idi. Həmin vaxt Naxçıvan şəhərində sanitar drujinaları kursları da təşkil edilmiş və oraya 72 nəfər qız daxil edilmişdi [2, v.81-82].



Akim Abbasov

Muxtar respublikanın minlərlə oğul və qızı döyüş cəbhələrində sinəsini sipərə çevirib igidlik və qəhrəmanlıq göstərdi. Onlar ağır döyüşlərdə mətanətlə vuruşur, arxa cəbhədə fədakarlıqla çalışır, faşist işğalçıları üzərində qələbənin təmin edilməsi üçün əllərindən gələni edirdilər. Döyüş cəbhələrində göstərdikləri şücaət və qəhrəmanlığa görə naxçıvanlılardan 3 nəfəri Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada, bir nəfəri Şöhrət ordeninin hər üç dərəcəsinə, 8 nəfər Lenin ordeni, 15 nəfər Qırmızı Bayraq ordeni, 23 nəfər birinci dərəcəli, 90 nəfər ikinci dərəcəli Böyük Vətən müharibəsi ordeni, 315 nəfər Qızıl Ulduz ordeni, 93 nəfər ikinci dərəcəli, 8 nəfər üçüncü dərəcəli Şərəf ordeni, minlərlə döyüşçü müxtəlif medallarla təltif olunmuşdur [9, s.72; 20, 17 iyun 1951].

Müharibə illərində adı xalqımızın dilindən düşməyən naxçıvanlı qəhrəmanlardan biri Qəzənfər Əkbərovdur. Qəzənfər Əkbərov topçu komandir kimi Ukraynanın, Belorusiyanın alman faşistlərindən təmizlənməsində fəal iştirak etmişdir. 1944-cü il avqustun 3-də Belorusiyanın Volojin şəhəri ətrafında gedən döyüşlərdə fəal iştirak etmiş, düşmənin 4 tankını, 60-dan artıq əsgər və zabitini məhv etmişdir. Bu döyüşdə Q.Əkbərov qəhrəmanlıqla həlak olmuşdur. Q.Əkbərov ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür [19, s.118-119].

Nəcəfqulu Rəfiyev 1944-cü ilin yayında Minsk şəhəri yaxınlığında gedən vuruşmalarda, Baranoviç şəhərinin azad edilməsində şücaət və qəhrəmanlıq göstərmişdir. N.Rəfiyev bu vuruşmada düşmənin bir neçə tankını və topunu məhv etmiş, 29 avtomaşınını yandırmış, əsirliyə götürülə bilən 200 nəfəri xilas etmişdir. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 26 sentyabr tarixli fərmanı ilə Nəcəfqulu Rəfiyev Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür [5, s. 240-243].

Xalqımızın fəxr etdiyi qəhrəmanlardan biri də Abbas Quliyevdir. 1941-ci ildə Sovet Ordusuna çağırılmış, Sumi topçuluq məktəbini bitirmişdir. Kapitan Abbas Quliyev Dneprdən Visla çayına qədər döyüş yolu keçmişdir. 1944-cü ilin avqustunda Polşa torpağında o, öz topçuları ilə birlikdə xüsusi tapşırığı yerinə yetirərək düşmənin diqqətini yayındırıb Visla çayının sağ sahilinə keçmiş, sonra isə üç gün ərzində faşistlərlə qeyri-bərabər döyüş aparmaqla sovet qoşunlarının çayı maneəsiz keçərək düşməni darmadağın etməsinə şərait yaratmışdı. 1945-ci il fevralın 25-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür [7, s.33-34].

Müharibə illərində general rütbəsinə qədər yüksəlmiş azərbaycanlı sərkərdələrdən biri də Akim Abbasov olmuşdur. A.Abbasov müharibənin ilk günlərindən 76-cı diviziyanın heyətində qərb cəbhəsində döyüşlərdə iştirak etmişdir. 1942-ci ildə milli hərbi birləşmələr yaradıldıqda 402-ci atıcı diviziya qərargahında əməliyyat şöbəsinin rəisi, sonra həmin diviziyada 833-cü atıcı polkunun komandiri olmuşdur. A.Abbasov polku ilə təkcə bir döyüşdə faşistlərin 40 tankını, çoxlu canlı qüvvəsini məhv etmişdir [6, s.46].

Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif olunan Rəhim Rəhimov Qafqazın müdafiəsində, Belorusiya, Pribaltika və Kalininqradın azad olunması uğrundakı döyüşlərdə misilsiz igidliklər göstərmişdir.

Hərbi feldşer Allahverdi Kərimov 1941-ci ildə Rostov uğrunda döyüşlərdə həlak olmuş komandiri əvəz etmiş və düşmənə xeyli təlafat vermişdir. Cəsur döyüşçü Qırmızı Bayraq və Qırmızı Ulduz ordenləri ilə təltif edilmişdir [11, s.69-70].

416-cı atıcı diviziyanın 1054-cü artılleriya polkunun komandiri Mehdi Mahmudov müharibə cəbhələrində polkovnik rütbəsinə qədər yüksələrək şərəfli döyüş yolu keçmişdir. M.Mahmudov Melitopol, Nikolayev, Odessa, Kişinyov şəhərləri uğrunda gedən döyüşlərdə, həmçinin Visla-Oder əməliyyatında, Küstrin qalasına və Berlinə olan hücumlarda xüsusi fərqlənmişdir. O, 6 orden və çoxlu medallarla təltif olunmuşdu.

Şöhrət ordeninin iki dərəcəsi ilə təltif olunmuş Baloğlan Rüstəmov Berlinə qədər döyüş yolu keçmişdir. 293-cü atıcı diviziyanın artilleriya polkunun hərbi komissarı İsmayıl Məmmədov, batalyon komandiri mayor Əli Əliyev, serjant Yusif Qədımov, leytenant Adil Cəfərov, leytenant Hüseyn İmanov, Ənvər Vəzirov, Nemət Əhmədov, Bəxtiyar Kərimov və yüzlərlə başqaları igidliklə döyüşmüş, orden və medallara layiq görülmüşlər. Əli Babayev, Əkbər Ağayev və b. partizan hərəkatında faşist hərbi düşərgəsində düşmənlə mübarizələrini davam etdirmişlər.

Döyüşlərdə naxçıvanlı qızlarımız da böyük qəhrəmanlıqla vuruşmuşlar. Onlar döyüşən ordu və partizan hissələri sıralarında cəsarətlə xidmət etmiş, döyüş meydanlarından çıxardıqları yüzlərlə yaralı döyüşçünü yenidən həyata qaytarmışdılar. Müharibədə Naxçıvandan 187 nəfər qadın iştirak etmişdir. Zərifə Camalbəyova, Dilbər Təhməzbəyova, Surə Allahverdiyeva, Səkinə Şəfiyeva, Sofiya Sultanova, Firuş Məmmədəliyeva, Lora Abdullayeva və onlarla digər naxçıvanlı qızlar yüksək mükafatlara layiq görülmüşlər [8, s.32-45; 12, s.20, 48-49, 61, 72-73].

Qəhrəman oğul və qızlarımızın sayı yüzlərlədir. Təbii ki, burada onların hamısı haqqında bəhs etmək imkan xaricindədir. Müharibə cəbhələrində qəhrəmanlıqları ilə Azərbaycanımızın başını uca edən Sovet İttifaqı Qəhrəmanları Nəcəfqulu Rəfiyev, Qəzənfər Əkbərov, Abbas Quliyev, müharibə qəhrəmanları general-mayor Akim Abbasov, polkovnik Mehdi Mahmudov, Nemət Kərimov, İsmayıl Məmmədov, Kazım İsmayılov, mayor Nemət Əhmədov, Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif olunmuş Rəhim Rəhimov, hərbi feldşer Allahverdi Kərimov, iki Qırmızı Bayraq ordenli Qasım Qasımov, zirehli avtomobil komandiri Baloğlan Rüstəmov, topçu Əli Hüseynov, sıravilər Bəxtiyar Kərimov, Məmməd Tahirov, Niyaz Vəzirov, Abdulla Qurbanov, Ənvər Vəzirov, İtaliyada beynəlmiləl partizan dəstəsinin komandiri Əli Babayev, Buhenvald faşist həbs düşərgəsində dustaq saxlanılmış Əkbər Ağayev və yüzlərlə başqaları özlərinin şücaət və qəhrəmanlıqları ilə doğma Naxçıvan torpağının şöhrətini də əbədiləşdirmişlər [19, s.118].



Abbas Quliyev

Qeyd edildiyi kimi, Naxçıvan MSSR-dən 29500 nəfər müharibə üçün səfərbərliyə alınmış, döyüş cəbhələrində qəhrəmanlıqla vuruşmuş, 15500 nəfər misilsiz qəhrəmanlıq nümayiş etdirərək qanlı müharibənin qurbanı olmuşdur.

Ümumi düşmənə qarşı yenilməz mübarizə aparan naxçıvanlılar tarix salnaməmizə qızıl səhifələr yazmış, göstərdikləri şücaətə görə ən yüksək mükafatlara layiq görülmüşlər. 8 nəfər Lenin ordeni, 1 nəfər Şöhrət ordeninin hər üç dərəcəsi, 102 nəfər Şöhrət ordeninin ayrı-ayrı dərəcələri, 105 nəfər I və II dərəcəli "Böyük Vətən müharibəsi" ordenləri, 315 nəfər "Qırmızı Ulduz", 29 nəfər "Qırmızı Bayraq" ordenləri və çoxsaylı medallarla təltif olunmuşdur.

## Naxçıvanlıların arxa cəbhədəki fəaliyyəti

Müharibə xalq təsərrüfatını ciddi imtahana çəkdi. Tezliklə sənayeni hərbi tələblərə uyğun yenidən qurmaq, ilk növbədə, ordunu yüksək keyfiyyətli yanacaqla, hərbi ləvazimatlarla və ərzaqla təmin etmək tələb olunurdu. Respublika xalq təsərrüfatının minlərlə işçisi qızıl ordu sıralarına səfərbər olunmuşdu. 1941-1945-ci illərdə Azərbaycandan orduya 700 minə qədər, o cümlədən Naxçıvan MSSR-dən 30 minə qədər adam səfərbər olunmuşdu. Onlar arasında 11 mindən çox qadın var idi [4, v.21]. 1941-1942-ci illərdə ordunun ehtiyacı üçün müəssisə və təşkilatlardan 5457 yük maşını, 672 minik avtomobili, 476 traktor və 50 min at alınmışdı [3, v.39-40].

Azərbaycan iqtisadiyyatı arxa cəbhə elan olunaraq müharibədə qələbənin qazanılması vəzifəsinə tabe edilmişdi. 1941-ci il iyunun 26-



Qəzənfər Əkbərov

dan bütün sənaye müəssisələrində məzuniyyətlər ləğv edilmiş, iş günü 11 saata qaldırılmış, işdən özbaşına getməyə görə həbs cəzası müəyyən edilmişdi. Ərzaq və sənaye mallarının satışı üzrə kartoçka sistemi tətbiq edilmişdi. Orduya cəlb olunan kişi işçilərin yeri isə qadınlar və yeniyetmələrin işə götürülməsi yolu ilə doldurulurdu. Azərbaycan SSR-də bütün həyat "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarının tələbinə uyğunlaşdırılmışdı. İstehsalata gələn qadınlar, gənclər üçün müəssisələrdə qısa müddətli kurslar, texniki dərnəklər təşkil edilirdi. Qadınlar və gənclər traktorçuluq kurslarına cəlb edilmişdi. Müharibə dövründə qadınların rəhbər işə irəli çəkilməsi, onların kənd təsərrüfatı sahəsində manqa, briqada, ferma, kolxozlara başçılıq etməsi genişlənirdi. Qadınların sovet aparatı işinə irəli çəkilməsi, onların şəhər, rayon, kənd sovetlərinə rəhbərlik etməsi hallarını artırmışdı. Bu sahədə 120-dən artıq qadın çalışırdı [7, s.160].

Naxçıvan əhalisi müharibə dövründə müharibə fonduna, tank və təyyarə eskadrilyası yaradılması işinə vəsaitlə köməklik göstərirdilər. Təkcə 1941-ci ilin bir neçə ayında ölkənin müdafiə fonduna 1.357 min manat pul, 1.748 min manat istiqraz, 1222 qram qızıl, 11 kq gümüş, 908 kq yağ, 60 ton 432 kq ət, 796 kq pendir, 150 tondan çox taxıl və sair toplanıb dövlətə təhvil verilmişdi [19, s.117]. Tank və hərbi təyyarə quruculuğu üçün 1.469.709 manat pul və kənd təsərrüfatı məhsulları göndərilmişdi [10, 17 fevral, 1943]. Naxçıvan əhalisi 1942-ci ilin 3 ayında müdafiə fonduna 21 min manat pul, 100 cüt yun əlcək, xeyli isti paltar, 1943-cü ilin may ayına kimi isə 9 milyon manat nağd pul, 6.699 sentner taxıl vermişdilər [14, v.112; 20, 26 sentyabr 1943].

Naxçıvanlı qadınlar Azərbaycanın qabaqcıl qadınlarının müraciətinə qoşularaq müdafiə fonduna qızıl qol saatı, qızıl üzük, qızıl sırğa, qızıl cib saatı, qızıl qarabatdağ, gümüş qaşıqlar, pul, istiqraz vərəqi, bir neçə günlük əməkhaqqını müdafiə fonduna vermişlər. Bu sahədə Rübabə Talıbova, Leylan Quliyeva, Siddiqə Abbasova, Əqiyyə Fətullayeva, Pəri Səfiyeva, Simuzər Qədimova, Məryəm Aslanova, Səkinə Məmmədova, Təyyubə Xəlilova, Səkinə Rzalı, Bəni Həsənova, Xavər Əliyeva, Güllü Vəliyeva, Güləbə Behbudova və onlarla başqaları fərqlənmişlər [7, s.150-151; 13, s.117].

Muxtar respublikanın kənd əməkçiləri fədakar fəaliyyətləri ilə daha çox məhsul istehsal edir və əməkgünü qazanırdılar.

Naxçıvan Muxtar Respublikasının əkin sahələri 1944-cü ilə qədər 11 min 41 hektar artırıldı, əmək məhsuldarlığı 1941-ci ilə nisbətən 1945-ci ildə 1,5-2,5 dəfə artırıldı [16, v.8]. 1940-cı ildə bir kolxozçu orta hesabla 150 əməkgünü qazanırdısa, 1943-cü ildə 288 əməkgünü qazanmışdı [15, v.37]. Nəticədə 1944-cü ilin sonunda muxtar respublikada kolxozların ümumi gəliri 46.721 min manat olmuşdu ki, bu da 1940-cı illə müqayisədə təqribən 2 dəfə artıq idi [15, v.30]. 1940-cı ildə Naxçıvan MSSR üzrə dövlətə 2899 ton taxıl verilmişdirsə, 1944-cü ildə 3861 ton taxıl vermişdir ki, bu da əvvəlki illə müqayisədə 962 ton çoxdur.

Naxçıvan əhalisi müharibə illərində işğaldan azad olunmuş rayon və vilayətlərə də yaxından kömək göstərir, yardım edirdi. Naxçıvan MSSR zəhmətkeşləri Stalinqrad vilayətinə, Stavropol ölkəsinə, Çərkəz vilayətinə mal-qara, qab-qacaq, yataq dəstləri, kənd təsərrüfatı məhsulları, nağd pul, kənd təsərrüfatı alətləri, ərzaq məhsulları ilə yardım göstərmişlər. Məsələn, naxçıvanlılar 1943-cü ilin aprelin 11-ə kimi Stavropol ölkəsinə, Stalinqrad vilayətinə və başqa azad edilmiş yerlərə 483.840 manat pul, 8.348 kq buğda, 30 pud qarğıdalı, 899 ədəd gön, 901 pud quru meyvə, 450 baş iribuynuzlu mal-qara, 226 baş xırdabuynuzlu heyvan və s. göndərmişdilər [17, v.123].

Şahbuz rayonunun və Cəhri kəndinin kolxozçuları, Noraşen və Ordubad rayonlarının zəhmətkeşləri Çərkəz Muxtar Vilayətinin

əhalisinə hamilik edir, xalq təsərrüfatının bərpası üçün 394.478 manat pul, 611 sentner taxıl, 994 kq noxud, 1662 kq darı, 1978 kq quru meyvə, 701 baş qoyun, keçi, 16 baş inək, 44 baş donuz, 329 kq yağ, 935 kq yun vermişlər [7, s.166]. Bundan başqa xeyli miqdarda bal, pendir, toyuq, duz göndərmişlər. Noraşen rayonunun kolxozçuları Çərkəz vilayəti əhalisi üçün xüsusi əkin sahələri ayırmış və bu sahələrdən toplanan məhsulları onlara göndərmişdilər.

Naxçıvan MSSR-in incəsənət işçilərinin də qələbənin qazanılmasında müəyyən payı olmuş, vətənpərvərlik mövzularında tamaşaların hazırlanması, ön və arxa cəbhədə təqdim edilməsi təqdir olunmuşdur. Naxçıvan teatrı 250-dən artıq teatr və konsert tamaşaları göstərmişdir.

1941-ci ildə Mincivan-Culfa dəmiryol xəttinin başa çatdırılması ilə nəqliyyat əlaqələrinin imkanları artdı, cəbhə və xalq təsərrüfatı üçün yüklərin vaxtında daşınmasına imkanlar yarandı.

Muxtar respublikanın təhsil, mədəniyyət və tibb müəssisələri də öz işlərini müharibənin tələblərinə uyğun qurmuşdular. Muxtar respublikanın tibb işçiləri həm ön, həm də arxa cəbhədə döyüşçülərə və əhaliyə tibbi xidmət göstərmişlər. Müharibə illərində 2 yeni xəstəxana, kəndlərdə tibb məntəqələri açılmış, 10-dan çox məsləhət məntəqələri yaradılmış, xəstəxana çarpayılarının sayı 510-a çatdırılmışdır [18, s.127-128]. Müharibə illərində 153 nəfər feldşer, 90 nəfər tibb bacısı, 39 nəfər əczaçı hazırlanmışdır.

Müharibə təhsil sahəsində də ciddi çətinliklər yaratmışdı. Müharibənin ilk ilində muxtar respublikanın 196 məktəbində 30.458 nəfər şagird təhsil alırdısa, 1941-1942-ci tədris ilində 153 məktəbdə 18.850 nəfər şagird oxuyurdu. 1943-cü ildə məktəbdə 848 müəllim işləyirdi. Müəllimlərdən Mircəfər Mirişliyə, Həsən Qazıyevə, Əsəd Cəfərliyə, Abbas Əsgərova, Abdulla Axundova, Nuriyə Qafarzadəyə Azərbaycan SSR-in Əməkdar müəllimi adı verilmişdir.

Müharibə illərində 177 mədəni-maarif müəssisəsi fəaliyyət göstərirdi.

Beləliklə, 1941-1945-ci illər müharibəsində Naxçıvanın mərd və igid oğul və qızları da ön və arxa cəbhədə döyüş bacarığı və fədakar əmək nümunələri göstərərək, düşmən üzərində qələbənin təmin edilməsində layiqli töhfələrini vermişdilər.

44 günlük Vətən müharibəsində də qəhrəman övladlarımız tarixi ənənələri şərəflə davam etdirmiş, işğal edilmiş torpaqlarımızı düşməndən azad etmişdir.



**Nəcəfqulu Rəfiyev**


*ƏDƏBİYYAT*

- Azərbaycan tarixi (ən qədim zamanlardan - XXI əsrin ilk onilliklərinədək). Bakı, 2014, 380 s.
- Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f. 1, siy.26, iş 54.
- ARPİİSSA, f. 1, siy. 169, iş 6, v. 39-40
- ARPİİSSA, f. 1, siy. 280, iş 108
- Azərbaycanın Qızıl Ulduzları. Bakı, 1975, 313 s.
- Bəhramov C., Əmrahov M. Generalı xatırlayarkən. Akim Abbasov - 100. Tarixi oçerk, Bakı: Elm, 2011, 180 s.
- Cəfərov F. Naxçıvan İkinci Dünya müharibəsi illərində. Bakı, 2015, 304 s.
- Hacıyev İ. Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında qadınların iştirakı (1941-1945-ci illər). Bakı: Elm, 2008, 152 s.
- Əliyev A., Qasımov Ə. Naxçıvan Muxtar Respublikası: nailiyyətlər və problemlər. Birinci cild. Bakı: Azərbaycan, 2001, 284 s.
- "Kommunist" qəzeti
- Quliyev C., Mədətov Q., Nadirov A. Sovet Naxçıvanı. Bakı, 1984, 136 s.
- Məmmədov S. Azərbaycanın şanlı qızları. Bakı, 1988, 160 s.
- Naxçıvan Muxtar Respublikası, Bakı, 2001, 222 s.
- Naxçıvan Muxtar Respublikasının Dövlət arxivi (NMRDA), f. 2, siy. 2, iş12.
- NMRDA, f. 2, siy.3, iş 36
- NMRDA, f. 34, siy. 12, iş 27
- NMRDA, f. 221, siy.3, iş 25, v. 123
- Naxçıvan MSSR xalq təsərrüfatının inkişafı. Bakı, 1964, 262 s.
- Sadıqov S. Naxçıvan Muxtar Respublikası tarixindən, Bakı, 1995, 144 s.
- "Şərq qapısı" qəzeti



**İradə HÜSEYNOVA**
*AMEA-nın vitse-prezidenti, AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik*



**Nurməmməd MUSTAFAYEV**
*AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Populyasiya genomiksi laboratoriyasının müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent*

# *Qədim insanların genləri:* insanın təkamülü və formalaşmasının şahidləri *

**Bəzək əşyalarından əldə edilən DNT: Hazırda genetiklər daş dövrü insanının əmək alətləri və silahlarının səthindən, paleolitik bəzəklər və s. əşyalar üzərindən qədim DNT ayırmaq üçün çox çətin cəhdlər edirlər. Başda Yelena Essel olmaqa Maks Plank Təkamül Antropologiyası İnstitutunun bir qrup əməkdaşı əsas maneəni dəf edərək nümunəni dağıtmadan bu işi həyata keçirməyə imkan verən metod işləyib hazırladılar.**

Metodun mahiyyəti belədir: əvvəlcə qədim artefakt (nümunə) tam şəkildə natrium fosfat buferinə salınır və tədricən 90?C-dən yüksək temperatura qədər qızdırılır - bu zaman əvvəlcə səthdəki, bir müddət sonra isə daha dərin qatlardakı DNT məhlula keçir. Prosedur zamanı əşyanın (artefaktın) teksturası pozulmur. Essel və həmkarlarının "Nature" jurnalında çap olunan məqaləsində Altaydakı Denisov mağarasından tapılan bəzəkdən - maral dişindən düzəldilən kulondan paleolitik DNT ayrılmasını təsvir etmiş və kulonu sonuncu dəfə kimin gəzdirdiyi haqqında təsəvvür əldə edə bimişlər. Kulon 2019-cu ildə Maks Plank İnstitutunun laboratoriyasına Rusiya EA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı Maksim Kozlikin tərəfindən paketdə gətirilən mağara çöküntüsünün içərisindən tapılmışdır. Kulonda ipdən keçirərək onu boynunda gəzdirmək üçün deşik var idi. Mağara çöküntüsü xüsusi kombinezon, ayaqqabı və maskalar geyinmiş arxeoloqlar tərəfindən səliqəli şəkildə əlcəklərlə götürüldüyündən və dərhal polietilen paketə qoyulduğundan müasir üzvi və bioloji maddələrlə minimum çirklənməyə məruz qalmışdır. Essel və həmkarları nümunədən kifayət qədər mitoxondri və nüvə DNT-si ayırmağa müvəffəq olmuşlar. Ayrılan DNT-nin bir hissəsi kulonun düzəldildiyi vapiti maralına, bir hissəsi isə müasir anatomik görünüşə malik qadına mənsub olmuşdur. DNT ardıcıllığına görə bu qadın genetik cəhətdən Denisov mağarasından ~2000 km aralı olan Anqara çayı hövzəsində yerləşən Malta-Büret mədəniyyəti insanlarına yaxındır. Sibirlilərin, yerli amerikalıların və tunc dövrü maldarlarının əcdadları arasında da bu mədəniyyətin daşıyıcılarına rast gəlinir. Qadın və maralın DNT-lərini digər qədim nümunələrlə müqayisə edərək alimlər kulonun ~25000-19000 il bundan əvvələ aid olmasını göstərmişlər.

Torpaq və digər materiallardan əldə edilən DNT: Denisov insanının çox cüzi miqdarda qalıqları tapılıb: bir neçə diş, barmaq sümükləri,

**Əvvəli jurnalımızın 2024-cü il 4-cü nömrəsində*

çənə və kəllə sümüyünün kiçik hissələri. Bu insan haqqında biliklərimizin çoxu DNT-yə əsaslanır. Lakin qədim sümüklərdən DNT-ni analiz edən zaman sümüklərin çox az olduğunu yadda saxlamaq lazımdır. Bəs, ümumiyyətlə, sümüklərsiz keçinmək olarmı? Bəlkə DNT-ni birbaşa torpaqdan, yəni minlərlə yaşı olan çöküntü süxurlarından ayırmağa cəhd edək? Qeyd etdiyimiz kimi, insan daim öz DNT-sinin ətrafa səpələyir və qədim insanlar da bu barədə bizdən fərqlənməyiblər. Yeri gəlmişkən, məsələ təkcə dərinin ölən hüceyrələrində deyil: insanlar yaşadıqları yerdə təbii ehtiyaclarını ödəməli idilər və həmin yerlərdə kifayət qədər "tualet" DNT-si qalmalıdır.

2003-cü ildə təkamül genetikası üzrə məşhur mütəxəssis Eske Villerslev həmkarları ilə birlikdə Paabonun işlərinin əsasında Sibirin daimi donuşluqlarından ayrılmış DNT-ni analiz etməyə nail oldular. Tapılan DNT-lər mamontlara, qədim atlara və bir sıra bitkilərə aid idi. Qədim insanlar üzərində tədqiqatlar isə xeyli gec aparıldı. 2017-ci ildə "Science" jurnalında qədim Homo-ların "torpaq" DNT-si haqqında məqalə nəşr olundu. DNT-ni bir neçə mağarada, o cümlədən, Denisov mağarasında axtarmışdılar. Məqalənin müəllifləri - Svante Paabo və müxtəlif elmi mərkəzlərdən, o cümlədən Rusiya EA Sibir Bölməsindən olan onlarla tədqiqatçı, nəinki DNT-ni oxumağa müvəffəq oldular, hətta onun neandertallara və Denisov insanına mənsub olduğunu da müəyyən etdilər. Lakin bu ən əsası deyildi. Digər növlərin də Denisov mağarasına girdiyi əvvəllər də məlum idi. Ən əsası bu idi ki, oxunmuş DNT tərkibində sümük olmayan və qismən ənənəvi qalıqları əvəz edən geoloji təbəqələrdən götürülmüşdür.

2021-ci ildə "Nature"-də çıxan daha bir məqalədə verilən "torpaq" DNT-sinin analizi Denisov mağarası haqqındakı bilikləri zənginləşdirdi. Məlum oldu ki, təxminən 300 min il əvvəl buraya denisovlular gəlmiş, 130 min il əvvəl isə yoxa çıxmış və 30 min il sonra yenidən meydana gəlmişlər. Neandertallar mağaraya təqribən 170 min il əvvəl gəlməyə başlayıblar: neandertalların müxtəlif qrupları mağaranı müxtəlif dövrlərdə istifadə etmişlər və bəzən bu dövr denisov insanları ilə üst-üstə düşmüşdür. Nəhayət, 45 min il əvvəl Denisov mağarasına ağıllı insan daxil olmuşdur. Bu zaman orada denisovlular və neandertallar da yaşayırmışlar. Bu, hər 3 növün eyni zamanda, bir tonqal ətrafında oturması demək deyildir. Sadəcə olaraq, tarixin elə bir dövrü olmuşdur ki, denisovlular, neandertallar və sapiyenslər eyni zamanda, bu məkanda yaşamış, eyni təbii sığınacaqdan istiadə etmişlər. Sonra H.neanderthalensis və H.denisovensis və neandertallar yoxa çıxmış və mağarada yalnız ağıllı insan qalmışdır. Mağarada aşkar edilən bəzək əşyaları və mürəkkəb əmək alətləri məhz bu insanlardan qalmışdır.

Əlbəttə, bunlar qədim insanların DNT-sinin öyrənilməsinə həsr olunan işlərin hamısı deyildir. Qədim insan DNT-sini həmişə tapmaq olmur: isti və rütubətli iqlim şəraitində, istər sümüklərdə, istərsə də torpaqda daha çox deqradasiya gedir. Buna görə də tropiklərdə DNT arxeologiyasının uğurlarına o qədər də ümid etmək olmaz. Amma bu, daha mötədil iqlim zonalarında insanların təkamülü, miqrsiyası və qarşılıqlı əlaqələri haqqında əsas məlumat mənbəyi ola bilər. Məsələ yalnız neandertalların qədimliyində deyildir. 2022-ci il yayın sonlarında "Science"-də 10 min il bundan öncə buğda yetişdirilməsi, qoyun və keçilərin əhilləşdirilməsi ilə məşğul olan Anadolu sakinləri haqqında məqalə dərc olunmuşdur. Arxeoloji DNT-ni analiz edən müəlliflər belə nəticəyə gəlmişlər ki, kənd təsərrüfatı işləri xalqların aktiv qarışması ilə müşayiət olunmuşdur: bu insanlar Anadoluya 10000-6500 il bundan öncə müasir İraq və Suriya ərazisindən, Aralıq dənizinin şərq sahillərindən və Qafqazdan gəlmişlər.

Paleogenetik tədqiqatlar üçün təkcə insan DNT-si axtarmaq o qədər də vacib deyil. Biz bir neçə dəfə qədim heyvanların DNT-si haqqında danışmışıq. Paabo özü də, Misir mumiyasını nəzərə almasaq, tədqiqatlarına məhz heyvan DNT-si ilə başlamışdı. Bu yaxınlara

kimi ən qədim oxunmuş DNT 560-780 min il əvvəl yaşamış ata məxsus idi. 2021-ci ildə böyuk tədqiqatçılar kollektivi Rusiya EA-nın Geologiya İnstitutunun əməkdaşları ilə birlikdə 0,5 milyon, 1,3 milyon və 1,65 milyon yaşı olan mamontun DNT-sini oxumuşlar. Əlbəttə ki, DNT-nin həddən artıq qırılmış hansısa ayrı-ayrı fraqmentləri qalmışdı və 10-15 il bundan əvvəl bunları heç kəs analiz etməzdi. Lakin necə deyərlər, texnologiyalar yerində dayanmır. Ən qədim DNT-nin (1,65 milyon il) ardıcıllığını oxuduqdan sonra tədqiqatçılar güman etmişlər ki, o, indiyə qədər məlum olmayan bir mamont növünə aiddir. Güman ki, bu yeni növ daha yaxşı tanınan yunlu mamont növü ilə cütləşərək üçüncü növə - Şimali Amerikada yaşayan Kolumbiya mamontuna başlanğıc vermişdir. Yeri gəlmişkən, Şimali Amerikada mamontların kökü, adətən hesab edildiyi kimi 10-12 min il əvvəl deyil, daha 5 min il gec kəsilmişdir. Belə ki, bu yaxınlarda Kanadanın Yukon ərazisində təqribən 5000 yaşı olan mamont DNT-si müşahidə edilmişdir.

2021-ci ildə "Nature" (Nature Human Behavior) jurnalında çıxan bir məqalədə Mərkəzi Asiyada, Pamir-Alayda (indiki Qırğızıstan ərazisi) yaşayan tayfaların 8000 il bundan əvvəl qoyun və keçi saxlamaları, başqa sözlə, maldarlığın yaranması və inkişafı barədə məlumat verilmişdir. Müəlliflər bu nəticəyə Rusiya EA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı arxeoloq Svetlana V. Şnayderin qrupu tərəfindən qədim abidə olan Obişir-5-də aparılan qazıntılardan əldə edilən və Maks Plank İnstitutuna gətirilən çoxsaylı sümük fraqmentlərindən ayrılaraq tədqiq edilmiş qədim DNT əsasında gəlmişlər.

Qədim DNT-ni yalnız quruda deyil, dənizin dibində də axtarırlar. 2022-ci il oktyabrın əvvəllərində "Nature Communications"-də Atlantik okeanı və Sakit okeanın kəsişməsində yerləşən Skoşa və ya Skotia dənizinin dibindəki çöküntülərindən əldə edilmiş DNT haqqında məqalə nəşr olunmuşdur. DNT-ni ayırmaq üçün material dənizin dibinin səthindən deyil, səthdən daha 178 m dərinlikdən toplanmışdır. Burada ən qədim DNT fraqmentlərinin yaşı milyon ilə yaxın təşkil edir. Dəniz dibində, daha doğrusu, ondan da aşağı qatda olan DNT-nin çox hissəsi diatomlara aiddir. Burada da əsas məsələ DNT-nin mənsubiyyəti deyil, dənizin dibindən olan DNT-nin də necəysə oxuna bilməsidir. Qeyd edək ki, Skotia dənizi soyuqdur və Antarktidaya yaxındır, aşağı temperaturlar isə dənizin dibinə çökmüş DNT-ni qoruyub saxlayır.

Müasir insanın mənşəyi: Bu məsələyə aydınlıq gətirmək üçün alimlər təkcə eksperimental yollardan istifadə etməklə kifayətlənmir, həmçinin tədqiqat nəticələrinin bioinformatik müqayisəsi və onların əsasında qurulan nəzəri modellərlə də insan tarixini daha dərindən öyrənmək cəhdlərini davam etdirirlər. 2023-cü ildə "Nature" jurnalında çap olunan bir məqalədə müəlliflər Afrikanın müxtəlif regionlarından olan 290 nəfərin genomunu analiz edərək belə bir nəticəyə gəlmişlər ki, müasir insanlar materikin müxtəlif yerlərində baş verən və bir-birindən asılı olmayan təkamül hadisələri nəticəsində meydana çıxmışlar. Bu tarixi təkamül hadisələri başlanğıcını ən azı iki populyasiyadan almışdır ki, onlar da qarışana qədər Afrikada təxminən milyon il ərzində birgə mövcud olmuşlar. Bu fakt müasir görünüşlü insanın Afrikada bir yerdə və bir tarixi dövr ərzində formalaşması haqqındakı hamı tərəfindən qəbul edilən fikirlə daban-dabana ziddir. Hazırda Afrikada yaşayan insanlar digərlərinə nisbətən genetik cəhətdən çox müxtəlifdirlər. Bu onunla izah olunur ki, nisbətən məhdud genetik fonda malik olan kiçik qruplarla digər qitələrə yayılmamışdan qabaq bəşəriyyət Afrikada minlərlə nəsillər boyu yaşamış və təkamül etmişdir. Bəşərin beşiyi kimi alimlər Afrikanın müxtəlif yerlərini göstərmişlər. İnsanabənzər varlıqların ən qədim qalıqları Efiopiyada (Həbəşistanda) tapıldığına görə, uzun müddət belə hesab edilmişdir ki, müasir insan Şərqi Afrikada yaranmışdır. Lakin sonralar məlum olmuşdur ki, Cənubi Afrikada yaşayan bəzi qruplar genetik cəhətdən digər afrikalılardan çox uzaqdırlar. Məhz buna

görə də bəşərin dərin köklərini antropoloqlar burada axtarırlar.

Yeni bəşər tarixi modeli beynəlxalq alim qrupu tərəfindən "Nature" jurnalında çap etdirilmişdir. Alimlər bir qrup Afrika (Qərbi Afrikanın Syerra-Leone əyalətindən olan fermerlər - Mende xalqı, Efiopiyanın ovçu-yığıcılarının xələfləri - Qumuz xalqı, Efiop fermerləri - Amxara xalqı və s.) və Cənubi Amerika (ovçu-yığıcılar - Nama xalqı) insanlarının genomlarını müqayisəli təhlil etmişlər. Bəşəriyyətin inkişaf tarixini modelləşdirmək üçün yeni genom məlumatları bir nəfər britaniyalının və neandertal insanının genomu ilə birlikdə proqrama daxil edilmişdir. Modeli Kanadanın Makgill Universitetindən olan Simon Qravel işləyib hazırlamışdır. Alimlər əvvəlcə müxtəlif zamanlarda müxtəlif Afrika populyasiyalarının mövcudluğunun çoxsaylı senarilərini yaratmış və sonra onlardan hansılarının hazırda yaşayan insanlarda müşahidə olunan DNT müxtəlifliyinə gətirib çıxardığına baxmışlar. Məlum olmuşdur ki, iki müxtəlif populyasiyada bizim növün əcdadlarının izləri yoxdur. 600000 il əvvəl kiçik bir qrup birinci populyasiyadan şaxələnərək neandertallara başlanğıc vermişdir. Lakin hər iki populyasiya Afrikada hələ yüz min illər mövcud olmuşdur. Belə ki, onların fərqləndiyi mutasiyaların sayı o qədər də çox olmamışdır - bu populyasiyaların nümayəndələri materik boyu miqrasiya etmiş və öz aralarında cütləşmişlər. Modeldən alınan nəricələr göstərmişdir ki, müasir Afrika xalqlarına gətirib çıxaran yeni xətlər müxtəlif yerlərdə və müxtəlif zamanlarda yarana bilərdi.

Müasir insana - Homo sapiens sapiens-ə gətirən təkamül yolları: Müasir insana gətirən təkamül yolunun başlanğıcında "kimlər" dururdu, bu növ yeganə idimi və ya bu prosesdə digər növlərin də iştirakı olmuşdumu? Bu suallara maraqlı cavabları Rusiya EA Sibir Bölməsinin Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, tanınmış alim, akademik Anatoliy Panteleyeviç Derevyankonun Rusiyada nəşr olunan "Elm və Həyat" (Nauka i jizně) jurnalının 2023-cü il noyabr nömrəsində dərc olunan "Mənim qızıl vadim..." adlı müsahibəsində tapmaq olar. Qeyd edək ki, A.P.Derevyanko Sibir ərazisində, həmçinin Denisov mağarasında apardığı bir sıra tədqiqatları ilə tanınan görkəmli arxeoloq akademik Aleksey Pavloviç Okladnikovun tələbəsi olmuşdur. Eyni zamanda, hazırda o, Paabo Svante ilə də çox yaxın əməkdaşlıq edir.

Akademik A.P.Derevyanko müsahibəsində qeyd edir ki, Denisov mağarası və digər yerlərdə əldə edilən arxeolji/antropoloji qalıqların analizi neandertalların və sapiyenslərin təkcə Denisov mağarasında deyil, ümumiyyətlə, Altayda, Sibirdə və Asiyanın müxtəlif bölgələrində eyni vaxtda olmasa da, eyni xronoloji dövrlərdə, müxtəlif qiymətləndirmələrə görə ~60-40 min il əvvəl yanaşı yaşamasını göstərir. Güman etmək olar ki, onlar yanaşı yaşasalar da, hər bir populyasiya öz maddi və mənəvi mədəniyyətlərini qoruyub saxlamışdır. Bunu qeyd olunan ərazilərdə tapıntıların çoxqatlı xarakter daşıması da göstərir. Hazırda unikal arxeoloji abidə olan Denisov mağarasından əldə edilən yeni tapıntılar bu ərazidə maddi və mənəvi mədəniyyəti 30-40 min illik bir dövrü əhatə edən xronoloji ardıcıllıqla izləməyə imkan verir. Burada Avrasiyada 40-50 minillik tarixə malik Üst Paleolit sənayesi aşkarlanmışdır. Bindan bağqa, burada dünyada mövcud olan bu cür abidələr üçün ən böyük miqdarda sümükdən və sümük iynələrindən hazırlanan əşyalar, sümük, daş və balıqqulağından hazırlanan fərdi bəzək əşyaları, strausun yumurtasının fraqmentləri və s. də aşkarlanır. Paabo Svante məhz bu mağarada tapılan antropoloji nümunədən (qız uşağına aid çeçələ barmaqdan) ayrılan DNT-nin ardıcıllığının müasir insanın, həmçinin neandertalların DNT-sindən fərqləndiyini göstərərək Denisov insanının yeni takson olduğunu söyləmişdir.

A.P.Derevyanko göstərir ki, Çində tapılan daha bir antropoloji nümunənin Homo cinsinin formalaşmasında rol oynayan yeni bir taksona aid edilməsi məsələsi də vardır. Belə ki, cinsin ilk nümayəndələri ~2,8 milyon il əvvəl Afrikada avstralopiteklərin əcdadlığı əsasında

formalaşmışlar. Buna görə də müasir tipli insanın - Homo sapiens sapiens-in mənşəyi barədə fikirlər mürəkkəb olmaqla müxtəlifdir. Elmdə iki hipotez mövcuddur. Birincisinə görə, müasir tip insan ~200-150 min il əvvəl Afrikada yaranmış və ~80-60 min il əvvəl Avrasiyaya yayılmağa başlamışdır. Bu prosesdə o, "yerli əhalini" sıxışdırmış, mümkündür ki, bu zaman qismən assimilyasiya da etmişdir. İkinci hipotez isə multiregional təkamülü nəzərdə tutur. Onun mahiyyətini qısaca belə ifadə etmək olar: erektusların yayıldığı ərazilərdə yaranan əlverişli şərait və təkamül prosesində gen dreyfi nəticəsində müasir tipli insanın yarımnövünün (altnövünün) yaranması da mümkündür.

Akademik A.P.Derevyankonun fikrincə isə, Homo erectus ~1,75 milyon il əvvəl Afrikadan Avrasiyaya miqrasiya etmişdir. Bu erektus əcdadı əsasında isə ~900-800 min il əvvəl Afrikada yeni takson yaranmışdır. Bu taksonu antropoloqlar Homo rhodesiensis və ya Homo heidelbergensis adlandırırlar. Bu iki eyni bioloji növün adı olsa da, onların taleləri müxtəlif olmuşdur. Homo rhodesiensis Afrikada qalmış, onun əcdadlığı əsasında ~200-150 min il əvvəl müasir tipli "erkən insan" növü - Homo sapiens africanensis formalaşmışdır. Homo heidelbergensis isə ~800 min il əvvəl Afrikadan Yaxın Şərqə miqrasiya etmişdir. Onların tarixi ən yaxşı Levant (Kənan) əyalətində öyrənilmişdir. ~700 min il əvvəl isə heydelberqlilərin bir qismi Kənandan Avropaya köç etmiş, ~200-150 min il bundan qabaq isə onun əcdadlığı ilə burada yeni bir takson - Homo sapiens neanderthalensis yaranmışdır. Maraqlı bir fakt isə bundan ibarətdir ki, ~400-350 min il əvvəl heydelberqlilər Asiyanın şərqinə miqrasiya etmişlər və burada "gec" (sonrakı nəsil) erektuslarla hibridləşərək denisovluların - Homo sapiens altaiensis-lərin yaranmasına səbəb olmuşlar, bunlar isə öz növbəsində ~300 min əvvəl Denisov mağarasında və Altayın digər regionlarında məskunlaşmışlar.

A.P.Dereyankonun fikrincə, Afrika və Avrasiyada Homo cinsinin son 3 milyon il ərzində təkamülcə inkişafı prosesində homininlərdə genetik sistem açıq qalmışdır ki, bu da onlara cütləşməyə və nəticədə "məhsuldar reproduktiv nəsil" verməyə imkan yaratmışdır. İnsan təkamülünün son mərhələsində (~120-60 min il əvvəl) formalaşan və hazırda fərqli üç taksonun (H.sapiens africanensis, H.sapiens neanderthaliensis və H.sapiens altaiensis) ayırd edilməsi də bu fikri təsdiqləyir. Açıq genetik sistemə malik olmaları bu taksonların qarşılıqlı şəkildə "cütləşərək" reproduktiv nəsil verə bilməsini göstərir - lakin bu assimilyasiya prosesi artıq növlərarası deyil, novdaxili xarakterə malikdir.

Qeyd edilən proseslər Şərqi və Cənub-Şərqi Asiyada da getmişdir. Bu geniş ərazilərdə H.erectus ~1,7-1,6 milyon il əvvəl məskunlaşmışdır. Analoji "sapiyensləşmə" prosesi burada da baş vermişdir. Məsələn, Çində bir neçə aralıq takson tapılmışdır ki, bu da insanın sonrakı təlamül prosesindən xəbər verir. Belə ki, ~120-100 min il bundan əvvəl bu ərazidə müasir tipli insana aid olan və şərti olaraq Homo sapiens orientalensis adlandırılan dördüncü altnöv formalaşmışdır. ~60-50 min il bundan qabaq müasir tipli insanın Afrikadan (H.sapiens africanensis) Avrasiyaya səpələnməsi başlanmışdır. Avropada onlar H.sapiens neanderthaliensis-i, Mərkəzi və Şimali Asiyada H.sapiens altaiensis-i, Şərqi və Cənub-Şərqi Asiyada isə H.sapiens orientalensis növünü assimilyasiya etmişlər. Beləliklə, Afrikadan çıxan insanın müasir tipli insanın kök rolu oynayaraq göstərilən üç digər altnövlə assimilyasiyası nəticəsində indi bizim tanıdığımız müasir insanlar formalaşmışdır, başqa sözlə, biz yaranmışıq.

Bundan başqa, belə bir hipotez (Afrika Həvvası nəzəriyyəsi) vardır ki, bütün insanlar bir əcdad anadan törəmişlər. Bu nəzəriyyə hesab edir ki, müasir tipli insanların Afrikadan Avrasiyaya miqrasiyası əvəzlənməyə gətirib çıxarmışdır - yəni müxtəlif səbəblər (növlərarası mübarizə, çətin həyat təminatı nəticəsində aborigenlərin öz ərazilərindən sıxışdırılması və s.) üzündən "yerli əhali" tədricən yo-

xa çıxmışdır. Bu hipotez bir sıra suallara müsbət cavab tapmağa imkan verir. Lakin hər halda müasir insanın Afrikadan gələn "miqrantların" kök rolu oynaması ilə göstərilən dörd altnövdən formalaşması həqiqətə daha oxşardır. Yer üzündə yaşayan insanlar genetik cəhətdən vahid populyasiyadır, lakin, bununla yanaşı, müxtəlif təbii-iqlim şəraitə uyğunlaşma ilə əlaqədar biz morfoloji cəhətdən bir qədər fərqlənirik. Afrikada isti və rütubətli iqlim səbəbindən fərqli üz quruluşu, dəri rəngi, saçlar, monqoloidlərdə isə güclü küləklərlə əlaqədar xeyli irəli çıxmış yanaq sümükləri, şişmiş göz qapaqları və s. formalaşmışdır. Bütün bu adaptiv fərqli əlamətlər bizim növün son 60-30 min il müddətində formalaşdığı dövr ərzində meydana gəlmişdir.

Neandertalların genomu ilə ~60 min il qabaq Afrikadan Avrasiyaya köç edən müasir insan tipinin genomunun məhz nə vaxt qarışmasının müəyyən edilməsi də maraq doğuran məsələlərdən biridir. Başqa sözlə, neandertal DNT ardıcıllıqlarının müasir insan genomunda meydana çıxması və bu prosesin dayanması vaxtının müəyyən edilməsi bir çox suallara, o cümlədən miqrasiyaların nə vaxt baş verməsi barədə suala cavab verə bilər. "Nature News" jurnalında dərc olunan bir məqalədə qeyd olunan prosesin bu yaxınlarda getdiyi, həmçinin o qədər də uzun sürmədiyi haqqında məlumatlar verilir. Məqalənin müəllifləri - Almaniyanın Maks Plank Təkamül Antropologiyası İnstitutunun əməkdaşı Leonardo İasi və həmkarları bu məqsədlə ~45000-2200 il intervalında yaşamış 58 insan genomunu analiz edərək onları 231 nəfər müxtəlif mənşəli (yəni təkcə Afrika mənşəli deyil) müasir insanın genomu ilə müqayisə etmişlər. Kifayət qədər uzun dövrü əhatə edən material və irimiqyaslı müqayisə neandertal genom ardıcıllıqlarının müasir insanın genomuna daxil olmasını izləməyə imkan vermişdir. Nəticələr göstərmişdir ki, neandertalların müasir insanın genomuna verdikləri töhfə bir gen axını dalğasında ~47000 il bundan əvvəl, yəni gözlənildiyindən daha yaxın vaxtda baş vermişdir. Bu vaxta qədərki nəzəri hesablamalar isə bu qarışmanın ~60-50 min il bundan əvvəl baş verdiyini, bundan başqa, bu növlərin genetik qarışmasının təkamül nöqteyi-nəzərindən çox qısa müddətdə, yəni ~6800 il davam etdiyini qeyd edirdi. Bu isə neandertalların məhvolma təhlükəsi qarşısında olduqları vaxta uyğun gəlirdi.

Antik DNT və Rapa-Nui - Pasxa adası əhalisinin mənşəyi: Bildiyimiz kimi, Rapa-Nui və ya "Te-Pito-o-Tee-Henya (dünyanın göbəyi),



həmçinin Pasxa adası kimi tanınan ada dünyada ən izolə olunmuş yaşayış yerlərindən biridir. Sakit okeanda yerləşən bu ada ona şərqdə ən yaxın ada olan Polineziyadan 1900 km, Cənubi Amerikadan isə 3700 km məsafədədir. Ada, onun sakinləri və zəngin mədəniyyəti arxeoloqlar, antropoloqlar və genetiklər tərəfindən geniş şəkildə tədqiq edilsə də, Rapanui tarixinin iki əsas elementi bu günə qədər çox mübahisəli olaraq qalır. Bunlardan biri 1600-cü illərdə "ekosid" və ya "ekoloji intihar" yolu ilə əhalinin məhv olması (populyasiya kollapsı) nəzəriyyəsidir ki, bunun da adada əhalinin həddindən artıq çox olması və resursların düzgün idarə edilməməsinin nəticəsində baş verməsi güman olunur. Digər əsas mübahisəli məsələ, Rapanuilərin Polineziyalı əcdadlarının 1722-ci ildə avropalılarla təmasdan əvvəl yerli amerikalılarla qarşılıqlı əlaqədə olub-olmamasıdır.

"Nature" jurnalının 2024-cü il 11 sentyabr tarixli sayında 1670-1950-ci illərdə yaşamış 15 Rapanuilinin genomlarının tədqiqi ilə bu iki mübahisəli məsələyə aydınlıq gətirilmişlər. Nümunələr radiokarbon analizi ilə göstərilən müddətlərə aid edilmişdir və tədqiq edilən nümunələr hazırda Parisdə İnsan Muzeyində saxlanılır. Genetik tədqiqatlar Kopenhagen Universitetinin (Danimarka) Globe (Qlobus) İnstitutunun dosenti Viktor Moreno-Mayarın rəhbərliyi ilə Rapa-Nuidən, İsveçrə, Avstriya, Fransa, Avstraliya və ABŞ-dan olan 15 nəfər alimdən ibarət beynəlxalq elmi qrup tərəfindən həyata keçirilmişdir.

"Ekosid" nəzəriyyəsinə görə, 1250-ci ildə 15000-dən artıq əhalinin Polineziyadan gələrək burada məskunlaşması meşələrin qırılaraq adanın tamamilə çılpaqlaşmasına, resursların qıtlığına, aclığa, müharibələrə və hətta hannibalizmə, bunula da, əhalinin sayının kəskin azalmasına gətirib çıxarmışdır. Lakin qədim rapanuilərin genomlarının tədqiqi 1600-cü illərdə "əhali kollapsı"nın olması lehinə heç bir dəlil aşkar etməmişdir. Əksinə, XIII əsrdən ta XVIII əsrdə avropalılarla kontakta qədər əhali burada stabil olaraq artmışdır. Adanın əhalisi ekoloji problemlərlə üzləşsə də, inkişaf baxımından davamlı olmuşdur. Əsl fəlakət 1722-ci ildə adaya Avropa müstəmləkəçilərinin gəlişindən sonra başlamışdır.

Digər mübahisəli məsələ isə Polineziyalıların Amerikaya gedib çıxıb-çıxmaması məsələsi olmuşdur. Baxmayaraq ki, Rapa-Nuidə meşələrin məhvindən sonra ağacdan hazırlanan gəmilərlə uzun məsafələrə üzmələr praktiki olaraq dayanmışdır, arxeoloji, həmçinin müasir insanların genetik tədqiqatları, doğrudan da, Amerikaya belə trans-Sakit Okean səfərlərinin olmasını təsdiqləyən dəlillər verir. Belə ki, Rapa-Nuinin 15 qədim insanının genomunun tədqiqi adanın əhalisinin genefondunun ~10%-inin yerli Amerika (qeyd: nativ hindu) mənşəyinə malik olduğunu göstərmişdir. Bundan başqa, maraqlı fakt bundan ibarətdir ki, bu populyasiyalar müstəmləkəçi avropalıların adaya və Amerika qitəsinə gəlişinə qədər bir-biri ilə görüşmüşlər. Genetik analizlər bu təmasların XIII-XV əsrlər arasında baş verdiyini göstərir. Lakin hələlik bu təmasların məhz harada və hansı yolla baş verdiyini söyləmək mümkün olmasa da, rapanuilərin əcdadlarının Amerikaya Xristofor Kolumbdan daha əvvəl gəlməsi şübhəsizdir. Ən başlıcası isə aparılan tədqiqatlar avropalıların gəlişinə qədər adada populyasiya kollapsı ilə müşayiət olunan "ekosid" ideyasını tamamilə aradan qaldırdı.

Deyəsən, biz Svante Paabo və onun Nobel mükafatından kifayət qədər uzaqlaşdıq. Ciddi şəkildə decək, əslində ona Nobel mükafatını homininin təkamülü haqqında olan kəşfinə görə veriblər. Lakin neandertal və Denisov insanı misalında Paabo əvvəllər başqalarının təsəvvür edə bilmədiyi bir şeyi nümayiş etdirdi: qədim DNT-nin ardıcıllığını oxumaq olar. Əlbəttə, bu işdə molekulyar genetika metodlarının inkişafı böyük rol oynamışdır, lakin bu metodları belə qeyri-adi məsələnin həllində istiafdə etmək məhz Paabonun ağlına gəlmişdir. ●



**Coşqun MƏMMƏDOV**
*AMEA Rəyasət Heyətinin elmi katibi*

# Terrorsuz Türkiyə: bir millətin cəsarətlə yazdığı yeni tarix

## *Kədərin bitdiyi, ümidin doğduğu yeni bir dövr başlayır...*

**Türkiyənin təxminən yarım əsri əhatə edən və böyük qurbanlar bahasına başa gələn terrorizmə qarşı mübarizəsi, nəhayət, öz müsbət nəticəsini verdi. 1978-ci ildə yaradılan, 1984-cü ildən etibarən terror aktları həyata keçirən və 40 min-dən artıq insanın həyatına son qoyan PKK terror təşkilatı öz mövcudluğunu sona çatdırmaq qərarını elan etməyə məcbur oldu.**

Qətiyyətli mövqeyi və uzaqgörən siyasəti ilə seçilən, müasir dünyanın nüfuzlu dövlət başçılarından olan Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə qardaş Türkiyə Cümhuriyyəti bu gün "Terrorsuz Türkiyə" hədəfinə doğru əzm və inamla irəliləməkdədir. "Ya silahları gömməcəklər, ya da silahlarla gömüləcəklər" fikri Türkiyəni terrora qarşı mübarizədə tarixi dönüş nöqtəsinə çatdırmış Prezident Rəcəb Tayyib Ərdoğanın güclü siyasi iradəsinin parlaq ifadəsidir.

Uzun illərdir böyük güclərin əlində bir alətə çevrilmiş PKK terror təşkilatının əsas məqsədi türk və kürd xalqları arasındakı qardaşlıq bağlarını zəiflətmək, ölkədə sabitlik və həmrəyliyi pozaraq separatçı fikirlərlə dövlətin əsas prinsiplərinə zərbə vurmaq olmuşdur.

Düşmənin bu kimi məkrli siyasətinə və xain hücumlarına qarşı daim qəti və prinsipial mövqe sərgiləyən Türkiyə Cümhuriyyəti, xüsusilə son on il ərzində terrorizmə qarşı daha təsirli yeni hərbi-taktiki əməliyyatlar həyata keçirməyə başlamışdır. Belə ki, Türkiyə ordusu təkcə ölkədaxili deyil, qonşu İraq və Suriya ərazilərində də terror yuvalarının məhv edilməsi əməliyyatlarını böyük əzimkarlıqla yerinə yetirmişdir. Xüsusilə, Suriyada əldə edilmiş unikal siyasi uğurlar bu təşkilatın fəaliyyətinin neytrallaşmasına əsaslı zəmin yaratmışdır.

Türkiyə yalnız hərbi sahədə deyil, siyasi arenada da terror təşkilatına qarşı qətiyyətli mübarizə aparmışdır. Nəticədə ABŞ, Avropa İttifaqı, Avstraliya və başqa bu kimi ölkələr PKK-nı terror qruplaşması kimi tanımışdır. Xüsusilə, ABŞ PKK-nı 1997-ci il avqustun 10-dan terrorçu təşkilatlar siyahısına daxil etmiş, 2003-cü ildə isə Dövlət Departamenti bu təşkilatı hansı ad altında fəaliyyət göstərməsindən asılı olmayaraq, onu terror təşkilatı kimi qəbul etdiyini bildirmişdir.

Lakin bütün bunlara baxmayaraq, daim ikili standartlar sərgiləyən bəzi böyük dövlətlər bu ilan yuvasını dolayı, bəzən isə açıq şəkildə dəstəkləmiş, hətta birbaşa silah-sursatla ona yardım etmişlər. Bu mənada, Türkiyənin terror təşkila-



tı üzərində qazandığı qəti qələbə, eyni zamanda, bu təşkilatı himayə edən, bəsləyən qlobal güclərə qarşı da ən böyük hərbi-siyasi cavabdır.

Məhz, Prezident Rəcəb Tayyib Ərdoğanın da qeyd etdiyi kimi: "Terrorsuz Türkiyə" yeni mərhələyə qədəm qoyur. Qazanan millətimiz, ölkəmiz və regiondakı qardaşlarımız olacaq...

...Bu prosesdən uduzan tərəf isə qanla bəslənən imperialistlər olacaq".

Hər zaman "Bir millət, iki dövlət" milli konsepsiyasını rəhbər tutan qardaş Azərbaycan Türkiyənin bu tarixi qələbəsinə dəstək verərək sevincini bölüşdü. Prezident İlham Əliyevin X sosial şəbəkə hesabında yayımladığı paylaşımda bu fikirlər yer alır: "Başda əziz Qardaşım, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla bütün qardaş Türkiyə xalqını PKK terror qruplaşmasının özünü ləğv etmək və silahı yerə qoymaq qərarı münasibətilə ürəkdən təbrik edirəm. Əziz Qardaşımın bəyan etdiyi "Terrorsuz Türkiyə" hədəfinə çatmaqda vacib mərhələ olan bu hadisə dövlətçilik yolunda ölkədə aparılan qətiyyətli siyasətin nəticəsi, güclü liderliyin və sarsılmaz iradənin, milli birliyin və həmrəyliyin təntənəsidir. Alınmış qərarın tam icrası istiqamətində Türkiyə dövlətinə və xalqına uğurlar arzulayıram".

Bəli, qətiyyətli lider - güclü dövlət və parlaq gələcək deməkdir. Bu mənada, biz bu fikri Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın xalqın inamını qazanmış iki müdrik rəhbər kimi tarixə adlarını qızıl hərflərlə yazdıran liderlərin timsalında açıq şəkildə görə bilərik. Bu gün hər iki qardaş ölkə regionda və dünyada öz haqlı mövqelərini birlikdə qətiyyətli şəkildə müdafiə edən, möhkəm təməllər üzərində siyasi və iqtisadi baxımdan dayanıqlı inkişaf yolu ilə addımlayan nadir ölkələrdəndir.

Böyük öndər Mustafa Kamal Atatürkün "YURDDA SÜLH, CAHANDA SÜLH" şüarını dövlət idarəçiliyinin əsas prinsipi kimi qəbul edən Türkiyə Cümhuriyyəti bu gün "Terrorsuz Türkiyə" ideyasını reallığa çevirməklə həm ölkə daxilində, həm də beynəlxalq aləmdə sülhə və sabitliyə sadiqliyini bir daha sübut etmiş oldu.

Eyni zamanda, Türkiyə rəhbərliyi sarsılmaz qətiyyəti hesabına qazandığı uğurlarla həm müqəddəs irsə sədaqətini, həm də gələcək nəsillərə terrordan uzaq, dinc, firavan və təhlükəsiz Vətən miras qoymaq əzmini də nümayiş etdirdi.

İnanırıq ki, terrorizmin kökünün kəsilməsi ölkədə davamlı sülh və sabitliyin, dayanıqlı inkişafın təmin olunması baxımından mühüm addım olacaqdır. Eyni zamanda, Türkiyənin tarixə düşəcək parlaq qələbəsi onun gələcək inkişafına, regionda və dünyada gücünün, nüfuzunun daha da artmasına geniş imkanlar açacaqdır. Bu mənada, terror təşkilatının ləğvi Türkiyə və ona dost-qardaş dövlətlər üçün yeni bir dövrün başlanğıcı kimi qiymətləndirilə bilər.



**Esmira CAVADOVA**
*Tarix üzrə fəlsəfə doktoru, dosent,*
*Ali Media Mükafatı laureatı, Zərdabişünas*

# Ziya işığına yığışan sönməzlər

*("Əkinçi" qəzetinin müxbirləri silsiləsindən - Nəcəf bəy Vəzirzadə)*

**"Əkinçi" qəzetinin fəal müxbirlərindən biri də Həsən bəy Zərdabi ideyalarının həyata keçirilməsinə çalışan, bu yolu yaşadan ədib - dramaturq Nəcəf bəy Vəzirzadə olmuşdur. Nəcəf bəy Vəzirzadə 1854-cü ildə Şuşa şəhərində anadan olmuşdur. O, 1866-cı ildə 12 yaşında mədrəsəyə daxil olmuş, bir il molla yanında oxumuşdur. Mədrəsədə verilən təhsil Nəcəfi razı salmadığı üçün o, mədrəsədən çıxmış və qohumlarının köməyi ilə 1867-ci ildə Şuşada Mülkiyyə məktəbinə daxil olmuşdur. Burada da tədris olunan dərslər onu qane etmədiyi üçün o, bu məktəbdən də çıxmışdır. Nəcəfin istedadlı uşaq olduğunu görən uzaq bir qohumu ona rus dili və onun qrammatikasını öyrədir. Bu təlimə əsasən, Nəcəf 1868-ci ildə Bakıya gəlir və Bakıda fəaliyyət göstərən "Realnı Gimnaziya"ya imtahan verib oranın ikinci sinfinə qəbul olunur. Burada tədris olunan dərslər, nizam və intizam Nəcəfin ürəyincə olur. Nəcəfə gimnaziyada dərs deyən müəllimlərdən biri də Moskva Universitetinin məzunu, böyük ziyalı və alim Həsən bəy Zərdabi (1842-1907) idi. H.B.Zərdabinin yüksək səviyyədə dərs deməsi, tələbələrlə ünsiyyəti və onlara göstərdiyi atalıq qayğısı Nəcəfi elmə həvəsləndirdi.**

H.B.Zərdabi gimnaziyada oxuyan tələbələrin bəzilərinin oxumaq haqqını ödəməkdə, dəftər-kitab və geyim almaqda çətinlik çəkdiklərini gördükdə onlara kömək məqsədilə teatr göstərib, pul qazancı əldə etmək mümkün olduğunu demiş və bu fikri həyata keçirmək üçün onları həvəsləndirmişdi.

1873-cü il aprel ayının 17-də H.B.Zərdabinin təşəbbüsü və rəhbərliyi ilə gimnaziyanın ən böyük otağında M.F.Axundzadənin "Hacı Qara" komediyası "Realnı Gimnaziya"nın şagirdləri tərəfindən oynanılır. Tamaşanın hazırlanmasında H.B.Zərdabiyə kömək edən şagirdlərdən Əsgər ağa Adıgözəlzadə və Nəcəf bəy Vəzirzadə istedadları ilə fərqlənmişlər. Bu tamaşa böyük sensasiyaya səbəb olmuşdu. Və bununla da H.B.Zərdabi tərəfindən Azərbaycanda milli teatrın bünövrəsi qoyulmuş oldu. Tamaşanın belə böyük müvəffəqiyyət qazanması Nəcəfdə dramaturgiyaya meyli artırdı.



**Nəcəf bəy Vəzirzadə**

Gənc Nəcəf bilik və bacarığına güvənərək gimnaziyada oxuduğu illərdə maddi durumunu artırmaq məqsədilə evlərdə dərs deyirdi. Müxtəlif ailələrdə olub dərs deməsi ona dram əsərlərinin yazılmasına mövzu verirdi.

1874-cü ildə Nəcəf bəy Vəzirzadə "Realnı Gimnaziya"nı gümüş medalla bitirir və imtahansız Peterburq Universitetinə qəbul olur. Lakin xəstələndiyi üçün həkimlərin məsləhəti ilə o, Moskvaya qayıdır və Petrovski-Razumovski adına Kənd Təsərrüfatı Akademiyasına daxil olur. Akademiya kənd təsərrüfatı işçiləri və meşəbəyi hazırlayırdı. Bu illərdə N.B.Vəzirzadə ictimai-siyasi fəallığı ilə seçilən tələbələrin arasında idi. Onun adı iğtişaşçı tələbə kimi hökumət nəzarəti başçılarının siyahısına salınmışdı.

İnstitutda oxuduğu illərdə Nəcəf bəy müəllimi Həsən bəyin təsis etdiyi "Əkinçi" qəzetinə (1875-1877) məqalələr göndərir və onunla məktublaşırdı. Bu illər ərzində N.B.Vəzirzadənin qəzetdə səkkiz məqaləsi və bir məktubu çap olunmuşdur. Məqalələri "Nəcəf", "Nəcəf Vəzirzadə", "N.B. və Harayçı qardaş" imzaları ilə çap olunmuşdur.

Nəcəf bəy "Əkinçi" qəzeti 1876, 22 sentyabr, 18-ci sayının "Məktubat" bölməsində çap olunmuş məqaləsində köhnəlmiş adət-ənənələrin əleyhinə çıxaraq yazırdı: "...bizim adəti-qədimə zəmanə rəftarı ilə düz gəlmir. Biz qanacağımızı artırmağa səy edəndə adəti-qədimləri dəyişdirməyə səy etmirik". Və ya "Əkinçi" 1876, 6 noyabr, 21-ci sayında Nəcəf bəy məktəblərdə uşaqlara verilən təlimdən danışaraq yazırdı: "Bizim müəllim uşaq üçün cəlladdır. Uşağı döyməyə, papiros çəkməyə adət edən təki, adət edib deyir: "uşaq döyülməsə, oxumaz". Ata və ana uşağı ona tapşıranda deyir: "əti sənin, sümüyü mənim". "Döy ki, adam olsun və dəxi bunu fikir etmir ki, belə döyülməkdən özü bu günə qalıb və belə vay günə onun övladı həm qalacaq. Ey uşağı olan və onlara təlim edən, ol biçarələrə deyin ki, onlar sizin düşməniniz deyillər, onlar ilə adam kimi rəftar edin ki, adam olsunlar".

Nəcəf bəy "Əkinçi" 1877, 14 aprel, 8-ci sayının "Məktubat" bölməsində dərc etdiyi məqaləsində yazırdı: "Hərdəm tənha oturub fikir edirəm: xudavənda, bizim axırımız necə olacaq? Ağlımız ata-baba ağlı, getdiyimiz ata-baba yolu, heç bir dəyişiklik yoxdur. ...pəs biz haçaq öz dərdimizin əlacının dalıycan olub, uşaqlarımıza elm öyrədəcəyik?"




"Əkinçi" 1877, 13 may, 10-cu sayının "Məktubat" bölməsində isə Nəcəf bəy yazırdı: "Çünki bizim zəmanə tərəqqi zamanıdır və tərəqqi etməyən tayfa günü-gündən tənəzzül edib axırda puç olacaq, ona binaən bizim şüarə qardaşlarımızdan ki, onlar əlhəqq xalqın gözçüsüdürlər, - iltimas edirik zəmanəyə müvafiq xalqın gözünü açmağa səy eləsinlər, yoxsa hədyan danışmaq bir çətin zad deyil, ondan heç kimsəyə bir nə yoxdur."

Nəcəf Vəzirzadənin Moskvadan "Əkinçi"yə göndərdiyi bir məktubu çox təsirlidir. Onun bu məktubu qəzetin 1877, 1 sentyabr, 18-ci sayında "Harayçı qardaş" imzası ilə "Məktubat" bölməsində çap olunmuşdur. Müəllif haray salaraq, təbil vuraraq, fəryad edərək yazırdı: "Ay qardaşlar, "Əkinçi" qəzetinin fəryadını eşidib elm təhsil etmək dalıncan olun! "Əkinçi" qəzeti sizin üçün axırda çıxan şəfəqdir. Bu şəfəqi sönməyə qoymayın! Yoxsa, "Əkinçi" sönüb bizi zülmətə qərq edər ki, bu zülmətdən bizim üçün xilas yolu yoxdur!"

Çox əfsus ki, "Əkinçi" qəzetinin 1877-ci il 29 sentyabr 20-ci sayı onun son sayı oldu. Lakin H.B.Zərdabi bilirdi ki, "Əkinçi" qəzetinin şəfəq şüaları yeni yaranan nəşrlərin yolunu daim işıqlandıracaqdır.

Beləliklə, Nəcəf bəy Vəzirzadənin "Əkinçi" qəzetində çap olunmuş məqalələrindən verdiyimiz seçmə fikirlərindən aydın olur ki, o, yeni tipli məktəblərin açılmasını, tədris vəsaitlərində yeniliyin təbliğ olunmasını istəmiş, köhnə adətləri tənqid etmişdir. Elm-təhsil dalınca getməyi vacib saymış və xalqa bu yolla getməyi tövsiyə etmişdir. Bununla da əziz müəllimi Həsən bəydən ilham alan gənc Nəcəf ilk işığın parıltısını "Əkinçi"də görmüş və sonrakı uzun illər, bütün yaradıcılığı boyu millətinin maariflənməsi təbliğinə yönələn əsərlər yaradaraq görkəmli dramaturq və yazıçı kimi şöhrət qazanmışdır.



**Nigar GÖZƏLOVA**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, tarix elmləri doktoru*

# Ofelya xanım Bağırbəyovanın xatirələri: İrəvan xan ailəsinin tarixi və mədəni irsi

**Ofelya xanım Bağırbəyova Azərbaycanın İrəvan xan nəslinə mənsub olmaqla, ölkənin tarixi-mədəni irsini yaşadan, maarif və elmin inkişafına töhfə verən görkəmli şəxsiyyətlərdən biridir. O, Abbasqulu xan İrəvanski və Pənah xan Makinskinin nəticəsi, Əli xan və Tacı xanımın nəvəsi olaraq üç nəslin ənənələrini davam etdirir. Ofelya xanımın sələfləri XIX-XX əsrlərdə İrəvan xanlığında, daha sonra isə İrəvan quberniyasında milli mədəniyyətin, təhsilin və iqtisadiyyatın inkişafında mühüm rol oynamışlar.**



**Abbasqulu Xan İrəvanski (mərkəzdə) ailəsi ilə**

Ofelya xanımın ailəsi Sovet hakimiyyətinin "qırmızı terror" siyasətindən ağır zərbələr almış və bu proses ailənin tarixi irsinə və şəxsi yaddaşına əvəzolunmaz itkilər gətirmişdir. Xan ailələrinin üzvləri, xüsusilə Ofelya xanımın ailə şəcərəsinə mənsub olan insanlar Sovet hakimiyyətinin repressiya siyasətinə məruz qalmış, ailəsinin bir çox üzvü sürgün edilmiş, bəziləri isə "xalq düşməni" damğası ilə həbs olunmuş və güllələnmişdir. Ailənin üzvləri arasındakı yaxın bağlar da bu repressiyalar nəticəsində qırılmışdır. Sürgün edilənlərin bir çoxu geri qayıda bilməmiş, ailə fərdləri müxtəlif ölkələrə səpələnmiş və bir-birləri ilə əlaqə saxlaya bilməmişlər.

Ailənin yüksək sosial statusu, onların maarifçilik fəaliyyəti və milli dəyərlərə olan sadiqliyi, Sovet hökuməti tərəfindən təhlükə kimi qəbul edilmişdir. Bu səbəbdən, ailə üzvləri davamlı olaraq nəzarət altında saxlanılmış və ən kiçik fəaliyyətləri belə şübhə ilə qarşılanmışdır. Ofelya xanım xatirələrində qeyd edir ki, Sovet rejiminin təqiblərindən qorxan atasının ailəvi fotoşəkilləri, sənədləri və digər şəxsi xatirə əşyalarını yandırmaq məcburiyyətində qaldığı bir dövr yaşanmışdır. Bu, yalnız bir ailənin deyil, bütöv bir nəsil üçün tarixi yaddaşın məhv edilməsi demək idi. Ofelya xanımın ailəsi, yaşanan zülmlərə baxmayaraq, milli dəyərlərini və maarifçilik ənənələrini xatirələr vasitəsilə qoruyub saxlamağa çalışmışdır.

Sovet rejiminin repressiyaları, yalnız Ofelya xanımın ailəsinin deyil, bütövlükdə İrəvan xan ailəsinin və Azərbaycan tarixinin bir çox aspek-

tini məhv etmişdir. Sovet repressiyalarının ən acı nəticələrindən biri, xan ailələrinin zəngin maddi və mədəni irsinin məhv edilməsi idi. Ailə üzvlərinin sürgünləri, mədəni irsin məhv edilməsi və şəxsi yaddaşın sistemli şəkildə silinməsi, Sovet hakimiyyətinin milli kimliyi zəiflətmək üçün apardığı məqsədyönlü siyasətin tərkib hissəsi idi.

Ofelya xanımın xatirələri, bu dövrdə yaşananların təsvirini verərək, yalnız şəxsi bir hekayə kimi deyil, həm də Azərbaycanın tarixi yaddaşının bir hissəsi kimi qiymətləndirilməlidir. Ailənin yaşadığı bu acılar, milli irsin qorunmasının nə qədər mühüm olduğunu bir daha xatırladır.


Pənah xan Makinski

## Şəxsiyyətin formalaşması və ailə irsi

Ofelya xanımın ailə irsi Azərbaycan tarixi ilə sıx bağlıdır. Onun babası Əli xan Makinski XX əsrin əvvəllərində Azərbaycanın mədəni həyatında, xüsusilə teatr sənətində mühüm xidmətlər göstərmiş, İrəvan teatrının formalaşmasında böyük xidmətləri olmuşdur. İrəvanın adlı-sanlı zadəganlarından Pənah xan Makinskinin və Əli xan İrəvanskinin mülklərində xeyriyyəçilik məqsədilə İrəvan teatrının tamaşaları oynanılmışdır. Lakin 1920-ci ildə Sovet hökumətinin təqiblərinə məruz qalaraq erkən yaşda dünyasını dəyişmişdir. Babasının faciəli taleyi, ailəsinin sürgün və təqiblərə məruz qalması, xan nəslinin zəngin irsini qorumaq və gələcək nəsillərə çatdırmaq məsuliyyətini Ofelya xanıma ötürmüşdür.

1934-cü ildə Bakı şəhərində anadan olan Ofelya xanım, Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsini bitirmiş və geologiya sahəsində tanınmış alimlərdən biridir. Geologiya-mineralogiya elmləri namizədi kimi Azərbaycanda ilk dəfə maqmatik süxurların radioxronoloji tədqiqatını həyata keçirmişdir. Onun rəhbərliyi ilə "İzotop geologiyası və geoxronologiya" laboratoriyası yaradılmış, bu sahədə müasir tədqiqat metodları tətbiq olunmuşdur. Ofelya xanımın apardığı elmi işlər, yalnız Azərbaycanın geologiya elminin inkişafına deyil, həm də beynəlxalq səviyyədə elmi nüfuzun artmasına xidmət etmişdir. Ofelya xanım təkcə elmi fəaliyyətlə deyil, həm də pedaqoji sahədə çalışmışdır. O, Bakı şəhərində "Nəcib Xanımlar Universiteti"nin yaradılmasında iştirak etmiş, qızların təhsil alma hüquqlarını müdafiə etmişdir. Onun rəhbərliyi və tövsiyələri ilə Azərbaycanda ilahiyyat sahəsində ilk qız tələbələrin yetişməsi təmin olunmuşdur.

Ofelya xanım Bağırbəyova Azərbaycan tarixinin zəngin irsini yaşadan, milli maarifçilik və elmi irsin qoruyucusu olan görkəmli ziyalıdır. Onun elmi fəaliyyəti, maarifçilik ideyaları və xanlıq dövrünün mədəni dəyərlərini yaşatmaq sahəsindəki töhfələri gələcək nəsillər üçün mühüm nümunədir.

Ofelya xanım, İrəvan xanlığının xan zadəgən ailələrindən birinin nümayəndəsi olaraq, öz xatirələrində xanlıq dövründəki ailə tərbiyəsi, mədəniyyət və sosial həyatın müxtəlif aspektlərini canlandırır. Bu xatirələr yalnız keçmiş bir zadəgan ailənin həyatını deyil, həm də həmin dövrdə xan ailələrinin mədəni və ictimai vəzifələrini əks etdirir. Bu baxımdan, Ofelya xanımın xatirələri, yalnız onun şəxsi yaddaşı deyil, İrəvan xanlığının tarixini və xan ailələrinin dəyərlərini yaşadan bir mənbədir. Bu irsin araşdırılması və təbliği, İrəvan xanlığının mədəniyyət və dəyərlər sistemini daha dərindən başa düşməyə imkan verir.

Ofelya xanım Bağırbəyova, öz xatirələrində Azərbaycan cəmiyyətinin xanlıq dövründəki ailə tərbiyəsi, mədəniyyət və ictimai həyatın müxtəlif aspektlərini canlandırır. Bu xatirələr,

sadəcə bir ailənin keçmişinə işıq salmaqla məhdudlaşmır; eyni zamanda, xan ailələrinin təhsil, qadın tərbiyəsi və sosial öhdəliklərinin dövrün mədəniyyətindəki rolunu əks etdirir.

## Xanlıq dövründə qadın tərbiyəsi və ailə dəyərləri

Ofelya xanım anasının xatirələrinə əsaslanaraq, İrəvan xan ailəsinin qadınlarına xas olan yüksək mədəniyyət, intizam və ailə dəyərlərini vurğulayır. Onun təsvirinə görə, İrəvan xan ailəsində qadınların tərbiyəsi milli ənənələrə, ailə dəyərlərinə və ciddi intizam prinsiplərinə əsaslanırdı. Ofelya xanımın təsvir etdiyi kimi, xan ailəsində qadınlar ciddi intizamla böyüdülürdü. Ailənin gənc qızları bütün ev işlərini bilmək və lazım olduqda yerinə yetirmək bacarığına malik olmalı idilər. Bu, yalnız məişət tərbiyəsi deyildi, eyni zamanda, xan ailəsinin azərbaycanlı ailə ənənələrinə uyğun davranmaq tələb edirdi. Gənc xanımlar yalnız ev işlərini öyrənmirdilər; onlar həmçinin incəsənət və əl işləri ilə də məşğul olurdular. Zərif qızıl parçalar toxumaq, bəzək və naxışlarla məşğul olmaq bu ənənənin bir parçası idi. Qadın tərbiyəsi yalnız məişət bacarıqlarının aşılanması ilə məhdudlaşmırdı. Onlar milli dəyərlərə uyğun davranış qaydalarını mənimsəməli, ailənin adət-ənənələrinə hörmətlə yanaşmalı idilər. Abır-həya, nəciblik və əxlaq qaydalarına riayət etmək, xan ailəsinin qadınları üçün mütləq prinsiplər idi. Ofelya xanım xatirələrində qeyd edir ki, bu prinsiplər həm ailə mühitində, həm də cəmiyyət qarşısında xan ailələrinin nüfuzunu qorumağa xidmət edirdi. Qızların yüksək intizamla yetişdirilməsi, yalnız ailə daxilində deyil, həm də cəmiyyət qarşısında nümunəvi davranış sərgiləmələrini təmin edirdi.

Ailə daxilində yüksək səviyyədə mədəni mühit hökm sürürdü. Ofelya xanımın xatirələrinə görə, ailə üzvləri arasında qarşılıqlı hörmət, sevgi və həmrəylik prinsipləri üstünlük təşkil edirdi. Gənc xanımlar təkcə ev işləri və sənətlə deyil, həm də ailə kitabxanalarında müxtəlif elmi və bədii əsərlərlə tanış olur, savadlı və məlumatlı şəxsiyyətlər kimi yetişirdilər.



Abbasqulu xan İrəvanski

## Xan ailələrində maarifçilik missiyası

Xan ailələri arasında təhsil ən mühüm prioritetlərdən biri idi. Təhsilin vacibliyi təkcə ailə daxilində deyil, cəmiyyət qarşısında da vəzifə kimi qəbul edilirdi. Ofelya xanımın ailəsində gənc nəsil, xüsusilə qadınlar, təhsilin vacibliyini anlayaraq məktəbə getmək və savadlanmaq üçün təşviq edilirdi. Ofelya xanımın xatirələrində qeyd etdiyi kimi, təhsil yalnız şəxsi inkişaf vasitəsi deyil, həm də ailənin və cəmiyyətin inkişafını təmin edən əsas alət hesab olunurdu.

Abbasqulu xan İrəvanski tərəfindən təhsilə göstərilən xüsusi diqqət, İrəvan xan ailəsinin bu sahəyə verdiyi önəmi açıq şəkildə nümayiş etdirir. Göy Məscidin nəzdində açılan ibtidai məktəb (mədrəsə), ailənin maarifçilik fəaliyyətinin bariz nümunəsidir. Abbasqulu xan İrəvanski və digər ziyalılar bu məktəbin maliyyələşdirilməsini öz üzərlərinə götürərək, kasıb ailələrin uşaqlarının təhsil almasını təmin etmişlər. Məktəbdə yalnız dini dərslər deyil, dövrün ən müasir elmi bilikləri də tədris olunurdu ki, bu da İrəvan xan ailəsinin təhsildə yenilikçiliyə və intellektual tərəqqiyə yönəldiyini göstərir. Qeyd edək ki, Abbasqulu xan İrəvanski 1907-ci ildə vəfat etmiş və öz vəsiyyəti ilə elə həmin Göy Məscidin həyətində dəfn edilmişdir.

Abbasqulu xan İrəvanskinin oğlu Ağa xan İrəvanski, Rusiyanın Dövlət Dumasının birinci çağırışında iştirak edən ilk azərbaycanlılardan biri olaraq, maarifçilik və mədəniyyət sahəsində mühüm təşəbbüslərlə çıxış etmişdir. 1919-cu ilin fevralında İrəvan Müsəlmanları Milli Şurasının rəhbəri

olaraq çalışmağa başlamışdır. Onun təşəbbüsü ilə ailə kitabxanası əhəmiyyətli dərəcədə zənginləşdirilmiş, burada minlərlə kitab və əlyazma toplanmışdır. Ofelya xanımın nənəsinin xatirələrinə əsasən, ailə evində kitabxanaya həsr olunmuş xüsusi bir otaq mövcud idi ki, burada rəflər tamamilə nadir əlyazmalar və müxtəlif mövzularda kitablarla zənginləşdirilmişdir. Kitabxanada nadir əlyazmalar, hətta daş-qaşlarla bəzədilmiş xüsusi nüsxələr yer alırdı, eləcə də dini və elmi əsərlər qorunub saxlanılırdı. Bu saxlanılan əlyazmalar arasında əksəriyyəti Azərbaycan, fars və ərəb dillərində qızıl su ilə yazılmış Quran nüsxələri və orta əsrlərə aid nadir əlyazmalar idi .

Ailə kitabxanası, yalnız şəxsi oxu və tədris məqsədlərinə xidmət etmirdi. Bu məkan, eyni zamanda, cəmiyyətin ziyalı təbəqəsi üçün biliklərə çıxış təmin edən bir mərkəz kimi fəaliyyət göstərirdi. Ailə üzvləri burada yalnız fərdi oxu ilə kifayətlənməyərək, elmi və mədəni mövzular ətrafında müzakirələr aparır, dövrün aktual məsələlərini təhlil edirdilər. Ailə kitabxanasında saxlanılan nadir əlyazmalar, qiymətli sənədlər və əsərlər sovet dövründə müsadirə edilmiş və ya məhv edilmişdir. Bu əsərlər yalnız ailənin deyil, bütövlükdə Azərbaycanın mədəniyyət tarixi üçün böyük əhəmiyyət daşıyırdı. Bu itkilər, milli yaddaşın mühüm hissəsinin itirilməsi demək idi.

## Sosial məsuliyyətin ifadəsi

Təhsillə yanaşı, xan ailələri arasında xeyriyyəçilik ənənələri geniş yayılmışdı. Ofelya xanımın xatirələrinə əsasən, ailəsi ehtiyacı olanlara yardım göstərməyi, cəmiyyətin rifahı naminə mühüm layihələrə dəstək verməyi özlərinə mənəvi borc bilirdilər. Bu yardım təkcə maddi dəstəklə məhdudlaşmırdı. Xan ailələri məktəb, xəstəxana və kitabxana kimi cəmiyyətin ən vacib ehtiyaclarını qarşılayan obyektlərin yaradılmasına xüsusi diqqət yetirirdilər.

Abbasqulu xan İrəvanskinin dövründə həyata keçirilən xeyriyyəçilik fəaliyyətləri arasında Naxçıvan və İrəvan ərazilərində müsəlman əhalinin müdafiəsi və dəstəyi xüsusi yer tuturdu. 1905-ci ildə erməni daşnaklarının hücumları zamanı Abbasqulu xan yerli əhalini təşkilatlandıraraq onların təhlükəsizliyini təmin etmiş, eyni zamanda, onların yaşayış şəraitinin yaxşılaşdırılması üçün müxtəlif təşəbbüslərlə çıxış etmişdir.



**Pənah xan Makinski İrəvanın məşhur zadəganları ilə, İrəvan, 1860-cı il**

Xeyriyyə fəaliyyətləri çərçivəsində həyata keçirilən ən diqqətəlayiq layihələrdən biri, İrəvan quberniyasında su kəmərinin çəkilməsi idi. XX əsrin əvvəllərində İrəvandan təqribən 19 km məsafədə yerləşən Gedər çayının mənbəyindən (Qırxbulaqdan) şəhərə su kəməri çəkilmişdir. Bu kəmərin şəhərə çəkilməsində Abbasqulu xan İrəvanskinin müstəsna xidmətləri olmuşdur. Şəhərdə içməli suya olan ehtiyacın artdığı bir vaxtda, su kəmərinin inşası İrəvanın sosial-iqtisadi həyatında əhəmiyyətli dəyişikliklərə səbəb olmuş və şəhər sakinlərinin gündəlik həyat şəraitini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Bu təşəbbüs yalnız şəhər sakinlərinin rifahını yüksəltmədi, həm də su ehtiyacının ödənilməsi ilə şəhərdə ictimai sağlamlığın qorunmasına müsbət təsir göstərdi. Ofelya xanımın xatirələrində bu layihələr təkcə ailənin xeyirxahlıq ənənələrinin sübutu kimi deyil, həm də dövrün sosial-iqtisadi şəraitində xan ailələrinin oynadığı əhəmiyyətli rolun təcəssümü kimi xatırlanır. İrəvan xan ailəsinin insanların sosial həyat tərzinin inkişafına dövr və zamanında qayğılı və məsuliyyətlə yanaşması, milli maarifçilik hərəkatının vacib bir hissəsi olmaqla, Azərbaycan tarixində mühüm iz buraxmışdır. ●

## Alimlər avtomobil güzgüləri vasitəsilə günəş enerjisinin hasilatını 40 faiz ucuzlaşdırıblar

**Avstraliyalı alimlər günəş enerjisinin dəyərini 40 faiz azaltmağa imkan verən yüngül plastik güzgülər hazırlayıblar. Avtomobillər üçün nəzərdə tutulmuş texnologiya indi kənd təsərrüfatı və sənayedə torpağın emalı, taxılın qurudulması, suyun duzsuzlaşdırılması və digər proseslərdə xərclərin azaldılmasına, eləcə də karbon izi səviyyəsinin aşağı salınmasına kömək edəcək.**



Cənubi Avstraliya Universitetində (UniSA) hazırlanmış yeni güzgülər adi şüşə güzgülərdən 50 faiz yüngüldür, onları qatlamaq mümkündür və xüsusi alüminium-silisium örtüyü sayəsində adi güzgülərdəki kimi yüksək əksetdirmə qabiliyyətinə malikdir. İşığı elektrik enerjisinə çevirən günəş panellərindən fərqli olaraq, qurğular Günəşin işığını deyil, onun istiliyini tutur. Daha sonra əksetdiricilər istilik qəbuledicisini qızdırır və bu qurğu günəş şüalarını birbaşa istilik enerjisinə çevirir.

Pilot layihə çərçivəsində hər biri 16 belə güzgüdən ibarət olan iki qurğu sınaqdan keçiriləcək. Testlər Charles Sturt Universitetinin şərabçılıqda innovativ texnologiyalar üzrə ixtisaslaşan "Vineyard of the Future" (Gələcəyin üzüm bağı) ərazisində aparılacaq. Texnologiyanın müəllifi Kolin Hol (Colin Hall) bildirib ki, bu həll karbon izi olmadan istilik istehsalı üçün real imkan yaradır.

Layihənin rəhbəri doktor Marta Ceyn qeyd edib ki, sənayedə istilik enerjisi dünya üzrə ümumi enerji istehlakının 25 faizini və CO? emissiyalarının 20 faizini təşkil etdiyindən, bu cür innovasiyalar ekoloji yüklənməni ciddi şəkildə azaltmaqla yanaşı, iqtisadi baxımdan da səmərəli ola bilər.

Daha əvvəl bənzər layihə Çində həyata keçirilmişdi . Belə ki, burada iki qüllə və konsentrik dairələr üzrə yerləşdirilmiş yüzlərlə hərəkətli güzgüdən ibarət sistem qurulmuşdu. Bu da istilik enerjisinin hasilatının səmərəliliyini 24 faiz artırmağa imkan vermişdi.

## Günəş sistemində doqquzuncu planetin mümkün namizədi aşkar edilib

**Astronomlar Günəş sistemində mümkün doqquzuncu planeti aşkar ediblər. "9-cu Planet" adlandırılan bu yeni planet Günəşdən çox uzaq məsafədə yerləşə bilər və bir tam dövrünü 10-20 min Yer ili ərzində başa vurur.**



Bu planetin ölçüləri Neptunla müqayisə edilə bilər, lakin Günəşdən 20-30 dəfə daha uzaq məsafədə yerləşir.

Tədqiqatın nəticələri "Publications of the Astronomical Society of Australia" jurnalında dərc olunub. Hələlik müstəqil elmi ekspertizadan keçməyib. Planetin mövcudluğunu təsdiq edən əsas sübut kimi Koyper qurşağındakı obyektlərə göstərdiyi təsir göstərilir, belə ki, bu qurşaq Neptunun orbitindən kənarda yerləşən

və çoxlu kiçik göy cisimlərinin toplandığı ərazidir.

Əgər bu planet həqiqətən mövcuddursa, bu, bəzi obyektlərin qeyri-adi orbitlərini izah edə bilər. Astronomların fikrincə, onun cazibə qüvvəsi Koyper qurşağındakı bəzi cisimlərin Günəş sisteminin qalan hissəsinə əks istiqamətdə hərəkət etməsinin səbəbi ola bilər.

Alimlər 1983-2006-cı illər arasında aparılmış infraqırmızı müşahidələrdən istifadə edərək parlayan obyektlər aşkar ediblər. Bu obyektlər yavaş hərəkət edən uzaq bir planet ola bilər.

Əgər 9-cu Planetin mövcudluğu təsdiqlənərsə, o zaman 2006-cı ildə Beynəlxalq Astronomiya İttifaqının qərarı ilə planetlər siyahısından çıxarılıb cırtdan planetlər kateqoriyasına aid edilmiş Plutonun yerini rəsmi şəkildə tuta bilər.

## Məlumatların buzda saxlanması üsulu hazırlanıb

**Buz özündə qədim dövrlər haqqında elm üçün dəyərli məlumatları saxlayır, lakin onu ikili (binary) kodla mesajların ötürülməsi üçün də istifadə etmək olar. Çinli alimlər hava qabarcıqlarının formasını və buz qatındakı yerləşməsini dəyişdirərək məlumatı yazmağın və oxumağın bir yolunu kəşf ediblər.**

Tədqiqatçılar bildirirlər ki, belə mesajlar uzun müddət ərzində saxlanıla bilər, onları vizual olaraq asanlıqla müşahidə etmək və oxumaq mümkündür. Su donarkən içindəki qaz hava cibləri əmələ gətirir. Bu qabarcıqlar əgər buz sürətlə donursa, yumurtaya bənzər, yavaş donarsa, iynəvari forma alır. Donma sürətini dəyişməklə bu fərqləri növbəli şəkildə istifadə edərək ikili məlumat yazısı yaratmaq olar. Pekin Texnologiya İnstitutunun tədqiqatçıları məhz bu üsulu tətbiq ediblər. Alimlər bir neçə yanaşmanı nəzərdən keçirsələr də, ikili kodun ən effektiv üsul olduğunu müəyyən ediblər.

ZME Science yazır ki, bu üsul Mors əlifbası ilə müqayisədə 10 dəfə daha çox məlumat saxlamağa imkan verir. "Qabarcıqların yerləşməsi və forması donma sürətindən asılı olduğuna görə, bu sürəti fərdi şəkildə idarə etməklə buzda qabarcıqların formasına və paylanmasına nəzarət etmək mümkündür" - deyə elmi qrupun rəhbəri Song Mengjie bildirib. Bu ideyanı yoxlamaq üçün o və həmkarları suyu şəffaf lövhələr arasında nazik qatlarla tökərək, onu dəqiq şəkildə nəzarət olunan soyuq plitə vasitəsilə dondurublar. Buzun yaranma sürətini tənzimləməklə onlar əmələ gələn hava qabarcıqlarının ölçüsünü, formasını və qat-qat yerləşməsini dəyişdirə biliblər. Alimlər həmçinin müəyyən ediblər ki, temperaturu qəfil aşağı salmaqla donma sürətini artırmaq nəticəsində yalnız bir qat hava qabarcığı formalaşır. Bu isə məlumat qatları yaratmağa imkan verir - burada hər bir qabarcıq qatı ayrıca bir mesajdır.




Daha sonra tədqiqatçılar dekodlaşdırma sistemi qurublar. Bu sistem buz parçalarının ağ-qara şəkillərini çəkən kameradan və qabarcıqların yerləşməsini və parlaqlığını oxuyan kompüter tətbiqindən ibarətdir. Bu məlumatlar əsasında tətbiq mesajı yenidən bərpa edir. Hazırda bu məlumat saxlama üsulunun tutumu kifayət qədər məhduddur - bir buz kubunda cəmi bir neçə cümlə saxlamaq mümkündür. Lakin alimlər hesab edirlər ki, bu sistemi daha səmərəli etmək və genişləndirmək olar. Onların fikrincə, buzda məlumat saxlama üsulu sonda qütblər, dərin mağaralar və ya kriogen laboratoriyalar kimi soyuq şəraitdə real istifadə üçün uyğun üsul ola bilər. "Soyuq bölgələrdə hava qabarcıqlarından mesajların ötürülməsi və saxlanması vasitəsi kimi istifadə, telekommunikasiyadan daha az enerji tələb edir və kağız sənədlərlə müqayisədə daha az nəzərə çarpır" - deyə Song bildirib.



**Rizvan QARABAĞLI**
*AMEA Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi, memarlıq üzrə fəlsəfə doktoru, dosent*

# Qarabağlı memar İbrahimxəlil

**Qarabağ memarlıq tarixinin öyrənilməsi üçün mühüm rol oynayan maraqlı abidələrdən biri də Füzuli bölgəsinin Kürdlər və Qarğabazar kəndləri arasındakı qədim qəbiristanlıqda yerləşən Cəlil türbəsidir. Ümumi hündürlüyü 10 metrdən çox olan bu türbə qəbiristanlıq daxilindəki təpənin üstündə tikildiyi üçün çox-çox uzaqlardan görünür və diqqəti cəlb edir.**



Memar İbrahimxəlil
XIX əsr Rəsm Rizvan Qarabağlınındır

Plan quruluşuna görə Cəlil türbəsi Azərbaycanın qülləvari türbələr sırasına daxil edilir. Türbənin hər tərəfinin eni 2,3 metr olmaqla divar qalınlığı 1 metrə çatır. Gövdə divarının baza hissəsində qalınlığı 1 metr olsa da türbənin günbəzinə doğru qalxdıqca bu ölçü azalaraq nəhayət 21 sm çatır.

Təbii əhəng daşı ilə tikilmiş kürsülüyün hündürlüyü yerin relyefinə görə 35-75 sm arasında dəyişir. Türbənin gövdəsi isə kürsülükdən sonra "epoxa" adlı 22 x 22 x 4,5 sm ölçülü bişmiş kərpiclə hörülüb (Ancaq bu yerlərin tikintisində əsas daş materialından istifadə olunur).




Şəkil 1. Cəlil türbəsi yerləşən ərazi

Qeyd edək ki, həmin bölgənin Babı kəndindəki Şeyx Babı Yaqubun türbəsi (XIII) yanında yerləşən minarə də bişmiş kərpicdən tikilmişdi. Lakin o minarənin tikintisində istifadə edilmiş kərpiclərin ölçüləri tamam başqadır. Elə bu fərqinə - yəni kvadrat formalı kərpiclərinə görə Cəlil türbəsi Füzuli bölgəsi üçün yeganə hesab etmək olar. Qarabağın bir çox abidələrində olduğu kimi, Cəlil türbəsinin gövdəsini günbəzindən yüngül relyefli karniz ayırır. Karnizdən yuxarı örtük hissəsini eyni sayda bucaqları olan günbəz tamamlayır. Memar türbəni tikərkən onun xarici bəzək işlərinə xüsusi diqqətlə yanaşdığı açıqca hiss olunur. Belə ki, memar türbənin kürsüsündən günbəzinədək xüsusi kərpic düzümü ilə bir-birini təkrarlayan dörd "paxlava" formalı həndəsi ornament işləmişdi. Bu ornamentlər türbənin bütün tərəflərində təkrar olunduğu üçün o sanki Qarabağ xalçasına bürünmüş kimi görünür. Cəlil türbəsinin üzərindəki belə bəzək işləri Kərbəlayi Səfixan Qarabağinin Şuşada və Ağdamda tikdiyi minarə bəzəkləri və Füzuli rayonunun Kürmahmudlu kəndindəki sərdabə ilə bir oxşarlıq təşkil edir. Bundan əlavə Kürmahmudlu kəndindəki sərdabə də Cəlil türbəsində olduğu kimi "Epoxa" tipli kərpiclərlə inşa edilib. Memarlıq üslubuna, tikilmə tarixinin eyni dövrə təsadüf etməsinə və tikinti texnikasına görə Kürmahmudlu sərdabəsinin də memar İbrahimxəlil tərəfindən tikilməsin söyləmək olar.

Cəlil türbəsi xaricdən olduğu kimi daxildən də səkkiz bərabər tərəflərə bölünür. Azərbaycanın bir çox səkkizbucaqlı türbələrindən fərqli olaraq bu türbə daxilindəki hər bir tərəf üzərində, dərinliyi 0,21, eni 1,0, hündürlüyü isə 2,8m ölçüləri olan taxçalar (nişalar) var. Həmin taxçaların yan tərəfləri yuxarıya doğru qalxdıqca oxvari tağla tamamlanır. Taxçaların yuxarısında, bütün divarlar boyu ara məsafəsi 50 sm olan iki relyefli paralel xətt çəkilmiş və həmin xətlərarası məsafələr də bütün tərəflər boyu qarışıq orna-







**Şəkil 2. Cəlil türbəsinin öndən, yandan və arxadan görünüşü.**
**Fotolar Rizvan Qarabağlınındır. 1991-ci il**



Şəkil 3. **Cəlil türbəsinin naturadan çəkilmiş cizgiləri və bərpa layihəsi. Abidənin ölçü işləri, rəsmləri və bərpa layihəsi Rizvan Qarabağlınındır. 1991-ci il**

mentlərlə bəzədilib. Ümumi türbə daxili 1 sm qalınlığı olan əhəng məhlulu ilə suvanmışdır. Giriş qapısı ilə üzbəüz olan divar üzərindəki taxçanın içərisində (bu tərəf adətən qibləni göstərir) qara rənglə quran ayələri və türbənin özü haqqında qiymətli məlumatlar yazılıb. Bizim xahişimizlə Azərbaycanın tanınmış epiqrafçı alimi Məşədixanım Nemətova bu yazıların foto surətini oxuyub tərcümə etmişdir. Alimin tərcümə etdiyi mətn belədir: "Bu məqbərədəkinin günahından keç, adı Cəlildir. Əgər memarın axtarsalar İbrahim Xəlildir". Hicri tarixi 1308. Bu miladi tarixi ilə 1889-90-cı illərə uyğundur.

Kitabədən göründüyü kimi türbənin memarı İbrahim Xəlildir. Xatırladaq ki, bizə məlum olan və müxtəlif dövrlərdə yaşayıb yaratmış memar və ustalardan bu adı yada salan İbrahim oğlu Məhəmməd Mukim, İbrahim oğlu Mahmud, İbrahim oğlu Əmir, Süleyman oğlu İbrahim və s. sənətkarlardır. Ancaq İbrahim Xəlil adlı memar adı ilə hələ ki, ilk dəfədir rastlaşırıq. Türbədə dəfn olunan Cəlilin kimliyi və onun öz dövründəki fəaliyyəti də hələlik qaranlıq qalır. Ümidvar olaq ki, tarixçilərimiz və etnoqraflarımız bu məsələyə aydınlıq gətirər. Ancaq hər halda və söz yox ki, Cəlil türbəsinin ətrafında böyük bir qəbiristanlığın salınması, öz dövründə onun böyük nüfuza malik olmasına işarədir.

Biz burada tədqiqat apararkən Cəlil türbəsinin yalnız beş tərəfi yarıuçuq vəziyyətdə qalmışdır. Uçurulmuş hissəyə türbənin yeganə giriş portalı da düşdüyü üçün onun quruluşu haqqında dəqiq məlumat vermək çətindir. Lakin Azərbaycan memarlıq tarixi ilə bağlı bəzi mənbədə (Useynov M.A., Beretaniüikiy L.S., Salamzade A.V. İstoriə arxitekturı Azerbaydjana. M.; Qosstroyizdat, 1963, 396 s.)

bu türbənin girişi xüsusi qeyd edilərək bildirilir ki, o hündür və genişliyinə görə Azərbaycanın məlum türbələrinin alçaq və dar giriş qapılarından kəskin surətdə fərqlənir. Bütün bu tarixi məlumatları və abidə üzərində apardığımız ölçü və cizgilərə əsasən onun bərpa layihəsini işlədik.

Ümumiyyətlə, şəkildə türbənin belə yarıuçuq vəziyyətdə görənlər elə düşünməsin ki, bu zamanın və təbiətin "əl işidir". Xeyr! Bu həmin türbədən bir neçə kilometrlik məsafədə vaxtı ilə yaşamış erməni çobanlarının əməlləridir. Onlar burada qoyun otardıqca dəfinə axtarmaq məqsədi ilə hissə-hissə türbəni uçurmuşlar. Bu azmış kimi, ermənilərin Füzuli şəhərinə hücumu zamanı buralara düşən mərmilər Cəlil türbəsinin qalan hissəsini də dağıtmışdır.

Ruhu şad olmuş naqqaş sanki ermənilərin bu çirkin əməllərini əsrlərin o tayından duymuş və elə bu səbəbdən də türbənin kitabəsini onun interyerində yazmışdır (Adətən kitabələr bayır tərəfdən giriş qapısının üstündə yazılır).

Xoşbəxtlikdən bu yazılar salamat qalmış və gec də olsa biz onu oxuyaraq memarlıq tariximizin inciləri sırasına bir ad da əlavə edirik: "Cəlil türbəsi. Memarı İbrahim Xəlil. Tikildiyi tarix - 1889-90-cı illər".



**Arzu HACIYEVA**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Azərbaycan fəlsəfə tarixi şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru*

# Böyük mütəfəkkir, görkəmli dövlət xadimi

*"Nəriman Nərimanov bu gün də bizimlədir".*
*Heydər Əliyev*

**"Konstitusiya və Suverenlik İli" - 2025-ci il daha bir tarixlə də bizim üçün əlamətdardır: xalqımızın böyük oğlu Nəriman Nərimanovun anadan olmasının 155 illiyi tamam olur, ölümündən isə 100 il keçir. O, böyük maarifçi, yazıçı-dramaturq, publisist, alim pedaqoq, həkim, tibb maarifçisi, mütəfəkkir, görkəmli ictimai və dövlət xadimi idi. Onun həyat və fəaliyyəti haqqında çox yazılıb, elə bu gün də çoxşaxəli yaradıcılığının hər bir sahəsi ayrıca əsər mövzusu ola bilər. Bu böyük və zəngin irsə baxanda biz xalqına dərin məhəbbətin və düşünülmüş fədakar xidmətin parlaq nümunəsini görürük. Təəssüf ki, tarixdə iz qoyub gedənlərin oxşar taleyi N.Nərimanovdan da yan keçməmişdir. Müxtəlif zaman kəsiklərində onun şəxsiyyəti və irsinə ziddiyyətli baxışlarla rastlaşırıq. Sovet hakimiyyəti illərində yüksək dövlət vəzifələri tutduğuna baxmayaraq, dövrün rəsmi ideologiyasına uyğun gəlməyən fikirlərinə görə, milli təmayülçülükdə təqsirləndirilmiş, ölümündən keçən bir neçə onilliklər ərzində onun əsərləri çap olunmamış, adının unutdurulmasına cəhdlər göstərilmişdir.**

Yalnız Stalinin şəxsiyyətinə pərəstişin tənqidinin siyasi ab-havanı yumşaltması sayəsində N.Nərimanova münasibət dəyişmiş, əsərləri yenidən öyrənilməyə və tədqiq olunmağa başlanmış, onun tariximizdə yüksək məqamı bərpa olunmuşdur. Qeyd etmək lazımdır ki, bu tədqiqatlarda da xeyirxah niyyətlə olsa belə onun dövlət, cəmiyyət, millət, dil, din haqqında görüşlərini ideologiyaya uyğunlaşdırılmaq, mümkün olmadıqda, onun maarifçi baxışlarının məhdudluğu, "taktiki mülahizələrlə" əsl əqidəsini gizlətməsi kimi izah etmək cəhdlərini görürük. Keçən əsrin 90-cı illərinin qarışıq, faciəli siyasi hadisələri fonunda yeni partiyaların yaranıb siyasət meydanına atılması, kommunist partiyasının hörmətdən düşməsi yenə onu tənqid hədəfinə çevirir. Sovet dövrünün ilk illərində millətçilikdə suçlanan N.Nərimanov haqqında bu dəfə "Azərbaycanın azadlığını istəməməsi, milli məqsədləri satması" və s. kimi absurd ittihamlar səslənməyə başlayır. N.Nərimanovun hər halda millətini və vətənini sevdiyini etiraf etməyə məcbur olduqda belə tənqidçiləri onu guya yumşaq siyasi xadim, sadədil, sadəlövh bir adam obrazında canlandırmaqla onu gözdən salmağa çalışırlar. Doğrudur, bir çox tanınmış alimlərimiz, ictimai xadimlərimiz bu əsassız iddialara layiqincə cavab vermişlər və verirlər.

Əslində, böyük şəxsiyyətlər haqqında dabandabana zidd fikirlər söylənilməsi heç də təzə bir



şey deyil. Hətta məşhur fransız şairi, filosofu Pol Valeri kimi şəxsiyyətin mübahisələr və ziddiyyətlər predmeti olmasında böyük şöhrət əlaməti görənlər də var. Bununla belə, hər bir dəyərləndirmə əsaslandırılmış olmaqla yanaşı, zamanı, konkret tarixi situasiyanı nəzərə almalı və düzgün obyektiv şərh olunmalıdır. Aydındır ki, həmişə belə olmur. Yadımdadır, bir vaxtlar ANS televiziya kanalında "Dahilərin divanı" tok-şou proqramı vardı. Verilişlərdən biri N.Nərimanova həsr olunmuşdu. Tarixçi alim N.Nərimanovun keçən əsrin 20-ci illərinin mürəkkəb və dramatik durumunda "Ucqarlarda inqilabımızın tarixinə dair" adı ilə Sov.İKP MK-ya yazdığı və onun siyasətini ifşa etdiyi məşhur məktubunu nəzərdə tutaraq istehza ilə deyirdi: "O, o qədər sadəlövh bir adam idi ki, elə bilirdi ki, Stalinə yazsa, işlər düzələcək". Düzü, tarixi faktı baş-ayaq "təfsir" edən tarixçi bizə, yumşaq desək, onun öz "sadəlövhlüyünü" qeyd etməkdən başqa çarə buraxmır. N.Nərimanov həmin məktubda rəhbər kommunistlərin "dövləti idarə etməyi bacarmamaları nəticəsində əmələ gəlmiş böyük nöqsanları barədə hətta öz aralarında belə danışa bilmədikləri", "vəzifələrini itirəcəklərindən qorxaraq susduqları məsələlər haqqında" açıq danışır, həm də bunun ona öz həyatı bahasına başa gələcəyini biləfəkdən çəkinmir, Mərkəzin yarıtmaz siyasətini, xüsusilə Azərbaycandakı əlaltıları vasitəsilə həyata keçirdiyi "...məlum proqram üzrə... Azərbaycanı simasızlaşdırmaq, öz miskin məqsədləri üçün onu gücdən salmaq" siyasətini" ifşa edir, onun acı nəticələrini üzlərinə çırpırdı. Bu məktub-məruzə təkcə dövlət xadiminin böyük cəsarət və qəhrəmanlıq aktı deyildi, eyni zamanda, tarix və xalqı qarşısında məsuliyyətinin və uzaqgörənliyinin nümayişi idi, onun siyasi müdrikliyindən xəbər verirdi. Çünki onu N.Nərimanov təkcə MK-ya, Stalinə (Stalini isə N.Nərimanov çoxdan və çox yaxşı tanıyırdı!) yazmamışdı, həm də xalqa, millətə düşmənlərini tanıtmaq üçün yeganə mümkün yolu taparaq, gələcək nəsillərə, bugünümüzə, bizə ünvanlamış, özündən sonra yaşadığı mürəkkəb, faciəvi dövrə işıq salan son dərəcə mühüm və qiymətli tarixi sənəd, mənbə qoymuşdur.

N.Nərimanovun kommunizm və din probleminə münasibətinə də müxtəlif baxışlar mövcuddur. Əslində, söhbət həmişə aktual olan ədalətli demokratik cəmiyyət və belə cəmiyyətdə dinin statusu haqqında məsələdən gedir. O, ömrünün sonunda beş yaşlı oğluna yarımçıq qalmış vəsiyyət-məktubunda yazmışdır: "Mən insanın insan tərəfindən istismarının əleyhinəyəm. Mən bütün varlığımla harada olursa-olsun köləliyin əleyhinəyəm. Mən bəşəriyyətin tezliklə azadlığa çıxması, nadanlıqdan, habelə köləlikdən azad olması yollarını axtarırdım". Bu sətirlər böyük humanistin bütün həyatı boyu gerçəkləşdirməyə can atdığı ən böyük idealından xəbər verir.

Ədalətli bir dünya qurmaq N.Nərimanovun ən böyük arzusu idi. Hələ ilk əsərlərindən başlayaraq, ümumilikdə bəşəriyyətin, o cümlədən, ayrı-ayrı xalqların ta qədimdən öz dövrünədək tarixinə nəzər salır və görürdü ki, insanların arzu-istəyinə, ədalətə can atmalarına rəğmən, onların həyatı müsibətlər, faciələrlə dolu olmuşdur. O, Nadir şahın timsalında ədalətli şah obrazı yaratmağa cəhd göstərmiş, lakin bir realist yazıçı kimi məkrli və güclü şər qüvvələrin mövcudluğu üzərindən ötüb keçə bilməmişdi. Ayrı-ayrı şahlar, qəhrəmanlar da ədalət yaratmağa qadir deyildirlər. Gözəl ideallar, öyüd-nəsihətlər, qiymətli kəlamlarla zəngin olan müxtəlif dinlərin insanlar arasında normal birgəyaşayışın bərqərar olması üçün göstərdiyi səylərin, Allah qorxusu altında insaf və mürüvvətə çağırışlarla apardığı mübarizələrin bir nəticə vermədiyinə dərindən təəssüf edirdi. O düşünürdü ki, hürriyyət, vicdan azadlı-

ğı, elm, maarif, hamının hüquq bərabərliyi və qardaşlığı əsasında ictimai məsələləri həll etməklə insanları səadətə çatdırmaq olar. N.Nərimanovun məqsəd-idealları, qəlbinə yaxın olun sosializmə maraq göstərməsi ədalətli cəmiyyət axtarışları ilə bilavasitə bağlı idi.

Kommunizm idealının tarixi də dinlərin tarixi kimi qədimdir. O, bir xülya olaraq dahilərin əsərlərində müxtəlif şəkillərdə təsvir və təcəssüm edilmiş, tədricən şüurlarda kök atmışdır. Dinlərlə, o cümlədən islam dini ilə kommunizm arasında oxşarlıq az deyil, onların idealları bir çox hallarda üst-üstə düşür. Bir sıra məşhur Qərb alim və şərqşünasları erkən islamı bir sosialist dini kimi təsvir etmiş, onun yaradıcılarını, hətta kommunist adlandırmışlar. Təəccüblü deyil ki, XX əsrin əvvəllərində müsəlmanların nicat yollarını axtaran Azərbaycan ittihadi-islamçıları sosializm ideyalarına maraq göstərmişdilər. Məsələn, Əli bəy Hüseynzadə 1906-cı ildə "Həyat" qəzetində dərc olunan "Milliyyət və insaniyyət" məqaləsində yazırdı: "...İslamiyyətin məqsədi... istiqlaləti-insaniyyədir. ...Zəkat qanununu vəz edən, "əlkasib həbib Allah" ("Allah kasıbın dostudur"), "külli-müslimin-üxüvvət" ("bütün müsəlmanlar qardaşdırlar") deyən və... hər növi monopoliya və inhisarı haram bilən islamiyyətin "nasionalizm" ilə deyil, sosializm ilə əlaqəsi vardır!" Eyni zamanda, onun fikrincə, müsəlmanlar sosializmə İsa, yəni Avropa yolu ilə deyil, öz yolları ilə nail olacaq, yəni inqilabi sıçrayış yolu ilə deyil, təkamül yolu ilə tərəqqi edəcəklər. Əslində, ittihadi-islamçılar nicatın qəflətdə yaşayan avam kütlələr arasında "nur maarifi əkmək"lə, məhəbbət yaratmaqla əldə ediləcəyi barədə mücərrəd mülahizələr irəli sürürdülər.

N.Nərimanov islamla kommunizm arasında bənzəyiş tapılmasını müsbət qiymətləndirir. O, Həştərxan mollaları və müəllimləri ilə görüşündə (1918-ci il) deyirdi: "Heç də təəccüblü deyil ki, hal-hazırda daha çox liberal fikirli bir molla, şəriətin şərəfini yüksəltmək istəyərək, hətta kommunizmin şəriətdə də göstərildiyini sübut edə bilər. İrtica fikirli olan başqa bir molla isə belə bir fikri rədd edir, bununla da demək kommunizm üsul-idarəsini şeytan işi adlandırır". Bu, təsadüfi bir müqayisə deyildir. Çünki əslində, kommunizm idealları da, dinlər də ümumbəşəri ideallara, əxlaq normalarına əsaslanır, ümumi səadətə çatmaq yolları və vasitələri müxtəlif olsa da, onlarda haqq-ədalət, insani münasibətlər yaradılmasında bəzən məqsəd ümumiliyi nəzərə çarpır. Bu oxşar və ümumi cəhətlər çoxları kimi N.Nərimanovun da diqqətini cəlb etmiş, həmin mövzuya toxunmuşdur. Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmaları İnstitutunda saxlanılan "Din və kommunizm" əsəri N.Nərimanovun çoxillik düşüncə və tədqiqatlarının nəticəsidir. Burada N.Nərimanov maddi həyat şəraitinin dəyişməsi ilə insanların şüurunun və həyat baxışlarının dəyişdiyini, həmçinin şüurda dəyişikliklərin varlığı müşahidə, öyrənmə və təcrübə, ətraf mühitin, şeylərin dərk edilməsi sayəsində baş verdiyini maraqlı bir şəkildə, sadə misallarla oxucuya çatdıraraq dini baxışların ibtidai dini etiqadlardan təkallahlılığa qədərki təkamülünü izləyir. N.Nərimanov yazır: hər bir dinin əsaslarına qarşı biz nə deyə bilərik? Bütün dinlərin baniləri təqribən eyni fikirləri söyləyirlər. İnsanın mənəviyyatını yüksəltmək, şərə qarşı çıxmaq, özünümühafizə, özünüsaxlama uğrunda mübarizəni yüngülləşdirmək. Öz vaxtında bu tələblər çox vacib idi. Əslində, din banilərindən hər biri öz dövrlərinin inqilabçıları, incidilən, fağır insanların müdafiəçiləri olmuşlar. Bununla belə, sözlə, yazılı qanunlarla bəşəriyyəti mənəvi süqutdan xilas etmək mümkündürmü? "Oğurlama", "öldürmə" çağırışları ilə şərə son qoymaq olarmı? İnsanı oğurlamağa, öldürməyə məcbur edən səbəbləri tapmaq, bu səbəbləri aradan qaldırmaq lazımdır. Bu səbəblər sosial haqsızlıq, hüquqsuzluqdur. İnsanlar arasında sosial ədalət-



sizliyə əsaslanan qarşılıqlı münasibətlər dəyişməyincə şərdən qurtulmaq qeyri-mümkündür. Belə qurtuluşu N.Nərimanov ədalətli kommunizm idealında görür. Lakin qeyd edir ki, bir qələm çəkməklə dini məhv etmək fikrində olanların mövqeyi yanlışdır. O, insanların dini inamlarına hörmət bəslənməsi və bu inamlara ehtiyatla yanaşılmasını yeni cəmiyyət quruculuğunda zəruri şərtlərdən biri hesab edirdi. Sovet hakimiyyətinin ilk illərində müsəlmanların dini hisslərinin gözümçıxdıya salınması partiya xadimləri arasında, demək olar ki, yeganə N.Nərimanovu bərk narahat etmiş, vicdan azadlığı prinsiplərinin pozulması, milli məsələdə əyinti hallarına qarşı etiraz səsini ucaltmışdı. Çıxışlarının birində N.Nərimanov bəzilərinin Şərqdə kommunizmin bir sıra məsələlərlə, o cümlədən din məsələsi ilə bir araya sığmaması fikri ilə razılaşmır, göstərirdi ki, belə bir cəmiyyətdə hər kəs öz dininə azad şəkildə etiqad edə bilər. Digər tərəfdən, islam təlimində yeni cəmiyyət quruculuğuna uyğun gələn fikir və göstərişlər çoxdur və bunlardan istifadə etmək faydalı olar. Bu cəhətdən görkəmli ədib Məmməd Səid Ordubadinin "Nərimançılıq" məqaləsi səciyyəvidir. Məqalənin təqribən keçən əsrin 30-u illərində, Nəriman Nərimanova milli təmayülçü damğası vurmaq kampaniyası zamanı yazıldığı güman edilir. 1920-ci ildə N.Nərimanov Bakıya gələndən az sonra onunla görüşən M.S.Ordubadi göstərir ki, o, kommunist olduğunu bildirsə də, "kommunizm məsələsində bir çox mürəkkəb və qarmaqarışıq fikirlər meydana atırdı... Deyirdi ki, xalqların irq və adətləri müxtəlif olduğu kimi, düşüncə və zehniyyətləri də bir-birindən ayrıdır... Nəriman öz nəzəriyyəsində kommunizmi şərqləşdirməyi təklif edirdi. Yaxud da o, Şərqə məxsus bir kommunizm tərtib etməyi düşünürdü. Onun nəzəriyyəsində kommunizm ilə islamiyyəti birləşdirmək fikri mühüm bir yer tuturdu". Beləliklə, M.S.Ordubadi özü də hiss etmədən N.Nərimanovun tarixə və cəmiyyət həyatına dair dar, məhdud bolşevizm prinsiplərinin ziddinə olaraq, ümumbəşəri humanist mövqelərdə durduğunu göstərmişdir.

N.Nərimanov Azərbaycanı Şərqin qapısında bütün müsəlman dövlətlərinə nümunəvi respublika görmək istəyirdi. İnsanın insan tərəfindən istismar edilmədiyi elə bir azad respublika ki, burada millət sərbəst şəkildə öz mədəniyyətini inkişaf etdirərək orijinallığını saxlaya bilsin, öz milli və dini adət-ənənələrinə uyğun, "öz həyatı ilə", kənardan müdaxilə olmadan yaşaya bilsin. Müsəlman dövlətləri də baxıb görsünlər ki, sovet hökumətinin heç bir işğalçılıq məqsədi yoxdur və həyatlarını bəylər, xanlar və başqaları olmadan da qura bilərlər. Lakin özünü bütün dünya zəhmətkeşlərinin müdafiəçisi elan edən fəhlə-kəndi hakimiyyəti getdikcə öz idealından uzaqlaşırdı, Azərbaycanın keçmiş qatı düşmənləri indi "dost" kommunist cildinə girərək məqsədli şəkildə onu simasızlaşdırmaq, gücdən salmaq siyasəti yeridirdilər. Sadə insanların dini hissləri hər addımda kobudcasına təhqir edilirdi. N.Nərimanov sovet hökumətinin siyasətində buraxılımış ciddi səhvləri başıbəla kommunist rəhbərlərində dövlət müdrikliyinin olmamasının acı, bağışlanılmaz nəticəsi hesab edir və yuxarıda artıq xatırlatdığım Mərkəzi Komitəyə, I.V.Stalinə məktubunda və oğluna bitməmiş məktubunda ifşa edir.

Bütün bunları kimisi N.Nərimanovun səhvi, kimisi faciəsi hesab edə bilər. Lakin onun məramı ali və gözəldir, bu yolda apardığı böyük, fədakar mübarizəsi ən yüksək qiymətə layiqdir. O, hər hansı bir partiyanın göstərişlərinin müti, korkoranə icraçısı olan funksioner səviyyəsinə enməmiş, dərin zəkası və gözüaçıqlığı sayəsində eybəcərlikləri görüb yox etməyə çalışmış, ideallarına sonadək sadiq qalmışdı…

N.Nərimanov da marksist idi, kommunist idi, bolşevik idi, amma, Sabir demiş, "bu əşkaldan, bu əmsaldan, bu əbdaldan" deyildi. O da Həqiqəti, Ədaləti sevmiş, bütün həyatını bəşərin, xalqının, millətinin əsarətdən qurtulması, hürriyyət qazanması, firavan yaşaması uğrunda mübarizəyə həsr etmişdir. Nəriman Nərimanovun həyatına və irsinə ziddiyyətli münasibətə gəlincə, bunun səbəbi onun Şərq və Qərb təfəkküründəki mütərəqqi humanist ideyaları özündə birləşdirən, dünya, insan, cəmiyyət haqqında başqalarından fərqlənən özünəməxsus ideyaları və baxışları ilə seçilən nadir mütəfəkkir şəxsiyyət kimi məhz ideoloji "çərçivələrə" sığmazlığıdır.



**Əli QƏHRƏMANOV**
*AMEA Naxçıvan Bölməsi İncəsənət,
Dil və Ədəbiyyat İnstitutunun Musiqi və teatr şöbəsinin müdiri,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

# Bəxtiyar Vahabzadə dramaturgiyası Naxçıvan teatrında

**Azərbaycan ədəbiyyatı və mədəniyyətinin görkəmli nümayəndəsi, xalq şairi, dramaturq, publisist, ədəbiyyatşünas, ictimai xadim, akademik Bəxtiyar Mahmud oğlu Vahabzadə milli dramaturgiyamızın və teatrımızın tarixində parlaq səhifə açan şəxsiyyətlərdən biri olmuşdur.**

Lirik-psixoloji təmayülün teatrlarda yer almasında B.Vahabzadə yaradıcılığında yüksək ictimai qayə, əqidə, təmiz əxlaqi pafos və fəlsəfi mövqe xüsusi yer tutmuşdur. Görkəmli dramaturqun pyeslərini iki qismə ayırmaq olar. Birinci qismə "İkinci səs", "Yağışdan sonra", "Yollara iz düşür", "Hara gedir bu dünya?", "Cəzasız günah", "Rəqabət" və s. kimi müasir mövzulu lirik-psixoloji dramları və ikinci qismə "Fəryad", "Özümüzü kəsən qılınc", "Dar ağacı" kimi tarixi dram əsərləri daxildir. Dramaturq lirik-psixoloji üslubdakı pyeslərində müasirlərimizin mənəvi aləminə işıq salmaq, onların xarakterindəki psixoloji dəyişmələri, ziddiyyətləri göstərməyə nail olmuşdur. Tarixi mövzulu əsərlərində isə Azərbaycan xalqının tarixinə bugünkü mövqedən yanaşmaqla, qədim dövrlərdən etibarən müxtəlif mərhələlərdə baş vermiş hadisələri dəyərləndirərək, böyük şəxsiyyətlərin parlaq simalarını əks etdirmişdir. Pyeslərinin səhnə təcəssümü Bakıda və ölkəmizin müxtəlif dövlət teatrlarında qoyulmuş tamaşaların təqdimində öz əksini tapmış, o, psixoloji dram ölçülərini də tarixi mövzulu dramlarına gətirməklə, tarixi dram ənənələrini milli teatrın səhnəsində, ötən əsrin ikinci yarısında Azərbaycan teatrlarının real durumu və tələbləri ilə bilavasitə bağlamışdır.

B.Vahabzadə dramaturgiyaya poeziyadan gəlsə də lirik-psixoloji pyeslərini nəsrlə yazmışdır. Onun böyük səhnəyə yol açan ilk əsəri "İkinci səs" pyesi də bu üslubda qələmə alınmış, realist-psixoloji teatrın tələblərinə tam cavab verməklə uğur qazanmış, milli teatrın repertuarını zənginləşdirmişdir. "Yağışdan sonra" pyesində insan mənəviyyatının ekologiyası, "Yollara iz düşür" pyesində isə, vətəndaşlıq mövqeyi mövzusu daha qabarıq verilir ki, bu da yaradıcı insanın xudbinlik və ehkamçılıq üzərində qələbəsini təcəssüm etdirir. "Hara gedir bu dünya?", "Cəzasız günah", "Rəqabət" pyeslərində respublikamız müstəqillik əldə etdikdən sonra cəmiyyətdə cərəyan edən mənəvi proseslərdən, xalqımızın üzləşdiyi gerçək təzadlardan söz açılır. B.Vahabzadənin tarixlə müasirliyi sintez edən, günün aktual ictimai hadisələrinin mövzusu olan "Atamın kitabı" pyesində sanki təkrarlanan tarixdən ibrət almağa çağırır. Onun lirik-psixoloji pyesləri öz fəlsəfi dərinliyi, ictimai-sosial yönü və kəskin publisistikası ilə diqqəti cəlb edir. Mürəkkəb ictimai-siyasi şəraitdə səhnəyə gəlməsinə baxmayaraq, bu tamaşalar zaman-insan-cəmiyyət barədə şair-dramaturqun


B.Vahabzadə, "Ədalət". 1959. Tamaşadan səhnə

düşüncə və mövqeyini əks etdirmiş və müasir Azərbaycan tamaşaçısının zövqünün formalaşmasında xüsusi rol oynamışdır.

Bəxtiyar Vahabzadə müasir mövzulu lirik-psixoloji pyeslərlə yanaşı tarixi dramlar da qələmə almışdır. Onun tarixi dramlarının qəhrəmanları da, lirik-psixoloji pyeslərində olduğu kimi psixoloji əsaslara müraciət edən obrazlardır. "Fəryad" pyesində hadisələr fəlsəfi dram janrına uyğun olaraq insanın daxilində, düşüncə və mühakimələrində cərəyan edir. Əsərdə saray çirkabına qarşı duranlar həqiqət aşiqləridir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra, milli vətəndaşlıq mövqeyi ilə seçilən B.Vahabzadə yaradıcılığında yeni mövzular geniş yer alır. Milli tarixin əvvəllər qadağa qoyulmuş səhifələrinə baş vuran şair-dramaturq azərbaycançılıq varlığınının tarixi qatlarına dərindən nüfuz edir. O, müstəqillik illərində tamaşaya qoyulmuş "Dar ağacı" tarixi faciəsində xalq və Vətən amalına xəyanət edənlərə mənəvi dar ağacı qurur, onları məhşər ayağına çəkir.

Azərbaycan Akademik Milli Dram Teatrında Bəxtiyar Vahabzadənin pyesləri - "İkinci səs" (15 aprel 1969), "Yağışdan sonra" (08 may 1971), "Yollara iz düşür" (30 oktyabr 1977), "Kimdir haqlı?" (27 dekabr 1981), "Fəryad" (24 mart 1984), "Hara gedir bu dünya?" (10 sentyabr 1991), "Özümüzü kəsən qılınc" (10 aprel 1998), "Cəzasız günah" (11 iyun 2000), "Dar ağacı" (9 dekabr 2000), "Rəqabət" (27 noyabr 2003) repertuara daxil edilərək, milli teatrın inkişaf yoluna uyğun bədii-estetik formada təcəssümünü tapır. Azərbaycan Dövlət Gənclər Teatrında isə, qüdrətli dramaturq-şairin "Şəhidlər" mənzum pyesi (17 yanvar 1991) və "Atamın kitabı" əsəri (6 oktyabr 2000) tamaşaya qoyulur. Əlamətdar hadisədir ki, həm müasir, həm də tarixi mövzular müəllifi olan Bəxtiyar Vahabzadənin dramaturgiyası teatrın yaradıcılıq axtarışlarından kənarda olmamış, milli səhnədə realist lirik-psixoloji və fəlsəfi-dram üslublarının inkişafına rəvac vermişdir.

Müəllifin pyesləri yalnız Bakıda deyil, respublikanın ayrı-ayrı dövlət teatrlarında da səhnə həllini tapmış, geniş tamaşaçı rəğbəti qazanmışdır. "Vicdan" pyesi (1958), "Yağışdan sonra" (1977) Gəncə, "Vicdan" (1969) Ağdam, "Dar ağacı" (1989) Qazax, "Vicdan" (1960), "Dar ağacı" (1986), "Cəzasız günah" (2003) Şəki, "Yağışdan sonra" (1972) Lənkəran Dövlət Dram teatrlarında, "Ədalət" (1959), "Yağışdan sonra" (1972) pyesləri Naxçıvan Dövlət Musiqili Dram Teatrında, "İkinci səs" pyesi isə (2000) Almaniya Türk Dövlət Teatrında tamaşaya qoyulmuşdur. Pyeslərin səhnə uğurunda məhz B.Vahabzadə dramaturgiyasına xas olan lirik-psixoloji üslubun rolu boyükdür. Belə ki, zamanlar dəyişir, hər dövrdə pyesin məndəricəsində olan bu və ya digər problemə, mövzuya, məsələlərə üstünlük verilərək qabardılır, insanın mənəvi dünyası ilə bağlı olan iç mübarizələri isə həmişə lirik-psixoloji üslubda qorunub saxlanır. B.Vahabzadə dram əsərlərində gerçəkliyin əhatəli, çoxqatlı obrazını yaratmağa səy göstərir. O, konfliktin özəyini təşkil edən məsələnin birmənalı həllindən qaçaraq bütövlükdə həyat haqqında mürəkkəb psixoloji düşüncələri əsas götürür və onu xırda münasibətlərə qarşı qoyur. Nəticədə gerçəkliyin gizli qatları aşkara çıxır, obrazlı aləm, mühit yaranır.

Qüdrətli sənətkar Bəxtiyar Vahabzadənin 14 pyesindən sadəcə ikisi -"Ədalət" və "Yağışdan sonra" Naxçıvan teatrında tamaşaya qoyulub. "Ədalət" mənzum pyesi Azərbaycan Döv-

lət Dram Teatrının rejissoru Nəsir Sadıqzadənin quruluşunda 1959-cu il aprel ayının 25-də göstərilib. Bu mənzum pyesi şair-dramaturq şifahi xalq ədəbiyyatından istifadə edərək qələmə almışdı. Pyesdəki yığcamlıq, konflikt və xarakterlərin inandırıcılığı tamaşaya uğur qazandırmışdı. Əsərdəki hadisələr həyati problemlərə toxunduğundan süjet xətti aydın idi. Obrazların hər biri öz xarakter cizgiləri, səciyyəvi xüsusiyyətləri ilə seçilirdilər: dilin sadə və səlisliyi, şairanəliyi də tamaşanın son dərəcədə müvəffəqiyyətini artırırdı.

Nəsir Sadıqzadə tutarlı estetik ifadə vasitələrindən bacarıqla istifadə edərək, pyesin ideyasını dəqiqliklə açmışdı. Tamaşada bütün rəzilliklər, eybəcərliklər ifşa hədəfinə çevrildiyi kimi, bu eybəcərlikləri doğuran səbəblər də əks olunurdu. Rejissor aktyorlarla gərgin yaradıcılıq işi apararaq, tamaşanın müvəffəqiyyətli alınmasına nail olmuşdur. Tamaşa haqqında professor İ.Rəhimli yazırdı: "Rejissor əsərdəki xalq gücünün, el iradəsinin qələbəsini aydın və təsirli bir şəkildə tamaşaçılara çatdırırdı. "Ədalət" tamaşasında ədalətin təntənəsi ideyası sona qədər dəqiqliklə həll edilmişdir. Quruluşçu rejissor Nəsir Sadıqzadə reallıqla nağıl estetikasını sintez uyarlığında vermişdir".

"Ədalət" tamaşasının səhnə təcəssümünə maraqlı aktyor ansamblı cəlb olunmuşdu. Burada İsa Musayev (Səlim şah - Ədalət), Zəroş Həmzəyeva (Göyərçin), Əyyub Haqverdiyev (Vəzir), Firuzə Əlixanova (Aytən), Səməd Mövləvi (Müşavir), Əyyub Məmmədov (Bəlinas), Elbrus Mehdiyev (Xanəndə), Aydın Şahsuvarov (Baş sərkərdə), Yusif Haqverdiyev (Bilici qoca), Rza İsfəndiyarlı (Birinci kəndli), Həsən Mehdiyev (İkinci kəndli), Sevda Əliyeva və Rəfiqə Məmmədova (rəqqasələr), Abbas Xəlilov, Mirzə Ələkbərov və İbrahim Bənəniyarlı (əsgərlər) müəllifin fikirlərini aydın və bacarıqla tamaşaçılara çatdırırdılar. Möhtəşəm ansambla malik olan bu tamaşada hər bir aktyor öz rolu üzərində çox ciddi səy göstərərək, tamaşanın düzgün səhnə şərhinə nail olmuşdular. Əməkdar artist İsa Musayev Səlim Şah - Ədalət rolunu tamaşanın əvvəlində zülümkar, mənəviyyatı puç olan, sonda isə öz bəd əməllərindən uzaqlaşaraq əlinin zəhməti ilə yaşayan bir obraz kimi təqdim etmişdi. Səlim şah (İ.Musayev) hakimiyyətdən əl çəkdikdən sonra hakimiyyəti ələ almış vəzirə qarşı mübarizə aparan Aytənin ordusu üçün silah hazırlayır, başına dəstə toplayıb ona köməyə gedir. Xalq öz xilaskarı - dəmirçi Ədaləti alqışlayırdı. Naxırçı qızı Göyərçin Ədaləti sevib onunla birləşirdi. Tamaşa xalqın qələbədən doğan şənliyi ilə yekunlaşırdı. Tamaşaya rəssam Məmməd Qasımov tarixi keçmişə uyğun maraqlı tərtibat vermişdi. Bəstəkar Məmməd Məmmədovun tamaşaya yazdığı musiqi də dəyərli idi.



B.Vahabzadə, "Ədalət". 1959
S.Mövləvi - Müşavir, İ.Musayev - Səlim şah, Ə.Haqverdiyev - Vəzir

Azərbaycan Dövlət Dram Teatrında (1971) tamaşaya qoyulandan az sonra B.Vahabzadənin "Yağışdan sonra" pyesi Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 1972-ci il dekabrın 27-də səhnə həllini tapdı. Pyes yenə də rejissor Nəsir Sadıqzadənin quruluşunda sənətsevərlərə təqdim edildi. İstedadlı rejissor əsərin əsas qayəsini, hadisələrin daxili məntiqini dərindən duyduğundan tamaşanın bədii-estetik ruhuna müvafiq obrazlı mizanlar vermişdi. Pyesin ana xəttində yüksək duyğuların təcəssümü dayanmış, sevgidə də, ictimai



Şair B.Vahabzadə Naxçıvan teatrının kollektivi ilə birlikdə. 1959

işdə də, şəxsi məişətdə də vicdanın gur səsi səhnədən eşidilirdi.

Şair-dramaturq Hüseyn Razi "Şərq qapısı" qəzetində dərc olunan "Yağışdan sonra" adlı məqaləsində yazırdı: "Tanınmış rejissor Nəsir Sadıqzadə respublikamızın müxtəlif teatrlarında, o cümlədən Naxçıvan səhnəsində maraqlı tamaşalar yaratmışdır. "Yağışdan sonra" isə onun gözəl yaradıcılıq nailiyyəti sayıla bilər. Rejissor əsərin müasirlik pafosunu, ailə, əxlaq və məişət motivlərini, əsil məhəbbətə əsaslanan lirik vurğusunu, ictimai siyasi və fəlsəfi dəyərini, rəmzi məna çalarlarını yaxşı duymuş, gözəl mizanlar və tapıntılarla səhnələri cilalamış, yaradıcı kollektivlə səmərəli işləyib dolğun və mündəricəli tamaşa yaratmağa nail olmuşdur".

"Yağışdan sonra" tamaşasının müvəffəqiyyətində Zəroş Həmzəyevanın (Nihal), Məmməd Quliyevin (Aslan), İbrahim Həmzəyev və İsa Musayevin (Qədim bəy), Zemfira Əliyevanın (Reyhan), Qurban Ələkbərovun (Cığatay), Nazir Əliyevin (Rüstəm), Münəvvər Əliyevanın (Qərənfil), Yusif Haqverdiyevin (Prorab), Əkbər Qardaşbəyovun (Əmin) emosional oyun tərzləri, düşünülmüş səhnə davranışları əsaslı rol oynamışdır. Xalq artisti Zəroş Həmzəyeva Nihalın həyat fəlsəfəsini tamaşaçıya çatdırmaq üçün düşünülmüş, mənalı boyalarla-məhəbbətin qüdrətini daxili yanğı, dərin pafos və müdrik hökmlərlə açıb göstərirdi. O, obrazın daxilindəki ziddiyyətləri elə məharətlə yaradırdı ki, tamaşaçı Nihalın bəxtsiz taleyinə acıyırdı.

Tamaşada yaşına, müdrikliyinə, zəngin mənəvi dünyasına görə ön sırada duran Qədimbəy obrazını xalq artisti İbrahim Həmzəyev xeyirxah baba, nəcib insan, dəyanətli el ağsaqqalı kimi ifa edirdi. Qədimbəyə görə insanları qohumluq dərəcəsi ilə deyil, cəmiyyətdəki dəyərinə görə qiymətləndirmək lazımdır. O, nəvəsi Cığatayla (Q.Ələkbərov) Reyhanın (Z.Əliyeva) sevgisini qorumaq üçün fədakarlıq göstərəndə, saxta əməllərinə görə oğlu Aslana "Sənə bu torpağın çörəyi haram olsun" deyəndə, Nihalın faciəsini görəndə də xeyirxah və alicənabdır. Tamaşanın əvvəlindən sonuna kimi Qədimbəy - İ.Həmzəyev hadisələrin aparıcı xəttində dayanaraq, sambalı və davranışı, dərin mənalı sözləri, ictimai həyata fəal münasibəti ilə fərqlənirdi. Tamaşada İ.Həmzəyev mütərəqqi işıqlı keçmişlə bu günü tarazlaşdıran və münasibətlərin gələcəyi naminə yüksəlişə səsləyən müdrik-igid babaların əyilməz və dönməz xarakterini yaradırdı.

B.Vahabzadənin tarixi mövzulu pyesləri ötən əsrin ikinci yarısı və əsrimizin əvvəllərində milli mədəniyyətimizin, milli teatr hərəkatının, milli rejissor və aktyorluq məktəbinin əsaslı tarixi ənənələr üzərində inkişafına rəvac vermiş, Azərbaycan milli səhnə sənətinin yüksəlişinə böyük təsir göstərmişdir.

İnamla deyə bilərik ki, bundan sonra da Naxçıvan Dövlət Milli Dram Teatrı potensial imkanlarını artırmaqla qüdrətli şair-dramaturq Bəxtiyar Vahabzadənin dərin məzmunlu, günümüzlə səsləşən tarixi dram əsərlərinə müraciət edəcək, potensial imkanlarını daha da artıracaqdır. ●



**Aqil ƏHMƏDOV**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*

# Azərbaycan şərqşünaslığının görkəmli nümayəndəsi: Həsən Mahmudov - 100

**Azərbaycan şərqşünaslıq elminin şöhrətlənməsinə xidmət etmiş görkəmli filoloqlardan biri, Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin mərhum professoru, iranşünas Həsən Şıxmahmud oğlu Mahmudovun anadan olmasından yüz il ötür. Professorun özündən sonra yaratdığı məktəb, gənc nəsillərə örnək elmi irsi hələ yüz illər boyu araşdırılacaq, milli elmimizin inkişafına xidmət edəcək. 4 mart 1925-ci ildə respublikanın Xudat bölgəsinin Vələmir kəndində anadan olmuş, körpə yaşlarında ailəsi ilə birlikdə səfalı Quba şəhərinə köçən Həsən müəllim 69 (1994) illik mənalı ömür yolunun mühüm dövrünü Azərbaycan şərqşünaslığının inkişafına həsr etmişdir. Görkəmli şərqşünasın elmi-pedaqoji fəaliyyətinin əhəmiyyətli hissəsi BDU-nun Şərqşünaslıq fakültəsi ilə sıx bağlıdır. Professorun rəhbərliyi ilə yetişən onlarla şərqşünas alim hazırda respublikada və xaricdə - elm, təhsil ocaqlarında, beyin mərkəzlərində, bir çoxları isə diplomat kimi fəaliyyət göstərir.**

Uşaqlıq dövrü Sovet işğalının ilk illərinə təsadüf edən Həsən müəllimin atası Şıxmahmud Mahmud oğlu Mahmudov (1879-1933) Qubanın sayılıb-seçilən ailələrindən, həm bəy, həm də şıxlar (şeyx) kimi yüksək mənəvi dəyərlərə bağlı nəslə mənsub olmuşdur. Bu səbəbdən, Həsən Mahmudovun atası rejim tərəfindən təqiblərə məruz qalmış, heç bir ciddi əsas olmadan 1928-ci ildə bolşeviklər onu həbs etmişdir. Üç yaşlı körpə Həsənin atası, qolçomaq damğası vurularaq haqsızlığa uğrayan Şıxmahmud bir müddət zindan həyatı yaşamış, həmin ağır illər onun səhhətində dərin iz buraxmışdır. Azad olunduqdan sonra uzun ömür yaşamayan atası dünyasını dəyişəndə Həsən Mahmudovun cəmi 8 yaşı var idi. Həmin acı xatirələr və atasızlıq uzun illər Həsən müəllimin yaddaşında və qəlbində bir nisgil, hüzn olaraq qalmışdır. Çətinliklərə baxmayaraq anası Mələkə Əsgər qızı Fərəməzova (1895-1970) oğluna atasızlığı hiss etdirməmiş, bütün ömrünü övladının tərbiyə və təhsilinə həsr etmişdir. Mələkə ana adına, nəslinə layiq oğul böyütmüş, XX əsr Azərbaycan şərqşünaslıq elminə töhfə verən Həsən Mahmudov kimi dəyərli alimin yetişməsinə səbəb olmuşdur.



Həsən müəllimin gənclik dövrünə təsadüf edən II Dünya müharibəsi illəri Azərbaycanın bütün bölgələri kimi Quba rayonunun da ağır sınaqlar və savaşın gətirdiyi məhrumiyyətlərlə üz-üzə qaldığından xəbər verir. Həmin dövr Həsən Mahmudov kimi istedadlı və perspektivli gənclərin tədris işinə cəlb olunmasının vacib olduğunu əks etdirir. 1941-ci ildə 16 yaşında Qubada pedaqoji təhsilni əla qiymətlərlə başa vuran Həsən müəllim müharibə vəziyyəti hökm sürdüyü üçün, çox erkən yaşlarından tədris işinə cəlb olunmuşdur. 1944-cü ilədək rayonda və onun ətraf kəndlərində, xüsusilə Qubanın Zizik kənd 7 illik məktəbində hesab dərsini tədris etmiş və dərs hissə müdiri vəzifəsində çalışmışdır. Bununla bağlı, apardığımız araşdırmalar nəticəsində Azərbaycan Respublikasının Dövlət Arxivinin Quba filialında mühafizə olunan "Zizik kənd məktəbinin hesabatları"nda qeydlərə rast gəlinir. Bizim müəllifi olduğumuz II Dünya müharibəsi qəhrəmanı, şöhrət ordenli Rza İsayevin həyatından bəhs edən "Şərəfli ömür və döyüş yolu (sənədli bioqrafiya)" (2022) kitabının 35-ci səhifəsində Həsən Mahmudovla bağlı, ilk dəfə arxiv sənədi şərh olunmuşdur (Quba rayon Zəhmətkeş Deputatları İcraiyyə Komitəsinin Xaql Maarif şöbəsi. Rayon müəllimlərinin siyahıları - 1944-1945. ARDA QF: Fond № 47, siyahı № 1, saxlanma vahidi № 26, bağlama № 3, v. 38, 50, 73).

Müharibə illəri gənc Həsən müəllimin iradəsini möhkəmləndirmiş, vətənə layiqli vətəndaş kimi yetişməsinə, çətinliklərə qarşı mübarizə əzminin formalaşmasına mühüm təsir göstərmişdir. Pedaqoji təhsillə kifayətlənməyən Həsən Mahmudov fərd olaraq özünü inkişaf etdirməyə davam etmiş, müharibədən sonrakı ötən dövr ərzində bilik və bacarıqlarını bir qədər də artırmışdır. Onun təhsilə və elmə göstərdiyi yüksək maraq gələcəkdə yeni ixtisasa yiyələnərək, şərq dilləri istiqamətində dünya şöhrətli iranşünas kimi yetişməsində həlledici rol oynamışdır. Arzularının arxasınca cənnət Qubadan paytaxt Bakıya üz tutan gənc müəllim müharibənin bitməsindən bir il sonra, 1946-cı ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin fars dili şöbəsinə qəbul olunur. Qazandığı həyat təcrübəsi və pedaqoji fəaliyyət Həsən Mahmudovun nümunəvi tələbə kimi, seçdiyi ixtisasa yiyələnməsində mühüm addım olur. Onun ünsiyyətcil olması, öyrənməyə olan yüksək marağı, tələbə və müəllimlərinə qarşı ehtiramı, bir sözlə kollektivlə işləmək bacarığı alim kimi yetişməsində az əhəmiyyət daşımamış, gələcək elmi fəaliyyətinə təkan vermişdir. Həsən Mahmudovun tələbə kimi ilk gündən hiss olunan parlaq zəkası və çalışqanlığı fakültə rəhbərliyinin diqqətini çəkmiş və o, böyük məmnuniyyətlə təhsil aldığı qrupun qrup rəhbəri seçilmiş, ardından təhsil ocağının ictimai həyatında aktiv tələbə olaraq elmi-təşkilati işlərdə yoldaşlarından fərqlənmişdir.



Çox keçmədən Həsən Mahmudov özünü doğrultmuş və çalışqanlığı, eləcə də təşkilatçılıq səriştəsinin yüksək olması nəzərə alınaraq, fakültə rəhbərliyinin yekdil qərarı ilə fars dili kafedrasının laborantı vəzifəsinə təyin edilmişdir. Bu təyinat Həsən Mahmudovun qarşısında yeni üfüqlər açır. Həm istedadlı tələbə kimi yetişir, həm də atasızlığın və müharibənin ağrı-acısının gətirdiyi maddi-mənəvi qayğılardan uzaqlaşmasına səbəb yaradır. Öz üzərində davamlı çalışan və biliklərini artıran Həsən Mahmudovun istedadı 1951-ci ildə oxuduğu indiki Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirməsinə və aspirantura təhsilini davam etdirməsinə haqq qazandırır.

Həsən Mahmudovun elmi yaradıcılığını Azərbaycan, eləcə də region və dünya şərqşünaslığı üçün əhəmiyyətli edən mühüm məqamlardan biri, onun fars dili üzrə nadir mütəxəssislərdən biri olmasıdır. Azərbaycanda, keçmiş SSRİ məkanında, eləcə də bütün dünyada fars dilinin sintaksisi ilə bağlı ilk elmlər doktoru elmi dərəcəsinə layiq görülmüş alim kimi professorun elmi fəaliyyəti diqqət çəkir.

"Müasir fars ədəbi dilində tamamlıqların fellə idarəsi" mövzusunda elmlər namizədi dissertasiyası üzərində apardığı gərgin tədqiqatdan sonra, 1954-cü ildə müdafiə edərək aspirantura təhsilini müvəffəqiyyətlə başa vuran Həsən Mahmudov elmi yaradıcılığa fasilə verməmiş, fars dilinin qrammatikası ilə bağlı araşdırmalarını davam etdirmişdir. Həmin tədqiqat işi mövzunu tədqiq edən mütəxəssislərin ciddi marağına səbəb olmuş və yeni əsərlərin yazılmasına əsas yaratmışdır. Ardından, 1983-cü ildə SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda "Fars dilində sadə cümlələrin struktur tipləri və cümlə üzvləri problemi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş Həsən Mahmudov yuxarıda qeyd olunduğu kimi, beynəlxalq iranşünaslıq tarixində fars dili sintaksisi üzrə doktorluq dissretasiyası müdafiə etmiş ilk şərqşünas alim kimi müasir elm tarixinə öz adını yazmış azərbaycanlı olmuşdur. Həsən müəllimin elmi-ictimai fəaliyyəti dövrün yüksək mükafatları "Lenin Yubiley Medalı", "Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı" və s. mükafatlara layiq görülməsi ilə öz təsdiqini tapmışdır. Həsən müəllim tanınmış sovet şərqşünası L.S.Peysikovdan (1915-1978) sonra fars dil-



çiliyində cüttərkibli və təktərkibli cümlələrdən bilavasitə danışan ikinci alim olmuşdur.

Professor Mübariz Əlizadədən sonra Həsən müəllim 1965-1977-ci illərdə fakültəyə rəhbərlik etdiyi dövrdə, ardından 1989-1990-cı illərdə "Yaxın Şərq dilləri" kafedrasının müdiri kimi respublikada şərqşünaslıq sahəsində elmi-pedaqoji kadr hazırlığında yaxından iştirak etmişdir. Həmin 1965-1977-ci illərdə Həsən Mahmudov Şərqşünaslıq fakültəsinin dekanı olmaqla yanaşı, həm də universitetin "İran dilləri", "Türk dilləri" və "Asiya xalqları ədəbiyyatı" ixtisasları üzrə alimlik dərəcəsi verən Dissertasiya Şurasının sədri olmuş və otuzdan yuxarı namizəd, elmlər doktorunun yetişməsinə əmək sərf etmişdir. Professor fakültənin "İran filologiyası" kafedrasının ilk müdiri kimi Azərbaycanda ixtisaslı şərqşünasların yetişməsində böyük rol oynamışdır. Onlardan Əlibala Hacızadə, Şahin Fərzəliyev, Hacı Sabir Həsənli, Araz Əzimov, Rafael Hüseynov və s. iranşünasların adlarını çəkmək olar.

Həsən Mahmudovun 1964-cü ildə R.Sultanov və Ə.Nəzərli ilə birgə 7-8-ci sinif şagirdləri üçün "Fars dili" dərsliyi, 1966-cı ildə Ə.Şəfai ilə Şərqşünaslıq fakültəsinin qiyabi və axşam şöbələrinin 2-ci kurs tələbələri üçün "Fars dili" dərsliyi, hər iki müəllifin 1972-ci ildə 4-cü sinif şagirdləri üçün "Fars dili" dərsliyi, 1967-ci ildə "Müasir fars dilində feilin tamamlıqlarla sintaktik əlaqəsi" adlı dərs vəsaiti, 1975-ci ildə "Fars dilində sadə cümlə sintaksisi", 1982-ci ildə görkəmli şərqşünasın rus dilində "Müasir fars ədəbi dilinin sintaksisi (cümlə üzvləri)" adlı monoqrafiyası, T.Seyidov və R.Axundovayla birgə 1991-ci ildə 6-cı siniflər üçün "Fars dili" dərsliyi, T.Rüstəmova ilə birgə hazırladığı BDU filologiya, tarix fakültələri və şərqşünaslıq fakültəsinin türk və ərəb şöbələrinin tələbələri üçün "Fars dili" dərsliyi 1998-ci ildə nəşr olunub. Həsən Mahmudov elmi-tədqiqat işləri üzərində işləyərkən, yaxud opponenti olduğu dissertasiya işlərində sağlam elmi-tənqidi mövqeyi ilə tanınan alimlərimizdən olmuşdur. Eləcə də görkəmli rus şərqşünası, fars dili sahəsində tanınmış alim Y.A.Rubinçik (1923-2012) əsərlərinin əksəriyyətində professor Həsən Mahmudova istinadlar verərək onun elmi görüşlərini yüksək qiymətləndirmişdir.

Həmçinin, Həsən müəllimin elmi-pedaqoji fəaliyyəti ilə bağlı müxtəlif kitab və məqalələrdə professorun respulikada şərqşünas kadr hazırlığı, alimlər nəslinin yetişməsindəki yüksək rolu qeyd olunur. Bu baxımdan, Vüqar Məmmədovun 2024-cü ildə işıq üzü görmüş - "Fars dilini tədqiq edən Azərbaycan alimləri (XX əsr)" kitabında H.Mahmudovun sırf elmi fəaliyyətinə həsr olunmuş "Həsən Mahmudov" adlı paraqraf öz əksini tapır (s. 62-68).

Bununla yanaşı, Azərbaycan şərqşünaslığına həsr olunmuş geniş məzmunlu məqalələrdə Həsən Mahmudovun yaratdığı məktəb haqqında, yetişdirdiyi alim nəsillər və dekan, kafedra müdiri kimi fəaliyyəti ilə bağlı maraqlı məlumatlar öz əksini tapır.



Həsən Mahmudov elmi yardıcılığı, alimliyi ilə yanaşı, həmçinin şərəfli şeyx nəslinin görkəmli nümayəndəsidir. Bu haqda şərqşünas alimin yüz illik yubileyinə həsr olumuş mövcud məqalədə, ilk dəfə elmi-ictimaiyyətə alim ömrü yaşamış professor Həsən müəllimin şərəfli nəslə mənsub olmasına dair qısa məlumatı paylaşmaq qərarına gəldik. Bu haqda, "Undulmaz adlar" adlı məqalədə şıx (şeyx) nəslinə mənsub olduğu vurğulansa da qeyd etmək istərdik ki, Həsən Mahmudovun ata şəcərəsindən aydın olduğu kimi, ulu babaları ilk orta əsrlərdə Suriyanın Şam şəhərindən Azərbaycana gəlmiş islam mütəfəkkirləri olmuşlar. Hazırda qəbirləri ziyarətgaha çevrilən həmin şəxsiyyətlərin açıq səma altındakı türbəsi Xudat şəhərinin Vələmir kəndində yerli əhali tərəfindən "Vələmir piri" adlandırılır. Kitabələri olan qəbir daşlarının üzərində Quranın müxtəlif surələrindən ayələrə, adlara və tarixlərə rast gəlinir. Türbənin tarixi haqqında araşdırmalarımız davam edir. Şıx ifadəsi bu şərəfli nəslə mənsub insanların adlarının qarşısında öz əkisni tapır. Həsən müəllimin atasının adı məlum olduğu kimi Şıxmahmud idi. Eləcə də həmin nəslin nümayəndələri arasında Şıxömər, Şıxqasım, Şıxmürsəl, Şıxcümşüd, Şıxəhməd, Şıxvahab, Şıxkərim, Şıxəli, Şıxbala, Şıxcavad, Şıxəmir və s. adlara rast gəlmək mümkündür. Həmin şərəfli nəsildə görkəmli şərqşünaslarla yanaşı - həkim, geoloq, riyaziyyatçı, mühəndis, tarixçi və s. ixtisaslara yiyələnmiş mütəxəssislər var.

Ötən yüz il ərzində uzun yol qət etmiş Şərqşünaslıq fakültəsi hazırda BDU-nun yüksək balla tələbə qəbul etdiyi, yeni istiqamətlərdə mütəxəssis yetişdirdiyi ali təhsil ocağı kimi professor Həsən Mahmudovun və onunla çiyin-çiyinə çalışmış həmkarlarının xatirələrini yaşadır, elmi irsini gələcək nəsillərə çatdırır. Fakültədə 1957-ci ildən yaradılmış istiqamətlərlə yanaşı, dövlət müstəqilliyinin bərpasından ötən 30 ildən yuxarı vaxt ərzində, Yaxın və Uzaq Şərq ölkələri ilə yaranan münasibətlər kontekstində - İvrit (1993), Yapon (2000), Urdu (2001), Çin (2002) və Koreya (2007) şöbələri yaradılıb. Çin, Yaponiya və Koreya dilləri 2004-cü ildə yaradılan vahid "Uzaq Şərq dilləri və ədəbiyyatı" kafedrasına daxil edilib.



**Sevil ADIGÖZƏLOVA**
*AMEA Rəyasət Heyəti Aparatı,*
*Sənədlərlə iş və protokol şöbəsinin müdir müavini,*
*filologiya üzrə fəlsəfə doktoru*

# Əlibəy Hüseynzadənin yaradıcılığında antroponimlərin təhlili

**Əli bəy Hüseynzadə mütərəqqi fikirləri, azadlıq ideyası, xalqın gələcəyini, millətin təhsil alması məsələlərini fikirləşən və mürtəce qüvvələrə şiddətli cavab verən ədiblərimizdən biri olmuşdur. Onun yaradıcılığında idarəçilik, siyasi hakimiyyət, məmurların özbaşnalığı və cəmiyyət məsələləri dərindən təhlil edilmişdir. Ədibin mülahizələri onun satirik felyetonlarında, əsərlərində metoforik silah ilə hədəfə alınmışdır. Kəskin və obrazlı ifadələr onun yaradıcılığının ana xəttini təşkil edir. Əsərlərin əsas ana xəttində biz tənqidi fikirlərin çatdırılması üçün mifik və heyvan adları, rənglər, təxəllüslədən geniş istifadə olunmasını müşahidə edirik. Bundan əlavə, onun yaradıcılığında siyasi-tarixi məsələlər geniş təhlil edilir.**

Bu məsələlərin real tarixi şəxsiyyətləri də vardır. Ədib "Siyasəti-fürusət" əsərində bütünlükdə çarizm, mütləqiyyət, İran hökmdarlarının amansız idarəçiliyi, şovinist dövlət xadimlərinin fəaliyyəti kimi məsələləri təsvir etmişdir. Əli bəy Hüseyzadənin əsərlərində çıxış edən tarixi şəxsiyyətlərin antroponimiya sisteminə nəzərə saldıqda görürük ki, bu sistem özünün spesifik quruluşu ilə fərqlənir.Bu cəhətdən də tarixi əsərlərin antroponimiya sisteminin araşdırılması aktual məsələlərdən biridir. Ədibin yaradıcılığında antroponimlərin təhlil edilməsi bu sistem haqqında təsəvvür yaradır. Bu təhlillərin aparılması üçün ən münasib metod təsvir metodudur. Antroponimlərin struktur və məzmununda xalqın tarixi, mədəniyyəti, etnoqrafiyası, inamları və s. kimi xüsusiyyətlər vardır. Ədib yaradıcılığında təsvir etdiyi tarixi qəhrəmanların adlarında millətin etnogenezini də müəyyən etmək olur. Əsərlərin tərkibində antroponimlər bədii ifadə vasitələridir. Onların semantik, struktur quruluşu fərqlidir. Antroponimlər ədibin yaradıcılığını rəngarəng edən əsas palitralardan biridir. Əsərlərdə və felyetonlarda olan antroponimlərin obyektiv gerçəklik ilə vəhdət təşkil edir. Tarixi əsərlərdə antroponimlər diferensiallaşdırma, fərdiləşdirmə və nominativ identifikləşdirmə funksiyalarını yerinə yetirirlər. Məsələn, zülmkar, qəddar, pis əməl xüsusiyyətinə görə ədib əsərində Zöhhakın hökmdar, Hülakü xan və s. kimi tarixi personajları təsvir etmişdir. Antroponimlər özlərində presuppozitiv məlumatlar saxlayırlar. Ədib əsər və felyetonlarında tarixi şəxsiyyətləri cəmiyyətdəki mövqeylərinə görə mənfi və müsbət xarakterlərini nəzərə alaraq qələmə almışdır.Əlbəttə antroponimlər hər bir şəxsiyyətin identikliyinin göstəricisidir.

Ədib obrazlara verdiyi adlarla dövrünün tarixi-siyasi mənzərəsini əks etdirməyə çalışmışdır. Məsələn, Pruşkeviç, Nəsrəddin şah, Mirzə Tağı, Seyid Əli Yəzdi, Şeyx Fəzlüllah, Məhəmmədəli şah və s."Pruşkeviç:Mənim bildiyimə görə İranın Əhli-qədiməsinə dair məlumat verən məşhur yunan müvərrixi Herodot heç dəmirçilikdən, dəmirçi gavərlərdən bəhs etmiyor.

O diyor ki, farsi-qədim üç şeyə həvəs edərdi: at minməyə, ox atmağa bir də doğru söz söyləməyə" [1,s.8]. Bu şəxslər real tarixi məkanda yaşamış şəxslər idi. Adlar arasında rəğbət qazanan, köhnəliyi təbliğ edən, xalqı mövhumata aparan və s. kimi xüsusiyyətləri özündə birləşdirən antroponimlər də vardır. Əli bəy Hüseynzadənin "Siyasəti-fürusət" əsərindəki antroponimləri semantik mənalarına görə belə bölmək olar:

- Pis əməl, qəddarlıq, zülmkar: Moğol hökmdarı Hülakü xan, Zöhhakın hökmdar, Ağa Məhəmməd Şah Qacar, Fətəli şah, Nəsrəddin şah.
- İqtisadi-siyasi, mədəni həyatda islahat edən: Əmir Nizam Mirzə Tağı Xan, Müzəffərəddin Şah, Cəmşid hökmdar, Xəyyam, Teymur şah, Səttar xan.

"Çəkiliniz ortadan. Mədəniyyət gəlir! Təbriz mücahidlərinin, Səttar xanların qalibiyyəti ilə gəlir" (Səttar xan haqqında) [1,s. 7].

- Demokratik hərəkata qarşı çıxan, irtica qüvvələrinə başçılıq edən: Ağa Mir Haşim, Seyid Əli Yəzdi, Şeyx Fəzlullah. "Cənab müstabadi şərnətmodar, Ağa Mir Haşim, inqilabçıları həbs etdim Seyid Abdullahı Kərbalaya, Seyid Məhəmmədi Xorasana sürgün etdim. Məlikülmütəlləqəlimi və Cahangir xanı öldürtdürdüm. Siz də mübarizəyə başlaya bilərsiniz. Nə yardım istəyirsiniz, göndərməyə hazıram" [1, s.169].
- Müdriklik edən: Kəyumərs hökmdar

Antroponimlərin struktur qurluşuna diqqət etdikdə görürük ki, titul bildirən komponentlər əsas rol oynamışdır. Bu barədə Q.Kazımov qeyd edir: " Xan, bəy, titul adları bu gün şəxs adlarının yaranmasında, arxaik element kimi, sözdüzəltmə prosesinin vahidi funksiyasını yerinə yetirərək Azərbaycan antroponimik sisteminin zənginləşməsində fəal mövqeyə malikdir" [4, s.21]. Nümunələrdən görünür ki, xan, hökmdar, şah titulları xüsusi addan sonra gəlir. Onların yerləşmə arealı əksər hallarda bu formada olur. Əsərdə olan şəxs adları janra uyğun seçilmişdir. Əsərin bəzi fraqmentlərində ədib hökmdar, xan, şah titullarını cəm formasında işlətmişdir. Məsələn, Səttar xanlar, Teymur şahlar və s. Bununla əsərdə üslubi ümumiləşmələr nəzərə alınmışdır. Antroponimlərin mənbəyində əsasən qədim və müasir mənbələr durur. Qədim adların etimologiyasına nəzər saldıqda görürük ki, onlarda ağır məna yəni xalqın həyatı, istibdad, zülm, xaos və s. (Şeyx Fəzlullah, Nəsrəddin şah, Fətəli şah), rifah, tərəqqiyə doğru, azadlıq, birlik (Şair Səid Səlmasi, Xəyyam, Nadir şah) kimi semantika dayanır.



**Əli bəy Hüseynzadə**

Antroponimlərin təhlil edilməsində məhz yazıçıların, şairlərin, publisistlərin əsərləri vacib mənbə hesab olunur. Əlibəy Hüseynzadənin digər məhşur tənqidi - tarixi, cəmiyyəti və idareyi-hökuməti metafora ilə ifadə edən əsəri "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" məqalələr toplusudur. Ədib İran, çar Rusiyası, Osmanlı imperiyası və idareyi - hökumət quruluşlarını, onların başçılarını təsvir edir. Məqalələrdən biri "Müzzəfərəddin şah" adlanır. Bu məqalədə ədib əməlləri ilə yaddaşlarda qalan Müzzəfərəddin şahı və ona bərabər tutulan şəxslərdən danışır. O məqaləsində şahı belə təsvir edir: "Yadındamı doğduğun zamanlar, sən ağlardın, gülərdi aləm, bir elə ömür keçir ki, olsun, mövtin sənə, xalqa matəm...".Müzəfərəddin şah vəfat etdi.. Lakin elə bir qibtəbəxşa, bir surətdə vəfat etdi ki, heç bir şairin xatirə və xə-



Solda **Əli bəy Hüseynzadə** , ortada **Əlimərdan bəy Topçubaşov** , sağda **Nəsir bəy Tahirov** (Sankt-Peterburq, 1887)

yalına o yolda vəfat gəlməmişdir. Müzzəfərəddin şahın vəfatı şairin arzu və təsəvvür etdiyi mövtün mafövqündədir: o mövt xəndədən də gözəl bir şey idi [2, s.105].Şahın ölümü ilə xalqın qəlbinə qəm, qüssə düşmüşdür. O, elm, maarifin tərəfini qoruyur və dəxi ədəbiyyatı dərindən təhlil edirdi. Müzzəfərəddin adı mürəkkəb quruluşlu addır. Belə adlar məqalələrdə və əsərlərdə informativ xarakter daşıyır. Müzzəfərəddin şahın baş qəhrəman olduğu məqalədə onunla bərarbər digər İran şahlarının da adları çəkilir. Məsələn, Keykavus, Keyxosrov, Cəmşidin, Firudin, soltan Mahmud, Məlikşah və s. Bu tarixi şəxsiyyətlərin adları sadə və mürəkkəb quruluşludur. Bəzilərinə dövrümüzdə verilən şəxs adları sırasında rast gəlmək olur. Məsələn, Məlik, Mahmud, Firudin və s. Ədibin məqaləsində fitnə-fəsad, riyakarlıq, pislik kimi xüsusiyyətləri birləşdirən və şahın məiyyətində olan digər qəhrəmanlar Eynədüdövlələr, Əmir Bahadurlar, Hacibüddövlələr, Şüaüssəltənələr idi [2, s.108]. Məqalədə bu qəhrəmanların cəm formasında yazılması yazıçının üslubunda bu şəxslərə qarşı metoforik anlama gəlirdi. Yaranmış mərəzidən istifadə edərək (yəni şahın xəstə olması) öz məqsəd və mənfəətlərinə çatmağa çalışan səxsiyyətlər idilər. Ədibin yaradıcılığında tarixi şəxsiyyətləri cəmiyyətdəki mövqe və fəaliyyətlərinə görə metoforik məna daxilində belə qruplaşdırmaq olar:

- Kölgə - Pruşkeviç, mar və əjdaha - Zöhhak hökmdar, triyomiyorlar - Mir Haşım, Şeyx Fəzlullah, Seyidəli Yəzdi, Belçika pişiyi - Laversə, günəş Allahı - Cəmşid xan, mnemon (hafizəli) - Ərdəşiri Bəhmən, ildırım Bəyazit - sultan Bəyazit, İran Napoleonu Nadir - Nadir şah, İranın qanlı gözləri - Ağa Məhəmməd şah Qacar, qan və qılınc - Otto Bismark, siz və əmsal - Şeyx Fəzlullah, Seyidəli Yəzdi, Qacarın ikincisi - Fətəli şah, mütləqiyyətin qanlı əli - çar zabiti Dantes, bugünkü Qacar - Məhəmmədəli şah [1, s.165].

Metoforik məna daxilində ədib həm siyasi, həm də din xadimlərinin adlarını çəkmişdir. Bu antroponimlərin etimologiyalarına nəzər salsaq görürük ki, onlar müxtəlif mənşəlidirlər. Aralarında həm türk, fars, ərəb, alman mənşəli antroponimlər yer alır. Bu tarixi şəxsiyyətlərin hər biri tarixdə pis, yaxşı, reformator və s. kimi xüsusiyyətlər ilə yadda qalmışlar. Əsərdə metaforanın güclü olması oxucunun yaddaşında adların yaxşı qalmasına dəlalət edir. Metafora bədii əsərlərdə təhlillərin aparılmdasında xüsusi rol oynayır. Ədib Nadir şah antroponimindən əsərində üslubi keyfiyyətlər ilə istifadə etmişdir. Adın etimologiyasına nəzər salsaq görürük ki, o ərəb mənşəlidir və az tapılan, az təsadüf edilən, az ələ düşən, həmçinin arabir, hərdənbir, təsadüfən, təkdənbir, çox seyrək, az mənasını ifadə edir. Bu antroponimə müasir antroponimiya sistemində çox təsadüf edilir. Əsərdə Nadir şah Əfşarlar sülaləsinin banisi kimi təsvir olunur, ona tarixdə hərbi nailiyyətlərinə görə "şərqin qılıncı" ləqəbi adı altında da tanınırdı. Əsərlər tarixi mövzulu olduqları üçün antroponimlər titullar ilə işlənmişdir. Yəni antroponimin yanında biz bir-neçə komponent görə bilərik. Məsələn, Ağa Məhəmməd

şah Qacar, Ağa Məhəmməd Həsən xan Qacar, Şeyx Xoca Əli, Əmir Nizam Mirzə xan və s. nümunələrdən göründüyü kimi, antroponimlər özündə həm familiya, həm aralıq ad, ata adı kimi xüsusi adları birləşdirir. Əli Bəy Hüseynzadənin əsərlərində birinci yerdə şəxs adları durur, sonra isə artıq antroponimlərin peyorativ (mənfi adlar) formaları yer tutur. Qeyd etmək istəyirik ki, ədibin əsərlərində xüsusi adların cəm formalarına tez-tez rast gəlinir. Məsələn, Mirhaşımlar, Şeyx Fəzullahlar, Seyidəli Yəzdilər, Menşikovlar və s. Ədib əsərində bayquşun dili ilə onları belə səciyyələndirmişdir:"Görürəm siz mənə xidmət edənlərsiniz. Mənim bəndələrim, xadimlərimsiniz. Onun üçün sizə rəhbərlik edəcəyəm" [1, s.29]. Bu da ondan irəli gəlir ki, mürtəce qüvvələrə qarşı bir etiraz, çıxış forması idi. Dilçilik nöqteyi nəzərindən cəmlik şəkilçisinin istifadə olunması konkret adın və familiyanın qruplaşdırılmasına xidmət edir. Ədibin əsərlərində meliorativ (müsbət mənalı), neytral və yumoristik adlara da rast gəlinir. Əsərlərdə türk, ərəb, fars sülalələrinin padşah, sultan, hökmdarları təsvir olunduğuna görə ərəb dilinə məxsus "ibn" oğlu komponentli antroponimlərə də rast gəlirik. Məsələn, Sultan Mahmud ibn Sabuktəkin, I Kserks ibn Daryus, İsfəndiyar ibn Gəştasib, Xudabənd ibn Təhmasib, Şah İsmayıl Sani ibn Təhmasib, Sultan Xəlil ibn Miranşah, Uluqbəy ibn Şahrux, Hüseyn Baykara ibn Mənsur və s.

Yuxarıdakı nümunələrdən də məlum olur ki, ədibin əsərlərinin antroponimik sistemi maraqlı xüsusiyyətləri ilə seçilir. Adlar sistemində həm dünya tarixinin görkəmli şəxsiyyətlərini, həm də Azərbaycanın tarixində rol oynayan şəxsiyyətlərin adlarını görürük. Ədib " Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" adlı məqalələr toplusunda Zeynal Zeynalov, Məhəmmədağa Şaxtaxtinski, Əhmədbəy Ağayev, Şah İsmayıl Xətai, Şah Abbas, Mehdi bəy Hacınski, Mirzə Fətəli Axundov, Murtuza Muxtarov, Hacı Zeynəlabdin Tağıyev, Jan Jak Russo, N.M.Karamzin, Martin Lüter, Mithəd Paşa, Böyük Pyotr, Təhsin Paşa, Əbu Ziya Tofiq, Mövlana Cəlaləddin Rumi, Demosfen, Tolstoy və s. görkəmli şəxslərin adları çəkilmiş və müqayisələr aparılmışdır. Məslən, "Ancaq Şah İsmayıl heç bir zaman ümummüsəlman düşmənlərinə şikayət edəcək qədər bir zilli irtikab etməmiş idi " [2, s. 186]; "Rusiya mədəniyyəti təhlil edilərsə, bunun iki ünsürdən ibarət olunduğu görülüyor. Bu mədəniyyət asiyalığın Asiya məişətinin tədricən Avropa mədəniyyəti ilə imtizacından hasil oldu. Bu imtizac Böyük Pyotrdan və daha ziyada Böyük Katerina zamanından başlıyor"[2, s. 167]; "Fransa inqilabi-kəbirindən əqdəm gəlib, o inqilabı hazırlayanlardan biri bulunan məşhur Jan Jak Russo bunun təmamilə əksini iddia ediyordu. Bu ədibə görə insanın ən məsud zamanı, sinni-tufuliyyət, yəni cocuqluqdur" [2, s.163]; "Şimdi də eşitdiyimizə görə bu yolda bir tərcümə də Mehdi bəy Hacınski vücüda gətirib səhnə üçün hazırlayır" [2, s. 96]; "Lakin mətəəsüf içimizdə Mirzə Fətəli kimi bir teatr mühərriri bir daha zühür etmədə. Çünki elə istedadi - fövqüladələr sadə bizdə deyil, sair əqvam arasında dəxi əsərlərdə bir-iki dəfə görünən Şillerdir [2, s.96]";"Hacı Zeynəlabdin Tağıyevin təxti-riyasətində olan məzkur cəmiyyətin daha birinci ictimaında cəmaətimizin həmiyyəti sayəsində on səkkiz min manata qədər bir məbləğ yığıldığını zikr edərsək, bu cəmiyyətin qüdrət və əhəmiyyəti özlüyündən təzahür edər". Beləliklə, Əli Bəy Hüseynzadənin əsərlərində verilən tarixi şəxsiyyətlər ilə onların adları arasında semantika vardır. Bu antroponimlərdə şəxslərin dünya görüşü, idarə üsulları, əxlaq, səriştə kimi xüsusiyyətləri ifadə olunmuşdur. ●

***Ədəbiyyat***


- *Hüseynzadə, Ə. Siyasəti-fürusət. Bakı-Elm -1994, 235 s.*
- *Hüseynzadə, Ə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. Seçilmiş məqalələr. Azərbaycan Dövlət Nəşriyyatı - 1996, 252 s.*
- *Şıxaliyeva, G.M. Əli Bəy Hüseynzadə və qərbi Avropa ədəbi-nəzəri fikri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün tədqim edilmiş dissertasiya. Bakı -2022, 151 s.*
- *Kazımov,Q. Bədii ədəbiyyatda komizm üsulları. Bakı - 1987, s. 21*



**Hamlet ALLAHVERDİYEV**
*AMEA-nın Gəncə Bölməsi Diyarşünaslıq İnstitutunun Tarix şöbəsinin əməkdaşı*

# Nizami Gəncəvinin "Xəmsə"sində təbiəti mühafizə

**1995-ci ildə Almaniyanın Berlin şəhərində reallaşan Cop29 beynəlxalq konfransının bu günə qədər 28 yığıncağı olmuşdur. 29 ilə malik olan bu beynəlxalq tədbir iqlim dəyişikliyi - havanın, suyun çirklənməsi, təbii tarazlığın pozulması nəticəsində yaranan problemlərin aradan qaldırılması uğrunda həyəcanlı çıxışlar edir. Müxtəlif ölkələrdə "Yaşıllar" cəmiyyəti yaradılması, dünya yaşıllıq hərəkatının formalaşması üçün 1948-ci ildə Beynəlxalq Təbiətin Mühafizəsi Birliyi, 1961-ci ildə Ümumdünya Təbiəti Mühafizə Fondu, 1971-ci ildə Greenpeace, 1972-ci ildə BMT-nin Ətraf Mühit proqramı və sair cəmiyyətlər yaradılmışdır.**

Alimlər 2050-ci ilə qədər zoonoz infeksiyalarından iqlimin 12 dəfə artacağını, bu gün ən təhlükəli virusları Ebola, Marburq, SARC-COV 2 (COVİD-19), NİPAH virusu və MAÇUPO-nu hesab edirlər. Bu gün Qazaxıstanda və Çində mənşəyi bilinməyən xəstəlik hamını narahat edir.

Dahi şairimiz Nizami Gəncəvi təbiətdə tarazlığın pozulması haqqında əsərlərində məsələlər qaldırmışdır. (Gətirdiyimiz sitatlar əsərin baş hərifləri ilə göstərilib).

*Su artıb həddini aşarsa əgər,*
*İçəni doydurmaz, mütləq qərq edər. Səh.46, X.Ş.*

*Ağaca baltanı vurdu pəhləvan,*
*Ayrıldı tacından, qızıl taxtından.*
*Ayağı batmışdı bu qədər qana,*
*Səadət gülməzdi belə insana. Səh.167, İsk.*

Azərbaycanın son illər qazandığı uğurlardan biri, bəlkədə əsası, COP29- dur. Bu o deməkdir ki, yaşadığımız regionda qlobal tədbirlərə başçılıq etməkdə Azərbaycan qədər şanslı ikinci dövlət yoxdur. Qarabağda mənfur düşmən tərəfindən törədilən eko fəlakət bu baxımdan dünya mediasının və COP29-un müzakirələrində deyilməsi son dərəcə vacib, qaçılmaz mövzu olaraq qalır. 30 illik işğal dövründə ermənilər Laçında palıd meşələrini, Zəngilanda olan təbii çinar ağaclarını, çayları sənayenin zəhərli suları ilə zəhərlədilər, faunaya, floraya qənim kəsildilər. Qərbdən onlara dayan! - deyən olmadı. Kömək edin, deyəndə - dedilər: "Özünüz dil tapın". Dövlətimiz 44 günlük döyüşdə hər şeyin həllini və dilini tapdı.

İnsan yarandığı gündən bu günə kimi təbiətlə təmasda olub, onun nemətlərindən bəhrələnib, bəs biz bunun əvəzində təbiətə nə vermişik? Dünyada mövcud olan 11 iqlim növünün 9-u Azərbaycanda var. Belə bir zəngin, əvəzolunmaz təbiət gözəllikləri olan vətənimiz təbiət muzeyidir. Bu muzeyi qorumaq, duymaq, dinləmək, yeri gələndə onun keşiyini çəkmək, qulluğunda durmaq bizim vəzifəmizdir.

*Elə ki,bağlara boz xəzan girər.*
*Bülbül öz yerini qarğaya verər.*
*Bağbanlar qəlbini dərdü -qəm yaxar,*
*Uca budaqlardan düşər yarpaqlar. Səh.58, İsk.*

Akademik Həsən Əliyev deyirdi: "Hər bir landşaft qurşağı "Özündən əvvəlkinə və sonrakına" söykənir. Bu "layihəni" pozanda isə bütün qurşaqların mərkəzdən keçən, gözlə çətin görünən əsas xətt qırılır, təbiətin ahəngi pozulur. Bu ahəng torpaqdır, sudur, havadır, yaşıllıqdır, canlı aləmdir, onlarla insanın təmasıdır"

Dövlətimizin əhalisi getdikcə artır. Bu təbii bir hadisədir. Əkin sahələri isə artmır, əksinə torpağa, suya qulluq olmadığı üçün şoranlaşma baş verir. Bunun qarşısını almaq üçün müasir suvarma sistemlərindən istifadə, torpağın münbitliyini artırmaq üçün dünyanın qabaqcıl ölkələrinin təcrübəsindən istifadə etmək gərəkdir. Bizim fikrimizcə, bu deyilənlərə əlavə olaraq, şoran toropaqların və suların təmizlənməsi, yeni suvarma üsullarının tətbiqi gərəkdir. Şorakət torpaqlarda xüsusi dözümlü bitkilərin əkilməsi əsasdır.

*Hər kim toxum əksə şoranlıq çölə,*
*Bircə peşimançılıq gətirər ələ.*
*Ağac əkilməli münbit bir yerə,*
*Ta behişt barı tək meyvələr verə. Səh.41, Y. G.*

Təbiəti mühafizədə suyun qorunması əsas amil sayılır. Dağlara yağan qarın əriməsindən yaranan dağ suları ən yaxşı su hesab olunur.

Əkin sahələrinin suvarılmasında yağış suyu toplanır, lazım gəldikcə istifadə olunur.

*Yağış damcı-damcı buluddan yağar,*
*Böyük çay olunca dənizə axar. Səh.111, İsk.*

*Dağlardan əriyən kafuri çaylar,*
*Çaya göz yaşıyla verirdi vüqar. Səh.273, Y.G*

Bu gün çayların çirklənməsi balıq ovuna da pis təsir göstərir.

*Axar sular kimi sən də sakit ax,*
*Axdığın yerlərdə xoşlansın torpaq.*

Əli baltalı, baltasız gəlir ağaclara qənim kəsilirlər.

*Qocaman ağaca mişar çəkmə sən,*
*Zöhhak bunun üçün düşdü təxtindən. Səh.223*



Qışın qarlı olması əkinçiyə xeyirlidir. Qış yuxusuna getmiş torpağın payız əkininin qalın qar "örpəyinə" örtülməsi onun şaxtadan qorunması, yazda bol su ilə təmin etmək deməkdir. Qar örtüyünün bu müsbət xüsusiyyəti "Qar olmasa, bar olmaz" atalar sözündə əks olunmuşdur.

*Nə qədər yağmayıb bağçalara qar,*
*Bağın, bağçanın da min səfası var. Səh.317, X.Ş.*

Hava isinir, şaxtalı günlər azalır.

*Efir ətəyində şəbnəm oturdu,*
*Hərarət şaxtaya bir zərbə vurdu. Səh.273, Y.G.*
*Ağzını açanda buzlu nəhrlər,*
*Onların dodağı süd ətri verər. Səh.223, İsk.*

Qocalar qış gələn kimi kürkə bürünüb yazın gəlməsini gözləyirlər.

*Bircə tük qar yağdı, qaçaraq yenə,*
*Bürünürük qalın heyvan tükünə. Səh.360, X.Ş.*

Nizamiyə görə sakit axan su dirilik suyudur. Yəni qorxulu deyil. Vay o günə ki, sel kimi gəlib, ziyan verə.

*Bir dirilik suyu olsa da bu su,*
*Başdan aşsa əgər, vardır qorxusu. Səh.140, X.Ş.*

Bəzən lal axan sular, güclü axsa fəlakətlər törədər.

*Xətərsiz sanma lal axan suları,*
*Tünd axsa dağıdar xanimanları. Səh.66 X.Ş.*

Bulaqların qurumaması havanın təmiz olması üçün biz meşələri, orda olan ağacları, kolları qorumalıyıq. Bəzən ağaclara qənim kəsilən əli baltalı insanların təbiətə qənim kəsildiyinin də şahidi oluruq.

*Nərvən tək papağı qoydum qabağa,*
*Sərv tək dayandım qalxıb ayağa.*
*Baltanı qaldırıb narvəndə vurdu,*
*Sərvin budağını dəhrəylə vurdu. Səh.278 X.Ş.*

Bunun əvəzində təbiət bizdən əvəz çıxır. Daha doğrusu, bizi cəzalandırır.

*Hansı sərvi əvvəl ucaltdı yüksək,*
*Sonra da boynunu əymədi fələk?*
*Torpağa sərildi solğun qızıl gül,*
*Yox oldu bağçadan o şeyda bülbül. Səh.447, İsk.*

*Güvənmə bədənə, torpaqdır sonu,*
*Əcəl bir yel kimi qoparar onu. Səh .156. İsk.*

Mərhum prezident Heydər Əliyev deyirdi: "Kim ağacı kəsirsə elə bilsin ki, mənim əlimi kəsir" Meşələrin qırılması nəticəsində bulaqlar quruyur təbiətin gözəlliyi olan fauna və flora məhvə məhkum olur.

*Hər maral, ovçunun zülmündən qaçar,*
*Yırtıcı vəhşidir hələ insanlar.*
*Çöldə şux bir ceyran düşməyir ələ,*
*İnsandan sığınır dağa köhülə.*

Ovçu adı ilə təbiətə vurulan ziyanın nəticəsində Azərbaycanda xallı maralın kökü kəsilib. Az miqdarda olan xallı marallar vətənimizə uzaq Şərqdən gətirilib.

*Ov vurdu düzdə, dağda o qədər*
*Ki, saya bilməzdi onu min nəfər. Səh.121, X.Ş.*

Bu gün Gəncənin səfalı guşəsi olan Hacıkənddə xeyli ağac kəsilib, meşə azalıb bunu kimin etdiyini bilirik, amma mübarizə etmirik, sanki belə olmalıdır.

*Bu bağda bir ağac bitməmiş rahət*
*Ki, balta dəyməyib qalsın səlamət. Səh.111, İsk.*

*Yenidən abad et bu gövhər bağı,*
*Torpaqdan təmizlə köhnə alağı. Səh.120, İsk.*

*Tutduğun işlərdən tez ol peşiman*
*Düşün ki, bir fayda verməz sonradan. Səh.134, İsk.*

*Əgər sağlam olsa hava, bu zaman,*
*Dəydiyi şeylərə yetirməz ziyan.*
*Yox, əgər olarsa havada zəhər,*
*Dəydiyi hər şeyi yaqin məhv edər. Səh. 490, İsk.*

Dünya görmüş müdrük piran babalar gənclərə söyləyərdilər:

*Süddən doymuş ceyran bu xoş gündüzdə,*
*Çıxıb anasıyla gəzərdi düzdə.*
*Qırqovul açmışdı qanad reyhana,*
*Əlvan qanad vermiş reyhan da ona.*
*Cəh-cəh vuran bülbül, oxuyan turac,*
*Aşiqlər qəlbini edirdi tarac. Səh.123, X.Ş.*

*Bu ağıllı sözlər nadir gövhərdir:*
*"Əzvay yenə əzvay, şəkər şəkərdir. Səh.164, X.Ş.*

Əzvay acı tamlı dərman bitkisidir, şəkər isə şirin qidadır. Dahi Nizami bununla demək istəyir ki, həyatın acısı olduğu kimi, şirini də var.

*Küləyi torpağa bağlamaq olmaz,*
*Odla suyu birgə saxlamaq olmaz. Səh.176, X.Ş.*

Gül, çiçək ilin ən gözəl, təravətli fəsli olan baharla həmdəmdir, sanki əkizdir. Bahar dedikdə güllər-çiçəklər bolluğu yada düşür. Bunu dərindən duyan, hiss edən babalarımız gözəl demişlər: "Gül açdı, bahar oldu".

*Şümşada tay oldu bəzəkli süsən,*
*Sevimli bir sərvə yurd oldu çəmən. Səh184, İsk.*

Dahi Nizami gözəl qədim Bərdə haqqında xoş sözlər demişdir:

*Bizim bu Bərdənin yeri Arandır,*
*Suyu çox, otu çox bir gülüstandır. Səh.100, X.Ş.*



**Gülnarə İSMAYILOVA**
*Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu Nizami Gəncəvi Məqbərə filialının müdiri*



**Vəfa ƏLİYEVA**
*Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun elmi işçisi*

# Avropada Nizami irsi və şairin əsərlərində "Şira" ulduzu

**Azərbaycan-Avropa ədəbi əlaqələrinin təməli qədim dövrlərə dayanır. İnsanlıq üçün bir cığır, yeni bir yol açan, bütün bəşəriyyəti elm, əxlaq, dürüstlük, kamillik, irfanla dolu bu yola dəvət edən Azərbaycan ədəbiyyatının ölməz söz ustadı Nizami Gəncəvi yaradıcılığının təsir dairəsindən qərb bədii-ədəbi fikri də təsirlənmişdir. Nizami elə bir söz ustadıdır ki, bütün bəşəriyyətin ən kiçik problemlərinin dərinliyinə vara bilmiş, onları yüksək poetik dillə öz oxucularına təqdim etmiş, öz sələflərinin yaradıcılığından bəhrələnərək bütün bunları bir xəzinəyə toplaya bilmişdir. 1940-cı ildən etibarən Sovet alimləri "Xəmsə"ni xarici dillərdə tərcüməsi məsələsini araşdırmış, Avropa tarixində Nizami yaradıcılığını öyrənməsi istiqamətində xeyli iş görmüşlər.**

Nizami əsərlərinin başqa şairlərin əsərləri tərəfindən təqlid edilməsi avropalılarda şairə qarşı marağı hər zaman daha da gücləndirmişdir. Fransız utopist-sosialistlərinin ideyaları birbaşa Nizamidən iqtibas olunmuşdur. Nizami Gəncəvinin humanist fikirləri həmin xalqların ədəbiyyatına da təsir etmişdir.

Tədqiqatlar nəticəsində müəyyən olmuşdur ki, avropalı şair və şərqşünaslarından Bartelemi D.Erblo, A.Russo, Jan Darmsteter, Jül Mol, E.Bloşe, Anri Masse, Lui Araqon, Flipp Van Tyeqem Gəncəli Nizaminin Avropada öyrənilməsində böyük rol oynamışdır. Nizami Gəncəvi təkcə Azərbaycan xalqı üçün deyil, bütün bəşəriyyətin məzlum xalqları üçün çalışmışdır.

Ən qədim "Xəmsə" nüsxəsi Paris Milli Kitabxanasında saxlanılan, 1362-ci ildə üzü köçürülən əlyazma hesab olunmuşdur. Lakin Anri Massenin araşdırmalarına əsasən, Nizami Gəncəvinin 1328-ci ildə Bombeydə üzü köçürülmüş "Xəmsə" nüsxəsi bu vaxta qədər ən qədim hesab edilən nüsxədən 34 il əvvəl köçürülmüşdür.

Fransız şairi Lui Araqon Nizami haqqında demişdir: "Təsadüfi deyil ki, Nizami Gəncəvinin əsərləri latın və yunan müəlliflərinin əsərlərindən çox təqlid edilmişdir. Müsəlman dünyasında mədrəsələrdə təlim edildiyi üçün bir dərs vəsaiti kimi istifadə edilmişdir. Avropalı səyyahlar, elm həvəskarları tərəfindən yayılmışdır".

Dahi şairin əsərlərinin tərcümə tarixi XVII əsrdə başlamışdır. Onlardan yalnız "Xosrov Şirin" tam olaraq tərcümə edilmişdir. İngilis alimi Qelpke şəxsi kitabxanada saxlanılan əlyazmalarından istifadə edərək "Leyli Məcnun" əsərini ingiliscəyə tərcümə etmişdilər. Şairin yaşadığı dövrlə əlaqədar olaraq onun fransız ədəbiyyatına təsiri tarixi tam olaraq müəyyən edilməmişdir. Nizami irsinin tədqiqatçısı Mirzə Məhəmməd Axundov Nizami "Xəmsə"sinin 1845-ci ildə Peterburqda fransızca çapdan çıxdığını qeyd etmişdir. Axundova görə "Xəmsə"ni F.Şarmua tərcümə etmişdir. Bu barədə o, "Şeyx Nizami"



adlı əsərində məlumat vermişdir. Amma ola bilsin ki, bu tərcümə çap edilməmişdir.

1741-ci ildə Konstantinopolda Nizami əsrlərinin ilk tərcüməçilərindən olan İ.İ.Klerambol tərəfindən "Yeddi Gözəl" fransızcaya tərcümə edilmişdir. O, əsərin sonunda mətnin "Yeddi gözəl" əsərindən götürdüyünü yazır. Hətta fransız şərqşünası E.Bloşe "Türk əlyazmaları kataloqu" kitabında bu tərcümədən istifadə etmişdir.

Fransız şərqşünası Alfons Russo 1841-ci ildə Əlcazairdə çap olunan "Şərq parnası" adlı bir əsər yazmışdır. Bu əsərdə şərq şairləri ilə yanaşı Nizami Gəncəvinin əsərlərindən tərcümələr verilmişdir. Şərqşünas Nizami yaradıcılığındakı bədii tabloları fransızlara çatdırmaq üçün "Xosrov və Şirin" əsərində "Yazın təsviri" səhnəsini fransız dilinə tərcümə etmişdir. Eyni zamanda, "Şərq parnası" əsərində şairin "İsgəndərnamə" əsərindən "İsgəndərin zülmətə getməsi" hissəsini tərcümə etmişdir. Lakin şərqşünas hər iki tərcümədə hansı əlyazmalardan istifadə etdiyini yazmır.

Bundan əlavə, şairin "Xosrov və Şirin" əsəri bütünlükdə fransız dilinə tərcümə edilərək 1970-ci ildə nəşr edilmişdir.

Gəncəli Nizaminin zəngin yaradıcılığı onu dünyaviləşdirmişdir. Nizami irsinin Fransada öyrənilməsində əsərlərinin fransız dilinə tərcümə edilməsi böyük əhəmiyyət daşımışdır. Amma tərcümələrə qədər o, Fransada artıq tanınırdı. Onun əsərləri "Xəmsə" şəklində deyil, ayrı ayrılıqda dünya kitabxanalarına yayılmışdır.

Nizaminin hərtərəfli yaradıcılığı o qədər zəngindir ki, şairin hər beytində bir hikmət gizlənir. Onun əsərlərindəki şifrələri açmaq geniş bir zəka tələb edir. Hər bir söz bir əfsanəyə, dünya xalqlarının tarixinə işarədir. Şairin əsərləri kainat durduqca Qərb və Şərq şərqşqnasları tərəfindən yenidən işlənəcək qədər zəngindir. Bəşəriyyət bəşər tarixinə belə idrak sahiblərini çox gec-gec bəxş edir.

Yuxarıda qeyd etdiyimiz kimi, dünya ədəbiyyatının korifeyi şeyx Nizami Gəncəvinin əsərlərinin tərcümələrinə hələ sovet dövründə XX əsrin 40-cı illərində başlanmışdır. Bu tərcümələr həm filoloji, həm də bədii tərcümələr olaraq həyata keçirilmişdir. Lakin tərcümələrə olduqca həssas yanaşılmalıdır. Bu prosseslər 1945-1947 və 1980-1981-ci illərdə yubiley ərəfəsində olduğu üçün tələsik baş verdi. Bu səbəbdən də qüsurlardan xali olmadı və hazırda yenilənməyə ehtiyac duyur.

Şeyx Nizami Gəncəvi məktəbinin türkdilli davamçılarından biri, orta əsrlərin məhşur Osmanlı şairi Həmidzadə Cəlili (1487-1569) "Leyli və Məcnun" dastanı haqqında yazırdı:

*Ol dürci-gühər fəsani məni*
*Gəncinə güşəyi Gəncə yəni,*
*Münşiyi-səhifeyi-kərami*
*Bəhri-gühəri-söxən Nizami...*
*San şeir ona vəhyu-asimandır,*
*Peyğəmbəri axır əz-zəmandır.*

Həmidzadə Cəlili Şeyx Nizami irsinin elə böyük mübtəlası olub ki, burada onu Məhəmməd peyğəmbər (s) ilə müqayisə edib və şairlərin peyğəmbəri kimi vəsf edir.

Türkmənistanın Xalq yazıçısı Ata Atacanov Nizami Gəncəvinin 850 illik yubileyində iştirak etmək üçün Şeyx Nizami Gəncəvinin doğulduğu və məzarını yerləşdiyi Gəncə şəhərinə gəlmişdi. Gəncə vağzalında qatardan düşən kimi əyilib torpağı öpdü və dedi: "Nizamini yetirən bu torpağı öpmək bütün dünya şairlərinin müqəddəs borcudur" (Tofiq Mütəllibov, "Sözün zirvəsi, zirvənin sözü").

Türkmən xalqının yetirdiyi böyük istedad sahibi, şair, yazıçı, dramaturq Ata Atacanovun göstərdiyi bu kövrək jest onun böyük arif olduğundan xəbər verir.

Şöhrətli balkar şairi Qaysın Quliyev sonsuz şövqlə böyük şair haqqında deyir:

*Əbədi günəşdir, məncə, Nizami!*
*Nizami Gəncədir, Gəncə Nizami.*

Dahi şairimizə miqyassız ehtiramdan doğan məhəbbətlərini dilə gətirmək ənənsi günümüzədək yaşamaqdadır.

Orta əsrlərdə yaranmış ədəbi nümunələr, bu elmlərin vəhdətindən xəbəri olmayanlar üçün düzgün başa düşməkdə çətinlik çəkir. Səyyarələri və bürcləri təşkil edən sabit ulduzların hər birnin divan ədəbiyyatında öz rəmzi mənası var. Şeirlərdə ən çox rast gəlinən ulduzlar içərisində "Şira" ulduzunun yeri xüsisi seçilir.

Şira ulduzuna latınca Sirius deyirlər. Sözün əsli yunanca "serios" kəlimısindəndir. Mənası "çox isti, bürkü, yandırıcı" deməkdır.

Qurani-Kərimdə "Şira" ulduzundan başqa heç bir ulduzun adı çəkilmədiyi üçün divan ədəbiyyatında məhz ona bu qədər çox diqqət və maraq göstərilmişdir.

53-cü "ən-Nəcm" surəsinin 49-cu ayəsində buyurulur:

"Və ənnəhu huvə Rəbbuş-Şi`ra".

Tərcuməsi: "Və odur Şira ulduzunu yaradan (rəbbi)!"

Ayəni təfsir edərkən Məhəmmədkərim Bakuvi yazırdı: "Şira yıldızı cövzanın (əkizlər bürcünün) ardınca tülu edər (doğar). Şiradan başqa ona Kəlbul-Cəbbar (Zalım it) də deyirlər. Şira yıldızı ikidir; biri əl-Ğəmisa, digəri əl-Əburdur, hansı ki, Xəzaə cəmaətinin rəislərindən Əbu Kəbşə adlı bir şəxs onlardan ötrü əhadis etdi. Ərəb camaatının hamısı büdpərəst idilər. Həman Əbu Kəbşə onlardan aralanıb Şira yıldızına sitayiş eylədi. Qureyş camaatı Rəsul-Xudanı (Məhəmməd peyğəmbəri (s)) gətirdikdə Kəbşəyə müqabil tutub İbn Əbu Kəbşə (Əbu Kəbşənin oğlu) deyirdilər" (s. 536).

Türk astranomları bu ulduzu Quruq adlandırıblar. El içində yay fəslinin yarıdan keçməsini bu ulduzun görünməsilə təyin edirlər. Buradan Quruq sözü təhrif edilərək "Quyruq doğub" hətta "Quyruq donub" ifadəsi yaranıb. Bu ulduz səhər sübh vaxtı günəşdən öncə görünməyə başlayır. Ulduz çox parlaq olduğu üçün qıllı bir kürəyə, şara oxşayır. Buna görə də ona Şira (ərəbcə "tüklü" deməkdir) adı veriblər.





XIX əsr Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi Həsənəli ağa Xan Qaradağski "Yay" adlı şerində yazırdı:

*Yaydan bir az qalmış el dağdan enər,*
*Quruq doğar, onda havalar sınar.*

Dünya ədəbiyyatının korifeyi olan Şeyx Nizami Gəncəvinin ilk dastanı olan "Məxzənul-əsrar" ("Sirlər xəzinəsi") poemasında Şira ulduzuna eyhamla yüksək bədii deyim nümunəsi yaratmışdır.

Ərzincan hakimi Fəxrəddin Bəhram şaha müraciətində Şeyx onu niyə fələklə bir süfrədə göstərir? Fələk nə deməkdir? Müasir astranomiyanın da qəbul etdiyi göyün 9 sferası, 9 fələyi, yəni "noh fələk" vardır. Söhbət burada nücum elmindən gedir. 7 fələkdə bürclər və ulduzlar yerləşir, 2 fələkdə isə səma cisimləri yoxdur. Buna görə, el arasında bəxtsizliyi və talesizliyi ifadə etmək üçün "yeddi fələkdə bir ulduzum yoxdur" -deyirlər.

Ərzincan hakiminin adı Bəhram (pəhləvicə Vahram) Mars səyyarəsinin adıdır. Səyyarlar fələkdə zodiak bürclərlə bir sferada yerləşir. Günəş sisteminin planetlərlə, o cümlədən, Bəhramın (Marsın) da kecdiyi 12 zodiak bürclərindən süfrə üçün material verir; Qoc (Həməl - quzu ), Buğa (Sur - buzov), Oğlaq (Sədi - cəpiş) ətindən kabab hazırlayıb "fələk süfrəsində məclis qurmağı" ifadələrini poetik obraz kimi görmək olar. Bürclərdəki ulduzları məcazi, xəyali xətlərlə birləşdirərək üzərində kabab tikələrini təsəffür etmək mümkündür. Şeyx Şira ulduzunun yerləşdiyi Kəlbul-Əkbər bürcünə işarə edir. Xatırladaq ki, Məkkə camaatı Məhəmməd peyğəmbərdən (s) öncə İbn Kəbşə adlı birinin təhriki ilə Şira ulduzuna sityiş etmişlər.

Şeyxin yaşadığı Gəncə heç bir siyasi, iqtisadi rabitə ilə Ərzincana bağlı və tabe deyildi ki, şair də özünü Bəhram şahın tələbəsi, bəndəsi saysın.

Şeyx Nizaminin qüdsi beytlərinin ən kamil bədii tərcüməsi, heç şübhəsiz ki, mərhum Mir Cəlal Zəkiyə məxsusdur. O, başqa şair-tərcüməçilərdən fərqli olaraq, Şeyx Nizaminin əsərindəki "dəri" kəlməsini ("dər", "qapı" sözündəndir, "saraya məxsus " mənasındadır, əyan-əşrəfin yüksək ədalı dili deməkdir) farscadan birbaşa tərcümə edir, əsərin vəznini, bəzən qafiyələrini də saxlayır və çətin anlaşılan hər beytə elmi şərhlər də yazırdı. Bəzən şərhlər yüz səhifəni aşır, dissertasiya həcminə yaxınlaşırdı. Bu böyük mütərcim haqqında mərhum Rüstəm Əliyev "samorodok" - "qızıl külçəsi" deyirdi.

Bütün bu deyilənlərdən belə nəticə çıxarmaq olar ki, dünya ədəbiyyatının korifeyi Şeyx Nizami Gəncəvinin əsərlərinin həm filoloji, həm də bədii tərcümələrinə həssaslıqla yanaşmaq lazımdır. ●

***Ədəbiyyat:***

1. *Firudin Qurbansoy. "Gəncə və Şeyx Nizami, Bakı. 2024*
2. *Əsgər Sərkəroğlu. "Azərbaycanın peyğəmbərləşən mütəfəkkir şairi", Bakı, 2004*
3. *M.Y.Quluzadə. "Nizami Gəncəvi", Bakı, 1953*
4. *M.K.Bakuvi. "Kəşfül-həqaiq", 2010, cəh.3*



**Bəxtiyar TUNCAY**
*AMEA A. A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Türk xalqlarının tarixi və etnologiyası şöbəsinin əməkdaşı*

# Qriqori Hamama və onun "Alban dilinin qrammatikasi"

**Tarixi mənbələrdən məlum olduğu kimi, 866-cı ildə Albaniyanın ilk hökmdarlar sülaləsi hesab edilən Aranşahlar nəslinə mənsub Qrirori Hamama adlı xristian bir bəy ərəblər tərəfindən vaxtilə babası Səhl ibn Sumbata hədiyyə edilmiş torpaqlarda (Şəki ətrafındakı geniş ərazilər) özünü Aran, yəni Albaniya məliyi elan etmiş və dərhal da öz məlikliyində xristian albanlar üçün məktəblər açdırmış və özü də həmin məktəblərdə uşaqlara tədris edilmək üçün alban dilinin qrammatikasına aid bir kitab da yazmışdır (Ворошил Гукасян 1978: 25-26).**

Trakiyalı Dionisinin "Qrammatika"sına bənzədilməklə (Геюшев 1984: 168; Сумбатзаде 1990: 68), Aristotel və Platon ruhunda, daha dəqiq desək, qrammatika, ilahiyyat, fəlsəfə və təbiətşünaslıq biliklərini özündə əks etdirən lakonik sual-cavab formasında (Гаркавец 2002: 304) qələmə alınmış bu əsərin sonralar erməni "dilçi"ləri üçün həsəd və ilham mənbəyinə çevrildiyi, nəhayət, XVll əsrdə həmin əsərin əsasında, erməni dilinə tərcümə edilməklə, hay dilinin ilk qrammatika kitabının yazıldığını erməni müəlliflərinin özləri etiraf edirlər.

Maraqlıdır ki, bir ermənidilli əlyazmada həmin əsərə, daha doğrusu, onun bir fraqmentinə həm erməni dilinə tərcümədə, həm də alban orijinalının dilində rast gəlinməkdədir. Yəni Qriqori Hamamanın qələminə məxsus kitabın bir fraqmenti hansısa möcüzə şəklində dövrümüzədək gəlib çatmışdır. Söhbət hazırda Matenadaranda saxlanılan 3522 № - li əlyazmadan və orada əksini tapmış kiçik bir albandilli mətndən gedir (Ц'уц'ак 1965-1970; Гаркавец 2002: 304; Гаркавец 2007: 895-906).

-Ne ata aytmax bilə belgilidir?
-Ki, oğlu bar.
-Kimninq neməsisen sen?
-Atanınq.
-Kimninq neməsimen?
-Atanınq.
-Kimninq neməsidir ol?
-Atanınq.
-Kimninq neməsidir bu?
-Atanınq.
-Kimninq neməsidirlər bular?
-Atanınq.
-Kimlərninq neməlpəridirlər alar?
-Atanınq.
-Xayda ettinq sen
-Tenqridə.
-Kimgə umsandınq sen?
-Tenqrigə.
-Kimninq bilə yeberdinq sen?
-Tenqri bilə yeberdim men.
-Kim bilə yeberdi bu?
-Tenqri bilə yeberdi bu, ol.
-Kim bilə yeberdi ol?
-Tenqri bilə yeberdi ol.
-Kim bilə yeberirsen?
-Tenqri bilə yeberiyirim (olmalıdır "yeberimen") men, ya ata bilə.
-Kim bilə yebersərsen?
-Tenqri bilə yebersərim (olmalıdır "yebersərmen") men, ya ata bilə.



-Kim bilə bardınq sen?
-Tenqri bilə bardım men.
-Kim bilə barıyırsen?
-Tenqri bilə barıyırmen.
-Kim bilə barsarsen ya ketsərsen?
-Tenqri bilə, ya ata bilə ketsərmen.
-Kim bilə ettinq anı?
-Tenqri, ya oğul bilə ettim bunu.
-Kim bilə etiyirsen?
-Tenqri ya Can bilə etiyirmen, ya alıyırmen.
-Kim bilə etəcəksen?
-Tenqrilix bilə etecegim men, ya alsarmen.
-Neninq bilə yasadınq ol nemeni, ya bu nemeni?
-Bu nemə bilə, ya ol nemə bilə.
-Kimni xoldunq sen?
-Tenqrini xoldum men.
-Hali kimni xolıyırmen men?
-Tenqrini.
-Sonqra kimni xolsarsen sen?
-Tenqrini xolsarmen.
-Kimni izdiyir bu?
-Tenqrini izdiyir oşta ol.
-Kimni izdiyir ol?
-Tenqrini izdiyir ol.
-Kimlərni xolarlar bular, ya alar?
-Tenqrini xolıyırlar oşta bular, ya alar.
-Ol vaxt kimdən yeberildinq sen?
-Tenqridən yeberildim men.
-Hali kimdən yeberildinq sen, xardaş?
-Tenqridən yeberildim men, biyağalarpm, canım.
-Xaysıdan yeberildinq sen, dostum menim?
-Tenqridən yeberildim men, seyiklü atam menim.
-Kimdən yeberildi oşta ol, ya ol?
-Tenqridən yeberildi bu, ya ol.
-Xaydan keldinq sen, ya oşta ol, ya ol, ya bu?
-Tenqridən ya atadan.
-İşlərsen?
-Heyə, işlərim.
-İşlərsen?
-İşləməm.
-Nek işləməzsen?
-İzdəməm işləməx.
-Nek kləməzsen?
-Zera ki, bolmam.
-Ne üçün bolmassen?
-Anınq üçün bolmam, zera yoxtır xuvatlıxım.
-Kim yarattı seni?
-Tenqri.
-Kimninq yaratılqanı sen?
-Tenqrininq.
-Kimgə umsandınq sen?
-Tenqrigə.
-Kimninq bilə xuvatlandınq sen?
-Tenqri bilə
-Kimdən yeberildinq sen?
-Tenqridən. Atam menim.
-Kimninq toğuşusu sen?
-Atamnınq menim.
-Kimninq boldu toğuşunq seninq?
-Atamnınq menim.
-Kimni xolarsen?
-Atamnı menim.
-Kimdən keldinq sen? Atamdan menim. Ey ata, işit manqa da ber xoltxamnı menim.
-Ne toğdunq sen?
-Oğul.
-Kimgə sen ata?
-Oğluma menim.
-Kimdə boldu atalıxınq seninq?
-Oğlumda menim.
-Kimninq bilə sensen?
-Oğlum bilə menim.
-Kimdən fərahlanırsen sen?
-Oğlumdan menim.

-Ne bar seninq?
-Canım bar menim.
-Kimninqsen sen barlıxın?
-Canımnınq menim barlıxı.
Kimdə xuvatlandınq sen?
-Canımda.
-Ne aytarsen canınqnı seninq?
-Tensizdir canım menim.
-Kimdən yeberildinq sen?
-Candan.
-Xaysılardırlar bunlar?
-Canlar.
-Kimlərninqdirlər bunlar?
-Canlarnınq.
-Kimlərgə berirsen bunlarnı?
-Canlarğa.
-Kimlər bilə yeberiyirsen bunlarnı?
-Canlar bilə.
-Kimlərni xolarsen?
-Canlarnı.-Kimlərdən yeberildinq sen?
-Canlardan.
-Kim etti seni?
-Tenqrilix.
-Kimninq etilgənisen sen?
-Tenqrilixninq.
-Kimgə işanıyırsen?
-Tenqrilixkə.
-Kim bilə etildinq sen?
-Tenqrilik  bilə.
-Kimni bildinq sen sanqa etüçi?
-Tenqrilikni.
-Kimdən etildinq sen?
-Tenqriliktən.
-Neçik inanırsen Tenqrini?
-Üçlüx da bir.
-Kimninq inanğanısen sen?
-Errortutiunnunq.
-Kimgə inanırsen sen?
-Errortutiunğa da bir Tenqrigə.
-Kim bilədir toxtalğanı inamnınq seninq?
-Errortutiun bilə.
-Xaysın tapunıyırsen?
-Ari Errortutiunnu.
-Kimdən toxtatılgandır inamınq seninq?
-Ari Errortutiundan.
-Nedir?
-Tenqridir.
-Nedir Tenqri?
-Biydir.
-Neçik?
-Ki, yaratuçıdır.
-Nedən?
-Zera ki, kendininq yaxşılıxnı özgələrgə kləvüçidir.
-Ne türlü nemədən?
-Zera terbiyatından yaxşıdır.
-Nedir nışanı Tenqrininq?
-Nışansızdır.
-Nedən?
-Zera ki etilməgən da ölümsüzdür.
-Ne türlü nemədən?
-Zera ki, yerişilməgən da tergələnməgəndir. Anqlanmasızdır Tenqri.
-Evet, xuvatka körə nışanlattılar ari atalar ki, Üçlüx da birdir.
-Ne türlü?
-Üç boyda bir tarbiyatdır.
-Neçik?
-Ata da Oğul da Ari Candır.
-Paylaşmaxı neçiktir?
-Ata toğuruçı da Oğul toğurulğan da Can axkan.
-Almaxlıx kim kimdən?
-Oğul toğmax bilə ilgəri kelir Atadan, da Can axınmax bilə kenə ol Atadan.
-Ne türlü ölçöv bilə?
-Barabar Üçlüxtir.
-Bardır ululux da kiçilix ya eksiklik?
-Yox, tek barabar da birdirlər haybat bilə da ululux bilə.
-Ölçməxlixi ne xadardır?
-Ölçövsüz da xarərsiz da sansızdır.
-Negə oxşaştır Tenqri?
-Oxşaşsızdır... ●


*Qaynaqça*

- Tuncay B. Qafqaz albanlarının dili və ədəbiyyatı. Qanun, B., 2010.
- Гаркавец А. Щ. Кыпчакское письменное наследие.Том Ы. Каталог и тексты памятников армянским письмом. Алматы. Дешт-и-Кыпчак. 2002.
- Гаркавец А. Щ. Кыпчакское письменное наследие.Том ЫЫ. Памятники духовной культуры караимов, куманов-половцев и армяно-кыпчаков. Алматы. КАСЕАН. Баур, 2007.
- Геюшев Р.Христианство в Албании Тбилиси, 1975.
- Гукасян В. Л. Значение Закавказских источников в изучении истории азербайджанского языка Советская тюркология, 1978, № 2.
- Сумбатзаде А.С. Азербайджанцы - этногенез и формирование народа. Баку, 1990.
- Ц'уц'ак дзеаграц' Маштоц'и анван Матенадарани // Еганян О., Зейтунян А., Антабян П.- Ереван, 1965, т. 1; 1970, т. 2.



**Fəridə QULİYEVA**
*AMEA Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

# Hüseyn Cavid obrazı tablolarda

**Milli dövlətçiliyimizin inkişafında müstəsna rol oynamış Ulu Öndər Heydər Əliyev Hüseyn Cavid məqbərəsinin təntənəli açılış mərasimində söylədiyi dərin mənalı nitqində böyük sənətkarı belə qiymətləndirmişdir: "Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur".**



Milli fəlsəfənin dayağı olan H.Cavidin öz şəxsiyyəti fəlsəfi obraz kimi rəssamların nəzər diqqətini cəlb etməmiş ola bilməzdi. Çünki H.Cavidin həyat və yaradıcılığı gələcək nəsillər üçün bir örnək olmuş və olacaqdır. Haqqında danışılacaq sənət əsərləri H.Cavidin Ev Muzeyində yerləşən eksponatlar əsasında yazılmışdır. İnsanların maddi tələbatları olduğu kimi, mənəvi ehtiyacları da mövcuddur. Maddi tələbat ictimai inkişafı müəyyənləşdirən amillərdən olsa da, mənəvi tələbat bu inkişafı istiqamətləndirən əsas şərtdir. Hökumət və qanunlar insan cəmiyyətinin təhlükəsizliyini və vətəndaşların xoş güzəranını qoruyur, elm, ədəbiyyat və incəsənət isə əksəriyyət etibarı ilə insanları əzmlə öz cərgələri arasına alaraq məharətlə vəsf etdikləri idealın ardınca aparır. Tarix boyu bütün dövrlərdə hakim dairələr məhz ədəbiyyat və incəsənətin onları tərənnüm etməsinə ehtiyac duymuş, onların gücünə arxalanaraq cəmiyyət arasında nüfuz qazanmağa çalışmışlar.

Repressiya illərində, totalitarizm quruluşu dövründə də hakim qüvvələr öz ideyalarını





təbliğ edən ədəbiyyat və incəsənət xadimlərinə nə dərəcə arxalansalar da, bir o qədərdə mütləq həqiqətə bağlı olan ali bir əqidə sahiblərindən ehtiyat edib, çəkinmişlər. Bu dövrün günahsız qurbanlarından olan Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Yusif Bəy Çəmənzəminli, Abbas Mirzə Şərifzadə, Pənah Qasımov, İdris Axundzadə kimi ziyalıları rəssam Oqtay Sadıqzadə "Qara yazı" adlı tablosunda təsvir etməklə millətin ziyalı təbəqəsini göz önündə canlandıraraq, bu şəxsiyyətlərin daxili zəka gücünü, iradə möhkəmliyini açmışdır. Qara fonda təsvir olunmuş Azərbaycan ziyalılarına tamaşa edərkən bir anlığa milləti tərəqqiyə doğru apara bilən günahsız "qurbanları" görürük. Rəssamın tablonun üst səthini tikanlı məftil ilə bir-neçə hissəyə bölməsi əsərin emosional təsir gücünü daha da artırmışdır. Bəşər tarixində daima yüksək ideya sahibləri müəyyən səbəblər nəticəsində məhv olsalar da, onların ideyaları əbədiyyətə qovuşaraq daima yaşamışdır. Baş verən bu kimi bütün hadisələrdə sanki qarşı qarşıya duran tərəflər fövqəltəbii qüvvə tərəfindən sınağa çəkilərək onların hansı mövqe tutmaları yoxlanılır. Hadisələrin cərəyanında ədalətli, iradəli, rəşadətli hər bir hərəkət gələcək nəsil üçün (bəzi hallarda hətta bəşəriyyət üçün) örnək olaraq, bir həyat məktəbinə çevrilir. Ağac qaranlıqlardan çıxaraq bar verdiyi kimi, repressiya qurbanlarının da mətanəti, dönməzliyi sonrakı nəsillərə əsl həqiqəti dərk etdirmiş, ədalətsizlik və kor-koranə zahiri sui-itaətkarlıqdan çəkindirmişlər.

Qeyd olunan xüsusiyyətləri H.Cavid həm həyatda tutduğu mövqe ilə, həm də yaratdığı əsərlərdəki obrazların vasitəsi ilə nümayiş etdirmişdir. Ədibin dühasına nəzər salan hər bir rəssam və yaxud heykəltəraş onun nurlu və mütəfəkkir simasını gözləri önündə canlandırıb, əksərən onu əsərlərində yaratdığı obrazların əhatəsində təsvir etmişdir. Həqiqətən də H.Cavid obrazına həsr olunmuş hər bir sənət əsərində müəyyən mənada bir işıq, xeyirxahlıq ruhu, əqidə möhkəmliyi kimi xüsusiyyətlər sezilməkdədir. Çox güman bu səbəbdəndir ki, "Cavid dünyası" (yağlı boya, 1997) adlı tabloda rəssam O. Sadıqzadə H.Cavidin portretinin fonunda ədibin əsərlərindən bəzi obrazları (Şeyx Sənan və Xumar, Peyğəmbər və Mələk və s.) təsvir edib. H.Cavidin ön planda təsvir olunduğu portreti realist üslubda çəkilmişdir. Ədibin əsərlərindən götürülmüş obrazlar isə portreti bir növ haşiyələndirən yan tərəflərdə məhz romantizm üslubunda təsvir olunub. Təsvirdə realist üslub ilə romantik üslubun sintezi ədibin mütləq həqiqətə bağlı olan ali






bir əqidəsini vəsf etdirdiyi romantik üslublu əsərlərinin real ünsürlərdən heç də məhrum olmamağına bir işarədir. Rəssamın tablonu üç hissəyə bölməsi heç də təsadüfi deyil. Rəssam zaman məfhumunun açılışına işarə edən (keçmiş, bu gün, gələcək) bu say ədədi (yəni 3 rəqəm) vasitəsi ilə hər hansı bir zaman çərçivəsinə sığmayan ümumbəşəri H.Cavid dühasının bütün zamanlarda aktual olmasını tamaşaçıya çatdıraraq, onun nurlu simasında tükənməz zəka mənbəyinə malik olan bir obraz canlandırmışdır.

H.Cavid obrazına həsr olunmuş rəngkarlıq əsərləri içərisində Vaqif Ucatayın "Zordan üstün" (yağlı boya 1997) tablosu fəlsəfi-romantik üslubda çəkilmişdir. Ədibin obrazı sanki kosmoloji bir məkanda təsvir edilib. Həmin fəzada addımlayan iki gənc isə ədibin oğlu Ərtoğrol Cavidlə qardaşı Şeyx Məhəmmədin oğlu Tahir Rəsizadənin şəkilləridir. Rəssam repressiya illərinin siyasi mənzərəsini bu tabloda açıb göstərmişdir. Ə.Cavid və T.Rəsizadənin təsvirləri o dövrün gəncliyinin simvolik obrazıdır. Onlar sanki hörümçək toruna müqavimət göstərərək addımlamağa çalışırlar. Gəncliyin tərəqqisi uğrunda çalışan H.Cavidin əleyhinə qurulan siyasət torunun izah edildiyi şəkildə təzahürü rəssam V.Ucatayın nailiyyəti hesab oluna bilər.

H.Cavid günlərini əksərən millətin ziyalı təbəqəsi ilə birlikdə keçirib, yaradıcı söhbətlər apararmış. Rəssam Ənvər Əliyevin "İblis operasının yaranması" (yağlı boya 1996-97) adlı tablosu belə günlərdən birinə həsr olunub. Əsərdə Hüseyn Cavid, Pənah Qasımov, Müslüm Maqomayev, Üzeyir Hacıbəyov təsvir edilib. Bu səpgidə təsvir edilən tablolardan biri də rəssam Altay Hacıyevin "Son yay" (yağlı boya 1996-97) əsəridir. H.Cavid yay mövsümlərində Azərbaycan yazıçı və şairləri ilə birlikdə Abşeron bağlarında istirahət edərmiş və bu istirahət günlərini onlar yaradıcıl mükalimələr aparmaqla keçirərmişlər. Altay Hacıyev tabloda H.Cavidin həyatındakı belə yay mövsümlərindən sonuncusunu təsvir etmişdir. Tabloda





Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Rəsul Rza, Ənvər Məmmədxanlı təsvir olunmuşdurlar. Rəssam A.Hacıyev "Düşüncələr" adlı qrafik əsərində ədibin (H.Cavidin) simasında onun fikirlər aləmini əks etdirməyə çalışmışdır.

H.Cavid obrazına həsr olunan digər qrafik sənət əsərləri də mövcuddur. Azərbaycan Demokratik Cümhuriyyəti dövründə və sovet hakimiyyətinin ilk illərində Bakı şəhərinin baş memarı Zivərbəy Əhmədbəyovun qara qələm ilə təsvir etdiyi H.Cavidin portreti yeganə portretdir ki, ədibi bilavasitə müşahidə etmə şəraitində çəkilmişdir. Bu təsvirdə H.Cavid humanist insan təəssüratı bağışlayır.

H.Cavidin abidəsini fəlsəfi obraz kimi yüksəldən heykəltəraş Ömər Eldarov maraqlı bir kompozisiya quruluşu tapmışdır (H.Cavid prosektindəki H.Cavid abidəsinin H.Cavidin ev muzeyində yerləşən gipsdən maketi - 1992). Bu abidədə ədib dərin düşüncələrə dalmış, zəngin zəka sahibinə malik bir insanı xatırladır. Abidə ədibin əsərlərində yaratdığı simvolik obrazların əhatəsində ucaldılmışdır. Bu obrazların içərisində xeyirxahlıq simvolu olan "Ana" obrazı fəlakətə uğrayan insanları sanki şər qüvvələrinin əlindən xilas etməyə cəhd etdiyi anda təsvir olunub. Kompozisiyanın belə tərzdə qurulması, heykəltəraş tərəfindən ədibin yaradıcılığını yetərincə qavramasından irəli gəlir. Çünki H.Cavid əsərlərində "Ana" obrazı daima bəşəriyyətin xilasedici qüvvəsi kimi tərənnüm etdirilir. Bu baxımdan "Ana" əsərindəki ana surəti həmin tərənnümün bariz nümunəsidir. Əsərdə ananın öz oğlunun qatilini gizlədib, onun qaçmasına şərait yaratmaqla daha sonrakı fəlakətin qarşısını alması ali, kamil bir insana məxsus keyfiyyətləri nümayiş etdirir. Buna görə də abidənin kompozisiyasının bu şəkildə qurulması məqsədəuyğun olmuşdur. Heykəltəraşın yaratdığı H.Cavidin mərmərdən büstü (1997) və Naxçıvanda H.Cavidin məqbərəsində yerləşən "H.Cavid büstünün" natural ölçüdə gipsdən modeli (1992) ədibin daxili aləmini bir daha göz önündə canlandırmışdır. H.Cavid obrazı Azərbaycanın bir-çox rəssamlarının diqqətini cəlb etmiş, onları təqdirə layiq sənət əsərləri yaratmağa sövq etdirmişdir. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində, Rüstəm Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyində hal-hazırda da belə sənət əsərləri mühafizə olunur. H.Cavid dühası, sayı sonsuzluğa yaxınlaşan məna çalarlarına malik olduğu üçün, bu obraz rəssam və heykəltəraşlar üçün indiyənədək öyrənilməmiş qalan bir çox cəhətləri kəsb edən bir obrazdır.



**Fəridə MİR-BAĞIRZADƏ**
*AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun "Təsviri, dekorativ-tətbiqi sənətlər və heraldika" şöbəsinin aparıcı elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

# Çətən xalçaları

**Xalça sənəti Azərbaycanda çox qədim dövrlərdən bizə gəlib çatmışdır. Xalçaların bizim həyatımızda yeri əvəzsizdir. Xalçalar qədim zamanlardan bu günə qədər məişətdə interyerlərin bəzəyində istifadə edilir. Xalçaların naxışları xalçanı toxuyan sənətkarlardan bizim dövrümüzədək gəlib çatan gözəl naxış və ornament nümunələridir. Hər bir naxış yeni elementin sirrini açmağa imkan verir. Xovlu və xovzus xalçaların hər biri özlüyündə öz toxunma üsulu, rəng seçimi və süjet həlli ilə seçilir. Xovsuz xalçaların növlərindən biri də çətən xalçaları xüsusi texnoloji toxunması ilə seçilir.**

Çətən xalçaları qamış, fındıq, nar, zoğal ağacların çübuğlarından yun, ipək və kətan saplarla dolama yolu ilə toxunur. Çətən sənəti Azərbaycan və türk xalqlarının etnoqrafiyasında yer almışdır. Türk xalqlarının alaçıq evlərini çətən xalçalarla bəzəməsi haqqında tarixdə məlumatlar yer alır.

"Çətən" sözünün etimoloji mənası "çətmək", "bağlamaq" fikri daşıyır. Alaçıq evlər köç zamanı türk xalqları tərəfindən daşınıb, yığılıb və yuyulub. Çətənlər həmçinin evlərin otaqların arakəsməsində istifadə olunmuşdur.

Dekorativ-tətbiqi sənət növü sayılan xalça sənətində Azərbaycanın əməkdar rəssamı Tariyel Bəşirovun özünəməxsus yeri var. T.Bəşirov çətən sənətinin inkişafında böyük əməyi var. Rəssam çətən xalçaların yığılmasında qamış və başqa ağaclardan istifadəsinə böyük əhəmiyyət vermiş, onları bahar fəslinin aprel və may aylarında yığılmasını xüsusilə vurğulayır. Qamış qədim zamanlarda evlərdə həsirlərin toxunmasında istifadə edilib və nəmişliyin qarşısını almaqla otağın temperaturunu tənzimləyirdi. Əslər keçdikcə, insanlar qamışdan toxunan çətəni evlərin interyerini bəzəmək üçün dekorativ tərtibat məqsədilə istifadə edirdi.

Çətən məmulatları həmçinin alaçıq evlərin hasarlanmasında, meyvə və tərəvəzlərin yuyulmasında, yunun qurudulmasında da mövcud idi.

Çətən hazırlama texnologiyasını dörd qrupa bölmək olar:

1. Sadə qamış və çubuqların bağlanılması ilə hazırlanması.
2. Qamış və çubuqların üstünə dolama üsulu ilə əyrilmiş yun, ipək, kətan sapların hazırlanması zamanı.
3. "Çiy çətən" adlanan qamış və çubuqların üstünə dolama üsulu ilə əyrilməmiş yundan hazırlanması.
4. Yandırma üsulu ilə bəzədilməsi.

"Çiy çətən" növü Mərkəzi Asiya xalqları, ən çox Qazaxıstanda hazırlanır. Çətənin hazırlanması əlçatan olmasından xovlu və ya xovsuz xalçalarda həsirlərin toxunmasında istifadə olunan dəzgahdan, yəni hanadan istifadə edilmir. Hazırlanmasında isə materialları Azərbaycanın bir çox regionlarında tapmaq olur.

Azərbaycanın əməkdar rəssamı Tariyel Bəşirov toxuculuq sənətini - çətəni qoruyub saxlayan və inkişaf etdirən nadir sənətkarlardandır. O, bu sənətin ənənəsini qorumaqla yanaşı, çətən xovsuz xalçalarına yeniliklər daxil edib, onu təkmilləşdirib. Belə ki, Tariyel Bəşirov toxuculuqda olan xovsuz xalça üzərində Azərbaycanın görkəmli Xalq Rəssamı Lətif Kərimovun 80 illik yubileyinə həsr olunmuş çətən portretini yaratmaqla ilk də-



**Şəkil 1. Tariel Bəşirov. Lətif Kərimovun 80-illiyinə həsr edilən çətən.1986. "XX əsrin korifeyi".**



**Şəkil 2. Tariel Bəşirov.İçəri şəhərə həsr edilən çətən.2023.**



**Şəkil 3. Tariel Bəşirov. Od elementinə həsr edilən çətən. 2009.**

fə olaraq xalçanın bu növünə yenilik gətirib. Daha sonra o, dahi şair Nizami Gəncəvinin 850 illik yubileyinə həsr olunmuş hörmə çətən xalça portretini də hazırlayıb. O, həmçinin çətən üzərində nəbati ornamentləri ilə işləyən ilk rəssamlardan biri idi.

Tariyel Bəşirov hesab edir ki, çətən sənətinin yaranması alaçıqlarla - köçəri türk xalqlarının yaşayış məskənləri ilə bağlıdır. Məlum olduğu kimi, köçəri xalqlar arasında çadır və ya alaçıq adlanan evlər geniş yayılmışdı və belə evlər köç zamanı asanlıqla daşınır, sökülür, yığılırdı. Çətən da belə evlərin hasarlanmasında, otaqlar arasında arakəsmələrin qurulmasında və qapıların hazırlanmasında istifadə olunurdu. Çətən hörmə işlərinin hazırlanmasında qamışlardan çox istifadə olunur.

Müəllif hər bir əsərində yenilikdən istifadə edərək, həndəsi, bitki ornamentləri, süjet kompozisiyaları, köhnə türk damğaları və s.-dən istifadə etməklə unikal sənət nümunələri yaradır.



**Şəkil 4. Nəcəfzadə Əminə. "Uqax" xalçasından ornament. Çətən. 2024.**



**Şəkil 5. Nəcəfzadə Əminə. "Uqax" xalçasından ornament. Çətən. 2024.**



**Şəkil 6. Qurbanov Murad. Dəvələr. Çətən. 2023.**



**Şəkil 7. Qurbanov Murad. 2023. "Pirəbədil" xalçasından ornament.Çətən.**



Şəkil 8. Qurbanov Murad. Xalça ornamenti "Göl". Çətən. 2023.



Şəkil 9. Qurbanov Murad. Xalça ornamenti "Göl". Çətən. 2023.



Şəkil 10. Qurbanov Murad. Xalça ornamenti "Göl". Çətən. 2023.

Bundan başqa, müəllifin ilk fərdi sərgisində ornamental, portret xalçalar, eləcə də nəbati və həndəsi ornament naxışlı orijinal toxuculuq nümunələri təqdim edilib. Onun toxunmuş çətən xalçaları arasında kompozisiya həlli və icrası orijinallığı ilə seçilən -"XX əsrin korifeyi" (Şəkil 1), "İçərişəhər" (Şəkil 2) və "Od elementi" (Şəkil 3) əsərlərdir.

"Od elementi" çətənində rəssamın od elementləri, Odlar Yurdu ilə bağlı buta ornamentləri ilə haşiyələnmiş kompozisiyanın mərkəzindəki göl elementini necə məharətlə icra etdiyini görürük.

XV əsrdə inşa edilmiş Şirvanşahlar Sarayı ansamblını İçərişəhəri əhatəliyən girişində qoşa qapılarının üstünü heraldik gerb bəzəyini rəssam T.Bəşirovun təsvir etdiyi "İçərişəhər" adlı çətəndə görmək olar. İçərişəhəri qoruyan darvazanın divarlarında Şirvanşah hökmdarı Şah Abbasın rəmzləri olan öküz başı və iki aslan təsvirini görürük. Şirlər dövlətin qüdrətinin təsdiqi kimi Azərbaycanın bir çox tarixi sənədlərində və salnamələrində qeyd olunur. Buğanın başı zərdüştlərdən götürülmüşdür. Rəssam İçərişəhərin qala divarları fonunda Bakıda Qız qalasını, Suraxanıda atəşpərəstlər məbədi olan Atəşgahı, divarlarında buta ornamentləri - od simvolu olan Şirvanşahlar Sarayını və Sınıx Qala məscidini əks etdirmişdir. Azərbaycanın bütün bu memarlıq abidələri onun vizit kartıdır.

Tariyel Bəşirovun yaratdığı xalçalar Azərbaycanın dekorativ-tətbiqi sənətində çoxəsrlik ənənələrin gözəl tədqiqi, maraqlı irsi ilə gənc nəslə davam etdirən ənənələrin gözəl öyrənilməsi ilə ifadə olunan onun daxili mənəvi dünyasının əksidir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Bədii xalçaçılıq" və "Bədii toxuculuq" fakültəsinin 2023-2024 ilin tələbə məzunları çətən sənətinə öz müəllimindən xalçaçı və qobelen sənət üstası Tamilla Abdullayevadan yiyələnərək xovsuz xalçalar sayılan çətəni yaşadırlar. Gənc rəssamlardan Əminə Nəcəfzadənin və Murad Qurbanovun çətən xalçaları xüsusi ilə seçilir. Onların bizə miras qalmış xalça sənətinin ənənələrini və çətən xalça sənətinin sirrlərini böyük ustalıqla öz əsərlərində tərənnüm edirlər. Bunlara misal, Əminə Nəcəfzadənin "Uqax" xalçasından ornamentlər (Şəkil 4, Şəkil 5), Murad Qurbanovun "Dəvələr" (Şəkil 6), "Pirəbədil" xalçasından ornamentlər (Şəkil 7), "Göl" ornamentləri (Şəkil 8, Şəkil 9, Şəkil 10) çətən xalça nümunələrini göstərmək olar. Sevindirici haldır ki, çətən xalça sənəti yeni nəsillərə ötürülür.



**Əzizağa ƏLƏKBƏRLİ**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent*

# Azərbaycan-Qırğızıstan teatr əlaqələri
## *(XX əsrin 60-cı illəri)*

**XX əsrin 60-cı illərində Azərbaycan-qırğız mədəni əlaqələrinin inkişafında teatr mühüm rol oynayırdı. Teatr hər iki xalqın həyatına, məişətinə daxil olmuş, onların şüurunu, zehniyyətini formalaşdıran mühüm amillərdən birinə çevrilmişdir. "Azərbaycan teatrı belə bir amilə ona görə çevrilə bilmişdir ki, o daim müasir həyata can atır, əsrimizin və müasirlərimizin obrazını, dövrün aparıcı, mütərəqqi meyillərini sənətin güzgüsündə dərindən-dərinə əks etməyə, nəqş etməyə çalışırdı. Doğrudur, bu işdə onun itkisi də olur, bəzən müvəffəqiyyətsizliyə də uğrayır. Amma bununla belə, o, öz düzgün istiqamətindən dönmür, əsl vəzifəsini, böyük məqsədlərini unutmur"du.**

Azərbaycan teatr tarixini ilk olaraq sistemli şəkildə tədqiq etmiş görkəmli teatrşünas, sözün həqiqi mənasında XX əsr ədəbiyyat tariximizdə layiqli yeri olan professor C.H.Cəfərov yazırdı: "60-cı illərdə Azərbaycan teatrı öz sənətini həyatla daha yaxından bağlamağa çalışırdı. Müasirliyi o, yalnız hadisələrin cərəyan etdiyi bir zaman kimi yox, həm də estetik kateqoriya kimi şərh edirdi. Şübhəsiz, bu problemlər müasir dramaturgiyanın materialında daha səmərəli şəkildə həll oluna bilərdi. Elə buna görə də müasir estetik problemlərin həlli üçün qüvvətli müasir repertuarın zəruriliyi getdikcə daha aydın hiss olunurdu."

Xalqımızın ictimai həyatında mühüm və əhəmiyyətli bir hadisə kimi özünü göstərən teatr sənəti milli mədəniyyətimizin yüksəlişinə, əqli inkişafına, qabaqcıl ictimai fikrin yüksəlişinə dərin təsir göstərmişdir. Azərbaycan Demokratik Cümhuriyyətinin başçısı M.Ə.Rəsulzadə (1884-1955) demişdir ki, "Milli dövlətlər milli mədəniyyətlərin yaradıcısıdır... Və əslində nəinki yaradıcısı, eyni zamanda, qoruyucusu və dünya mədəniyyətinə körpü salan yoldur... Milli dövlətlər milli mədəniyyəti yaradır, milli mədəniyyətlər isə dünya mədəniyyətinin tərkib hissələrini təşkil edirlər." Ümummilli liderimiz H.Ə.Əliyev (1923-2003) isə söyləmişdir ki, milli mədəniyyətimizin mühüm sahəsini təşkil edən "teatrlarımızın böyük tarixi, böyük ənənələri, gözəl nümunələri var və bu teatr bu gün də, gələcəkdə də yaşayacaqdır."

Əlbəttə, böyük tarixi ənənələrə söykənən teatrımızın mədəni əlaqələrin inkişafında oynadığı əhəmiyyətli rolu görmək, öyrənmək və inkişaf etdirmək olduqca vacib və gərəkli məsələlərdəndir.

Azərbaycan teatrının mədəni əlaqələri müxtəlif formalarda: görüşlər, yaradıcılıq əlaqələri, qastrollar, aylıqlar, dekadalar, günlər, festivallar və s. kimi mədəni tədbirlər vasitəsi ilə həyata keçirilirdi. Bunun üçün bir çox təşkilati tədbirlər, canlı əlaqələr və köməkçi vasitələrdən istifadə edilirdi.



Üzeyir Hacıbəyov

60-cı illərdə Azərbaycanda görkəmli qırğız yazıçı və dramaturqlarından Çingiz Aytmatovun "Ana torpağı" və Mar Bayciyevin "Duel" pyesləri teatr əlaqələrində mühüm rol oynamışdır.

Ç.Aytmatovun "Ana torpağı" povesti onun başqa əsərləri kimi milli çərçivəni çoxdan aşaraq, ümumdünya mədəniyyətinin dəyərli incilərindən biri kimi şöhrətlənmişdi. Moskvalı rejissor B.Lvov-Anoxin onu ilk dəfə səhnələşdirərək, iki hissəli bir dramatik əsər kimi Moskvada uğurla tamaşaya qoymuşdur. Bundan sonra Frunze və Alma-Ata teatrı da " Ana torpağı" əsərini öz tamaşaçılarına göstərmişdir.

Ç.Aytmatovun Azərbaycan tamaşaçıları üçün də çox dəyərli olan " Ana torpağı" əsərini tamaşaya qoymağa səy göstərən dördüncü teatr M.Əzizbəyov adına Azərbaycan Akademik Dövlət Dram Teatrı idi. Əsəri Azərbaycan dilinə yazıçı Teymur Əliyev tərcümə etmişdir.



Mirzə İbrahimov

Bu əsərin Azərbaycan dilində müxtəlif adlarda iki tərcüməsi mövcuddur. Şair T.Əliyev pyesi "Ana torpağı", jurnalist-yazıçı C.Əlibəyov isə povesti "Ana tarla" adı ilə tərcümə etmişlər. Tənqidçi Qulu Xəlilov "Böyük ana ürəyi" məqaləsində hər iki tərcümənin məziyyətləri barədə belə yazmışdır: " Təfərrüata varmadan qətiyyətlə demək olar ki, hər iki tərcüməçi azəri dilinin incəliklərindən, idiomatik ifadələrindən, frazoloji birləşmələrindən bacarıqla istifadə edib əsərin duzlu, koloritli çıxmasına nail olmuşlar. Konkret pyesə gələndə deməliyik ki, tamaşaçı səhnədə hadisələri izlədikcə elə bil öz doğma ana dilində yazılmış milli koloritli orijinal bir əsərə tamaşa edir. Çünki tamaşada dili əzən, süni və qondarma səslənən söz və ifadələrə rast gəlmək çətindir. Bu isə onu göstərir ki, tərcüməçi T.Əliyev pyesə yaradıcı yanaşmış və məqsədinə çatmışdır."

Pyesin dilimizə tərcüməsinin üstün cəhətləri barədə A.Qafarzadə də belə yazmışdır: " Hiss olunur ki, mütərcim çox diqqət və səliqə ilə işləmiş, mətnin səlis və rəvan olmasına çalışmışdır. O, səhnənin tələblərini nəzərə alaraq mətnin oynaqlığına, təbiiliyinə diqqət vermiş, müəllif fikrini sərbəst ifadə etmək üçün dilimizin zəngin imkanlarından bacarıqla istifadə etmişdir."

Pyesin əsas ideyası bəşəriyyəti faciəyə sürükləyən müharibəyə nifrət və dinc yaradıcı həyata rəğbət mövzusu üzərində qurulmuşdur. Müharibəyə nifrət ideyası müəllif üçün yalnız qarşı tərəflərin bir-birini məhv etməsindən, qan tökməsindən ibarət deyildir və əsərdə ön cəbhədə əsgərlərin qəhrəmanlığından, vuruşmadan heç bir epizod da yoxdur. K.Marks demişdir ki, ölüm ölənlər üçün deyil, qalanlar üçün fəlakətdir, çünki ölülər diriləri də çəkib arxalarınca aparırlar. Müharibə də təkcə cəbhədə vuruşanlar üçün deyil, ən çox arxada qalanlar üçün, körpə uşaqlar, ərsiz gəlinlər, qardaşsız bacılar, oğulsuz analar, sahibsiz tarlalar, başsız və kişisiz kəndlər, ocaqlar üçün fəlakətdir. Burada heç bir gözəllikdən, mədəniyyətdən, estetikadan söhbət gedə bilməz, çünki müharibə hər şeyi amansızcasına dağıdır, şikəst edir, məhv edir. Qüdrətli yazıçı Ç.Aytmatovun bacarığı ondadır ki, müharibənin doğurduğu fəlakətləri, faciələri arxa cəbhədə bir ailənin timsalında bütün ailələrə, bir tarlanın simasında bütün torpağa köçürmüş, onun fəlsəfəsini, dramını vermiş, ümumiləşdirmişdir.

Azərbaycan SSR əməkdar incəsənət xadimi H.Sultanovun rejissorluğu, əməkdar rəssam H.Kazımovun bədii tərtibatı, xalq artisti C.Cahangirovun musiqi düzümü əsasında ortaya çıxan tamaşada aktyorlardan H.Qurbanovanın yaratdığı Tolqonay, M.Sadıqovanın Torpaq, M.Şeyxzamanovun Suvankul, K.Qubuşovun Ağsaqqal, Ə.Yusifqızı və S.İbrahimovanın- Əliman, R.Əzimovun Caynaq və Y.İskəndərovun Bektaş obrazları öz gözəlliyi və təlqin etdiyi

mənəvi dəyərləri ilə ürəklərdə yurd-yuva salmışdılar.

1968-ci il dekabrın 20-də "Şəlalə" televiziya teatrı gənc qırğız dramaturqu Mar Bayciyevin "Duel" pyesini respublikamızın televiziyası vasitəsi ilə tamaşaçılara təqdim etdi. Hüseyn Şərifovun doğma dilimizə tərcümə etdiyi bu pyesi SSRİ xalq artisti Adil İskəndərov tamaşaya qoymuşdu. Tanınmış aktyorlardan Amalya Pənahova - Nazi, Lütfi Məmmədbəyov - Əziz və Yusif Muxtarov - İskəndər obrazlarını bütün incəlikləri və detalları ilə yaratmış, onların psixoloji durumlarının açılmasında böyük məharət nümayiş etdirmişdilər. Buna görə də televiziya tamaşaçılarının xahişi ilə 1969-cu il fevralın ayının 11-də "Duel" təkrar göstərilmişdir. "Duel" haqqında qeydlər" yazısında Nizami Məmmədov da bunu təsdiqləyərək belə yazırdı: " "Duel" tamaşaçıların xoşuna gəlmişdir. Bunu ilk tamaşadan sonra televiziyaya gələn təşəkkür məktubları da sübut edir."

Azərbaycanda qırğız müəlliflərinin dram əsərlərinə yer verildiyi kimi, Qırğızıstanda da bu qarşılıqlı münasibəti saxlamağa, qoruyub daha da inkişaf etdirməyə çalışırdılar. Qırğızıstan Dövlət Dram Teatrı Azərbaycanın görkəmli nasiri və dramaturqu Mirzə İbrahimovun "Kəndçi qızı" komediyasına müraciət etmişdi. Əsərin ilk tamaşası 1964-cü il noyabrın 14-də göstərilmiş və fotoqraf V.Lazarevin həmin tamaşadan çəkdiyi şəkil "Sovetskaya Kirqiziya" qəzetində çap olunmuşdu. "Kəndçi qızı" komediyası olduqca uğurlu qarşılanmış və bir neçə il teatrın repertuarından düşməmişdir. Belə ki, bu əsər 1964-cü ildə 5 dəfə, 1965-ci ildə 29, 1966-cı ildə 13, 1967-ci ildə 15, 1968-ci ildə 7 və 1969-cu ildə 3 dəfə tamaşaya qoyulmuşdu.

1964-cü il dekabrın 30-da Qırğızıstanda yayımlanan Daşkənd televiziyası yazıçı-dramaturq Anarın "Yeni il axşamı" televiziya tamaşasını rus dilində nümayiş etdirmişdir. Yüksək mənəvi-əxlaqi dəyərlərə söykənən əsər tamaşaçılarda yaşamaq hissini gücləndirir və sabaha daha nikbin nəzərlərlə baxmağa sövq edirdi.

1969-cu ildə Qırğızıstan Dövlət Opera və Balet Teatrı Ü.Hacıbəyovun "Arşın mal alan" əsərini 5 dəfə tamaşaya qoymuşdu.



Çingiz Aytmatov

Teatr əlaqələrinin müxtəlif istiqamət və formaları mövcuddur. Təəssüf ki, 60-cı illərdə Azərbaycan Qırğızıstan teatr əlaqələrində yaradıcılıq əlaqələri formasına üstünlük verilmiş, görüşlər, qastrollar, aylıqlar, dekadalar, günlər, festivallar və s. kimi mədəni tədbirlər istiqamətləri büsbütün kənarda qalmışdır.

Böyük tarixi ənənəyə malik olan Azərbaycan teatrı xalqlar arasındakı mədəni əlaqələrin möhkəmlənməsində həmişə öz mövqeyini düzgün müəyyənləşdirmiş və bu istiqamətdə ümumbəşəri dəyərlər xəzinəsinə layiqli töhfəsini vermişdir. "Azərbaycan teatrı həmişə milli-ictimai fikrin ön xəttində durmuş, xalqın mədəni intibahında, tərəqqi və azadlıq hərəkatında tarixi bir rol oynamışdır. Bu teatrın fəal vətəndaşlıq, müasirlik və inqilabi narahatlıq ruhunun mənbəyini onun cəmiyyətlə, ictimai həyatla ən fəal və yaxından bağlı olmasında görmək lazımdır. O, xalqımızın mənəvi mədəniyyətinin tarixinə böyük Mirzə Fətəlinin adı və məramı ilə bağlı realist bir sənətin yüksəlişi ilə eyni vaxtda daxil olmuş və həmin istiqamətdə də öz yolunu davam etdirməkdədir. Geniş beynəlmiləlçilik, heç bir məhdud milli və məhəlli hüdudlar tanımaq bu teatra onun ilk təşəkkül dövründən xasdır. Bütün Yaxın Şərqdə müasir tipli ilk klassik peşəkar teatr nümunəsi kimi formalaşması onun Şərqdə beynəlxalq təsir və əhatə üfüqlərini müəyyən etmişdir."

XX əsrin 60-cı illərində Azərbaycan teatrı dünyada, o cümlədən türkdilli xalqlar içərisində ən işıqlı və demokratik ideallar uğrunda mübarizədə öz həqiqi və humanizm mövqeyini yenə də uca tuturdu. Vətəndaşlıq və müasirlik bir keyfiyyət kimi onun təkcə keçmişini deyil, gələcəyini də müəyyən etməkdə idi. Bu zəngin və ləyaqətli müəyyənlikdə 60-cı illər Azərbaycan-qırğız teatr əlaqələrinin də kifayət qədər təqdir olunmasının oz yeri var idi.



**Azər ƏLİYEV**
*AR ETN İqtisadiyyat İnstitutunun elmi işçisi*

# Büdcə daxilolmalarında sair gəlirlər

**Büdcə daxilolmaları dövlətin maliyyə vəziyyətinin və iqtisadi siyasətinin təməlini təşkil edən mühüm elementlərdən biridir. Dövlət büdcəsinin həyata keçirilməsi, həmçinin ölkənin sosial-iqtisadi inkişafının davamlılığı üçün vacibdir. Büdcə daxilolmaları müxtəlif mənbələrdən gələn və əsasən vergi gəlirləri ilə yanaşı, sair gəlirlərdən də ibarət olur. Sair gəlirlər adətən vergi xarakterli olmayan, lakin dövlətin maliyyə vəziyyətini gücləndirən gəlirlərdir. Bu gəlirlərin büdcə daxilolmalarındakı rolu və inkişaf perspektivləri dövlətin maliyyə siyasətinin effektivliyini artırmaq üçün vacibdir.**

Milli iqtisadiyyatın yeni inkişaf mərhələsi qloballaşma və inteqrasiyanın güclənməsi, maliyyə vasitəçiliyinin inkişafının intensivləşməsi, neft bumu və fiskal ekspansiya kimi amillərin fəallaşması ilə səciyyələnir. Qloballaşma və inteqrasiya beynəlxalq proseslərin, eləcə də ticarət tərəfdaşı olan ölkələrin iqtisadiyyatında baş verən proseslərin ölkə iqtisadiyyatına mütəmadi təsirlərinin artmasına zəmin yaradır və nəticə etibarilə büdcənin vergili və qeyri-vergili gəlirlərinin formalaşması prosesində təsirsiz ötüşmür.

Bir çox iqtisadçılar Vergili gəlirlərə bir qayda olaraq vergilər, rüsumlar və vergi olmayan sair gəlirləri aid edirlər. Vergi olmayan sair gəlirlər maddəsinə isə bir neçə alt maddə maliyyə sanksiyaları, penyalar və cərimələr, karbohidrogen ehtiyatlarının buraxılışında ixtisaslaşan dövlətlərdə həmçinin, neftin topdansatış və pərakəndə satış qiymətləri arasındakı fərqin büdcəyə alınan hissəsi daxil edilir.

Qeyri-vergili gəlirlərə isə özəlləşdirmədən daxil olan vəsaitlər, dövlət əmlakının icarəyə verilməsindən büdcəyə köçürülən məbləğlər, müxtəlif dövlətlərdən alınan qrantlar, bəzi hallarda büdcədənkənar dövlət fondlarından edilən transferlər, kreditlər və s. maddələr aiddir. Lakin digər qrup iqtisadçılara görə rüsum və yığımlar, həmçinin vergi olmayan gəlirlər vergi kateqoriyasına daxil deyil və şərti olaraq vergilərin tərkibində yer alır.

Azərbaycanda büdcə sisteminin gəlirləri büdcə və vergi qanunvericiliyinə uyğun olaraq formalaşır. Belə ki, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilir ki, büdcə gəlirləri Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının və yerli özünüidarəetmə orqanlarının müvafiq qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada dövlət büdcəsinə, Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalardan ibarətdir. Azərbaycan Respublikasında 2018-ci ildə qəbul edilmiş yeni Vahid Büdcə Təsnifatında (bundan öncəki sənəd 06.10.2004-cü ildə imzalanmışdır) büdcə gəlirləri 4 kateqoriyadan ibarət olmaqla qruplaşdırılır: vergilərdən daxilolmalar, sosial ayırmalar, qrantlar və digər gəlirlər.

Vergilər vergi bazasına görə fərqlənir. Bu halda vergi bazası kimi məcmu gəlirlər, əmək haqqı, mal dövriyyəsinin həcmi, mülkiyyət, idxal olunan mallar və s. çıxış edə bilər.

2023-cü ildə qeyri-vergi gəlirləri çərçivəsində sair daxilolmaların səviyyəsi də kifayət qədər artmışdır ki, burada xüsusilə səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlərdən daxilolmaların 151,1 milyon manat səviyyəsində olması xüsusi rol oynamışdır. 2023-cü ildə sair daxilolmaların 496 milyon səviyyəsinə çatmasına səbəblərdən biri də büdcə sənədləşməsində büdcədən verilmiş kreditlər və onlar üzrə daxilolmaların olması ilə bağlıdır. Hesablama Palatasının məlumatları əsasında onu qeyd edək ki, 2023-cü ildə büdcədən verilmiş kreditlər üzrə daxilolmalar 14,5 mln. manat təşkil etmişdir. Sair daxilolmaların tərkibinə həm də Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yaranan yığımlar da daxildir ki, burada formalaşan məbləğ 173,8 milyon səviyyəsində olmuşdur.

Hər bir ölkənin regionundan və ehtiyatlarından asılı olaraq, gəlirlərin artırılması strategiyaları fərqli ola bilər.

Almaniya: Almaniyada əsas sair gəlirlərə ictimai əmlakdan alınan icarə haqqı, federal hökumətə məxsus müəssisələrdən əldə edilən mənfəət və investisiyalardan əldə edilən faiz gəlirləri daxildir. Almaniya bu gəlirləri şəffaf şəkildə planlaşdırır və bu məlumatları ictimaiyyətlə bölüşür. Bundan əlavə, davamlı maliyyələşdirmə və borc idarəetmə strategiyaları bu gəlirlərin səmərəli istifadəsini təmin etmək məqsədi daşıyır.

Yaponiya: Yaponiyada büdcəyə daxilolan əsas sair gəlirlərə dövlətə məxsus torpaq və digər əmlakın icarəsindən əldə edilən gəlirlər aiddir. Yaponiya belə gəlirləri özünün ümumi iqtisadi inkişaf planlarının bir hissəsi hesab edir və onlardan şəhərsalma layihələrində istifadə etməyə meyllidir.

Birləşmiş Krallıq: Birləşmiş Krallıqda dövlət mülkiyyətindən və biznes fəaliyyətindən əldə edilən gəlirlər çox vaxt dövlət borcunun azaldılması və infrastruktur layihələrinin maliyyələşdirilməsi kimi məqsədlər üçün istifadə olunur. Məsələn, dövlət sektorunda aparılan islahatlar çərçivəsində özəlləşdirmədən əldə edilən gəlirlər dövlətin maliyyə vəziyyətinin yaxşılaşdırılması üçün strateji alət kimi istifadə olunur.

Kanada: Kanadada əsas sair gəlirlərə əsasən təbii ehtiyatların idarə olunmasından əldə edilən gəlirlər daxildir. Bu gəlirlər ətraf mühitin mühafizəsi və təbii sərvətlərin idarə edilməsi layihələrinə yönəldilməklə yanaşı, hökumətin sosial proqramlarını da maliyyələşdirir. Bu nümunələr sair gəlirlərin dövlətlərin yerli şəraitə uyğun müxtəlif strategiyalarla necə planlaşdırıla biləcəyini göstərir.

Sair gəlirlər üzrə müşahidə edilən artım, dövlət rüsumları, gömrük rüsumları və Mərkəzi Bankın fəaliyyətlərindən əldə edilən mənfəətlərin artması ilə əlaqəlidir. Bu gəlirlər, Azərbaycan iqtisadiyyatının müxtəlif sektorlarının dayanıqlığını və büdcə gəlirlərinin müxtəlifləşdirilməsindəki uğurun bir göstəricisi kimi qəbul etmək olar. Bununla birlikdə, bu gəlirlərin daimi olub-olmaması, iqtisadi şərtlər və global təsirlərə bağlı olaraq dəyişə bilər. Sair gəlirlərin azlığı, həmçinin dövlətin neft sektoruna olan asılılığı ciddi tədbirlərin görülməsinin zəruriliyini göstərir. Dövlət büdcəsinin daha da müxtəlifləşdirilməsi və iqtisadi dayanıqlılığın artırılması məqsədilə sair gəlirlər üzrə strategiyaların inkişafı vacibdir.



## Alimlər ekzoplanetdə həyat əlamətləri tapdılar

**Kembric Universitetinin professoru Nikku Madhusudhanın rəhbərlik etdiyi beynəlxalq astronomlar qrupu K2-18b ekzoplanetinin atmosferində dəniz mikroorqanizmləri tərəfindən Yer kürəsində əmələ gələn kimyəvi birləşmələri aşkar ediblər. Söhbət dimetil sulfid və dimetil disulfiddən gedir - yerüstü şəraitdə biomarkerlər, yəni həyatın mümkün mövcudluğunun əlamətləri hesab edilən maddələr.**



Bu barədə "Sky & Telescope" jurnalı məlumat yayıb.

Yerdən 124 işıq ili uzaqlıqda yerləşən ekzoplanet K2-18b "mini-Neptun" adlanan planetdir - diametri Yerdən 2,5 dəfə, kütləsi isə 8 dəfə böyük olan planetdir. Alimləri xüsusi maraqlandıran fərziyyə planetin nazik hidrogen atmosferinin altında qlobal maye su okeanının gizlənə biləcəyi fərziyyəsidir.

Məhz bu şərtlər, tədqiqatçıların fikrincə, həyatın inkişafı üçün əlverişli ola bilər. Ceyms Uebb Kosmik Teleskopu ilə aparılan müşahidələr təkcə planetin atmosferində potensial biomarkerləri deyil, həm də digər üzvi birləşmələri - metan və karbon qazını aşkar edib.

Bu cür məlumatlar dolayısı ilə K2-18b-nin mümkün yaşayışı haqqında fərziyyəni təsdiqləyir. Ancaq bir çox elm adamı bu tapıntılara ehtiyatla yanaşır. İspaniya Astrobiologiya Mərkəzindən Viktor Rivillanın qeyd etdiyi kimi, aşkar edilmiş siqnallar əlavə yoxlama tələb edir. Mövcud məlumatların statistik əminliyi 99,7% təşkil edir ki, bu yüksək olsa da, belə sensasiyalı iddialar üçün astronomiyada istifadə edilən 99,99994% qızıl standartından hələ də geri qalır.

Tənqidçilər dimetil sulfid üçün abiotik mənşəli olma ehtimalına da işarə edirlər. Bu birləşmə kometlərdə və həyatın mövcud ola bilməyəcəyi ulduzlararası kosmosda tapılıb.

İspaniya Astrobiologiya Mərkəzindən Migel Sanz-Novo deyib: "Planet atmosferlərinin kimyası ilə bağlı hazırkı biliklərimiz bu molekulları bioloji proseslərlə birmənalı şəkildə əlaqələndirmək üçün hələ də çox məhduddur".

Bu kəşf elmi ictimaiyyətdə böyük maraq doğurdu. James Webb və digər teleskoplarla aparılan sonrakı müşahidələr K2-18b atmosferindəki sirli kimyəvi birləşmələrin təbiətinə işıq salmalıdır. Professor N.Madhusudhanın qeyd etdiyi kimi, başqa planetdə həyatın təsdiqlənməsi Kainat haqqında anlayışımızı kökündən dəyişdirəcək inqilabi bir kəşf olardı.

## Yeni fotolar Mars səthinin altında buzun olduğuna işarə edir

**Bu kəşfi Missisipi Universitetinin tədqiqatçıları ediblər. Onlar Marsdakı Amazonis Planitia adlı regionu müşahidə ediblər. Bu, əvvəllər də gələcək kosmik missiyalar üçün perspektivli ərazi hesab edilən orta enliklərdə yerləşən ərazidir.**



İndi bu ərazinin konkret bir üstünlüyü var. Belə ki, bu ərazidə səthin altında su mənbəyi ola bilər. Tədqiqat planetoloq Erica Luzzi-nin rəhbərliyi ilə aparılıb. Komanda HiRISE kamerasının görüntülərindən istifadə edib. Bu, başqa bir planetə göndərilmiş ən yüksək detallı orbital kameradır. Alimlər Marsın səthində adətən torpaq altında buzun olduğunu göstərən relyef formaları aşkarlayıblar. Kənarları yumşalmış kraterlər, çoxbucaqlı naxışlar və digər geoloji xüsusiyyətlər.

Buz təbəqəsi 1 metrdən az dərinlikdə yerləşir - bu da onun çıxarılmasını asanlaşdırır. Bu, vacibdir, çünki su yalnız içmək üçün yox, həm də oksigen, yanacaq və hidrogen əldə etmək üçün istifadə oluna bilər. Bu yanaşma yerli resursların istifadəsi adlanır və artıq Yer kürəsindən kənara ediləcək istənilən ciddi ekspedisiya üçün vacib şərt hesab olunur. Buzun aşkarlandığı ərazi əlverişli yerdə yerləşir. Orta enliklərdə avadanlığın enerji ilə təmin olunması üçün kifayət qədər Günəş işığı var, eyni zamanda, temperatur yetərincə aşağıdır ki, buz yerin altında qalaraq buxarlanmasın. Amazonis Planitia potensial eniş nöqtəsi və gələcəkdə baza tikintisi üçün münasib yer ola bilər. Bu kəşf elmi baxımdan da maraq doğurur.

Marsdakı buz təkcə sağ qalmağa kömək etməklə kifayətlənmir, həm də planetin keçmişi haqqında məlumat verə bilər. Yer kürəsində belə buz qatlarında tez-tez qədim həyatın izləri - biomarkerlər və hətta mikroorqanizmlər qorunub saxlanılır. Əgər Marsda da oxşar nümunələr varsa, bu buz təbəqəsi planetin bir vaxtlar yaşamaq üçün əlverişli olub-olmadığını anlamağa kömək edə bilər. Buzun həcmini, dərinliyini və tərkibini dəqiq qiymətləndirmək üçün əlavə tədqiqatlar aparılmalıdır. Alimlər radar texnologiyasından istifadə edərək ehtiyatların nə dərəcədə bərabər paylandığını və səthin altında nə olduğunu dəqiqləşdirməyi planlaşdırırlar. Lakin qəti nəticələr yalnız ora robot, zond və ya pilotlu missiya göndərildikdən sonra əldə oluna bilər.

## Misirdə ikinci gizli şəhər aşkar edilib

**Daha əvvəl Misirdə yeraltı gizli şəhər tapan italiyalı tədqiqatçılar qrupu daha bir gizli şəhər aşkar edib.**

Onlar bildiriblər ki, bu, yerin təqribən 2 min fut (təxminən 910 metr) altında kult Giza piramidalarını birləşdirən nəhəng yeraltı kompleksin mövcudluğunu sübut edir.

Xafra piramidasının altında nəhəng yeraltı strukturunun tapıldığı ilk dəfə mart ayında elan edilib, lakin bu, aparıcı arxeoloqlar tərəfindən kəskin tənqidə səbəb olub. Onlar nəticələrin "yanlış" və elmi əsası olmadığını bəyan ediblər,



çünki georadarların yerin altında o qədər dərinliyi görə bilmədiyi iddia edilirdi. Bununla belə, bir neçə ay sonra komandanın üç əsas piramidadan ən kiçiyi olan Menkaura piramidasının altında oxşar şaxtalar aşkar etdiyi bildirilir.

Şotlandiyanın Stratklayd Universitetinin radiolokasiya mütəxəssisi və tədqiqatın həmmüəllifi Filippo Biondinin sözlərinə görə, komandanın əldə etdiyi məlumat Menkauranın Xafra ilə eyni sütunlara sahib olması ehtimalının 90 faiz olduğunu göstərir.

Komanda bu ehtimala "eksperimental ölçmələr kimi, Xafranın altında müəyyən edilən strukturların Menkauranın altında da mövcud olduğunu güclü şəkildə ortaya qoyan tomoqrafiya məlumatlarının obyektiv təhlili yolu ilə gəlib.

"Biz Giza tikililərinin bir-biri ilə qarşılıqlı əlaqədə olduğuna qəti əminik ki, bu da piramidaların nəhəng yeraltı infrastruktur kompleksinin aysberqinin sadəcə görünən hissəsi olduğuna dair fikirlərimizi dəstəkləyir. Bu şəbəkə çox güman ki, əsas yeraltı strukturları birləşdirən sıx tunellər sistemindən ibarətdir", - deyə Biondi qeyd edir.

Filippo Biondi və onun komandası strukturların təxminən 38 min il əvvəl yox olmuş qədim sivilizasiya tərəfindən tikildiyini ehtimal edir. Bununla belə, arxeoloqlar üç piramidanın yaşının cəmi 4500 il olduğunu təxmin edirlər. Tədqiqatçıların xronologiyası yüksək inkişaf etmiş tarixdən əvvəlki cəmiyyətin təxminən 12 800 il əvvəl qlobal kataklizm - məsələn, Yerin kometa ilə toqquşması nəticəsində məhv edildiyi nəzəriyyəsinə əsaslanır.

Daşqınlar və xaos nəticəsində bu sivilizasiyanın əksər izləri məhv olub, sağ qalanlar isə astronomiya, mühəndislik və məbəd memarlığı sahəsində biliklərini sonrakı mədəniyyətlərə, o cümlədən qədim misirlilərə ötürüblər.



# НА СТРАЖЕ КУЛЬТУРНОГО НАСЛЕДИЯ

**Известно, что одним из приоритетов государственной политики является сближение и интеграция со странами тюркского мира, в том числе в сфере науки и культуры. Тесное сотрудничество налажено между научными организациями, высшими учебными заведениями и культурными учреждениями Азербайджана и стран тюркского мира, в частности Узбекистана. Не остается в стороне от этого и Национальная академия наук Азербайджана. Ранее мы писали о реализуемых совместных проектах и заключенных договорах и меморандумах. За истекшие несколько месяцев текущего года Академия наук ещё больше расширила двусторонние связи с соответствующими структурами братской страны.**

Например, в феврале по случаю 584-й годовщины со дня рождения великого узбекского поэта Алишера Навои представители общественности Азербайджана, в том числе и руководство НАНА, посетили памятник выдающемуся мастеру слова в Баку. В выступлениях говорилось о жизни и творчестве великого поэта Алишера Навои, подчеркивалось, что Азербайджан воспринимается в качестве второй родины Алишера Навои, наши ученые-навоиведы проводят глубокие исследования, связанные с творчеством выдающегося классика. Также особо отмечалось, что связи между Азербайджаном и Узбекистаном успешно развиваются во всех сферах, в том числе и в области науки, в ходе сотрудничества между представителями двух братских народов вносится важный вклад в развитие тюркского мира.

В апреле был подписан Договор о сотрудничестве между НАНА и Центром педагогического мастерства Хорезмской области. Документ подписали президент НАНА академик Иса Габиббейли и директор Центра пе-

дагогического мастерства профессор Жасурбек Салаев.

Говоря о связях с тюркским миром в целом, необходимо подчеркнуть, что частым гостем Академии наук является президент Международного фонда тюркской культуры и наследия Актоты Раимкулова. Она принимала участие и на Общем собрании НАНА, которое состоялось в феврале этого года. Подчеркнув в своем выступлении, что НАНА является одним из важнейших партнёров Международного фонда тюркской культуры и наследия, совместно с Академией наук организовываются различные конференции и семинары, реализуются совместные проекты, а также поблагодарив руководство НАНА за проведение презентации первого энциклопедического труда тюркского мира "Дивани лугат ат-тюрк" в Париже в рамках ЮНЕСКО, Актоты Раимкулова отметила, что уже начата совместная подготовка к празднованию на высоком уровне 100-летия Первого тюркологического съезда, который проходил в 1926 году в Баку. Президент фонда выразила свою уверенность в том, что благодаря тесному сотрудничеству ученых Азербайджана, Турции, Узбекистана, Кыргызстана, Казахстана и Туркменистана и впредь будут укрепляться и развиваться научные связи, расширяться инициативы в сфере науки и культуры.

Сам академик Иса Габиббейли за заслуги в развитии научных связей между Узбекистаном и Азербайджаном и исследования, посвященные "роли Хорезма в мировой цивилизации", в этом году был избран почетным академиком Хорезмской академии Мамуна Академии наук Республики Узбекистан.

Представители научной общественности республики принимают участие и на многочисленных мероприятиях, которые проходят в Узбекистане. В последних числах мая при организации Самаркандского государственного архитектурно-строительного университета (СамГАСУ) состоялась конференция, на которой приняла участие заведующая отделом "История и теория архитектуры" Института архитектуры и искусства НАНА, доктор архитектуры, профессор Райха Амензаде. Недавно по Распоряжению главы государства за заслуги в развитии культуры и науки в стране Райхе ханум была предоставлена персональная пенсия Президента Азербайджанской Республики. Мы немного побеседовали с ученым о её очередной поездке в братскую страну и впечатлениях от конференции.



**- Расскажите, пожалуйста, чему была посвящена конференция.**

- Международная научно-практическая конференция была посвящена теме "Современные принципы сохранения объектов культурного наследия". Как видно из названия конференции, которая проходила в одном из центров архитектуры и культуры тюркского мира - городе Самарканде, на мероприятии говорилось о проблемах, актуальных для всемирного наследия, в том числе и для развития культуры и искусства в Азербайджане. Достаточно перечислить названия секционных заседаний, чтобы убедиться в обширном формате конференции: "Основные направления развития методов ремонта и реставрации памятников архитектуры: новые концепции, возможности и средства развития", "Принципы трансформации сферы культурного наследия и туризма в рамках зарубежных стран", "Пути вывода индустрии туризма на новый уровень за счет оцифровки объектов культурного наследия", "Решение экологических проблем при сохранении объектов культурного наследия", "Роль музеев в сохранении материального культурного наследия Узбекистана" и "Вопросы истории, археологии и этнологии в совре-




менной интерпретации". Отрадно, что мы имеем возможность принимать участие на подобных мероприятиях, в ходе которых происходит обмен знаниями и опытом в соответствующих сферах.

**- Как проходила конференция?**

- На пленарном заседании гостей приветствовали ректор СамГАСУ профессор Чидем Джанбай Туркйилмаз и проректор университета по научной работе и инновациям профессор Аброр Гадаев, которые подчеркнули значение культуры и культурного наследия в сближении народов и необходимость в расширении мероприятий по сохранению этого наследия.

В своих приветственных речах представитель Агентства культурного наследия Республики Узбекистан Турсунали Козиев, генеральный консул Турецкой Республики в Самарканде Салих Джанер, ректор Самаркандского государственного института экономики и сервиса Мухиддин Булатов и другие поздравили научную общественность с проведением столь значимого мероприятия и пожелали успехов работе конференции.

Затем ученые из Узбекистана, Ирана, Египта, Китая представили доклады на такие темы, как "Цифровые инновации и устойчивые методы сохранения культурного наследия: тематическое исследование объектов Всемирного наследия Китая", "Особенности изучения и сохранения объектов материального культурного наследия Самарканда", "Современное состояние музеев Узбекистана: проблемы и решения" и т.д.

**- О чем был ваш доклад?**

- Мой доклад, который был представлен первым на пленарном заседании, был посвящен проблемам типологии монументальных строений средневекового Азербайджана. Известно, что культура и искусство средневекового Азербайджана занимают весомое место в художественном наследии Востока, врастая всеми корнями в древневосточные цивилизации, претерпев сложный процесс зарождения, эволюции, трансформаций. Веками формирующиеся композиционные приемы и принципы ретранслируются в новую культурную среду, вплетаясь в её художественную ткань, с перестройкой образных представлений и старых понятий. Сам процесс формообразования предопределяется сложнейшими диалектически взаимообусловленными политическими, экономическими, религиозными, инженерно-техническими, историческими и природными причинно-следственными связями.

Типология монументальных зданий и сооружений является стержневым законом понимания закономерностей формообразования. Вместе с этим, в силу объективных причин она не охватывает всей палитры типологического богатства зодчества средних веков. Зна-

чительное количество строений до наших дней не дошли, не уцелели строения некоторых типов, таких, как госпитали - дар-уш-шифа, аптеки - аттархана, дома чтецов Корана, приюты для сирот, приюты для вдов, приюты для холостяков, гемрюки, довлетхана, зарбхана, бейт-ал-канун, зорхана (дом силы), китабхана (библиотеки), школы и др., которые упоминаются в источниках современниками. Вместе с тем, нет никаких сведений об их объемно-пространственной структуре, плановых разработках, не сохранились ансамбли и комплексы: культовые, мемориальные, торговые, гражданские. Однако нарративы дают очень скупую, но крайне важную информацию, и на этом пути одним из главных источников являются миниатюры, а также зарисовки (гравюры).

Отмечу, что углубление в исторические пласты и культурную память позволяет осознать всю мощь архитектурного наследия, ознаменованного выдающимися достижениями средневекового Азербайджана.

**- А чем ещё запомнилась поездка?**

- Мы побывали ещё на одном интересном и важном мероприятии. В рамках церемонии присвоения Самарканду статуса культурной столицы исламского мира на текущий год в Международном исследовательском институте "Шелковый путь" при Международном университете туризма и культурного наследия "Шелковый путь" состоялась встреча с президентом Фонда тюркской культуры и наследия Актоты Раимкуловой. Был подписан Меморандум о сотрудничестве между Фондом и этим институтом, состоялось открытие Центра тюркского наследия, который будет функционировать под эгидой Фонда на базе института, станет платформой для развития академического сотрудничества, научных исследований и культурного обмена между тюркскими государствами.

В ходе встречи отмечалось, что создание центров тюркского наследия является стратегической инициативой Фонда, подобные центры уже функционируют в Казахстане и Кыргызстане, а в ближайшее время планируется охватить и другие страны тюркского мира.

В своем выступлении Актоты Раимкулова говорила о деятельности руководимого ею



Фонда, в том числе о сотрудничестве с нашей Академией наук, подчеркнув при этом, что академик Иса Габиббейли всячески поддерживает инициативы фонда и осуществляет деятельность, направленную на расширение сотрудничества. Это было, конечно же, очень приятно слышать.

**- Спасибо за ваши ответы, Райха ханум. Хочу ещё раз поздравить вас с предоставлением персональной пенсии главы государства.**

- Спасибо. Я очень благодарна господину Президенту за высокую оценку, которая дана моей научной деятельности. Хочу отметить, что изданная два года назад на английском языке книга "Гянджа. Летопись архитектуры. XII-XIX вв." уже в Оксфордском университете. Я также преподнесла свои труды "Композиционные закономерности монументальных сооружений Азербайджана XI-XVII веков" и указанную монографию, посвященную архитектуре Гянджи (на трех языках), организаторам и нескольким участникам конференции в Самарканде. Очень важно, чтобы подобные издания, посвященные культурному наследию Азербайджана, находили свое применение на международном уровне. ●

**Назмин ДЖАФАРОВА,**
**доктор философии по искусствоведению**

# Etnoqrafiya sahəsində ilk qadın elmlər doktoru



**Müsahibim Azərbaycanda etnoqrafiya sahəsində ilk tarix elmləri doktoru adı almış qadın alimimiz Nərgiz Məlik qızı Quliyevadır. Bütöv bir ömrünü etnoqrafiya elminə həsr edən alimin əsərləri dünyanın 60-a yaxın ölkəsinin milli kitabxanalarında layiqli yer tutmuş, neçə-neçə beynəlxalq simpoziumlarda, konfranslarda elmi məruzələrlə çıxış etmiş, elmi məqalələri xarici ölkələrdə çap olunmuş və əsərlərinə istinadlar edilmişdir. Professor Nərgiz Quliyeva səkkiz monoqrafiyanın, bir sənədli-bədii əsərin, bir metodik tövsiyənin, iki dərsliyin, doqquz proqramın, 300-dən artıq elmi məqalə və tezisin müəllifidir. Monoqrafiyaların bir neçəsi rus və ingilis dillərində çap olunmuşdur. Həmin əsərlərin ABŞ, ÇXR, Belçika və Yaponiyanın milli Kitabxanalarında prezentasiyası keçirilmiş və ona elmi əsərlərin dəyəri ilə bağlı təşəkkür məktubları, ÇXR-in Milli Kitabxanasından isə kitabların sertifikatları göndərilmişdir.**

Müsahibədə professor Nərgiz Quliyeva ilə alimin tədqiqat istiqamətləri, müasir etnoqrafiya elmi, inkişaf etmiş cəmiyyətlərdə etnoqrafiyaya yanaşma və digər əhəmiyyətli mövzular müzakirə olunur.

● Nərgiz xanım, bildiyiniz kimi, etnoqrafiya mədəni antropologiyanın fərqli tədqiqat strategiyasıdır. Müasir etnoqrafiya elmi nəyi və hansı istiqamətləri əhatə edir?

● Etnoqrafiya dünya xalqlarının həyat və məişətindən, mədəniyyətindən, adət-ənənələrindən, etnik birliklərin yaranması və qarşılıqlı mədəni əlaqələrindən bəhs edən tarix elmidir. Etnoqrafiya yunan sözü olub, "etnos" və "qrafo" sözlərindən əmələ gəlməklə "xalqın təsviri" mənasını verir. Etnoqrafiya (etnologiya) elmi biliklərə malik qədim elm sahəsidir. E.ə. V əsrdə yaşamış qədim Yunan tarixçisi "tarixin atası" adlandırılan Herodot birinci olaraq skiflərin həyat və məişətinin sistemli təsvirini yazmışdır. Digər Yunan coğrafiyaşünas və tarixçisi Strabon (e.ə. 64/63 - e.ə. 23/24-cü illər) 17 kitabdan ibarət "Coğrafiya" əsərində bir sıra antik xalqların təsvirini vermişdir. Roma yazıçısı, alim Bö-

yük Plini (e.ə. 23-70 illər) özünün 37 kitabdan ibarət "Təbiət tarixi" əsərində Roma və romalıların tarixinin və məişətinin səciyyəsini əsaslandırmışdır. Roma tarixçisi Tasit (təqribən 58-117-ci illər) "Germaniya" oçerkində qədim germanların dinindən, ümumi quruluş və məişətindən bəhs etmişdir.

Etnologiya terminini elmə 1784-cü ildə fransız alimi A.Şavan gətirmiş. 1830-cu ildə Fransız alimi Jan Jak Amper həmin etnos-xalq, logos (elm, anlayış, məfhum) yeni elm sahəsi kimi xalqlar və mədəniyyətləri şərh edərkən istifadə olunmasını təmin etmişdir. Beləliklə, "Etnologiya cəmiyyətləri", "Etnologiya məktəbləri"nin yaranması, müasir dövrdə etnoqrafik müəssisə və təşkilatların yaranması üçün zəmin yaratdı. Azərbaycanda etnoqrafiya elmi yarandı və xüsusən, XX əsrin ikinci yarısında cəmiyyətdə təşəkkül tapmış reallıqlarla yanaşı inkişaf etdi. Etnologiya elmi, əsasən, nəzəri məsələləri, məsələn, elmin obyekti, predmeti, məqsəd və vəzifələri, tədqiqat üsul və metodları, əsas anlayışlarını öyrənir və etnoloji məlumatların toplanılması, şərhi üsulları, ekspedisiyaların təşkili, etnoloji muzeylərin fəaliyyəti məsələləri diqqət mərkəzində saxlanılır.

Müasir etnologiyanın tədqiqat istiqamətləri müxtəlifdir. Belə ki, etnologiya elmində etnos və etnik proseslərin tədqiqinin aktual məsələləri, təsərrüfat məişətinin, maddi mədəniyyətin, ailə-məişət münasibətlərinin, mənəvi mədəniyyətin tədqiqi xüsusi yer tutur.

Qloballaşma dövrünün inkişafı müstəvisində milli etnoqrafiyanın mövcudluğu ziddiyyətli proseslərlə üz-üzədir. Milli mədəniyyətləri sıradan çıxarması və eyni zamanda, milli mədəniyyətləri yeni dövrün tələbləri müstəvisində təbliğ etmək, qorumaq, inkişaf etdirmək imkanları yaranmışdır.

Müasir dünyanın ənənəvi mədəniyyətində dünya tarixi və müasir etnososial tendensiyanın inkişafında etnik faktorlar məsələsi əsas yer tutur. Etnik tarix və etnogenez, etnik psixologiya, etnik birliklər, dünya xalqlarının siması, etnik, stereotipi, etnik mədəniyyəti, etniklərarası münaqişələr və onların həlli yolları, dünyanın etnik xəritəsi məsələləri, həmçinin ailə-məişət münasibətlərinin nəzəri-metodoloji əsaslarının tədqiqi, ailə münasibətlərinin sosiomədəni modeli, praktikası, ailəyə sosial köməyin istiqamətləri məsələlərinin daim öyrənilməsi vacibdir. Yunan filosofu Aristotel hər bir ailəni dövlətin bir hissəsi hesab edirdi. Bekon isə qeyd edirdi ki, Vətənə məhəbbətin əsası ailədən başlayır.

**- Siz, tədqiqat mövzusu ilə bağlı hansı bölgələrdə araşdırma aparmısınız?**

- 1983-cü il AMEA-nın Tarix İnstitutunun əyani aspiranturasına daxil olarkən "Azərbaycanlıların müasir kənd ailəsi (Azərbaycanın Qərb bölgəsinin materialları əsasında)" namizədlik mövzusunu işləyərkən, ilkin olaraq Azərbaycanın Qərb bölgəsində yerləşən rayonlarda dəfələrlə ekspedisiyada, elmi məzuniyyətlərdə oldum. Müvafiq çöl-etnoqrafik materiallarını toplamaq üçün müxtəlif müəssisələrdə, ailələrdə, toy, yas mərasimlərində, bayramlarda və digər tədbirlərdə iştirak etdim.

"Azərbaycanda müasir, kənd ailəsi və məişəti" adlı doktorluq dissertasiya işi ilə əlaqədar Azərbaycanın bütün bölgələrində etnoqrafik ekspedisiyalarda, səfərlərdə olmuş, aylarla çöl-etnoqrafik materialları toplamışam. Həmçinin fərdi plan işləri və müqaviləyə əsasən, hər il görüləsi elmi tapşırıqları, yazıları yerinə yetirmək məqsədi ilə müxtəlif bölgələrdə səfərlərdə iştirak etmiş, lazımi çöl-etnoqrafik materiallarını toplamışam. Maraq dairəm, elmi axtarişlarım çoxsahəlidir. Bu prinsip nəşr olunan kitablarımdan, məqalələrimdən də bəllidir. Məsələn, 2006-cı ildə Bakıda nəşr olunan üç cildlik "Azərbaycan incəsənəti"nin I cildində tarixə ekskurs olunmuş, "Azərbaycan xalqı - avtoxton xalqdır" adlı fəsil yazılmışdır. "Azərbaycan adətləri, ənənələri və mərasimləri" adlı II fəsildə qədim toy, toyun mərhələləri, qədim adətləri nəzərdən

keçirilib. Müxtəlif bölgələr haqqında məlumat verilib. Azərbaycan xalqının qonaqpərvərliyi, çay mərasimi və çörəyə hörmət, Novruz bayramı, dini mərasim və bayramlar, Azərbaycan xalqının vətənpərvərliyi, milli musiqisi, xalq oyunları yığılan və digər materiallar əsasında yazılmışdır.

"XIX-XX əsrlərdə Bakı şəhər əhalisinin ailə və məişəti", "Müstəqillik illəri Azərbaycan ailəsi", "Birinci və İkinci Qarabağ müharibələri: Azərbaycanın erməni işğalçıları üzərində qələbəsinə etnoloji baxış" və digər kitablarımda da xalqdan toplanan zəngin çöl-etnoqrafik materiallardan istifadə etmişəm.

**- Texnoloji cəhətdən inkişaf etmiş cəmiyyətlərdə etnoqrafiyaya yanaşma necədir?**

- Texnoloji cəhətdən inkişaf etmiş cəmiyyətlərdə də antropologiya, etnoqrafiya, etnologiya, linqvistika, folklor və dünya xalqlarının fərqli mədəniyyətlərini təsvir etməyə və təhlil etməyə imkan verən digər elmlər vasitəsilə əldə edilən məlumatlardan istifadə edilir. Tədqiqatçı öyrəndiyi qrup daxilində özünü konteksdə qoyaraq bir iştirakçı müşahidəsi aparır və beləliklə də ilkin proseslərə daxil olur. Daha sonra yerli sakinlərdən alınmış anketlərin, reportajların, qeydlərin, çıxışların və ya qarşılıqlı təsir vasitəsi kimi əldə edilən məlumatların təhlilindən istifadə olunur. Məlumatların təbii olaraq əldə edilməsi vacibdir. Ümumiyyətlə, etnologiya elminin tədqiqat üsul və metodları, etnoloji məlumatların toplanması və hazırlanması, şərhi üsulları, çöl etnoloji-etnoqrafik ekspedisiyaların təşkili məsələlərində müasir vasitələrdən istifadə olunur. Milli (etnik) siyasətin istiqamətləri, vəzifələri, prinsipləri, real mexanizmi texnoloji cəhətdən inkişaf etmiş dövlətlərin maraq dairəsi, siyasi durumu istiqamətində müəyyənləşdirilir.

**- Bu gün etnoqrafiya elminə marağın az olması hansı səbəbdən qaynaqlanır?**

- Etnologiya elminin əsas tədqiqat sahələri: xalqların etnik tarixi və etnogenezi, maddi və mənəvi mədəniyyəti, ailə məişəti, təsərrüfat həyatı və s-dir. Etnologiya elminin tədqiqat obyekti xalq (etnos), predmeti isə etnosla bağlı bütün təzahürləridir. Etnologiyanın yeni sahələri: şəhər etnologiyası, etiket, uşaq etnologiyası, milli yeməklər, etnoloji baxış və digərləridir.

Azərbaycan etnoqrafları yetərincə tədqiqatlarını davam etdirirlər. "XIX-XX əsrlərdə Bakı şəhər əhalisinin ailə və ailə məişəti", "Azərbaycanda uşaq etnoqrafiyası" adlı kitablarım məhz bu yeni sahələrə həsr olunub. Azərbaycanda 50 il və nisbətən çox illər birlikdə ailə ocağını qoruyan ailələrlə bağlı apardığım tədqiqat işləri də həmmüəllifi olduğum "Azərbaycan ailəsi" adlı kitabda, müəyyən məqalələrimdə əksini tapmışdır. Ali məktəb tələbələri üçün tərtib etdiyim "Etnoqrafiya və etnologiya" kitabımda da gənc nəslin maraq dairəsi nəzərdə tutulmuşdur. Rəhbərlik etdiyim və müdafiələri müvəffəqiyyətlə başa çatmış aspirant və dissertantlarımla bu gün elm yollarında birlikdə çalışırıq. Əlbəttə, bu ənənə davam edəcək və bəşəri elm sahəsi olan etnologiyanın tədqiqatları davam edəcəkdir.

**- Təmsil etdiyiniz elmi müəssisənin etnoqrafiya sahəsindəki beynəlxalq əməkdaşlıq əlaqələrindən danışardınız.**

- AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda etnoqrafiya sahəsində beynəlxalq elmi əlaqələri genişdir. Belə ki, institutda təşkil edilən beynəlxalq konfranslarda institutun əməkdaşları iştirak edirlər. Digər ölkələrdə keçirilən beynəlxalq konfranslarda, nəşr olunan beynəlxalq jurnallarda məqalələrlə təmsil olunurlar. Həmçinin institutda etnologiya üzrə müdafiələr keçirilərkən başqa ölkələrin etnoloq alimləri onlayn qaydada iştirak edir, dissertasiyalara opponent kimi rəy verirlər. İnstitutumuzun əməkdaşları da digər dövlətlərdə etnologiya sahəsində müdafiə olunan dissertasiyalara rəy verir, opponentlik edirlər. ●

**Müsahibəni apardı: Sərvan KƏRİMOV**
**"Elm və həyat" jurnalının məsul katibi**



**Şəhla XƏLİLOVA**
*ETN Fizika İnstitutunun aparıcı elmi işçisi,*
*fizika üzrə fəlsəfə doktoru*

# Konstitusiya və Suverenlik ili

**Müstəqil Azərbaycanın ilk konstitusiyası Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanıb, 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi yolu ilə qəbul olunub və həmən ilin noyabrın 27-də qüvvəyə minib. Ümumilikdə Azərbaycanın tarixində bu, dördüncü konstitusiyadır. Azərbaycanın ilk Konstitusiyası 1921-ci ilin mayın 19-da, SSRİ Konstitusiyasına uyğun hazırlanmış yeni nəşr 1925-ci il martın 14-də qəbul olunmuşdu. 1978-ci ilin aprelin 21-də SSRİ Konstitusiyasına uyğun olaraq dəyişikliklər olunmuş və qəbul edilmişdir.**

Ulu öndər Heydər Əliyevin uzaqgörənliyin, əsaslı islahatlar hesabına respublikamızda böyük dəyişikliklər oldu. Azərbaycan inkişaf yoluna çıxdı. Ölkədə bütün sahələrdə yaşanan xaos aradan qaldırıldı. 2025-ci il Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilməsi də heç də təsadüfi deyil. 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsindəki Zəfərimizin 5-ci ildönümüdür. Konstitusiya 1995-ci ilin may ayında formalaşdırıldı və həmən ilin oktyabrında ümumxalq müzakirəsinə verildi. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsinə çıxarıldı. Referendumda seçicilərin 86 faizi iştirak etdi. 91,9 faizi Konstitusiyanın qəbul edilməsinin lehinə səs verdi. Konstitusiya həm də Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən mütərəqqi sənəd idi. Müstəqil Azərbaycanın Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan etdi. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq qoydu. Təsadüfi deyil ki, şəxsiyyətin toxunulmazlığı, insan həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmin olunması, humanizm və insanpərvərlik prinsipləri Azərbaycan Konstitusiyasının başlıca mahiyyətini təşkil edir. 1996-cı il 1 noyabr tarixli Fərmana əsasən hər il noyabrın 12-si Konstitusiya Günü kimi qeyd edilməyə başlandı. Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 30 il ötür. Bu 30 ildə ölkəmizin inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar Azərbaycan Konstitusiyasına bir neçə dəfə əhəmiyyətli dəyişikliklər və əlavələr edilib. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30-dan artıq əlavə və dəyişiklik olunub. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının daha da gücləndirilməsindən, vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən irəli gəlirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya üçüncü dəfə əlavələr və dəyişikliklər edilib. Konstitusiyanın 29 maddəsinə edilən 41 əlavə və dəyi-

şiklik müxtəlif sahələri əhatə etməklə, ali dövlət hakimiyyəti, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquqları və azadlıqlarının daha səmərəli təmin edilməsinə, hüquq və azadlıqların müdafiəsində dövlət və bələdiyyələrin məsuliyyətinin artırılmasına yönəlib. Beləliklə, Azərbaycan Respublikasının Konstitusiyasına edilən əlavə və dəyişikliklər nəticəsində Əsas Qanunumuz daha da təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırılıb. Böyük Zəfərə gedən yol 1993-cü ildə müasir siyasətimizin lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə başladı. Məhz peşəkar ordu quruculuğunun əsası 1993-cü ildə qoyuldu və ordu quruculuğuna elmi prinsiplə yanaşıldı, orduda siyasiləşməyə son qoyuldu. 1995-ci ildə atəşkəs elan olunsa da mənfur düşmən öz əməlindən əl çəkmirdi. Dəfələrlə atəşkəsi pozub, dinc əhalini qətlə yetirirdilər. Nə qədər səbr etsək də, sülh yolu ilə bu müharibəni bitirmək istəsək də, Tovuz hadisələri bu səbrə son qoydu. Nəhayət, 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi basqına cavab olaraq, Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi altında Vətən müharibəsinə başlandı. Məhz 27 sentyabrda "öldü var, döndü yoxdur!" andı verildi və bu and yerinə yetirildi. Bu müharibədə tək vuruşan əsgər və zabitlərimiz olmadı, bu müharibədə yaralılarımızı həyata qaytaran həkimlərimiz də, arxa cəbhədə çalışan mülki insanlarımız da vuruşdu və informasiya müharıbəsi aparıldı. Xalqımız əsl birlik və həmrəylik nümayiş etdirdi. Bu müharibə başlayanda Cənab Prezident İlham Əliyev öz xalqına, öz ordusuna arxalandı, xalq da, ordu da hər zaman prezidentimizin yanında olduğunu və sona kimi olacağını sübut etdi. Yumruq olub, düşmənə sarsıdıcı zərbələr endirildi. 27 sentyabrdan 8 noyabra gedən 44 günlük yol çətin və qürurlu yol oldu. Bu yol 30 illik işğala son qoydu. Bu yolu milli gücümüzün, hərbi potensialın, siyasi, iqtisadi və ən əsası milli həmrəylik hesabına getdik. Bu yol haqq yolu idi. Elə buna görə də milli ruhda böyümüş gənclərimiz bu yolu qürurla getdi, canları-sağlamlıqları bahasına işğal olunmuş torpaqlarımızı azad etdi və tarixə QALİB AZƏRBAYCAN səhifəsini yazdı. Nəhayət, 10 noyabr 2020-ci il tarixində 44 günlük müharibə bitdi və bəyannamə imzalandı. 2023-cü il 19 sentyabrda başlamış və 24 saat davam etmiş anti-terror əməliyyatı Azərbaycan ordusunun qüdrətini dir daha dünyaya sübüt etdi və Azərbaycan dövlətini zirvələrə ucaltdı. Bir daha sübüt olundu ki, milli düşüncə tərzinin formalaşmasına heç bir qüvvə maneə ola bilməz. Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu. 24 saatlıq əməliyyat nəticəsində rəşadətli Azərbaycan ordusu qarşısında qoyulmuş bütün vəzifələr yüksək peşəkarlıqla həyata keçirildi.

Beləliklə, növbəti parlaq qələbə nəticəsində Suverenlik bərpa olundu. 19 sentyabr 2024-cü ildə Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təhsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzaladı. Bununla da Azərbaycan Respublikasının konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə əsasən, hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd olunur.

Qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan tarixinə daha bir tarixi gün əlavə olundu - 15 oktyabr 2023-cü il. Bu tarixdə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin uğurlu siyasətin və Ordumuzun gücü sayəsində Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə və Əsgəranda üçrəngli bayrağımız ucaldı. Bu gün Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyev 20 illik fəaliyyətinin zirvəsini təşkil edir. Zəfərimiz Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş böyük siyasətin və möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən davam etdirilən uğurlu siyasətin, sözün əsl mənasında, zirvəsidir. Vətən müharibəsi Azərbaycanın müasir və ən yeni tarixində əsrlər boyu yaşayacaq və təhlil olunacaq bir hadisədir. Şəhidlərimizin, əsgər və zabitlərimizin qanı-canı bahasına əldə edilmiş suverenliyimiz bizim milli sərvətimizdir. Biz, bu gün bir qürur dövrünü yaşayırıq. Zəfər dövrünü yaşamaq hər nəslə qismət olmur. Bu, bizə nəsib olubsa, özümüzü xoşbəxt sana bilərik. Əgər ərazi bütövlüyünün və suverenliyinin bərpası şəhidlərimizin payına düşübsə, ərazi bütövlüyünü və suverenliyi qoruyub saxlamaq bizim payımıza düşür. ●



**Sadıx NƏBİYEV**
*AMEA Rəyasət Heyəti Aparatının elmi katibi*




# İLK AZƏRBAYCAN ENSİKLOPEDİYASI

**Ensiklopediya sözü yunan dilində "biliklər dairəsi" deməkdir və dilimizdə insan biliyinin bütün sahələrini ardıcıl şəkildə əhatə edən sorğu kitabı mənasında istifadə edilir. Yığcam və sistemli şəkildə elmi məlumat verən ensiklopediyalarda materiallar əlifba sırası ilə və ya mövzulara görə düzülür. Ensiklopediyaların ərazi, tarix, etnoqrafik, dil və ədəbiyyat, hüquq, elm, mədəniyyət, incəsənət sahələri, ərazilər üzrə növləri daha çox yayılmışdır.**

Ensiklopediya sözü Avropa dillərinə qədim latıncadan, rus dilinə isə XVIII əsrdə fransız dilindən keçib. Bu sözdən Azərbaycan dilində ilk dəfə 1930-cu ildə ruscadan tərcümə olunmuş "İbtidai riyaziyyat ensiklopediyası" kitabında istifadə edilmişdir[1].

İlk ensiklopediyaların yaradılması cəhdlərinin tarixi antik dövrə, qədim Yunanıstana gedib çıxır. Dövrümüzə qədər tam şəkildə çatmış ilk sistematik ensiklopediya Roma tarixçisi Pliniy (Gaius Plinius Secundus) tərəfindən b.e.77-78-ci illərində latın dilində yazılmışdır. 37 cilddə toplanmış 2493 fəsildən ibarət əsərdə bəzən heç bir elmi əsası olmayan, miflərə, nağıllara və fantaziyalara söykənən məqalələr olsa da, bütövlükdə burada antropologiya, psixologiya, zoologiya, botanika, mineralogiya, coğrafiya, etnologiya və s. haqqında əhəmiyyətli məlumatlar var idi. "Təbiətin tarixi" adlanan bu əsərin[2] VI kitabı "Qafqazın və Asiyanın coğrafiyası" adlanır və bu kitabda Qafqazda Sarmatiya, Albaniya və İberiya ərazilərinin əhalisindən, sərhədlərindən, təbiətindən bəhs edir. Mənbələrin verdiyi məlumatlara əsasən, bu kitabın tərtib olunmasında 400-dən çox alimin əsərindən istifadə etmiş Plinius özü 79-cu ildə nadir təbiət hadisəsi - Vezuvi vulkanının püskürməsinə yaxından tamaşa etmək istəyərkən həlak olmuşdur.

Böyük türk alimi Mahmud Kaşğarinin 1074-cü ildə yazılmış 7500 sözdən ibarət "Divanü Lüğat-it-Türk" ("Türk dillərinin toplusu") adlı türkcə-ərəbcə lüğəti mahiyyəti və forması etibarilə kamil bir ensiklopediyadır. 1266-cı ildə üzü köçürülmüş və hal-hazırda İstanbul Millət Kitabxanasında saxlanılan nüsxəsi bu əsərin bizə məlum ən qədim əlyazmasıdır[3]. Türk xalqlarının tarixi, adətləri, məişətinin təsvir olunduğu, müxtəlif şeir parçalarının, atalar sözlərinin misal gətirildiyi, sözlərin kökünün və mənşəyinin araşdırıldığı bu kitab həm də səhifələrində yer almış illüstrasiya - qədim türklərin yaşadığı ərazilərin əks olunduğu ilk türk xəritəsi ilə əhəmiyyətlidir. Mərkəzində orta əsrlərdə indiki Qırğızıstan ərazisində yerləşmiş və uyğur türklərinin mərkəzi şəhəri ol-





muş Balasağın yerləşdirilmiş dairəvi xəritədə coğrafi cəhətlər göstərilmiş, çaylar və göllər göy rənglə, dağlar isə qırmızı xətlərlə əks olunmuşdur. Xəritədə Türk dünyasının sərhədləri Qərbdə İdil çayına (indiki Volqa), Cənub-Qərbdə Həbəşistana (indiki Efiopiya), Cənubda Hindistana və Şərqdə Yaponiyaya qədər uzanır.

Nizami, Füzuli, Nəsimi kimi klassik Azərbaycan şair-mütəfəkkirlərinin yaradıcılığı da ensiklopedik xarakter daşımış, onların əsərlərində həyatın müxtəlif sahələrinə aid öz dövrlərini xeyli qabaqlayan biliklərə geniş yer verilmişdir. Məsələn, müasir tədqiqatçılar Nizaminin yaradıcılığında ümumdünya cazibə qanununun Nyutondan, heliosentrik nəzəriyyənin Kopernikdən, kainatın ulduzlardan ibarət olmasının və ulduzların ayrıca müstəqil bir aləm təşkil etməsinin Cordano Brunodan, cənnət-şəhər ideyasının Avropa utopik sosialistlərindən əvvəl əks olunduğunu təsdiq edirlər[4].

Müasir ensiklopediya standartlarını müəyyən etmiş ilk Avropa ensiklopediyası[5] - XVIII əsr Fransa yazıçısı, filosofu və dramaturqu Deni Didronun (Denis Diderot) "Ensiklopediya və ya elmlərin, incəsənətin və sənətlərin izahlı lüğəti" əsəridir (1751).

İlk Azərbaycan ensiklopediyasının yaradılması təşəbbüsü ötən əsrin 30-cu illərinə aiddir. Həmin dövrdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi "Azərbaycan Şura Ensiklopediyasının nəşri haqqında" qərar qəbul etmiş, Azərbaycan Şura Ensiklopediyası (AŞE) Komitəsi yaradılmışdı. AŞE-nin nəşrinə dair rəhbərliyi ilə hazırlanırdı və 1935-ci ildə hətta Azərbaycan Şura Ensiklopediyasının birinci cildinin sözlüyü nəşr olunmuşdu. Tərkibinə İvan Meşşaninov (tarix), Mir Cəlal Paşayev (Azərbaycan dili və ədəbiyyat), Miryusif Mirbabayev (din məsələləri), Heydər Hüseynov (fəlsəfə və hüquq) kimi görkəmli alimlərin daxil olduğu İşçi qrup məqalələrin hazırlanmasına başlasa da sonradan ensiklopediyanın yaradılması işləri yarımçıq saxlanılmışdı. Səbəb-tarixi hadisələrə "rəhbər" baxışların tez-tez dəyişməsi, adı ensiklopediyaya salınması nəzərdə tutulan şəxslərin bir çoxunun 30-cu illərdə repressisyaya uğraması, dünənki "alovlu inqilabçıların, partiya qvardiyasının" bir gecədə "xalq düşməninə" çevrilməsi idi. Digər tərəfdən, "qırmızı terror" ensiklopediyanın yaradıcı heyətindən də yan keçməmiş, ensiklopediyanın hazırlanmasına rəhbərlik edən Ruhulla Axundov, ensiklopediyanın şöbə müdirləri - türkoloq, dilçi və mətnşünas Bəkir Çobanzadə, tənqidçi və ədəbiyyatşünas Əli Nazim, Azərbaycanın ilk hüquqşünas professoru, Sarbonna Universitetinin məzunu Mustafa Vəkilov, xalq maarif komissarı və BDU-nun rektoru olmuş Müseyib Şahbazov, bir sıra digər əməkdaşlar 1937-1938-ci illərdə Azərbaycanda tüğyan edən repressiyalar zamanı məhv edilmişdilər[6].

Azərbaycan ensiklopediyasının yaradılma məsələsi bir daha otuz il sonra gündəliyə gəlmiş, 1965-ci il il dekabrın 30-da Azərbaycan KP Mərkəzi Komitəsi və Nazirlər Soveti "Azərbaycan Sovet Ensiklopediyasının nəşr edilməsi haqqında" qərar qəbul etmiş, Elmlər Akademiyasının Rəyasət Heyəti nəzdində görkəmli şair Rəsul Rzanın baş redaktorluğu ilə ensiklopediyanın Baş Redaksiyası yaradılmışdı. Qərarda 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası"nın (ASE) və "Azərbaycan SSR" adlı xüsusi cildin buraxılması nəzərdə tutulmuşdu.

Respublikanın görkəmli elm, ədəbiyyat, mədəniyyət xadimləri, müxtəlif sahələrin mütəxəssisləri ensiklopediyanın hazırlanmasına cəlb olunmuş, qısa müddətdə ASE-nin Sözlüyü hazırlanıb təsdiq edilmişdi. Ensiklopediya üçün hazırlanan məqalələrinin mühüm cəhətlərindən biri onların indiki Azərbaycan ərazisi ilə məhdudlaşmaması, qonşu respublikaların ərazisində qədim yurd yerlərimizin tarixi adlarının yeri gəldikcə qeyd edilməsi, onlar barədə məlumat verilməsi idi.

İndiki Niyazi küçəsində birmərtəbəli binada yerləşən Baş redaksiyanın fəaliyyətinə lazımi şə-





rait yaradılması məqsədilə qısa zamanda yeni bina tikilməsi üçün İçərişəhərdə yer ayrılmış, yeni binasının qarşısında Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin abidəsinin qoyulması nəzərdə tutulmuşdu.

1970-ci ildə Azərbaycan ensiklopediyasının ilk cildinin tirajının bir hissəsi - 20 min nüsxəsi çap edildi. Lakin Moskvaya, Mərkəzi Komitəyə, ittifaq qəzetlərinə Azərbaycan ensiklopediyasının yaradıcılarını, onun rəhbəri Rəsul Rzanı "kommunist ideologiyasına zidd xətt tutmaqda, qatı millətçilikdə, ideoloji təxribatda, qeyri-elmi yanaşmada" təqsirləndirən saysız ərizə və məktublar üzündən kitabın nəşri dayandırıldı, tirajı satışdan və kitabxanalardan yığıldı. Moskvanın getdikcə artan təzyiqinin qarşısını almaq, Rəsul Rzanı və ensiklopediyanın əməkdaşlarını Mərkəzin dəfələrlə sınanmış qorxunc cəza mexanizmindən qorumaq üçün ölçülüb-biçilmiş, bir-neçə gediş qabağa hesablanmış addımlara ehtiyac var idi.

1971-ci ilin fevralında Heydər Əliyevin tapşırığı ilə sədrliyi Elmlər Akademiyasının prezidenti, akademik Həsən Abdullayevə həvalə olunmuş xüsusi komissiya yaradıldı. Komissiyanın tərkibinə Akademiyanın vitse-prezidenti, ədəbiyyatşünas akademik Məmməd Arif Dadaşzadə, tarixçi akademiklər Əlisöhbət Sumbatzadə və Əbdülkərim Əlizadə, dilçi akademik Məmmədağa Şirəliyev, müxbir üzv, tarixçi Əliheydər Orucov, tarix elmləri doktoru Zelik Yampolski, filologiya elmləri doktoru Cahangir Qəhrəmanov və ASE-nin Azərbaycan tarixi redaksiyasının müdiri, tarix elmləri namizədi Yaqub Mahmudov daxil idilər. Komissiya vəziyyəti araşdırıb ensiklopediyanın birinci cildinin çıxmasına müsbət rəy versə də, Moskva buna məhəl qoymadı və təzyiqləri daha da artırdı. Erməni şovinistlərinin, "sapı özümüzdən olan baltaların" canfəşanlığını 26 Bakı komissarının rəhbəri, Azərbaycanda 1918-ci il mart qırğınının təşkilatçısı Stepan Şaumyanın oğlu, Moskvada "Bolşaya Sovetskaya Ensiklopediya"nın baş redaktor müavini Levon Şaumyan kimilər hər vəhclə dəstəkləyirdilər. L.Şaumyan Rəsul Rzanı hətta ensiklopediyada Türkiyə ərazisindəki dağı Ararat yox, Ağrıdağı adlandırmaqda, atası ilə bağlı məqalənin Məşədi Əzizbəyov haqqında olan məqalədən beş dəfə kiçik olmasında təqsirləndirirdi[7]. ASE redaksiyasının işini yoxlamaq üçün Moskvadan bir-birinin ardınca Mərkəzi Komitənin, Partiya Nəzarəti Komitəsinin, Maliyyə Nazirliyinin komissiyalrı Bakıya ezam olunurdular.

Yalnız beş il sonra, 1975-ci ilin oktyabrında Rəsul Rza ASE-nin Baş redaktoru vəzifəsindən azad edildikdən sonra Ensiklopediyanın nəşrini davam etdirmək mümkün oldu, 1975-ci ilin sonunda bir sıra məqalə yenidən işlənib hazırlandıqdan sonra Moskva ASE-nin nəşrinə icazə verdi. Bu hadisədən sonra Rəsul Rzaya böyük mənəvi dəstək verən, onu hücumlardan qoruyan, yenidən




ictimai həyata qaytaran Heydər Əliyev oldu8. Məhz onun yüksək nüfuzu hesabına, təklifi və təkidi ilə Rəsul Rza Ümumdünya sülhü müdafiə komitəsi Rəyasət heyətinin üzvü, Afrika və Asiya ölkələri ilə Sovet həmrəylik komitəsi Rəyasət heyətinin üzvü və respublika üzrə sədri, SSRİ Yazıçılar İttifaqı Rəyasət heyətinin üzvü, Azərbaycan Respublikası Ali Sovetinin (VII çağırış) deputatı seçildi, "Novosti" Mətbuat Agentliyinin Azərbaycan şöbəsinin sədri təyin edildi. Ümummilli Liderin təqdimatı ilə ona 1980-ci ildə Sosialist Əməyi Qəhrəmanı adı verildi.

1976-1987 illərdə, Azərbaycan Sovet Ensiklopediyasına akademik Cəmil Quliyevin rəhbərlik etdiyi dövrdə ASE-nin 10 cildinin nəşri başa çatdırıldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Sovet Ensiklopediyası"nı "Azərbaycan tarixində bilik və məlumatların bütün sahələrini əhatə edən ilk universal xarakter-

li fundamental əsər", "Azərbaycanın elmi və mədəni həyatında mühüm hadisə" kimi qiymətləndirmişdir[9].

1988-1990-cı illərdə Azərbaycan Sovet Ensiklopediyasının Baş redaktoru vəzifəsində Əməkdar elm xadimi Araz Dadaşzadə çalışmışdı. O, bundan əvvəl də Ensiklopediyanın Baş redaksiyasında Ədəbiyyat və İncəsənət redaksiyasının müdiri, 1976-1988-ci illərdə isə baş redaktorun birinci müavini işləmişdi və əslində, oncildliyin nəşrinin bütün ağırlığını çiyinlərində daşımışdı. Ensiklopediyada mədəniyyət tariximizin önəmli hadisələrinin işıqlandırılmasında, xüsusən, o dövrdə adının çəkilməsi qadağan edilmiş görkəmli şəxsiyyətlər haqqında bir sıra hallarda yığcam şəkildə də olsa, məlumatların yerləşdirilməsində Araz Dadaşzadənin böyük xidməti olub.


ENCYCLOPÉDIE,
OU
DICTIONNAIRE RAISONNÉ
DES SCIENCES,
DES ARTS ET DES MÉTIERS,
PAR UNE SOCIÉTÉ DE GENS DE LETTRES.
TOME PREMIER.
A PARIS,
M. DCC. LI.
AVEC APPROBATION ET PRIVILEGE DU ROY.

Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın ictimai-siyasi həyatında, elmində və mədəniyyətində baş vermiş mühüm hadisələri obyektiv şəkildə əks etdirən, Azərbaycan xalqının tarixini köhnə sovet ideoloji buxovlarından azad şəkildə işıqlandıran yeni milli ensiklopediyanın hazırlanıb nəşr edilməsi zərurəti meydana çıxdı. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə 25 cildlik yeni ensiklopediyanın yaradılması prosesi başladı. 2005-ci ildə Azərbaycan Milli Ensiklopediyasının yüksək səviyyədə hazırlanıb nəşr olunmasını təmin etmək üçün AMEA-nın nəzduində akademik Tofiq Nağıyevin rəhbərliyi ilə Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi yaradıldı. 2007 ildə AME-nin "Azərbaycan" xüsusi cildi, 2009 ildə isə 1-ci cildi işıq üzü gördü. Artıq ensiklopediyanın on cildi cap edilərək oxuculara təqdim edilmişdir.

AMEA-nın təntənə ilə qeyd etməyə hazırlaşdığımız 80 illiyi, həm də ilk Azərbaycan ensiklopediyasının ilk cildinin nəşrinin 55 illiyidir. Zamanın yüksəkliyindən baxanda göründüyü kimi, Azərbaycan elmi, Azərbaycan alimləri XX əsrin 30-cu illərdəki ilk cəhdlərdən başlayaraq həmişə Azərbaycan Ensiklopediyasının yaradılması prosesinin mərkəzində durmuşlar. Yüzlərlə Azərbaycan aliminin onilllər ərzində yaratdığı, toplayıb artırdığı və qoruduğu biliklər, bu gün fəaliyyəti AMEA-nın tərkibində davam edən müasir Azərbaycan Milli Ensiklopediyasının elmi bazasını təşkil edir. Prezident İlham Əliyevin "Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında" 25 oktyabr 2024-cü il tarixli Sərəncamında Azərbaycan Milli Ensiklopediyasının Redaksiya Heyətinin 34 üzvündən 31 nəfərinin AMEA-nın həqiqi və müxbir üzvləri arasından seçilməsi ölkə başçısının AMEA-ya və Azərbaycan alimlərinə, onların milli ensiklopediyanın yaradılmasındakı müstəsna roluna verdiyi yüksək qiymətin nümunəsidir[10]. ●


Ədəbiyyat

1. https://az.wikipedia.org/wiki/Ensiklopediya İbtidai riyaziyyat ensiklopediyası.A.S.Kovanko. Bakı: Azərnəşr, 1930.
2. Berkova E.A.Nauçnaə literatura ranney imperii / İstoriə rimskoy literaturı. İzd-vo AN SSSR, 1962.
3. AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun təşkilatçılığı ilə keçirilmiş "Mahmud Kaşğari. "Divanü lüğat-it-türk"-950" mövzusunda beynəlxalq elmi konfransın materialları. Bakı."Elm və təhsil". 2024.
4. Nəsiman Yaqublu. Nizami Gəncəvi irsində elm anlayışı və elmi kəşflərə baxış. 525-ci qəzet. 23 noyabr 2021-ci il. https://525.az/news/180683-nizami-gencevi-irsinde-elm-anlayisi-ve-elmi-kesflere-baxis
5. Mezin S.A.Didro i üivilizaüiə Rossii. Moskva. Novoe literaturnoe obozrenie, 2018.
6. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Sovet_Ensiklopediyas%C4%B1
7. Rafael Hüseynov. Millət gərək bunu bilə. 525-ci qəzet.15 aprel 2023. https://rafaelhuseynov.com/az/news/454
8. Anar."Heydər Əliyev Rəsul Rzanı ermənilərdən qorudu" 10 dekabr 2016. https://teleqraf.az/news/art/118706.html
9. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı https://e-qanun.az/framework/5426
10. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında" 25 oktyabr 2024-cü il tarixli Sərəncamı https://president.az/az/articles/view/67156



**Nəzakət MƏMMƏDOVA**
*BDU Tətbiqi riyaziyyat və kibernetika fakültəsi, fizika-riyaziyyat elmləri namizədi, dosent*

# Diferensial tənliklər, Laplas şeytanı və bir az da Şredinger pişiyi haqqında düşüncələr

**Diferensial tənlik təbiətdə baş verən bir çox hadisələrin riyazi analoqu - riyazi modelidir. Diferensial tənliyi qurmaq üçün baş verən proses haqqında, xüsusilə də, prosesin özü və sürərti arasındakı əlaqə haqqında kifayət qədər məlumata malik olmaq, tənliyin aid olduğu sahənin qanunlarını bilmək lazımdır. Bu tənliklərdə axtarılan, yəni məchul funksiyadır (proses) və həmin funksiya törəməsi (yəni prosesin sürəti) və ya törəmələri ilə bərabər tənliyə daxildir. Məchul funksiyanın tapılması öyrənilən prosesin gələcəyi haqqında müəyyən informasiyaya sahib olmağa, başqa sözlə, proqnoz verməyə, bəzi hallarda isə (başlanğıc şərtlərdən asılı olaraq) keçmiş haqqında təxminlər etməyə imkan verir. Bu gün diferensial tənliklər hər yerdədir.**

Maraqlıdır, bəs diferensial tənliklərlə və ümumiyyətlə, riyazi modellərlə hansı hadisələri proqnozlaşdırmaq olar, onların verdiyi nəticələr nə qədər dəqiqdir? Qeyd edim ki, hər bir riyazi modelin verdiyi nəticələr müəyyən xətalarla və müəyyən zaman intervalı üçün doğrudur. Həqiqəti ideal əks etdirən heç bir riyazi model yoxdur. Eynşteynin dediyi kimi, tənliklər dəqiqdirsə, reallığa uyğun deyillər, reallığa uyğundursa, dəqiq deyillər. Bəzən eyni bir məsələni müxtəlif tənliklərlə həll etmək olur və riyaziyyatçı daha az xəta verən tənliklə (adətən, bu tənlik daha mürəkkəb olur) işləməyə üstünlük verir. Məsələn, gələcəkdə əhali sayını hesablamaq üçün müxtəlif tənliklər var. Dərslərin birində tələbələrlə belçikalı alim P.Ferxyulstun əhalinin logistik artım modelindən istifadə edib Yer kürəsinin maksimal əhali tutumunu 12 milyard götürərək 2040-cı il üçün proqnoz verdik - bu, 8.41 milyard oldu. Maltus modelindən istifadə etdikdə isə bu rəqəm 9.29 milyard oldu. Birinci model reallığı daha adekvat təsvir etdiyi üçün onun verdiyi nəticə də reallığa daha yaxın olacaq.

Həll etdiyimiz bir kriminalistika məsələsində cəsədin və otağın temperaturunu ölçməklə Nyutonun soyuma qanununa əsaslanıb qətlin törəndiyi vaxtı hesabladıq. Dalğa tənliyini öyrənməklə həm də simli musiqi alətləri tarixini, harmonik səslənən simlərin və musiqi alətlərinin fiziki xüsusiyyətlərini araşdırdıq tələbələrimlə. Trikomi tənliyi ilə tanışlığımız bizim sürəti səs sürətini aşan təyyarələri öyrənməyimizə səbəb oldu, Laplas tənliyi və onun üçün qoyulmuş məsələləri həll edərkən Laplasdan, onun determinizm nəzəriyyəsindən danışdıq...

Diferensial tənliklər nəzəriyyəsi XVII əsrin ikinci yarısında sonsuz kiçik kəmiyyətlər anlayışı üzərində qurulmuş riyazi analizin (Calculus) əmələ gəlməsi ilə yaranmağa başladı. Ən sadə diferensial tənliklərə diferensial və inteqral hesabınının əsasını qoyan İ.Nyuton və Q.Leybnisin işlərində rast gəlinir. Yanaşmaları və simvolikaları xeyli fərqlənsə də onlar törə-




mə və inteqral anlayışları üçün mahiyyət etibarı ilə eyni nəticələrə gəlib çıxmışdılar. Bu sahədə kimin prioritet olması riyaziyyat tarixinin ən böyük mübahisəsi olub.

O dövrə qədər bir çox fiziki anlayışlar kəmiyyətlərlə ifadə olunsa da, sürət anlayışına hələ də ədədi xarakteristika verilməmişdi və mexanika məsələlərində ümumiyyətlə desək, orta sürət anlayışından- gedilən yolun uyğun zamana olan nisbətindən istifadə edilirdi. Amma cismin istənilən andakı hərəkətini başa düşmək üçün və ya maksimal, minimal sürəti tapmaq üçün ani sürət anlayışı verilməli idi. Bunun üçün baxılan nöqtənin ətrafında zaman (və təbiidir ki, ona uyğun məsafə də) çox kiçik hissələrə bölündü və məsafə dəyişməsinin zaman dəyişməsinə nisbətinin sonuncu sıfra yaxınlaşanda aldığı qiymət törəmə adlandırıldı. Nyuton törəməyə belə tərif vermişdi- hərəkətdə olan cismin verilmiş nöqtədə (anda) sürəti. Diferensial, diferensial tənlik anlayışlarını Leybnis təklif etmişdi. Nyuton o dövrün riyazıyyatçıları qarşısında İ.Bernullinin qoyduğu braxistoxron haqqındakı məsələni- iki nöqtə arasındakı məsafəni ən qısa zamanda qət edə bilən maddi nöqtənin trayektoriyasının tapılması məsələsini diferensial tənlik vasitəsi ilə həll etdi və bu əyrinin sikloida olduğunu isbat etdi. Bu məsələ həm də variasiya hesabının, optimallaşdırma məsələlərinin əsasını qoydu.

Sürət anlayışına daha qlobal məna versək, yəni təkcə mexaniki hadisələrin deyil, həyatdakı bütün proseslərin sürətinin olduğunu nəzərə alsaq, törəmə anlayışını ədədi xarakteristika verə bildiyimiz bütün funksional asılılıqlar üçün ümumiləşdirə bilərik. Diferensial tənliklər həm makro, həm də mikroaləmdə bir çox hadisələri təsvir etmək üçün çox güclü riyazi aparatdır.

Diferensial tənliklər nəzəriyyəsinin yaradıcılarından biri də fransız riyaziyyatçısı, astronomu Pyer Simon de Laplasdır (1749-1827). Laplas diferensial tənliyi, Laplas operatoru, Laplas çevirməsi...bu anlayışlar riyaziyyatçılara çox yaxşı tanışdır. O, həm də ehtimal nəzəriyyəsinin yaradıcılarından biridir. Riyazi analiz metodlarını tətbiq edərək Laplas özünün çox məşhur və astronomların stolüstü kitabına çevrilən "Səma mexanikası" monoqrafiyasında planetlərin orbitlərinin dayanıqlı olduğunu və onların Günəşdən orta məsafəsinin dəyişməz olduğunu göstərdi, Günəş sisteminin əmələ gəlməsi hipotezlərini, kosmoqoniya nəzəriyyəsini verdi.

Laplasın bu kitabla bağlı bir vaxtlar müəllimi olduğu B.Napoleonla bir dialoqu çox məşhurdur:

- Dünya sistemi haqqında belə nəhəng kitab yazmısız, amma Yaradanı bir dəfə də yad etməmisiz!

- Ser, mənim bu hipotezə ehtiyacım yox idi.

Deist (bəzi mənbələrdə aqnostik) reputasiyası olan Laplas elmi izahların Tanrı anlayışına ehtiyac duymadığını düşünür, Nyutonun mexanika qanunlarına əsaslanaraq, kainatın tamamilə deterministik olduğunu iddia edirdi. Riyaziyyatın fövqəl gücünə inanaraq və Arximedin məşhur kəlamına istinad edərək- "mənə dünyanın bütün zərrəciklərinin başlanğıc vəziyyətini verin, mən sizə gələcəkdən xəbər verim"- deyirdi

Laplas. O, 1814-cü ildə "Ehtimallar haqqında fəlsəfi esse" adlı bir məqalə yazır. Bu məqalədə kainatdakı hər bir atomun yerini və hərəkətini bilən və bunun sayəsində kosmosun və kainatın bütün keçmiş və gələcəyini bilən virtual bir varlığın (Laplas onu "une intelligence" adlandırırdı ) mövcud olduğunu fərz edir: "Kainatın indiki vəziyyətini keçmişin nəticəsi və gələcəyin səbəbi olaraq düşünə bilərik. Bir an üçün dünyanın bütün qüvvələrinin və onları meydana gətirən bütün varlıqların mövqelərini anlaya bilən bir məxluq- "ağıl" olduğunu və onun bu məlumatları araşdıra biləcəyini də düşünək. Bu varlıq eyni anda kosmosdakı ən böyük cisimlərdən ən kiçik atomlara qədər hər şeyi ehtiva edərək hesablayırsa, heç bir şey qeyri-müəyyən deyil və gələcək də, eynən keçmiş kimi, onun gözlərinin önündədir." Laplasa görə bu hipotetik varlıq hər şeyi görür, bilir, gələcəkdən və keçmişdən xəbərdardır, onun üçün ehtimallara yer yoxdur. Bu nəzəriyyəyə görə gələcəyimiz artıq hesablanıb və dəyişməzdir. Suallar çox idi - bu supergüc, super yaddaşa malik hər şeyi bilən, sonralar "şeytan"(bu termin heç ürəyimcə deyil), "demon" adlandırılan bu varlıq fiziki varlıqdırmı, məhdud məkan və zamanda işləyir, ya əksinə? Kənar izləyicidir, ya sistemə daxildir? Şüurludurmu o varlıq, ya hesablama maşınına bənzəyir? Onun özünün şəxsi iradəsi varmı? Məncə, Laplas özü də bu sualların hamısına cavab vermək gücündə deyildi. Ancaq o, qatı determinist idi və əmin idi ki, bütün hadisələr səbəb-nəticə əlaqəsindədir. Bu nəzəriyyə riyaziyyatın qüdrətli bir elm kimi hər şeyə qadir olduğunu, hər şeyi izah edə biləcəyini düşünənlər tərəfindən (Laqranj, Eyler, Rassel ) dəstəklənsə də xeyli tənqidlərə də məruz qaldı. Pessimizmə gətirən bu fatalist nəzəriyyə ilə barışmaq asan deyildi... Laplas 1827-ci ildə, 77 yaşında, onun nəzəriyyəsini ciddi şəkildə, elmi əsaslarla tənqid edəcək nəzəriyyələrdən xəbəri olmadan, "bildiklərimiz məhdud, bilmədiklərimiz isə sonsuzdur"-deyib gözlərini əbədi yumdu.

19-cu əsrin ikinci yarısında fizikaya entropiya anlayışı gəldi və təbiətdə entropiyanın həmişə artması fikri yer aldı. Avstriya fiziki L.Bolsman öz məşhur tənliyi ilə qapalı və izolyasiya olunmuş sistemin nizamsızlıq ölçüsünü verdi, göstərdi ki, mikroskopik hissəciklərin fərdi trayektoriyaları deyil, yalnız onların statistik davranışları təsvir edilə bilər. Bu yanaşma klassik determinizmi zəiflədən və statistik determinizm anlayışına gətirən ilk addımlardan oldu.




Bolsmanla eyni dövrdə yaşamış fransız alimi A.Puankare dinamik sistemlərin tam proqnozlaşdırıla bilməyəcəyini, onların xaotik davranışının mümkünlüyünü göstərdi və bununla xaos nəzəriyyəsinin əsasını qoydu. O göstərdi ki, bəzi mexaniki sistemlərin başlanğıc şərtlərinin kiçik dəyişiklikləri həmin sistemin davranışında böyük dəyişikliklərə səbəb olur. Buna "kəpənək effekti" də deyirlər bəzən. Amerika riyaziyyatçısı E.Lorens hava proqnozlarını modelləşdirərkən kiçik başlanğıc dəyişikliklərin hava şəraitində kəskin fərqlər yaratdığını aşkar etdi və "Braziliyada bir kəpənəyin qanad çırpması, Texasda tornadonun yaranmasına səbəb ola bilər" kimi məşhur ifadəsini işlətdi. Məhz bu səbəbdən hava temperaturunu, zəlzələni, vulkan püskürməsini, çayda və hava qatlarında turbulent axınları, maliyyə bazarlarındakı dəyişiklliklləri uzun müddət əvvəldən proqnozlaşdırmaq ol-

mur. Digər tərəfdən, real məsələlərin ölçmələrində az da olsa hər zaman xətaya yol verilir və deməli, bu verilənlər əsasında qurulmuş həll dayanıqlı olmaya bilər. Puankare üç cisim problemini araşdırarkən bu göy cisimlərinin xaotik davranışa malik olduğunu, Nyutonun planetlər üçün hərəkət tənliklərinin (bunlar qeyri-xətti diferensial tənliklərdir) ümumi halda həll oluna bilmədiyini, başqa sözlə desək, gələcək vəziyyəti hesablamaq üçün riyazi qanunların həmişə kifayət etmədiyini göstərdi.

Avstriya fiziki E.Şrödinger 1926-cı ildə kvant hissəciklərinin necə davrandığını, onların dalğa funksiyasının zamanla necə dəyişdiyini, hissəciyin harda ola biləcəyini ehtimallarla hesablayan Şrödinger tənliyini qurdu və bu işinə görə 1933-cü ildə Nobel mükafatını aldı.

1927-ci ildə daha bir Nobel mükafatçısı, alman fiziki, kvant mexanikasının qurucularından biri olan V.Heyzenberq özünün qeyri-müəyyənlik prinsipini irəli sürdü. Bu prinsipə görə hər hansı bir hissəciyin eyni anda həm yerini, həm də impulsunu tam dəqiqliklə ölçmək və deməli, kvant hissəcikləri üçün klassik mənada trayektoriya təyin etmək mümkün deyil. Bu kəşf deterministik fizikadan imtina demək idi.

Kvant dünyasının qəribəliklərini və qeyri-müəyyənliyini izah etmək üçün Şrödinger baş qəhrəmanı pişik olan bir xəyali təcrübə düşünür. Şrödinger bir neçə pişik saxlayırdı, onları çox seviridi və bəlkə də onlardan ilham alaraq eksperimentini başqa canlı deyil, məhz pişik üzərində fərz etmişdi. Bir qutunun içində bir pişik və təsadüf nəticəsində parçalana biləcək radioaktiv maddə və zəhər şüşəsi varsa pişiyin taleyi atomun vəziyyətindən asılıdır. Atom parçalanarsa (bunu proqnozlaşdırmaq olmur, ehtimal 50-50-yədir) zəhər şüşəsi qırılacaq və pişik öləcək, əks halda o, sağ qalacaq. Yalnız qutunu açıb baxanda onun sağ, ya ölü olduğunu görə bilərik. Şrödingerin pişiyi kvant mexanikasının qeyri-deterministik təbiətini bir daha vurğuladı və bəzi hadisələrin ehtimallar əsasında baş verdiyini, müşahidədən əvvəl müəyyən olmadığını göstərdi. Beləliklə, Laplasın şeytanı makroskopik dünyanı, tam müəyyənlik və deterministik dünyagörüşünü, Şrödigerin pişiyi isə mikroskopik kvant reallığını, qeyri-müəyyənlik və ehtimal əsaslı reallığı əks etdirir.

Dahi alman fiziki Albert Eynşteyn Heyzenberqin qeyri-müəyyənlik prinsipini inkar edərək determinizmi müdafiə edir, kvant mexanikasının ehtimallı xarakterinə qarşı çıxır, onun natamam olduğunu və hələ də tam dərk edilmədiyini sübut etməyə çalışırdı. Kvant fizikasının əsaslarını qoyanlardan Nobel mükafatçıları - danimarkalı N.Bor və alman M.Born ilə ciddi elmi mübahisələri də Eynşteynin fikrini dəyişdirmir. Onun Bornla bir neçə il davam edən yazışmaları "The Born-Einstein Letters" adı altında çap olunub. Eynşteynin "Allah zər atmaz" (Gott würfelt nicht) fikrinə N.Bor belə cavab vermişdi: "Siz Allaha dünyanın necə idarə olunacağını söyləməyin". Maks Bornun cavabı isə daha maraqlı idi: "Bəlkə də, biz kiminsə zərləri necə atdığını və nəticələri necə təyin etdiyini hələ başa düşməmişik". Bu ifadə onun kvant ehtimallarını qəbul etdiyini, lakin bunun altında daha dərin bir mexanizmin olduğunu etiraf etdiyini göstərir. Başqa bir məktubunda Eynşteyn yazır: "Kvant mexanikası, əlbəttə, düşündürür. Amma daxili səsim mənə deyir ki, bu hələ ideal deyil. Bu nəzəriyyə çox şeydən danışır, lakin bizi Uca Yaradanın sirrinin açılmasına yaxınlaşdırmır. Ən azı, mən əminəm ki, O, zər atmaz." (4 dekabr, 1926-cı il) Heyzenberqin prinsipini qismən qəbul etsə də, Eynşteyn düşünürdü ki, kvant mexanikası natamamdır və qeyri-müəyyənliyin səbəbi bizim hissəciklər arasındakı əlaqəni tam izah edə bilməməyimizdir.

Daha bir kvant fiziki və Nobel mükafatçısı, ingilis alimi P.Dirakın yazdıqları çox maraqlıdır: "Sonunda, bəlkə də Eynşteynin baxış bucağı doğru çıxa bilər, çünki müasir kvant mexanikasının cari inkişaf mərhələsini yekun hesab etmək olmaz. Müasir kvant mexanikası böyük bir nailliyyətdir, lakin onun əbədi mövcud olacağı ehtimalı azdır. Mənə elə gəlir ki, gələcəkdə kvant mexanikasının daha inkişaf etmiş bir for-

ması ortaya çıxa bilər, bu zaman biz səbəbiyyətə qayıdarıq və bu, Eynşteynin baxışlarını təsdiq edər".

Kvant fizikasını yaradanlardan daha biri və yenə də Nobel mükafatçısı - alman fiziki Maks Plank da qeyri-müəyyənlik fikrini tam qəbul etmədi. Elmlə din arasında ziddiyyətin olmadığına, onların hər ikisinin həqiqəti tapmağa yönəldiyinə inanan Plank düşünürdü ki, kvant fizikası hələ tam dərk olunmur və burada hələ açılmayan daha dərin səbəb-nəticə əlaqələri ola bilər. Plank deyirdi ki, elm təbiətin əsas sirrini aça bilməz, çünki biz açmaq istədiyimiz sirrin bir parçasıyıq. Bütün materiyanın bir güc sayəsində yarandığını, bu gücün atom hissəciklərini vibrasiyaya gətirərək Günəş sistemini bir arada saxladığını və onun arxasında şüurlu və ağıllı bir zəkanın (materiyanın matrisinin) dayandığını düşünürdü Plank.

Amerika fiziki David Bohm özünün gizli dəyişənlər nəzəriyyəsi ("Hidden Variables Theory") ilə tanınır. Bu nəzəriyyə kvant mexanikasında təsadüfi görünən hadisələrin, əslində, bizim bilmədiyimiz və ölçə bilmədiyimiz bəzi gizli parametrlər tərəfindən idarə edildiyini irəli sürür. Yəni kvant qeyri-müəyyənliyi fizikanın hələlik ölçə bilmədiyi müəyyənlikdir və kvant dünyası da nəticədə deterministik ola bilər. Digər bir yanaşma isə digər Amerika alimi H. Everettin kvant mexanikasına alternativ sayılan "çoxdünya interpretasiyadır" (Many-Worlds Interpretation, MWI). Bu nəzəriyyəyə görə, bütün ehtimallar paralel kainatlarda reallaşır və bizim təsadüfi hesab etdiyimiz kvant hadisələri üçün bütün mümkün nəticələr eyni anda, lakin fərqli paralel dünyalarda baş verir. Məsələn, əgər kvant təcrübəsi "baş verir" və "baş vermir" kimi iki mümkün nəticəyə malikdirsə, şüur bu iki dünyada ayrılır: biri bir nəticəni, digəri isə başqa bir nəticəni müşahidə edir. Başqa sözlə, bütün nəticələr öz dünyalarında reallaşır. Kvant kompüterlərinin inkişafı ilə birlikdə Everettin ideyalarına maraq artsa da, bu nəzəriyyə empirik yoxlanıla bilmədiyindən kvant fizikləri üçün ciddi müzakirə mövzusu olaraq qalır.

Bəlkə, günlərin bir günü fizikanın ən böyük problemlərindən biri olan makroskopik dünya ilə mikroskopik dünyanı birləşdirə bilən böyük vahid bir nəzəriyyə (Grand Unified Theory) yaranacaq və determinizm problemlərinə baxış bucağını dəyişəcək? Bu sahədə iddialı nəzəriyyələrdən biri də müasir Sim nəzəriyyəsidir (String theory).

Bu gün Süni intellekt (AI- Artificial İntelligence) və Big Datada Laplasın "intellegence" - şeytan ideyaları müəyyən mənada öz əksini tapır, çünki bu texnologiyalar inanılmaz böyük həcmdə məlumatları analiz edərək statistik modellər qurmaq, davranışları və hadisələri təxmin etmək və qərar qəbul etmək gücündədir. Süni intellekt də, əslində Laplasın şeytanı kimi işləyir - məlumat toplayır (sensorlar, sosial şəbəkələr, müxtəlif cihazlar və s. vasitəsilə), irimiqyaslı məlumatları analiz edir və bu məlumatlardan istifadə edərək gələcək hadisələri və ya davranışları təxmin edir. Məsələn, süni intellekt insanın keçmiş davranışlarına əsaslanaraq onun gələcəkdə nə alacağını, maraq dairəsini və hansı qərarı verəcəyini təxmin edə bilir. Deterministik olmayan proseslərdə belə süni intellekt ehtimallar əsasında proqnoz verə bilir. Laplas şeytanı tam və qüsursuz məlumatlar tələb edir. Real dünyada isə məlumatlar heç vaxt tam deyil, sistemlər qeyri-müəyyənlik və xaos təsirlərinə məruz qalır. Bu mənada Süni İntellekt Laplas şeytanını təqlid edir, müəyyən məhdudiyyətlərlə "şeytan" rolunu icra etməyə çalışır. Düşünürəm ki, gün gələcək, AI və superkompüterlər vasitəsilə Laplasın orijinal ideyasına çox yaxınlaşacağıq. Orijinala - məkan və zaman fövqündə duran bu ilahi varlığa yaxınlaşma nə qədər olacaq, bilmirəm... Çünki O, mütləq bilik sahibidir, hər şeydən xəbərdardır və hər şeyi görür! Bəli, Laplasın Super Zəkasının təsviri bir çox dinlərdə təsvir olunan Allahdır! "Şübhəsiz ki, O, sizi görür", "Həqiqətən, Allah hər şeyi biləndir, hər şeydən xəbərdardır", "Odur hər şeyi görən və gizlinləri bilən!" ●



**Cəmil QULİYEV**
*AMEA Lənkəran Regional Elmi Mərkəzinin elmi katibi, tarix üzrə fəlsəfə doktoru*

# Böyük maarifpərvər şəxsiyyət

**Azərbaycan xalqı öz tarixi ərzində böyük şəxsiyyətlər yetirmişdir. Onlardan biri də dövrünün görkəmli şairi, tərcüməçi, publisist və jurnalisti Zülfüqar Məşədi Əhməd oğlu Əhmədzadədir. O, 14 iyun 1898-ci ildə keçmiş Lənkəran qəzasının Butəsər (indiki Pensər) kəndində dünyaya göz açmışdır. Zülfüqar Əhmədzadənin babaları Məşədi Əhmədin atası Məmməd, Məmməd Həsən oğlu, Həsən Əbülqasım oğlu, Əbülqasım Şeyx Məhəmməd oğlu, Şeyx Məhəmməd Əziz oğlu indiki Astara rayonunun Pensər kəndinin ilk və əsasını qoyan sakinləri olmuşlar.**

Azərbaycanın maarif, mədəniyyət, idarəçilik işində böyük nailiyyətləri olan Zülfüqar Əhmədzadə haqqında yazmaq, onu gələcək nəsillərə tanıtmaq olduqca vacibdir. O, xalqımızın mədəniyyətini, milli adət-ənənələrini yaşatmaq və dirçəltmək məqsədilə əvəzolunmaz işlər görmüşdür. Cəmi 44 il ömür sürmüş şair ədəbiyyatımızda özünəməxsus qələm sahibi kimi də tanınmışdır. Azərbaycan maarifinin inkişafında böyük miqyaslı işlər görmüş Zülfüqar Əhmədzadə yeni məktəblərin açılmasında, əhalinin savadlanmasında böyük əmək sərf etmiş, görkəmli ictimai-siyasi xadim kimi tanınmışdır. Nadir və fitri istedada malik Zülfüqar Əhmədzadə hələ gənc yaşlarında ikən yüksək təşkilatçılıq nümayiş etdirmiş, cənub bölgəsində təhsilin inkişafı üçün əvəzsiz xidmətlər göstərmiş, Astarada təhsilin bünövrəsini qoymuşdur. Vətənpərvər insanın ən böyük arzusu və istəyi gəncləri savadlı görmək idi. O, kənd və rayonları bir-bir gəzib, uşaqları oxumağa cəlb edib, bu yolda bütün çətinliklərə sinə gərərək savadsızlığın aradan qaldırılmasına xüsusi xidmətlər nümayiş etdirmişdir. Zülfüqar Əhmədzadə 1929-cu ildən başlayaraq nəşr edilən dərsliklərin və ədəbiyyatların əsas müəlliflərindən biri olmuş, öz ana dilində - talışca yazdığı bir çox şeir və poemalar dillər əzbərinə çevrilmişdir. O, öz yaradıcılığında ən çox uşaq şeirlərinə üstünlük vermişdir.

Zülfüqar Əhmədzadə hələ 14 yaşı olarkən türk, rus, fars və ərəb dillərini öyrənərək, şeir yazmağa başlamışdır. 1934-cü ildə Azərbaycan Yazıçılar İttifaqının üzvü seçilmişdir. Ən yaxın qələm dostu Xalq şairi Səməd Vurğun olmuşdur. Söz sənətinin ağır yollarında uğurla addımlayan poeziya vurğunu, maarifpərvər ziyalı əsərlərində insan ləyaqətinə və şəxsiyyətinə daima hörmətlə yanaşmışdır.

Böyük şəxsiyyət Zülfüqar Əhmədzadə 1918-ci ildən başlayaraq "Hümmət", "Ədalət", "Bolşevik" partiyalarının fəal üzvü olmuşdur. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra bir çox vəzifələrdə işləmişdir. O, 1920-1923-cü illərdə Lerik rayonu (Zuvand) Qosmalyan nahiyyə İcraiyyə Komitəsinin sədri, 1923-1925-ci illərdə Lənkəran qəzasında maarif şöbəsinin müdiri kimi çalışmışdır. Həmin dövrdə Lənkəran qəzasına Biləsuvar, Cəlilabad, Lənkəran, Astara, Masallı, Yardımlı (Vərgədüz), Lerik (Zu-

vand) rayonları daxil idi. 1925-1926-cı illərdə Laçın, 1926-1928-ci illərdə Zaqatala, 1928-1929-cu illərdə Ağdam Qəza İcraiyyə Komitəsinin sədr müavini, təşkilat şöbəsinin müdiri, 1929-1930-cu illərdə Lənkəran rayon Pedaqoji Texnikumunun direktoru, 1931-ci ildə Astara rayonu İcraiyyə Komitəsinin sədri və deputatı olmuşdur. 1932-ci ildə Azərbaycan SSR Ali Sovetinə irəli çəkilmiş, oradan 1932-1933-cü illərdə Ermənistan SSR Vedi rayon İcraiyyə Komitəsinin sədri göndərilmişdir. 1933-1934-cü illərdə Azərbaycan Xalq Maarifi Komissarlığında Ali məktəblər idarəsinin rəisi və 1934-1937-ci illərdə Azərnəşrdə "Azlıqda qalan xalqlar" şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Nəhayət, Zülfüqar Əhmədzadənin bir çox vətən oğulları kimi sovet hakimiyyətinə xidmətləri həyatı bahasına başa gəlmiş, faciə ilə nəticələnmişdir.

1937-ci ilin sonlarında vətən fədaisinin başı üzərində qara buludlar gəzməyə başlayır. Çox keçmir bu buludlar ondan yan keçmir. Zülfüqar Əhmədzadə cinayət məcəlləsinin 64-cü maddəsiylə: "Sovet hökumətinə qarşı silahlı mübarizə aparan təşkilatın üzvü kimi" saxta ittihamla Moskva Xüsusi İdarəsinin qərarı ilə "əksinqilabi dəstəylə əlaqəsi olduğuna görə" yalançı bir əsas gətirərək 5 il müddətinə həbs edilir. Lənkəran rayonunun Girdəni kəndindən olan (əslən Lerik rayonunun Rəzqov kəndindəndir) köhnə inqilabçı Şirəli Axundov Zülfüqar Əhmədzadənin üzünə durur. İlk əvvəl Z.Əhmədzadənin əleyhinə ifadə verməyən inqilabçının sağ ayağının dərisini soyurlar. Şirəli Axundov isə bu ağır əzaba dözməyərək ifadəsində belə yazır: "Mən 1936-cı ildə Z.Əhmədzadə ilə təsadüfən rastlaşdım. O, mənə Böyükağa Mirsalayevin (Böyükağa Mirsalayev 37-ci il repressiya qurbanıdır) başçılıq etdiyi gizli təşkilata üzv olduğunu və məni də bura üzv etmək istədiyini bildirdi". Z.Əhmədzadəyə qarşı cinayət işinin təhqiqatı bu ittiham üzərində qurulur. Şirəli Axundovun yaraları sağalan kimi o, Əhmədzadənin üzünə ağrılardan qurtulmaq üçün durduğunu yazılı surətdə bildirir: "Məni işgəncələr ilə Əhmədzadənin üzünə durmağa məcbur etdilər, istintaqda verdiyim ifadə yalandır". Bununla da onun günahsız olduğu



sübuta yetirilir. CM-nin 64-cü maddəsiylə irəli sürülən ittiham rəsmən Zülfüqar Əhmədzadənin üstündən götürülüb azadolma vərəqinə imza atılsa da o, şaxtalı Sibir sürgün həyatını yaşamağa məhkum edilir, həbsdən buraxılmır.

1940-cı ildə Sibirdən Səməd Vurğuna "Şairin andı" adlı məktub göndərir. Şeiri və ona göndərilən məktubu alan S.Vurğun Zülfüqarın həyat yoldaşı Hürü xanımla birlikdə Mir Cəfər Bağırovun yanına gedərək şeiri və məktubu ona oxumuşdur. Heç bir köməklik ala bilməyən Səməd Vurğuna "yox" cavabı böyük təsir etmişdir. O vaxt xalq düşməninin ailəsinə yaxın düşmək də çətin idi. Buna baxmayaraq, Səməd Vurğunla bərabər Mehdi Hüseyn də bu ailəyə gizlincə köməklik etmiş, ərzaq göndmiş, oğlu Rüfətə hərtərəfli dəstəyini əsirgəməmişlər.

Sibir sürgünündə Zülfüqar Əhmədzadə həbs düşərgəsində də yaradıcılıqla məşğul olmuş, şeir yazmaları ilə rəğmən, həm də düşərgə qəzetinin redaktoru təyin edilmişdir. Həbsxana həyatında o, bir müddət çörəkpaylayan təyin olunur. Asan günlər çox sürmür. Cənub adamı çay içməyi xoşladığı üçün neft tapıb, bu nefti arada çay qoymaq üçün istifadə edirmiş. Mərd yanından namərd uzaq olmaz deyirlər. Dustaqlardan biri rəhbərliyə xəbər verir ki, guya Əhmədzadə buranı neftlə yandırmaq istəyir. Bundan sonra Əhmədzadənin otağında axtarış aparılır və neft maddi sübut kimi götürülür. Əhməd-




zadəni 10 sutkalıq, boğaza qədər su ilə dolu "karserə" salırlar. Cəza bitdikdən sonra Əhmədzadənin ayağı axsamağa, tez-tez xəstələnməyə, saçı tökülməyə başlayır. Zülfüqar Əhmədzadə azadlığa çıxmağına bir il qalmış 1942-ci il iyunun 9-da Kemerovo vilayətinin Marinsk şəhərində vəfat edir. O, fədakarlıqla çalışdığı cəmiyyətdən layiqli qiymət almaq əvəzinə böyük haqsızlığın qurbanına çevrilir. Ölümündən 14 il sonra 1956-cı ildə ona bəraət verilir.

Bu gün Zülfüqar Əhmədzadənin olmayan məzarı insanların qəlbindədir. Onun şeirlərindəki coşğunluq uca dağlardan, çaylardan sanki indi də axıb gəlir və Cənub mirvarisi Astaranın təbiətinin gözəlliyindən ilhamlanan ülviyyəti, bu günlə səsləşən klassik ənənəvi hissi, lal duyğuları ilə köksümüzə hopur.

Zülfüqar Əhmədzadənin iri həcmli "Arktika dastanı" poeması yüksək qiymətləndirilmişdir. Arif Fərzəlinin "Alın yazısı tarixdir" kitabı, Əhəd Muxtarın "Sənin günəşin yenicə doğmuşdur" poeması, "Aləm" jurnalının Zülfüqar Əhmədzadənin 120 illiyinə həsr edilmiş 3 (14) 2018-ci il tarixli xüsusi nömrəsi, bu irsin araşdırıcısı, dosent Hilal Məmmədovun sosial şəbəkələrdə onunla bağlı çoxsaylı videomüsahibələri, arxiv materialları, oğlu Əyyub və nəvəsi Seymurun xatirələrini oxumaq kifayətdir ki, bu böyük şəxsiyyət haqqında dəyərli məlumatlar əldə edəsən. Zülfüqar Əhmədzadənin ömür tarixçəsi ilə tanış olduqda onun təmizliyinin, nəcibliyinin, paklığının bir daha şahidi olursan.

29 oktyabr 1998-ci ildə Astara şəhər mədəniyyət sarayında Zülfüqar Əhmədzadənin 100 illik yubileyini dövlət səviyyəsində qeyd edilmişdir. Tədbirdə Astara rayon İcra Hakimiyyətinin başçısı İbrahim Quliyev, mərhumun qızları Mariyət və Tahirə xanım, nəvəsi Seymur Əhmədzadə, rayon ziyalıları iştirak etmişlər. O zaman qərara alınmışdır ki, əsas vəzifəmiz Zülfüqar Əhmədzadə irsində Vətən, torpaq sevgisini təbliğ etməli, onun kimi yüzlərlə həqiqət fədailərinin xatirəsini əziz tutmalı, onlar qarşısında


БҮТҮН ӨЛКӘЛӘРИН ПРОЛЕТАРЛАРЫ, БИРЛӘШИН!

ЛЕНИНЧИ

УНУДУЛМУШЛАРДАН БИРИ

ЗУЛФУГАР ӘҺМӘДЗАДӘ

olan borcumuzu layiqincə yerinə yetirməliyik. Hazırda Astara rayonu, Pensər kənd 2 saylı tam orta məktəbi Zülfüqar Əhmədzadənin adını daşıyır. İnanıram ki, bu məktəb də Vətənini sevən Zülfüqarlar yetişdirəcək və gələcək nəsillərə örnək olacaqdır. Onun ədəbi, ictimai-siyasi fəaliyyəti ziyalılar tərəfindən daha geniş surətdə araşdırılmalı və yaradıcılıq irsi təbliğ edilməlidir. Zülfüqar Əhmədzadənin unudulmaz xatirəsi hər zaman qəlbimizdədir.



**Səmirə MİR-BAĞIRZADƏ**
*AMEA Memarlıq və İncəsənət İnstitutu,*
*fəlsəfə doktoru, dosent*

# Ərəb-islam sivilizasiyası

**Sivilizasiya - tam mədəniyyət sistemini xarakterizə edir, o özündə yazı, dövlətçilik, idarəetmə, elm və təhsil, dini və iqtisadi institutlari və s., həmçinin yüksək texnoloji inkişafı ilə inteqrasiya olunur. Daha effektiv olan lokal-tarixi sivilizasiyaların nümunəsi - Qədim Sumer, Misir, Qədim Roma, Yunan və başqalarıdır. Ərəb-islam sivilizasiyası da mürəkkəb və çox inkişaf etmiş mədəniyyətə malik olan, həmçinin elm və texnika sahəsində (kənd təsərrüfatı sahəsində - texniki nailiyyətlər, irriqasiya sistemi (susuz torpaqların süni suvarılması), texniki qurğular: kanalizasiya, dambalar alçaq yerləri daşqınlardan qorumaq üçün bənd, su anbarlarının hasarlanması üçün hidrotexniki qurğu), su qoruqları; metalların emalı, kağız, pambıq, parça istehsalı və s. kimi böyük kəşflərilə xarakterizə olunan Ərəb xəlifəti adlanan - Quranın dili olan ərəb dili ilə birləşən qüdrətli nəhəng dövlət qurmuşdur.**

Hər sivilizasiya hamı üçün vacib ola bilən dəyərləri müəyyənləşdirir, özünü ona aid edir. İslam sivilizasiyasının əsas bağlayıcı qüvvəsi islam dinidir. Ərəb-islam sivilizasiyası - iri müstəqil dövlətlərin çoxunda inkişaf edirdi. Məhəmmədin dilindən elan edilən Quran vəhyləri sonra və əsrlər boyu dəyişilməz qalan, islam aləminin nümayəndələrini birləşdirən - yaranan İslam sivilizasiyası coğrafi baxımdan olduqca müxtəlif olan regionları birləşdirdi. İslam tərəfindən yaranan sivilizasiya zaman və məkanda dəyişilməz oldu. Əsasən, ayrı-ayrı regionlarda bərkidilmiş bu cəmiyyət - həm də yerli mədəniyyətlərə olan ozünəxas intellektual yaradıcılıqda inkişaf edərək, özünü əks etdirirdi və islam xarakteri - zaman və məkanda məskən salmağa heç də mane olmurdu. Osman dövrünün - türk islamı, Səfəvilər sülalə dövründə - İran islamı və ya böyük Moğolların - Hind islamı özünü orijinal törəmə kimi göstərdi, burada da müsəlman dininin prioriteti digər spesifik cərəyanların olmasına mane olmurdu. Eyni zamanda, dil ümumiliyi ilə birləşən bütün bu mədəniyyətlər ayrı ola bilməzdi. Bu sivilizasiya - müxtəlif aspektlərdə açılır: bir tərəfdən, o - komfort, hətta təmtəraq təmin edən böyük texniki və maddi nailiyyətlərlə xarakterizə olunur, digər tərəfdən - bizə bu sivilizasiyanın dini və intellektual səmtləşməsi yolu açılır, buna görə də bütün cəmiyyətin mentalitetini təsvir etmək mümkündür.

Əvvəl Əməvilər, sonra isə Abbasilər və Fatimilər himayəsi altında inkişaf edən islamın triumfu ilə birlikdə böyüyən ilk imperiya - ərəbmüsəlman islam sivilizasiyası terminin ən ümumi mənasında “klassik” adlandırıla bilər. Təkcə keçid dövrü ola bilən bu dövr dəyərli nümunə modeli olaraq, Quran ehkamları ilə törənən ictimai tipin ilk və mükəmməl mücəmməsi kimi qəbul olunurdu və bununla belə, zaman çərçivəsindən çıxan dahi alimləri yaradan xüsusi şərtlərə görə bu cəmiyyət Orta əsrlər dövrün mədəniyyətinin inkişafının ən yüksək zirvəsinə çatdı.

Müsəlman mədəniyyəti - müxtəlif xalqların öz zamanına görə qədim və müasir mədəni ənənələrindən ibarət olan sinkretik mədəniyyət kimi baxılır. Dünyanın əsas qanunlarını əks etdirən - müsəlmanların müqəddəs kitabı olan Quran - böyük təsir göstərib.

İslam sivilizasiyası - Avropanın inkişafına və dirçəlişinə öz təsirini göstərmiş, bununla da o - təkcə qədim Yunan və Roma mədəniyyətini deyil, həm də qədim Şərq mədəniyyətini canlandırmış, həm də onun tərkibini təşkil edən- bütün xalqların mədəniyyətini həssaslıqla qorumuşdur. Məhz maarifçilik fəaliyyəti, bununla bağlı akademiya və universitetlərin yaradılması - elmin bütün sahələrinin inkişafına və ümumiyyətlə xilafətin mütərəqqi inkişafına təkan verdi.

Bu misalı təsdiqləmək üçün, Şərqin İslam sivilizasiyasının inkişafı və onun Avropanın inkişafına təsirini aşağıdakı cədvəldə izləmək olar:

**Şərq və Qərb mədəniyyətlərinin fərqləri və oxşarlıqları**

| **Şərq və Qərb intibahı (maarifçilik)** | |
|---|---|
| Sərq:<br>İslam sivilizasiyası VII-XVI ə. | Qərb:<br>Avropa İntibahı - XIII-XVI ə.<br>Avropa Maarifçilik<br>Dövru - XVIII ə. |
| **Antik dövrun humanist ideyaları** | |
| Şərq: IX əsr - Əl-Mamun Müsəlman Xəlifi (786-808): Zərdüştlik dininin bərpası Üçün-Antik Yunan mənbələrində - Aristotel, Platon və b. əsərlərini tərcümə etdirdi və Yunan mədəniyyəti ilə Şərqi tanış etdi. Bağdadda “Beyt-Ül-Hikma” Akademiyasını yaratdı (Burada böyük observatoriya və kitabxana işləyirdi - Qədim Yunan və Qədim Roma risalələri (traktatları) tərcümə edirdilər: Qədim Yunan və Roma dillərindən Suriya dilinə, sonra isə ərəb dilinə. Bağdadda Doktor Razi, cografiyaçı Yaqut, Tarixçi Al-Masudi, səyyah İbn-Fadlan, filosoflar Əl-Kindi, Əl-Farabi işləyirdilər. Bağdadda kağızın istehsalı, (Şərqdə) birinci apteklər, xəstəxanalar açılmışdır. (Abbasi xəlifələri - Bağdadda, Əməvi xəlifələri - əvvəl Dəməşqdə-Suriyada, sonralar - İspaniyada (FES-də bu-İnaniya mədrəsə-universitet(XIV), Fatimi xəlifələri (fatimilər) - Qahirədə (mədrəsə Əl-Azhar - Qahirədə), Azərbaycanda Marağa observatoriyası (Nəsir-əd-din Tusi). Quranı-Kərimin əsas istiqaməti - insan və onun kamilləşmə prosesidir. | Qərb: İncəsənətdə, Ədəbiyyatda -İntibah-İtaliya (Leonardo Da Vinçi, Mikelangelo, Dante, Petrarka və b.), Şimalı Avropa (Yan Van Eyk, Rubens, Rembrandt və b.) XIII-XVI əsrlərdə yarandı. Bütün incəsənət əsərlərində insan və onun möhtəşəmliyi əks olundu. |
| **Elm və təhsil, universitetlər, akademiyalar. Kitab** | |
| IX-XVI əsrlər Şərqdə məscidin yanında məktəblərin, mədrəsələrin (universitetlərin, akademiyaların) açılması - bütün elmlərin inkişafına böyük təkən verdi. Buraya - bilikləri almaq üçün Qərbdən gəlirdilər və sonralar Avropada maarifcilik işi geniş yayıldı, universitetlər açıldı. Orada Şərq təhsilinin bilikləri, elmi ixtiralar davam edildi. Şərqdə lugətlər və ensiklopedik, məlumat kitablar yazıldi: Mahmud Qaşqari ”Divani Lüğət İl-Türk” (Türk xalqların lüğəti) - XI əsr; Abdullah Yaqub “Mucam Əl-Buldan” (Şəhərlər üzrə ensiklopedik lüğət) - XII əsr; Əl-İdrisi “Takvim Əl-Buldan” (şəhərlərin təqvimi)-XII əsr; Al-Biruni “Taxkik Mə’malik Hind” (Hindistana aid coğrafi, tarixi, etnoqrafik ensiklopediya) və “Qiymətli metallar haqqında bilklər və məlumatlar yiğımı” - X əsr; İbn Xordadbeh” Kitab Əl-Məsalik Vəl Məmalik” (Yollar və ölkə haqqında kitab - burada Azərbaycana aid məlumat var) - X əsr; İbn Sina “Qanun fit-Tibb/Tibb elminin qanunu” (Tibb elminin ensiklopediyası )- X əsr; Razi “Havi” (hər şeyi əhatə edən kitab) - tibb ensiklopediyası; Coğrafiya, astronomiya, triqonometriya haqqında cədvəllər - “Zic” adlanırdı (Zic-Elxani («Elxani astronomik cədvəli») - Nəsirəddin Tusinin əsəri - çoxlu astronomik, riyazi və coğrafi cədvəlləri ilə məşhurdur) - Nəsirəddin Tusi “Zic Elxani” - Marağa observatoriyasının astronomik kataloqu - XIII əsr; | XV əsr - kitab çapı. Qərbdə - kitablar kütlə üçün mariflənmə mənbəyi idi. Şimali Almaniyada ilk mətbəə - Frankfurtda, sonra Lübekdə, Leypsiqdə, Erfurtda və s. qurulmuşdur. Vyanada ilk mətbəə 1482-ci ildə açılmış, 1491-ci ildə isə çap ücün istifadə olundu. XV əsrin sonlarında Almaniyada 50-dən çox mətbəə və 200-dən çox çap edənlər var idi. XVIII əsr Avropa maarifçilik dövru. Təhsilin inkişafı. ensiklopediyaların yaranması - Jan Jak Russo və b. Maarifçilik əsri - Avropa mədəniyyəti tarixində elmi, fəlsəfi və ictimai düşüncənin inkişafı ilə əlaqələndirilir. |

| | |
|---|---|
| Cabir İbn Hayan (721-805) - kimyanın əsasını qoymuşdur; Əl-Xorezmi - "Hisab Əl-Cabr Vəl Mukabala" (köcürmələrin və ixtisarların hesablanması) - Əl-Cabrin əsasını qoymuşdur - VIII-IX ə.; İbn Xəldun (1332-1406) "Müqəddimə" - sosiologiyanın, iqtisadiyyatının, mədənniyyətşünaslığın, tarixşünaslığın əsasını qoymuşdur; Sadiq Bəy Afşar "Qanun As-Suvar" (rəngkarlıq haqqında ensiklopedik risalə/traktat) - XVII əsr və s.; incəsənətin bütün növləri inkişaf etdi və kitab miniatür məktəbi - Təbrizdə, Heratda və b. şəhərlərdə geniş yayıldı. Kitab miniatürü - qiymətli əl işi əsəri idi, ona görə kitab - kitabxana emalatxanalarında nadir nüsxə kimi yaranırdı və o geniş kütlə üçün yalnız əlyazmalar formasında yayılırdı. | Bu intellektual hərəkat - rasionalizmə və sərbəst düşüncəyə söykənirdi. XVIII əsrin elmi inqilabının təsiri altında İngiltərədə başlayaraq bu hərəkat Fransa, Almaniya, Rusiya və digər Avropa ölkələrinə yayıldı. |
| **Böyük coğrafi kəşflər** | |
| Şərqdə: İslam coğrafiyaşünasları - müxtəlif ölkələrin yollarının, təbii xüsusiyyətlərinin təsviri ilə yanaşı, antropoqrafiyaya (insanın anatomik təsviri, bəşər övladının təbiət tarixidir), etnoqrafiyaya da xüsusi maraq göstərmişlər. Müsəlmanlar - yunanlarla müqayisədə geniş tədqiqat sahəsinə, öz səviyyələrini aşaraq daha çox elmi nailiyyətlərə malik olmuş, elmi-praktik fəaliyyətlərində onların məlumatlarını ümumiləşdirib istifadə etmişlər. İslam coğrafiyaçılarının əsərləri - Avropa, Şimali, Mərkəzi, Cənubi Afrika, Asiyada (Yaponiya, Koreya, Malay arxipelaqı, Tibet), Hindistanda olan ölkələri, coğrafi mövqeyi, təbii şəraiti, yaşayış şəraiti, bitkilər haqqında məlumatlar, qiymətli qazıntılar, məişət, mədəniyyət, dil, dini baxışlar haqqında tam mənzərə verib və təsəvvür yaradırdılar. Onların araşdırmaları - Xilafətdən kənara çıxır. Müsəlman səyyahları və tacirləri sayəsində İslam - İndoneziyada, Malayziyada, Somalida, Eritreyada geniş yayılmış, Çin və Mali əyalətinə nüfuz etmişdir; Marko Polodan 5 əsr əvvəl - müsəlman səyyahı - Süleyman Tacir - Çinə səfər etdi; Əbu Zeid Seyrafinin (11-ci əsr) ayrıca kitabında - müsəlmanların - IX əsrdən çox əvvəl - Çinlə ticarət əlaqələrinə dəlalət edən məşhur səyahət qeydləri yer alır. Dənizçi Sindbad və onun Çinə, Yaponiyaya və İndoneziyanın ədviyyatlı adalarına etdiyi səyahətlərdən bəhs edən "1001 gecə" ərəb nağılları - ərəblərin parlaq ticarət donanmasına, onların meteorologiya və coğrafiyasına dair biliklərinə malik olduqları barədə fikir verirlidi; Biruninin "Təhqiq Məlik" (Hindistan üzrə araşdırmalar) kitabı - təkcə coğrafi deyil, o həm də ensiklopedik xarakter daşıyan tarixi, etnoqrafik əsərdir; Siciliya kralı II Rocerin tapşırığı ilə - Pireney yarımadasına, Fransaya, İngiltərəyə, Kiçik Asiyaya səfər edən məşhur coğrafiyaşünas və yazıçı əl-İdrisinin (1100-1165) Coğrafiya və kartoqrafiya kitabında təsvir edilən Dünya xəritəsini tərtib etmişdir (onun əsasında Kolumb və Ameriqo Vespuççi, Magellan - səyahətə getmişdilər), eləcə də əl-İdrisi - Avropa və Afrikanın tarixi və coğrafiyasına dair qiymətli mənbə olan "Nəzxət əl-Müştaq" ("Susuzların saflığı") "Roger kitabı" yazmışdır ) - Qaranlıq dənizinin axtarışında bir neçə ay dolaşan cəsur Maqrib dənizçilərinin sərgüzəştləri,- burada eyni ehtiraslı həvəs ruhu ilə,- neçə əsrlər sonra Kristofor Kolumbu, Ameriqo Vespuççini, Magellanı və başqalarını sövq edən macəra və kəşf ruhu bu avropalıların yeni, böyük dənizləri və yerləri kəşf etməyə imkan verdi (bu kitab -Siciliyanın Norman (Vikinq) hökmdarı - II Roger (1130-1154) üçün yazılmışdır. | Qərbdə: Böyük coğrafi kəşflər - bəşər tarixində XV əsrdə başlayan və XVIII əsrə qədər davam edən, avropalıların yeni ticarət tərəfdaşları və mal mənbələri axtarışında - Afrika, Amerika, Asiya və Okeaniyaya yeni torpaqlar və dəniz yolları kəşf etdikləri bir dövrdür. Buna Avropada böyük tələbat var idi. Tarixçilər, ümumiyyətlə, "Böyük coqrafi kəşflər"i - qızıl, gümüş və ədviyyatlar üçün Hindistana - alternativ ticarət yolları axtaran - portuqal və ispan qabaqcıl səyahətçilərinin uzun dəniz səyahətləri ilə əlaqələndirirdilər. .. |

| | |
|---|---|
| Bu kitabın xülasəsi - yalnız 1619-cu ildə nəsr edilmişdir). Müsəlman coğrafiyaşünasları avropalıların Amerikanı kəşfindən çox əvvəl - hindlilərin məlumatlarına əsaslanaraq digər yarımkürədə torpaqların mövcudluğunu irəli sürmüşdülər. Məhz bu - Kristofer Kolumbun yeni qitə kəşf etməsinə səbəb oldu. İslam dənizçiləri - Çin, Koreya və hətta Yaponiya sahillərini avropalılardan çox əvvəl tanıyırdılar. Yaponiyanın adını - Mahmud Qaşqari (XI əsr Orta Asiya türk filoloqu, ərəbcə "Türk ləhcələri lüğəti"ni tərtib etmişdi) - Dcabaraka şəklində verir. Rəşidəddin Fəzlullah Yaponiyanı "Tçimenqoy" adlandırır. Bu adlar Marko Polonun "Zipenqu" şəklində işlətdiyi- "Tçimengou" formasındakı ölkə adına bənzəyir. IX əsr coğrafiyaşünasları - Yəqubi, İbn əl-Fəqih, İbn Rust, Qudamə ibn Cəfər də karvan yolları, şəhərlərarası məsafələr, vergi sistemi haqqında məlumatlar verirlər. İbn Xordadbek "Kitab əl-məsalik vəl Məmalik" ("Yollar və dövlətlər haqqında kitabı") əsərində xilafətlə yanaşı, ona qonşu olan ölkələri, onların tarixini, coğrafi məlumatlarını, Bağdaddan, Orta Asiyadan, Hindistandan, İspaniyadan, Bizansdan, Azərbaycandan və digər ölkələrin, onların ticarət yolları, yaşayış yerləri haqqındadır. Əsərdə Azərbaycan haqqında dolğun məlumat verilir - onun iqtisadiyyatı, inzibati ərazi vahidləri, vergi sistemi, dağları, çayları, şəhərləri (Marağa, Ərdəbil, Varsan, Bərdə, Təbriz, Urmiya, Bərzənd və s.), onların arasındakı məsafə, ticarət yolları və s. VIII-XV əsrlərdə ərəb ölkələrində coğrafiyaçılar və astronomlar üçün təqvimlərin təsviri olan zici- məlumat kitabları meydana çıxdı. Avropalılar - astronomiya, müstəvi, sferik triqonometriya ilə məhz əl-Xəzini, əl-Batani, Nəsirəddin Tusi (Marağa rəsədxanasının yaradıcısı) kimi müsəlman alimlərinin tərcümələrindən tanış olmuşlar. | |
| **Müqəddəs kitablar** | |
| Qurani-kərim islam şərq dünyası üçün müqəddəs kitab, həyat tərzidir, onun qanunları hüquqi statusi ilə fərqlənirdi, onun yazılari və təfsirləri elmin və ədəbiyyatın inkişafinda böyük rol oynadi və islam sivilizasiyanın əhalisi başqa dillərlə bərabər, Quran dilində - yəni ərəb dilində danışıb, yazırdılar. | Qərb dünyasında İncil/Bibliyə yalnız elitar, oxumuş insanlar üçün açiq idi. Kütlə üçün o, anlaşılmaz və başa düşülməz müqəddəs kitab idi. Məhz buna görə islahatçılar İncili/Bibliyanı Avropa dillərinə tərcumə edilməsini tələb edirdilər. |

***Ədəbiyyat:***

1. Mir-Bağırzadə S.A. İslam sivilizasiyanın mədəniyyəti, - monoqrafiya - Bakı, Elm, - 2011, - 250 s.
2. Mir-Bağırzadə S.A. Azərbaycan mədəniyyətinin nəzəri və tarixi oçerkləri, -monoqrafiya, - Bakı, Elm, - 2019, -272 s.
3. Mir-Bağırzadə S.A. Kulturologiya: dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi (sxemlər və cədvəllər), - dərs vəsaiti. - Bakı, - 2020, - 70 s.
4. Doktor Rəhman. İslamın qısa tarixi, - Ummah, - Moskva, - 2006, - 416 s.
5. Abdel Xoseyn Zarrinkub. İslam sivilizasiyası, - Andalus, - Moskva, - 2004. - 238 s.
6. İbn Xordadbeh. "Kitab əl məsalik vəl mamalık", - (Yollar və ölkə haqqında kitab), - Bakı, Elm, - 1986, - 428 s.
7. Məmmədbəyli H.D. Marağa observatoriyasının əsasını qoyan - Məhəmməd Nəsirəddin Tusi, - Bakı, - Azərbaycan Elmlər Akademiyasının Nəşriyyatı, - 1961, - 317 s.
8. İslam. Ensiklopedik lüğət, - Moskva, Elm, - Şərq ədəbiyyatının baş redaksiyası, - 1991, - 315 s.



**Səadət MƏMMƏDOVA**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun baş elmi işçisi, sosiologiya elmləri doktoru, dosent*

# Alim - elmi fəaliyyətin subyekti kimi

**Elmin araşdırılması, onun tarixi əsaslarının öyrənilməsi əslində, elmi şüurun inkişafı problemi ilk növbədə praktik düşüncəni elmi idrakın süzgəcindən keçirərək yeni anlamda və tərəqqiyönlü təqdim edən insanların - alimlərin psixologiyasının, düşüncə və təfəkkür tərzinin öyrənilməsini tələb edir. Elmlə məşğul olan deyil, məhz elmi fikri inkişaf etdirən alimin təfəkkür imkanlarının açılması elmin, elmi təfəkkürün yaranma və inkişaf imkanlarının izahını təqdim etməyə imkan verə bilər.**

Alimlərin psixologiyasının araşdırılması ilə məşğul olan Orteqa y Qasset kimi bir çox müasir mütəfəkkirlər əmindirlər ki, hazırda orta səviyyə biliklərə malik olan insanlar da elmlə məşğul olurlar. Onun tədqiqatlarında qədim və orta əsr mütəfəkkirləri ilə yeni dövr alimləri arasında müqayisə aparılaraq, göstərilir ki, yeni dövrdə texnologiyaların inkişafı orta səviyyə biliklərə malik olan insanların empirik tədqiqatlar apararaq, konsepsiyalar irəli sürməsi imkanlarını genişləndirmişdir. Qədim dövr mütəfəkkirləri isə həqiqətən, qeyri-adi istedada malik, bir çox elm sahələrində əsaslı yeniliklər edən həqiqi dahilər olmuşlar. Müasir elm çox zaman kollektiv tədqiqatlar əsasında inkişaf etdiyi halda, qədim və orta əsrlərdə yaşamış mütəfəkkirlər çox zaman tək müəllif olaraq çoxtərəli fəaliyyət göstərmişilər.

**Burada iki həqiqət nəzərə çarpır:**

*1. Kollektiv tədqiqatlar qısa zaman müddətində əhatəli nəticələr əldə etməyə imkan verir və bu, müasir elmdə baş verən sürətli dəyişikliklərin başlıca göstəricisidir. Halbuki, qədim və orta əsr mütəfəkkirləri bütün ömürləri boyu müəyyən bir nəzəriyyənin inkişafı ilə bağlı tədqiqatlar aparırdılar və nailiyyətlərin tətbiqi gecikirdi.*

*2. Müəyyən bir fərziyyənin yoxlanıması istiqamətində aparılan araşdırmaların düzgün istiqamətləndirilməsi və uğurlu nəticələri də yüksək yaradıcılıq, idrak və bəlkə də dahilik göstəricisidir.*

Alimin elmi araşdırmalar aparmağa olan meylini necə izah etmək olar? Deleuze və Guattari əmindirlər ki, elmi maraq yaradıcılığa olan meyllə çox bağlıdır. Deleuze və Guattari bu çoxistiqamətli və çoxölçülü fəaliyyətlə bağlı "heterogenez" terminini işlədirlər. "Bu cür yaradıcı doğuşun həlledici cəhəti ondan ibarətdir ki, o, mürəkkəb, bir-birindən asılı olan, lakin qətiyyən gözlənilməz "oluş" ("hələ gələcək") növlərini əhatə edir". "Qara qutu" nəzəriyyəsinə əsaslanan müəllif insan psixologiyası ilə bağlı belə bir nəticəyə gəlir ki, "müxtəlif girişlər məlum olsa belə, dəqiq çıxışlar əvvəlcədən bilinə bilməz". Belə demək olarsa, müəyyən bir informasiyanın qəbul edilməsi idraki bacarıqlardan asılı olaraq fərqli şərh və tətbiq imkanları təqdim edə bilər.

Onu da qeyd edə bilərik ki, eyni təbiət, sosial, mədəni, siyasi və s. hadisə və proseslərə fərqli münasibətlər və fərqli qavrayış imkanları çoxsaylı konsepsiya və nəzəriyyələrin formalaşmasına əsas olur. Hadisə və proseslərlə bağlı fərqli konsepsiya və nəzəriyyələr yaradıcı təfəkkürün çoxşaxəliliyinin təzahürüdür.

Beləliklə, yaradıcı təfəkkür və meyl alimlərin başlıca psixi vəziyyəti olaraq səciyyələndirilə bilər. Yaradıcı alim şəxsiyyəti, əsasən, sosial aləmə deyil, öz daxili dünyasına yönəlmiş təfəkkürlə bağlıdır. Xarici aləm alimi dərk edilmə obyekti olaraq cəlb edir, o, axtarışlarının nəticəsinin sosial rezonansa deyil, sosial və idraki tərəqqiyə gətirəcəyinə inanır. Belə demək olarsa, alim idrakı daha mürəkkəb sistemlidir.

Bəs ilk elmi fikir necə yaranmışdır? İlk alim kimdir? Hansı fikirlərdən və düşüncələrdən çıxış edərək elmi təfəkkür formalaşmışdır? İnsan dünyanı elm vasitəsilə dərk edirmi, yoxsa bu da bir illyuziyadır? Elmin başlanması dərk edilmiş həyatın başlanması hesab edilə bilərmi? Elmin sonu, bəşərin sonudurmu? İlk özünüdərkə cəhd edən insanı alim adlandırmaq olarmı?

Bu və digər suallara axtarılan cavablar elmin və alimin psixologiyasının öyrənilməsini və dərkini aktual edir.

Elmi təfəkkürdə iştirak edən genetik və beyin mexanizmlərini anlamağa çalışmaq elmin psixologiyası üçün mükəmməl bir araşdırma mövzusudur. Elmi yaradıcılıq qabiliyyətinin genetik olub olmaması problemi alimin psixikası və yaradıcılığının öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. L.S.Vıqotskinin sosial mədəni mühitin insanın psixoloji inkişafındakı rolu və proksimal zona nəzəriyyələrinə istinad edərək deyə bilərik ki, genetik amillər danılmaz olsa da, mühitin münbitliyi istedadlı şəxsin yaradıcı alim kimi yetişməsində əsaslı təsirə malikdir. Sağlam psixikanın, maraq və meyllərin mövcudluğu və inkişaf etdirilməsi və yönləndirilməsi genetik amillər qədər böyük əhəmiyyətə malikdir.

Elm tarixində ilk alim Aristotel hesab edilir. Aristotelin genetik şəcərəsi haqqında verilən məlumata əsasən, onun atası Nikomax qədim həkimlər nəslindən idi. Saray həkimi olan Nikomax təbabət və fəlsəfə ilə bağlı əsərlərin müəllifi olmuşdur. Arisotelin himayəçisi olan atası onun təhsilinə xüsusi diqqət yetirmişdir. Mənbələrdə bilik və təcrübələrin ötürülməsinin Nikomaxın nəsilində ənənəvi mahiyyət daşıması haqqında da məlumat verilir. Beləliklə, deyə bilərik ki, tarixdə ilk alim hesab edilən Aristotel sağlam analiz və sintez etmək bacarıqlarna malik olmaqla yanaşı, onun yaxın əhatəsinin himayədarlığı ilə bu bacarıqlarını təkmilləşdirməyə, ən ali səviyyəyə çatdırmağa nail olmuşdur.

Aristotel elmləri sistemləşdirmiş, ayrı-ayrı elmlərə xas anlayışlar bazasını təqdim etmiş və müxtəlif istiqamətli tədqiqatlar aparmışdır. Özünüdərkə və insanın varlığının əsaslarını tapmağa, insan təfəkkürünün xassə və məğzini açmağa çalışan Aristotel "Ruh haqqında" adlı əsər yazmışdır. Psixologiya elmi ilə bağlı ilk araşdırma hesab edilən bu əsərdə Aristotel bəşərin mövcudluq xüsusiyyətlərini təhlil edir. Ruhu canlı varlıqların daxili qüvvəsi kimi xarakterizə edən mütəfəkkir onun fərqli pillələrini (bitki, heyvan, insan) təqdim edir. O, göstərir ki, "İnsan heyvanlar aləmindən xüsusi bir qabiliyyətilə - yalnız onu əhatə edən aləmdə öz fəaliyyətini tənzimləməklə deyil, həm də bu dünyanı düşüncə ilə dərk etmək qabiliyyəti ilə seçilir. Yəni insanın ağlı var və ona münasibətdə rasional ruhdan danışmaq olar". Aristotel ağılı bədənlə birbaşa bağlı olmayan bir şey kimi görür. Aristotel üçün ağıl bədəndən asılı deyil, "insan öldükdən sonra nə isə qorunub saxlanılırsa, bu, onun ruhunun ağlı, rasional başlanğıcıdır". "Vahid dünya ağlı" haqqında danışan Aristotel əmindir ki, bəşəriyyət məhz bu ağıl vasitəsilə özünü və yaşam imkanlarını dərk edir. Aristotel ağlı fəaliyyətin başlanğıcı kimi qəbul edir. Aristotelə görə: "Ağıl zehni obyektlərə bağlandıqda əzab içində olur. ...Yalnız bədəndən ayrıldıqda, o, həqiqətən olduğu şeyə çevrilir, yəni: ölməz və əbədi olur ".

Beləliklə, ilk alim kimi Aristotelin xarakterik xüsusiyyətlərini müəyyənləşdirərkən deyə bilərik ki, alim hər zaman axtarışda olan şəxsiyyətdir. Bu axtarış bacarığını və hissini onda oyadan

himayəçinin (ilk növbədə ailənin) olması vacib şərtlərdəndir. Yaşadığı zamanın və sosial mühitin xüsusiyyətləri onun yaradıcılığında mütləq şəkildə öz əksini tapır. Alim yaşadığı sosial mühitdə baş verən hadisə və proseslərə münasibətsiz qala bilməz, bu münasibət idraki analiz və müqayisəli sintez bacarıqlarının təzahürüdür. Aristotelin həyatı və yaşam tərzi, onun ruhun təbiəti haqqında ideyaları belə deməyə əsas verir ki, alim varlığın və var olmanın mənasını və mahiyyətini dərk etməyə çalışır, dərin praktiki müşahidələrdən nəzəri nəticələr, konsepsiyalar irəli sürür. Aristotel antik dövrdə yaşamışdır, müxtəlif istiqamətli, əsasən, ictimai elmlərlə bağlı əsərlərin müəllifidir. Aristoteli dahi adlandıra bilərikmi? Yaradıcılığının izlənilməsi Aristotelə dahi deməyə əsas verir. Aristotel elmi metodlardan istifadə etməklə elmin təsnifatını təqdim etmişdir. Eyni zamanda, Aristotelin yaradıcılığı hansısa bir elm sahəsi ilə məhdudlaşmır. O, fərqli elm sahələrinə dair ilkin sistemli məlumatlar verir.

Aristotelin və dgər antik dövr alimlərinin elmi düşüncüləri təbiətlə bağlı idi. Onlar hər şeyin başlanğıcını təbiətlə bağlayırdılar. Orta əsr alimlərinin tədqiqatlarının başlıca istiqamətlərini onların yaradılışın banisi fövqəl qüvvə olan Allaha güclü inamları müəyyənləşdirmişdir. Bu dövrdə həm Qərb, həm də Şərq mütəfəkkirləri ilahi başlanğıc və mövcudluğun əsasları ilə bağlı fikirlər inkişaf etdirir, tədqiqatlar aparırdılar. Bu dövr mütəfəkkirləri universal biliklərə və tədqiqatlara malik olan böyük şəxsiyyətlər idilər.

Renessans dövrü bəşər tarixinin ən parlaq simalarının doğulduğu mərhələdir. Bu dövrün görkəmli mütəfəkkirləri sırasında Leonardo da Vinçinin adı xüsusi qeyd edilir. Leonardo da Vinçi şəxsiyyəti həm dahi rəssam, həm də böyük ixtiraçı olaraq psixoanalizin banisi Ziqmunq Freyd tərəfindən öyrənilmişdir. Ziqmund Freyd qeyd edirdi ki: "Əslində, Leonardo ...ehtiraslarını ixtiraçılığa yönəltmişdi. O, yalnız ehtirasdan qaynaqlana bilən əzmkarlıq, davamlılıq və dərinlik ilə özünü tədqiqata həsr etmiş və mənəvi gərginliyin zirvəsində yeni biliyə nail olmuşdur".

Z.Freydin dahi Leonardo Da Vinçi yaradıcılığının psixoloji məqamları ilə bağlı araşdırmasının təsdiqini E.Kantın etiraflarında görmək olar: "Mənim dərketməyə böyük həvəsim var... Vaxt var idi ki, bütün bunların bəşəriyyət üçün şərəf ola biləcəyini düşünürdüm və heç nə bilməyən kütləyə xor baxırdım. Russo məni düzəltdi. Dedi ki, korluq üstünlüyü yox edir; İnsanlara hörmət etməyi öyrənirəm...".

E.Kant yalnız tədqiqatçı deyil, dahi idi. O, özü-özünü tədqiqat obyektinə çevirmiş, insanın idarki mahiyyətini təhlil etmişdir. Kant düşünürdü ki, insan idrakı hüdudsuzdur. Elmin inkişafında təcrübənin ilkinliyini vurğulayan Kant əmin idi ki, həqiqi elm insanın xeyirxahlığının inkişafına zəmin olmalıdır. Bununla da E.Kant alimin davranışlarının psixoloji əsaslarını tədqiq edən ilk mütəfəkkir olmuşdur.

Elm - insanların ödənilməyən tələbatlarından olan yaradıcılıq, öyrənməyə və yeni biliklərə yiyələnmə, yeni fikirlər irəli sürmək, analiz və sintez bacarıqları əsasında yeni olanı meydana çıxarmaq meyli ilə bağlıdır. Alimin psixologiyasının təhlili belə deməyə əsas verir ki, bu ödənilməyən tələbatlar axtarmaq, təhlil etmək, yeni fikirlər irəli sürmək və hər şeydən əvvəl dərk etmək ehtiyacından doğur və yaradıcılığın yeni mərhələlərinə aparır. Dahilikdə ifratçılıq, ideya ilə yaşamaq etirası olduğu halda, yaradıcı alimdə fitrətdən informasiya əldə etmək meyli var. Yaradıcı və axtarışda olan alim biliklərini zənginləşdirməyə və dərinləşdiməyə və bu əsasda da ümumiləşdirmələr təqdim etməyə çalışır. Dahi isə məhdud informasiya çərçivəsində belə qeyri-adi, hər kəsin görə və dərk edə bilməyəcəyini aşkar etmək niyyətilə axtarış fəaliyyətindədir. Hər iki fəaliyyətdə yaradıcılıq var, lakin birində informasiya əldə edilməsilə ödənilən, digərində isə ifratçı və ödənilməyən ruhi tələbat, fərqli dərk etmə qabiliyyəti təzahur edir. Bu geniş zolaqlı yaradıcılıq fərdin qəribə, sirli və bütövə olan səciyyəvi marağından irəli gəlir. İnsanların nəsil artırmaqla bağlı fitri qabiliyyəti kimi yaradıcı insanlarda yeni ideyalar və kəşflər təqdim etmək qabiliyyəti də fitri olur. ●



**Şahvələd ƏLİYEV**
*AR Elm və Təhsil Nazirliyi akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun aparıcı elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru*

# Azərbaycanda tibbi turizm: inkişafı və coğrafiyası

**Dünyada müalicəvi (tibbi) turizmin tarixi çox qədimdir. Qədim Yunanıstanda xəstələr Aralıq dənizi ölkələrinə termal su müalicəsi almaq üçün gedirdilər. XVIII əsrdən sonra isə imkanlı Avropalılar "SPA" müalicəsi üçün Nil vadisinə, XXI əsrdən isə daha az xərc tələb edən yerlərə üstünlük verirdilər. Bu ölkələr qrupuna Rusiya, Hindistan, Tailand, Sinqapur, ABŞ, Malayziya, Almaniya, Cənubi Afrika, Braziliya və b. aiddir.**

Azərbaycanda təbii müalicə ehtiyatları XIX əsrin əvvəllərindən öyrənilməyə başlansa da qədim dövrlərdə ölkəmizə gələn turistlər müalicəvi təbii mənbələrdən yararlanmışlar, lakin respublikamızda təbii abidələrin daxil olduğu təbii sərvətlərin və ümumiyyətlə, ətraf mühitin elmi əsaslarla öyrənilməsi, onlardan səmərəli istifadəsi istiqamətində tədqiqatlara 1955-ci ildən görkəmli təbiətşünas alim, akademik Həsən Əliyevin təşəbbüsü ilə başlanılmışdır.

Ümumilikdə Azərbaycan ərazisində 1500-dən artıq mineral və termal su mənbələri, müalicəvi əhəmiyyətə malik olan 4 palçıq vulkanı və bir əsas neft mənbəyi vardır. Bu da müalicə-sağlamlıq turizmi üçün tam şəraitin olmasının sübutudur. Göstərilən turizm növləri üçün yüksək şərait Naxçıvan, Lerik, Lənkəran, Masallı, Goranboy və Astara kimi regionların payına düşür. Naxçıvanda 250-dən çox mineral su mənbələri mövcuddur ki, bu suların hər biri süfrə suyu kimi istehsal olunur. Bu sulara Sirab, Badamlı və Vayxırı misal göstərmək olar. Lənkəran və Astara bölgələrində 100-dən çox termal su mənbələri mövcuddur ki, bu sulara İstisu, Daşvənd, Qəribləri göstərmək olar. Naftalanın müalicəvi nefti, Naxçıvanın duz mağaraları, Abşeron göllərinin müalicəvi palçıq və suları, Lənkəranın, Gədəbəyin mineral suları və s. Azərbaycanda həm ənənəvi, həm də müasir müalicə imkanları mövcuddur. Ölkədə isti və mineral bulaqların sayı minlərcədir.

Ənənəvi müalicə imkanlarına mədə-bağırsaq, qaraciyər, öd, böyrək daşı və s. xəstəliklərin müalicəsində Naxçıvandakı mineral bulaqlardan istifadə edilməklə (Sirab, Badamlı, Vayxır, Darıdağ, Gülüstan və s.), dərman bitkiləri (itburnu meyvəcikləri, kəklikotu, çobanyastığı çiçəkləri, yemişan meyvəcikləri və gülləri, palıd ağacı qabığı, razyana meyvəcikləri boymadərən, solmazçiçəyi, dazı otu, çaşır, zeytun, çilədağ bitkisi və s.) vasitəsilə müalicəni aid etmək olar.

Eyni zamanda, burada rekreasiya və turizm xidməti üçün də çox əlverişli şərait var-

dır. Respublikanın landşaft-iqlim xüsusiyyətləri kurort-turizm təsərrüfatını inkişaf etdirməyə imkan verir. Ərazi geniş miqyasda quru subtropik iqlimə malik olduğu üçün insan səhhətinə müsbət təsir göstərir, yüksək dağ və tundra landşaftına malik olması isə qış idman növlərinin yaradılmasına geniş imkanlar açır. Mineral suların, müalicə nefti və palçığının olması kurort yerlərinin əhəmiyyətini artırmaqla yanaşı, onların il boyu fəaliyyət göstərməsinə şərait yaradır. Bu xidmət sahəsi çox gəncdir. Bu gün respublika ərazisində Azərbaycanda 27 minə qədər yeri olan 132 sanatoriya və istirahət müəssisəsi və 4 minə yaxın yeri olan 10 turist bazası yaradılıb. Sağlamlıq ocaqlarında ildə orta hesabla 600 mindən artıq adam müalicə oluna bilər. Azərbaycanın kurort ehtiyatları burada müalicə olunan və istirahət edənlərin sayını 2 milyona qədər artırmağa imkan verir. Bu baxımdan Xəzər sahili zonanın əhəmiyyəti daha böyükdür. Bu zonanın çox böyük üstünlükləri var. Məsələn, Abşeron-Nabran sahillərində günəşli havalar, Soçi - Suxumi rayonlarından 1,5 dəfə çoxdur. Xəzər sahilinin Nabran-Yalama, Giləzi- Zarat, Abşeron, Lənkəran-Astara çimərliklərinin yaxınlığında karbohidrogenli mineral sular vardır. Bunlar sahil zonalarında rekreasiya obyektlərinin bütün ilboyu fəaliyyət göstərməsi üçün zəmin yaradır.

Abşeron yarımadası kurortlar qrupu baxımından respublikamızda məşhur kurort guşəsidir. Təxminən 53 kilometr dənizin içərisinə doğru irəliləyən bu yarımada çimərliklərlə əhatələnib. Abşeron yarımadası iqliminə görə subtropik iqlimə çox yaxındır. Burada isti yay, günəşli payız, mülayim qış keçir, yazı nisbətən qısa olur. Abşeron təkcə qumlu sahil və dənizlə xarakterizə edilmir, burada həm də çoxlu şəfa bulaqları qaynayır. Belə ki, Suraxanı, Sabunçu və Şıx burnunda çıxan və tərkibi yod, brom və böyük müalicə təsiri gücünə malik çoxlu başqa maddələrlə zəngin



**Şəkil. 1. Naftalan nefti ilə müalicə**

olan mineral sular həm də böyük müalicə əhəmiyyətinə malikdir. Təəssüf ki, ərazidəki palçıq vulkanlarının müalicə palçıqları balneoloqlar və kurortoloqlar tərəfindən lazımınca tədqiq olunub istehsala cəlb edilməyib.

Bu baxımdan Abşeron rayonunun bir neçə istiqamətli kurort imkanları vardır. Bunlara metan və kükürdlü oksigen suları, mineral palçıq, mineral göllər, çimərliklər, dənizkənarı iqlim stansiyaları daxildir. Yarımadada böyük sayda metan və kükürdlü mineral sular vardır. Zığ qəsəbəsində və Şıxda mineral suların xüsusilə müalicəvi əhəmiyyət daşıyan növləri diqqəti çəkir. Masazır kəndində yerləşən Böyük Şor və Masazır gölləri tükənməz qiymətli müalicəvi palçıq mənbəyi sayılır. Lənkəran-Astara bölgəsində, əsasən, Masallı kurort təsərrüfatı ilə fərqlənən ehtiyatlarla daha zəngindir. İstisu Masallının möcüzəli guşəsidir. Burada fəaliyyət göstərən İstisu "Fatimeyi-Zəhra" Şəfa Sanatoriyası Masallı şəhərindən 13 kilometr aralıda, dəniz səviyyəsindən 1650 metr yüksəklikdə qərar tutmuş Dəmbəlov dağının döşündə, Vi-

ləş çayının sahilində yerləşir. Tərkibində hidrogen- sulfid, natrium-xlor, kalsium, maqnezium-hidrokarbonat və hər litrində 30 milliqram yodla təmsil olunmuşdur. Yerin çox dərin qatlarından 60 dərəcədən də yuxarı isti su çıxır. Su bir çox xəstəlikləri sağaldır, hətta qədimdə yerli sakinlər bu suya "minbir dərdin dərmanı" olan möcüzə kimi baxıblar.

Naxçıvanda böyrək daşlarının müalicəsi üçün sular var. Bu suyun dörd növ böyrək daşını salması elmi cəhətdən təsdiqini tapıb. Qeyd edək ki, xarici ölkələrin heç birində belə tərkibdə mineral su yoxdur. Azərbaycandakı radonlu və kükürdlü suların analoqunu xarici ölkələrdə az-az tapmaq mümkündür. Daxili orqanların müalicəsində möcüzəli rola malik olan dəmirli sular haqqında da eyni fikirləri söyləmək mümkündür. Dəmirli sular qaraciyərin dərmanıdır. Mədə-bağırsaq xəstəliklərinin müalicəsində, iltihab yaradıcı amillərin aradan qaldırılmasında karbonlu sulardan istifadə etmək olar. Özü də bu sulardan təkcə müalicə müddətində deyil, həm də bərpa dövründə də istifadə etmək mümkündür.

Azərbaycanın ən mühüm kurort resurslarından biri də Naftalan neftidir. Bu neftdən dərman hazırlanması ilə yanaşı bir çox xəstəliklərin müalicəsində istifadə olunub (Şəkil 1. Naftalan). Naftalan neftinin köməyi ilə revmatizm, damarlarda və hərəkət orqanlarındakı xəstəliklər uğurla müalicə olunur. Həmçinin, maddələr mübadiləsinin pozulması, dəri və bəzi ginekoloji xəstəliklərin müalicəsi zamanı Naftalan neftindən istifadə olunur. Lakin onkoloji və prostat vəzi xəstəliklərində istifadəsi əks göstərişdir.

Qeyd edək ki, Naftalan neftinin planetimizdə yeganə yatağı Azərbaycandır. Goranboy rayonu ərazisində: yerləşən Naftalan istirahət və müalicə sanatoriyaları hər il minlərlə insanı qəbul etmək şəraitinə malikdir. Hazırda Naftalanda bir sıra quruculuq işləri aparılır. Heç şübhəsiz ki, böyük sağlamlıq mərkəzinin olacağının bünövrəsi artıq indidən qoyulub. 2022-ci il iyul ayına olan məlumata görə Naftalanda 14 müalicə sanatoriyaları fəaliyyət göstərir. Bu sanatoriyaların içərisində ən müasir texnologiyalarla təmin olunanları Park Naftalan, Çinar və s.

Məlumdur ki, Azərbaycanın ərazisi planetimizin palçıq vulkanizminin inkişaf etdiyi unikal və klassik regionudur. Yer kürəsində olan 600-dən çox palçıq vulkanlarından 300-dən artığı Şərqi Azərbaycanın quru hissəsində və ona birləşən Xəzərin akvatoriyasında yerləşir. Təsadüfi deyil ki, Azərbaycan palçıq vulkanlarının vətəni sayılır. Vulkanların sayına, müxtəlifliyinə və aktiv fəaliyyətinə görə dünyada Azərbaycan ərazisinə oxşar əraziyə təsadüf edilmir. Palçıq vulkanları əsasən, Abşeron yarımadasında, Şamaxı-Qobustan, Cənub-Şərqi Şirvan və Bakı arxipelağında yerləşir. Təkcə Qobustanda 100-dən çox palçıq vulkanı fəaliyyət göstərir.

Palçıq vulkanları ərazilərinin böyük turizm potensialı var. Ölkəmizdə dünyada yayılmış bütün növ vulkanlara - aktiv fəaliyyətdə olan, sönmüş gömülmüş, neytral, ada, sualtı və s. növlərə rast gəlmək mümkündür. Azərbaycan ərazisində bu sayda palçıq vulkanının qeydə alınması ölkəmizin böyük təbii sərvətidir. Palçığın tərkibi çox lazımlı mikroelementlərlə zəngin olduğundan, onların çoxu müalicəvi əhəmiyyətə malikdir. Müasir dövrümüzdə dünya təcrübəsində palçıq vulkanları yerləşən, möhtəşəm və əsrarəngiz görünüşə malik ərazilərə turistləri cəlb etmək üçün turlar təşkil edilir, müalicəvi əhəmiyyətli kurortlar sayılır. Nəticədə bu ərazilərə daxili və xarici turistlərin cəlb olunması sürətlə davam edir.

Azərbaycanın təbii imkanları, kurort zonaları ölkənin turizm bazasına lazımı qədər gəlir gətirmək imkanındadır. Son illərdə Azərbaycanın 16 tibb müəssisəsində palçıqdan poliartrit, radikulit, hepatit, bir çox dəri xəstəliklərinin və əsəb sisteminin müalicəsində



**Şəkil 2. Kəlbəcər İstisu mineral su yatağı**

tətbiq edilir. Hazırda palçıq vulkanları təbii abidələr statusu alıb və dövlət tərəfindən qorunur. Bakı və Abşeron ərazisində 52 palçıq vulkanına qoruq statusu verilməsi elan edilib.

Azərbaycanda qədim dövrlərdən müalicə-profilaktik məqsədlərlə təbiətin şəfaverici amilləri olan mədən sularından, müxtəlif növ neft və vulkanik palçıqlardan geniş istifadə edilmişdir. Ölkə əsrlər boyu tarixi İpək Yolu vasitəsilə nadir dərman kimi ixrac edilən müalicəvi nefti ilə məşhur olmuşdur. XIX əsrdən etibarən Azərbaycanın müxtəlif guşələrində müalicə əhəmiyyətli təbii resursların elmi tədqiqinə başlanmışdır. Aparılan araşdırılmaların nəticələri Azərbaycanı kurortlar diyarı adlandırmaq imkanı vermişdir. Azərbaycanda kurortlar şəbəkəsinin mütəşəkkil təşkili XX əsrdən etibarən həyata keçirilmişdir. Əlverişli iqlim şəraiti, müxtəlif mineral sular, müalicəvi palçıq və neft ehtiyatlarından asılı olaraq, respublikanın ayrı-ayrı iqlim zonalarında yerləşən zəngin müalicəvi əhəmiyyətə malik təbii kurortların təsnifatı müəyyənləşmiş və bununla bağlı müvafiq infrastruktur yaradılmışdır.

1936-cı ildə Kurortologiya və Fizioterapiya İnstitutunun təşkili ilə təbii kurortların elmi cəhətdən tədqiqində yeni mərhələ başlanmışdır.

XX əsrin ikinci yarısında Azərbaycanda artıq formalaşmış kurortlar şəbəkəsi mövcud idi. Həmin dövrdə yaradılan sanatoriya, pansionat və istirahət evləri sistemi Azərbaycanın, demək olar ki, bütün ərazisini əhatə edirdi. Kurort-müalicə imkanları çox geniş olan Naxçıvan Muxtar Respublikası, Abşeron yarımadası, Gəncə-Hacıkənd-Göygöl, Şəki-Zaqatala, Qax, Şuşa-Turşsu, Quba-Xaçmaz-Nabran, Lənkəran-Astara və digər regionlarda müalicə və istirahətin təşkili üçün lazımı şərait yaradılmışdır.

Azərbaycanda Kurortların inkişafına 1970-ci ildən başlayaraq xüsusi diqqət yetirilmişdir. Məhz həmin ildə SSRİ hökumətinin qərarı ilə Abşeron yarımadası, Naftalan və İstisu kurortları ümumittifaq əhəmiyyətli kurortlar siyahısına daxil edilmişdir.

1980-ci illərdən isə hökumətin xüsusi qərarına əsasən, Azərbaycanın kurortlar şəbəkəsinin genişləndirilməsi, o cümlədən Xaçmaz-Nabran zonasında irimiqyaslı layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulsa da, cərəyan etməyə başlayan mürəkkəb siyasi proseslər bu planın həyata keçirilməsinə imkan verməmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra kurort işinin inkişafında xüsusi bir mərhələ başlanmışdır. Belə ki, 2007-ci ildə Azər-

baycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Kurortları" dövlət proqramı haqqında Sərəncam imzalamışdır. Bundan başqa, 2009-cu ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti "Kurortlar haqqında Nümunəvi Əsasnaməmin təsdiq edilməsi haqqında qərar qəbul etmişdir. Azərbaycanda kurort təbii müalicə ehtiyatlarına malik olan və həmin ehtiyatlardan bərpa, profilaktika və müalicə məqsədi ilə istifadə etmək üçün zəruri şəraiti olan ərazi hesab olunur. Azərbaycanın ərazisi kurortlarla zəngindir. Belə ərazilərdə istirahət və müalicəni təmin edən müəssisələr (sanatoriyalar, istirahət evləri, pansionatlar, balneoloji və palçıq müalicə ocaqları, kurort poliklinikaları, bərpa mərkəzləri və s.), sanitariya mühafizə zonaları və digər kurort infrastrukturu təşkil olunur.

Təbii müalicə ehtiyatlarına görə Azərbaycanda balneoloji, (Şəkil 2. İstisu mineral suyu) iqlim, müalicəvi palçıq Naftalan nefti kurortları növləri mövcuddur. Balneoloji kurortlar əsasən, təbii mineral sulardan istifadə olunan kurortlara aiddir. Azərbaycanın ərazisində müalicəvi xüsusiyyətlərinə görə, dünyada qəbul olunan səkkiz qrup mineral suyun hər birinə rast gəlinir. İqlim kurortları müalicə əhəmiyyəti çox olan iqlim göstəricilərinə malikdir. Bu göstəricilər (dəniz suyu, günəş vannası, isti qum vannası, dağ iqlimi və s.) bir çox xəstəliklərin profilaktikası və müalicəsi baxımından əhəmiyyətli hesab olunur. Müalicəvi palçıq kurortlarında palçıqdan, əsasən lil palçığından ( Masazır və Zığ gölü) və vulkan palçıqlarından istifadə yolu ilə müalicə aparılır.

Coğrafi yerləşməsinə görə Azərbaycanın kurort resursları aşağıdakı zonalara bölünür:

Böyük Qafqaz zonasında otuzdan artıq termal və soyuq müxtəlif konsentrasiyalı kükürdlü və üzvi maddələr tərkibli zəif mineral su yataqları mövcuddur. Azərbaycanda geniş yayılmış palçıq vulkanları da bu zonada yerləşir.

Kiçik Qafqaz zonası əsasən karbon turşulu mineral sularla zəngin balneoloji kurortlarla fərqlənir. Şəfalı iqlimə malikdir. Bu zonada nadir təbii müalicə amili kimi tanınan Naftalan neftinin mədənləri yerləşir.

Xəzər dənizinin sahil zonası iqlim və balneoloji xüsusiyyətlərinə görə üç kurort sahəsinə bölünür. Xudat-Yalama zolağı (Nabran kurortu) qumlu çimərliklər, meşələr, yodbromlu su ehtiyatları ilə zəngindir. Abşeron yarımadası Mərdəkan, Bilgəh, Zuğulba, Buzovna, Suraxanı kurortlarını əhatə edir. Həmin ərazidə dəniz iqlimi ilə yanaşı Şıx termal sulfıdli suyu, çoxsaylı yodlu-bromlu sular kimi müxtəlif mineral sularla müalicə aparılır. Suraxanı kükürdlü suları, Masazır və Zığ lil palçıqları da müalicə üçün istifadə olunur.

Lənkəran-Astara subtropik zolağı termal mineral su bulaqları ilə zəngindir. Mineral sularla zəngin bölgədə (150 su bulağı) kurort müalicəsi üçün əhəmiyyətli olan Naxçıvan Muxtar Respublikasının Sirab, Badamlı, Vayxır, Darıdağ və Batabat kurortları yerləşir.

Kür-Araz çökəkliyində balneoloji kurortlar yerləşir və mövcud olan metanlı, azotlu, yüksək və çox yüksək minerallaşmış, silisiumlu, yodlu-bromlu termal su ehtiyatları müalicəvi əhəmiyyətə malikdir.

Azərbaycan regionlarında o cümlədən 44 günlük müharibə nəticəsində azadlığına qovuşmuş Qarabağ və Şərqi Zəngəzur sosial-iqtisadi problemlərin həlli istiqamətində bu tipli yeni yaxın gələcəkdə, prioritet mövzuların işlənməsi və həyata keçirilməsi qarşıya qoyulacaqdır.

Qeyd etmək lazımdır ki, zəngin təbiətə və təbii sərvətlərə malik olan işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionunda turizmin inkişafı perspektivlərini araşdırmaq Azərbaycan alimlərinin qarşısında duran prioritet məsələlərdən biridir.



**Aişə SÜLEYMANOVA**
*AR ETN Bioresurslar İnstitutunun (Gəncə) "Yağlar və məlhəmlər" laboratoriyasının müdiri, texnika üzrə fəlsəfə doktoru, dosent*

# Dayanıqlı gələcək üçün bioyanacaq

**Müasir dövrdə müxtəlif bioenerji mənbələri arasında yer alan bioyanacaqlar dayanıqlı gələcəyi təmin etmək üçün alternativ seçimdir. Neft kimyasında artan enerji çatışmazlığı və bütün növ yanacaq xammalına tələbatın əhəmiyyətli dərəcədə artması şəraitində enerji ehtiyatlarına və xammala qənaət son dərəcə aktual problemdir. Mütəxəssislərin təqdim etdiyi proqnozlara görə qarşıdakı onilliklərdə ənənəvi enerji mənbələrinin, o cümlədən neftin istehsalının azalacağı gözlənilir.**

İnformasiya mənbələri qlobal neft sənayesində neft ehtiyatlarının tükənmə müddəti ilə bağlı müxtəlif statistik rəqəmlər təqdim edir. Orta hesabla, hətta nisbətən yüksək istehsal xərcləri ilə xarakterizə olunan kontinental şelf yataqlarını da nəzərə alsaq, bu ehtiyatlar 80-90 il davam edəcəkdir. Digər ekspert hesablamalarına görə, mövcud enerji istehlakı ilə dünya neft ehtiyatları təxminən 40 il, təbii qaz 70 il, kömür isə 250 il davam edə bilər. Müasir enerjinin digər aktual problemi isə ekologiyadır. İstixana effekti, turşu yağışı, çirkli-dumanlı hava və bir çox digər ekoloji problemlər yanacaqların istifadəsi və qalıq yanacaqların yanması nəticəsində yaranır ki, bu da dünya üzrə siyasətçilərin, iqtisadçıların və alimlərin əsaslı şəkildə yeni və sabit alternativ yanacaq mənbələri tədqiq etməsinə səbəb olur. Bioyanacaq qalıq (fosil) yanacaqlara, yəni neft və onun törəmələrinə ən vacib alternativlərdən biri hesab olunur. Alternativ yanacağın bir növü olan ümumi bioyanacaq mənbələrinə aşağıdakılar daxildir:

● **Bitki xammalı:**
- *günəbaxan, kətan və s. kimi yağlı bitkilər.*

● Kənd təsərrüfatı tullantıları:
- *heyvan tullantıları;*
- *yığılmamış bitki tullantıları;*
- *yığılmış bitki tullantıları məsələn, fındıq qabığı, buğda samanı, qarğıdalı budaqları və s.;*
- *meşə kəsilməsində və ya təbii fəlakətlər nəticəsində baş verən yanğınlar nəticəsində yaranan odunlu tullantılar.*

● **Aqrosənaye tullantıları:**
- *aqrosənaye müəssisələrində istehsaldan sonra ayrılan bitki tullantıları.*

● **Bərk məişət tullantıları:**
- *yaşayış ərazilərinin, ərzaq dükanlarının və restoranların qida tullantıları.*

Bitki materiallarından istehsal olunan alternativ yanacaqların xammal bazası praktiki olaraq tükənməzdir və onların istifadəsi istixana effektini azaltmağa kömək edir, çünki bitkiləri yetişdirərkən ayrılan oksigenin miqdarı bioyanacaqların yanması zamanı istehlak edilən oksigenin miqdarı ilə təxminən eynidir. Bu yanacaqlar həm bioyanacaq istehsalı üçün istifadə olunan bitki yağlarının siyahısındadır, həm də onların istehsal texnologiyası da müxtəlifdir. Bioyanacaqlar dünyanın müxtəlif regionlarında - Avropada, ABŞ-da, Mərkəzi və Latın Amerikası ölkələrində, Cənub-Şərqi Asiya ölkələrində neft mühərriki yanacaqlarına real alternativ hesab olunur. Bu da bitki yağlarının alınma prosesinin sadəliyi, ekoloji cəhətdən təmizliyi və onların iqtisadi cəhətdən əlverişli olması və dizel mühərriklərinin yanma kamerası şəraitində alovlanma qabiliyyətinin məqbul olması ilə izah olunur.




Bioyanacaqlara bitki və ya heyvan mənbələrindən alınan bütün növ maye və qaz yanacaqları daxildir. Bioqaz, biometanol, bioetanol və biodizel kimi alternativ yanacaqlar bioyanacaq növlərinə daxildir. Alternativ enerji mənbələrindən biri olan biodizel bitki xammalından istehsal olunan, ekoloji cəhətdən təmiz, nisbətən ucuz yanacaqdır.

Dizel mühərrikinin ixtiraçısı Rudolf Dizel (1858-1913) ilk dəfə 1893-cü il avqustun 10-da Almaniyanın Ausburq şəhərində öz mühərrikini sınaqdan keçirmiş və daha sonra 1898-ci ildə Paris Dünya Sərgisində yanacaq kimi fıstıq yağı istifadə edərək mühərrikini nümayiş etdirmişdir. İlk biodizel istehsalı 1988-ci ildə gücü 500 ton/il olan fermer kooperativi tərəfindən həyata keçirilmiş, sənaye miqyasında ilk biodizel istehsalı isə 10 000 ton/il gücü ilə Avstriyada həyata keçirilmişdir. Dünyada biodizel istehsalı 1990-cı illərdən etibarən artır.

Biodizel mövcud mühərriklərdə heç bir əsaslı modifikasiya tələb etmədən adi dizel yanacağını əvəz edərək istifadə olunur. Dizel mühərriklərində yanacaq silindrin içərisinə ötürüldüyü zaman isti hava ilə qarışır və daha aşağı molekullu karbohidrogenlərə parçalanaraq sürətlə buxarlandıqda diffuziya alov quruluşu formalaşmağa başlayır. Parçalanmış yanacağın hava ilə birləşməsi davam etdikdə ətraf mühitə buraxdığı istilik ilə reaksiya zonasının temperaturu təxminən 1800 K-ə qədər yüksəlir. İlkin qarışıq yanma və diffuziya alovunun ətrafında aktiv sahə əmələ gəlir və buna görə də yanacağın tam yanması üçün bu sahələrdə kifayət qədər oksigen olmur. Bu sahədə tam yanma baş verə bilmədiyi üçün CO və his əmələ gətirən prekursor doymamış və qeyri-müəyyən quruluşlu karbohidrogenlər (C2H2, C2H4, C3H3) əmələ gətirir. Buna görə də politisiklik aromatik karbohidrogen birləşmələri əmələ gətirərək daha sabit vəziyyət alır və bu zaman nüvə quruluşlu maddənin strukturunun formalaşması başlayır. Birinci zəncir quruluşu propilen (C3H6) və ya asetilen (C2H2) radikallarının yüksək temperaturun təsiri altında dehidrogenləşməyə məruz qalaraq politisiklik aromatik karbohidrogen birləşmşlərinin əmələ gətirməsi və daha sonra tərkibinə digər his formasiyaları əlavə olunması ilə böyüyür. Nəzarətsiz yanmanın sonuncu mərhələsində qalan qalıq yanacaqlar diffuziya alovunda oksidləşdikdə bütün kimyəvi enerjilər ayrılır və bu vəziyyətdə də sahənin temperaturu təxminən 2700 K-ə qədər artır. Yüksək temperaturda aromatik struktur kritik ölçüyə çatır, nüvə quruluşlu maddələrin daxilində inkişaf edir və qaz fazasındakı karbohidrogenləri adsorbsiya edərək hissəciklərin çəkisinin artmasına səbəb olur. Yaranan ilk hissəciklər bir-birinin üzərinə yığılır və ikinci daha böyük quruluşu əmələ gətirir. Adsorbsiya olunmuş karbohidrogen molekulları kimyəvi formalaşma ilə karbonlu his strukturunu əmələ gətirir. Nüvə quruluşlu maddələrin əmələ gəlməsi ən çox yanma kamerasındakı karbonlu hisə təsir edir. Daha sonra bu struktura dizel yanacağının tərkibindəki kükürdün yanmasında oksidləşmə nəticəsində əmələ gələn SO3 və onunla birlikdə su buxarı ilə sürtkü yağının qalıqları da əlavə olunur. Emissiya dəyərləri yanacağın tərkibində olan aromatik maddələrin və kükürdün miqdarından asılı olaraq dəyişir.

Dizel yanacağına biodizel kimi oksigen tərkibli yanacaqların əlavə edilməsi ilə dizel mühərriklərində hissəcik və his emissiyalarının azalmasına səbəb olan amilləri üç əsas başlıq altında qruplaşdırmaq olar:

- Yanmanın ilkin qarışma mərhələsində yanacağın tərkibindəki əlavə oksigenin olması nəticəsində sahədə yanacaq/hava nisbətinin azalması;
- Oksigenli birləşmələrin strukturundakı C-O arasındakı rabitələr sayəsində karbonlar his əmələ gəlməsinin qarşısını alır;




● Radikal mühitini inkişaf etdirməklə his əmələ gəlməsi reaksiyalarının qarşısı alınır və əmələ gələn OH radikalları ilə his əmələ gəlməsinə səbəb ola biləcək molekulların oksidləşməsi təmin edilir.

Biodizel yağlardan əldə edilən monoalkil efirlərinin qarışığı olan alternativ dizel mühərrik yanacağıdır. Biodizel yağlı bitkilərdən və onun tullantılarından alınan yağların və ya heyvan mənşəli yağların katalizatorun iştirakı ilə qısa zəncirli spirtlə reaksiyası nəticəsində yanacaq kimi istifadə olunan məhsuldur.

Biodizel fosil (qalıq mineral) yanacaqlara nisbətən atmosferə daha aşağı zərərli təsir göstərən emissiyalar (qazlar) əmələ gətirir. Əsas zərərli emissiyalar: CO, NOx, CO2, HC və his emissiyaları kimi qəbul edilə bilər. Bu zərərli emissiyaları atmosferdən biodizel yanacağından istifadə etməklə azaltmaq olar. Bu azalmanın ən mühüm amillərindən biri biodizelin kimyəvi tərkibində olan oksigendir. Biodizelin tərkibində olan oksigen yanma zamanı reaksiyaya girən homogen oksigenin miqdarını artırdığı üçün yanmanın keyfiyyətini də artırır. Biodizel dizel mühərriklərinin sistemlərində heç bir dəyişikliyə ehtiyac olmadan istifadə edilə bilən alternativ yanacaq növüdür.

Biodizel adi daxili yanma mühərriklərində müstəqil yanacaq kimi konstruksiyasında əsaslı dəyişikliklər edilmədən və dizel yanacağı ilə qarışdırıldıqda da istifadə edilə bilər. Bitki yağlarından alınan biodizel yanacaqları dizel mühərrikləri üçün alternativ yanacaq kimi daha çox istifadə olunur.

Biodizel yanacağına aid olan üstün cəhətlərə aşağıdakılar daxildir:

● kimyəvi tərkibinə və oksigen tərkibinə görə yüksək yağlama xüsusiyyətlərinə malikdir ki, bu da nəticə olaraq nəqliyyat mühərriklərinin istifadə müddətini artırır;

● daha yüksək setan ədədi (təmiz biodizel üçün 51-dən az olmayan, dizel yanacağı üçün 42-45);

● atmosferə buraxılan zərərli karbon-dioksidin azaldılması (biodizelin istifadəsi zamanı ayrılan qazın miqdarı bitkilər tərəfindən atmosferdən udulan qazın miqdarı ilə eynidir və bitkilər bütün yaşama dövründə xammal mənbəyi olan bu yağı hasil edirlər);

● biodizel yüksək alışma temperaturuna malikdir;

● biodizelin tərkibi əsasən kükürdsüz və aromatik karbohidrogensiz olduğu halda ənənəvi dizeldə 500 ppm SO2 və 20-40 % aromatik karbohidrogen olur;

● torpaq və ya su ilə təmasda olduqda, qeyd etmək olar ki, tam bioloji parçalanmaya məruz qalır.

Biokütlə enerjisi başqa alternativ enerji mənbələri olan günəş, hidroenergetika, hidrogen enerjisi, geotermal enerjilərindən öz maya dəyərinə, ekoloji cəhətdən təmizliyinə və tükənməzliyinə görə ən sərfəli enerji növü sayılır.

IRENA-nın "Renewable Capacity Statistics 2021" hesabatına əsasən, dünyada bioenerji üçün ümumi quraşdırılmış güc 126 GVt təşkil edir.

Aparılan hesablamaların nəticələrinə əsasən, Azərbaycan Respublikasının iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün olan bərpa olunan enerji mənbələrinin potensialı 26 940 MVt, o cümlədən, bioenerji potensialı 380 MVt həcmində qiymətləndirilir. Bu da öz növbəsində il ərzində 1 milyon ton şərti yanacağa qənaət, əsasən də tullantıların, o cümlədən CO2-nin atmosferə atılmasının qarşısının alınması deməkdir. ●



**İlahə CƏFƏROVA**
*AR Elm və Təhsil Nazirliyi Ekologiya və Təbii Ehtiyatlar İnstitutu, Naftalan nefti və səthi aktiv maddələr laboratoriyasının müdiri, texnika üzrə fəlsəfə doktoru*

# Mikroorqanizmlərin neft məhsullarına təsiri

**Mikroorqanizmlərin neft məhsullarına təsiri kompleks və müxtəlifdir. Neft və neft məhsulları mikroorqanizmlər tərəfindən həm pozulma, həm də adaptasiya proseslərinə məruz qalır. Bununla yanaşı, mikroorqanizmlərin neftin parçalanmasında və ekosistemlərdə müsbət rolu olsa da, onların yaratdığı korroziya və toksiki maddələr kimi mənfi təsirləri də mövcuddur. Bu səbəbdən, neft məhsullarının mühiti çirkləndirməsi və mikroorqanizmlərin onlara verdiyi reaksiyalar həm ekoloji, həm də texnoloji baxımdan araşdırılması vacibdir.**

Mikroorqanizmlərin təsirindən zədələnmə hallarının meydana gəlməsi və mikrobioloji zərərin inkişafına baxmayaraq, materiallarda müxtəlif səbəblərdən zədələnmə hallarına rast gəlmək olar. Aparılan işlərdə mikroorqanizmlərin böyüməsi və materialların xassələrinə təsiri kimi halları öz əksini tapmışdır.

Mikroorqanizmlər öz həyat fəaliyyətini təmin etmək üçün neft məhsullarında olan karbohidrogenlərə təsir etməklə neftin istehsalında, onun çıxarılmasında, istismarında problemlər yaradırlar. Mikroorqanizmlər bir tərəfdən neft və neft məhsullarına təsir edərək onu yararlı hala salır. Belə ki, mikroorqanizmlərin təsiri ilə neft məhsulları xüsusi tərkibə malik - deparafinləşmə, zülal-vitamin konsentratı və neft sənayesində suları təmizləmək olur. Digər tərəfdən mikroorqanizmlərin fəaliyyəti nəticəsində neft məhsulları parçalanır və bununla yanaşı, neft avadanlığı zədələnir.

Mikroorqanizmlər tərəfindən neft məhsullarının zədələnməsinin nəticələri göstərir ki, onlar müxtəlif karbohidrogenlərə görə müəyyən dərəcədə seçicilik xassəsinə malikdir, yəni onların ferment sistemləri yalnız müəyyən karbohidrogenlərdən istifadə etmək qabiliyyətinə malikdir.

Mikroorqanizmlər karbohidrogenlərdən istifadə edərək, yağın, sürtkünün və yanacağın tərkibini dəyişərək onun istismar müddətini aşağı salır. Bu proseslər ən başlıcası neft və neft məhsullarından tropik (isti və rütubətli) şəraitdə istifadə olunan zaman bir çox ölkələrdə baş verir. Hal-hazırda yığılıb qalmış bu cür halların qarşısını almaq üçün mikrobioloji zədələnmədən qorumaq məsələsi tək tropik iqlim şəraiti üçün deyil, həm də adi şərait üçün günün ən aktual məsələsidir.

Mikroorqanizmlər daimi olaraq havanın iştirakı ilə maddələrin tərkibinə daxil olurlar. Lazımi rütubətdə və temperaturda mikroorqanizmlər neft məhsullarının yüklənməsi, bəzən istismar dövründə yağı, sürtkünü və yanacağı zədələyərək dəyişməz hala salır. Mikrobların artımı astronomik ədədlə ölçülür və mikrobların kütləsi yüksək şəkil-

də çoxalır. Bu cür çoxalma tozların və çirkli üzvi birləşmələrin neft məhsullarına keçməsi nəticəsində mikroblar üçün əlavə qida mühiti yaradır. Nəticədə, neft məhsulları istismar üçün yararsız hala düşür. Yanacaq və motor yağlarında çöküntü verir ki, bu da porşendə, klapanda yanıq əmələ gətirir, mühərrikin iş rejiminə təsir edərək onun sıradan çıxmasına səbəb olur. Mikrob kütləsi (biokütlə) filtiri tutaraq yanacağın mühərrikə ötürülməsinə mane olur. Yağlayıcı material özünün müdafiə qabiliyyətini itirir, metal hissələri korroziyaya uğrayır. Mikroorqanizmlərin fəaliyyəti nəticəsində neft müəssisələrində və neft saxlanan yerlərdə olan turbalar, əşyalar korroziyaya uğrayır.

Qeyd olunan mənfi halların qarşısını almaq və mikroorqanizmlər tərəfindən yüksək biosabit neft məhsulları yaratmaq üçün bu istiqamətdə neftdə həll olan yüksək effektli məlum antimikrob aşqarların seçilməsi, yaxud yeni tərkibdə biosidlərin sintezi üzrə tədqiqatların aparılması lazımdır.

Neft məhsullarının və yanacağın bioloji zədələnməsinə səbəb olan əsas mikroorqanizmlər Pseudomonas, Nicrocossus, Mycobacterium cinslərinin bakteriyaları, həmçinin Cladosporium, Aspergillus, Aerugenosa, Repicillum, Alternaria və s. göbələkləridir. Bioloji zədələnmə karbohidrogenlərin mikrobioloji enzimatik oksidləşməsi ilə səthi aktiv xüsusiyyətlərə malik üzvi turşuların və emulsiyalaşdırıcı yanacaqların əmələ gəlməsi ilə əlaqələndirilir. Yanacaqda mikrofloranın inkişafının əsas şərti onun tərkibində mineral duzların izləri olan suyun və uyğun temperaturun olmasıdır. Ancaq quru yanacaqda mikroorqanizmlərin inkişafı dayanır. Bununla belə, yanacağın real istismarı və saxlanması şəraitində rütubətdən tamamilə xilas olmaq çətin və qeyri-mümkündür. 0,01-0,02% suyun və izlərinin olması mikroorqanizmlərin çoxalmasının başlaması üçün kifayət edir.



Neft məhsullarının mikrobioloji oksidləşməsinin sürəti və dərinliyi onların karbohidrogen tərkibindən asılıdır. Məlumdur ki, xətti molekulyar quruluşa malik olan karbohidrogenlər onların budaqlanmış izomerlərinə nisbətən daha tez məhv olurlar. Alifatik (parafin) karbohidrogenlər çox vaxt aromatiklərdən daha az biostabildirlər və buna görə də, tərkibində əsasən parafin karbohidrogenləri olan yanacaqlar mikroorqanizmlər tərəfindən aromatik birləşmələr olan yanacaqlardan daha tez məhv edilə bilirlər. Aviasiya yanacaqlarının biozədələnmədən mühafizəsi, ilk növbədə, yanacağa suyun daxil olmasının qarşısının alınmasını, onun vaxtında qurudulmasını və çənlərin dibindən suyun çıxarılmasını, sanitar-gigiyenik profilaktik tədbirlərin görülməsini və biosidlərin - mikrob əleyhinə aşqarların istifadəsini nəzərdə tutur.

Neft məhsulları istehsalının həcminin əhəmiyyətli dərəcədə artması və onların fəaliyyət dairəsinin genişlənməsi mikrobioloji zədələnmə ilə mübarizə problemini daha da aktuallaşdırır. İstehsal və elmi-tədqiqat təşkilatlarının təcrübəsi, eləcə də istismar sahəsindən gələn siqnallar sürtkü yağlarının biozədələnmədən qorunması məsələsinin vaxtında həll olunmasını təsdiqləyir.



**Fidan ƏLƏSGƏROVA**
*AR ETN Ekologiya və Təbii Ehtiyatlar İnstitutunun kiçik elmi işcisi*

# Seolit mineralının müalicəvi xüsusiyyətləri

**Seolit mineralı unikal xüsusiyyətlərinə görə geniş və səmərəli tətbiq sahələrinə malikdir. Seolitdə yüksək adsorbsiya-ion mübadiləsi reaksiyaları müəyyən edilmiş və tətbiq sahəsi xeyli genişlənmişdir. Ondan müalicə məqsədi ilə insan orqanizminə mənfi təsir göstərən xarici, daxili və endogen mənşəli maddələri orqanizimdən ayırmaq üçün sorbent kimi istifadə edilir. Dəri səthinə tətbiq edilən zaman dərinin toksinlərdən təmizlənməsini və yenilənməsi təmin edir. Bəzi dermatoloji problemlərdə dərinin vəziyyətini yaxşılaşdırmağa kömək edir.**

Yunan dilində qaynayan daş mənasını verən və təbiətdə 40-dan çox növü olan seolit mineralı unikal xüsusiyyətlərinə görə tədqiqatçıların daim diqqət mərkəzindədir.

Seolit mineralı təbii şəkildə çıxarılır və emal olunur. Seolitə həyatın müxtəlif sahələrində tələbat olduğundan süni şəkildə də sintez olunur.

Seolitlərin geniş və səmərəli tətbiq sahələrinə malik olması onların quruluşunun mürəkkəbliyi ilə izah olunur. Seolit mineralı təbii almümosilik olub, tetraedr, bir kation ətrafında dörd oksigen atomu olan qəfəs quruluşlu kiristal maddədir [1].

Seolitdən ilk dəfə qazların və neft məhsullarının təmizlənməsində istifadə edilmişdir. Daha sonrakı dövrlərdə onlarda olan yüksək adsorbsiya-ion mübadiləsi reaksiyaları, unikal xassələrə malik olması müəyyən edilərək tətbiq sahəsi xeyli genişlənmişdir. Seolitdən həmçinin ətraf mühitdə çirklənmiş suyun, qida məhsullarının, torpağın təmizlənməsində geniş istifadə olunur.

Seolitlər neft məhsullarının və onların tullantılarının təmizlənməsində, canlı orqanizmdən toksinlərin çıxarılmasında mühüm əhəmiyyət kəsb edir. Seolitdən həmçinin, insan orqanizminə mənfi təsir göstərən xarici, daxili və endogen mənşəli maddələri orqanizimdən ayırmaq üçün sorbent kimi istifadə edilir. Şəkil 1-də təbii seolit mineralı, şəkil 2-də isə sorbent kimi istifadə olunan müxtəlif ölçülərə malik seolitlər verilmişdir.



**Şəkil 1. Təbii seolit mineralı**

Seolit vulkan mənşəli mineraldır və unikal xüsusiyyətlərinə görə kosmetik məhsulların tərkibində daha çox istifadə olunur. Onu əhəmiyyətli edən əsas xususiyyətlərindən biri də dəriyə verdiyi bir çox faydaları ilə bağlıdır [2].

Kosmetoloji sahədə də seolitdən üz təmizləyici vasitələrin və üz maskalarının hazırlanmasında istifadə olunur. Seolit kosmetikanın qiymətli və effektiv tərkib hissəsi olub, yaş dəriylə təmasda olduqda süngər kimi lazımsız və zərərli maddələri udur, fiziki təmas olmadığından dəriyə zərər vermir, dərini toksinlərdən və çirklərdən təmizləyir, onun aşınmasını təmin edir.

Şəkil 3-də Seolit mineralından hazırlanmış maskanın üz tətbiqi göstərilmişdir. Seolit dəriyə tətbiq olunan zaman zərərli kalsium ionlarını və ağır metalları dəridən və kollagen liflərdən çıxarır.



Şəkil 2. Sorbent kimi istifadə olunan seolit mineralı



Şəkil 3. Seolitin kosmetoloji sahədə tətbiqi

Bunun müqabilində toxumalar qida qəbul edir, dəri nəmlə doyur və hamarlaşır. Seolit dərinin optimal nəm səviyyəsini saxlamağa kömək edir və onun nəm saxlamaq qabiliyyətini artırır, susuzlaşmasının qarşısını alır. Bunun nəticəsində dəri elastikliyini və gəncliyini qoruyub saxlaya bilir [3].

Tərkibində seolit olan kosmetik vasitələrin müntəzəm istifadəsi dəri toxumasının bərabərləşməsinə kömək edir, məsamələrin görünüşünü azaldır, dəriyə daha hamar və bərabər görünüş verir. Bundan əlavə, epidermisin bərpası prosesi daha aktiv olur və nəticədə iltihab, qara nöqtələr və onların izləri tez yoxa çıxır. Dəri hüceyrələrinin və kollagen molekullarının fəaliyyəti yaxşılaşır, dəri səthində yeni kollagenin aktiv istehsalı baş verir. Bu kollagen gənc dəriyə xas xüsusiyyətlərə malik olur, dərinin yenilənməsini təmin edir və uzunmüddətli cavanlaşdırıcı təsir göstərir. Bu nəticə, təkcə səthi deyil, həm də dərin olur. Dərinin immun müdafiəsi aktivləşir ki, bu da sızanaq və ləkələrdən qurtarmağa kömək edir. Bu proses həmçinin müxtəlif dermatoloji problemlərdə dərinin vəziyyətini yaxşılaşdırmağa kömək edir.

Seolit dərinin qocalmasına səbəb olan sərbəst radikalları neytrallaşdırır, qırışıqların qarşısını almağa və ümumi dəri tonunu yaxşılaşdırmağa kömək edir. Seolitin bu xususiyyəti onun kosmetoloji əhəmiyyətini artırır. Seolit tərkibli kosmetikadan istifadə təravətli, təmiz, möhkəm dəri ilə nəticələnir və sağlamlığa zərər vermədən nəzərəçarpan və uzunmüddətli nəticələr əldə etməyə kömək edir.

Seolitdən kənd təsərrüfatı sahəsində geniş istifadə olunur, kənd təsərrüfatı heyvanlarının yeminə əlavə edilir və həmin yemin faydalı minerallarla zənginləşməsinə səbəb olur.Yem daha uzun müddət saxlanıla bilir və təsirini itirmir. Bu yemin isdifadəsi zamanı heyvanlarda qidanın mənimsənilməsi surətlənir və çəkilərində artım daha tez baş verir, o cümlədən xəstəliklərə daha az yoluxurlar.

Seolit həmçinin müalicə məqsədi ilə dərmanların tərkibinə daxil edilmişdir və ondan baytarlıq sahəsində heyvanın bədəninin detoksifikasiyası, yəni toksinlərdən və zərərli birləşmələrdən təmizlənməsi prosesini sürətləndirmək məqsədi ilə istifadə olunur [4].

Bitkiçilikdə gübrələrin və onlara edilən mineral əlavələrin istehsalı üçün təbii şəkildə xammaldır. Seolit tərkibində dəmir, manqan, maqnezium, kobalt və digər mikroelementlərin olması hesabına gübrənin tərkibini zənginləşdirir. Kənd təsərrüfatı bitkiləri tərkibində seolit mineralı olan preparatlarla mayalanan zaman xəstəliklərə daha az meyilli olurlar və yüksək məhsuldarlıq ilə seçilirlər. Bu məqsədlə seolit mineralından müalicəvi metod kimi istifadə etmək zəruridir [5].●

*Ədəbiyyat:*

- *Q.V. Xəlilov, F.Y. Əliyev, E.N. Məmmədov "Azərbaycan təbii sərvətlərinin bioloji-fəal maddələri və onların istifadəsi". Elm nəşriyatı. Gəncə-2005. s.10-14*
- *Ələsgərov İ.Ə., Ələkbərov N.M., Nağıyev N.Q. Ecaskar xassali seolitlər. Gəncə Dövlət Universiteti, Elmi Xəbərlər, 2014, №2, s.79-83*
- *Payra P., Dutta P.K, Zeolites: A Primer Handbook of Zeolite Science and Technology. 270 Nadison Avenue, New York, 2003, s.5.*
- *https://www.biobeauty.ru/news/uhod-za-volosami/chem-tsenen-mineral-tseolit-v-ukhode-za-kozhey/ (data obrahenıə: 09.06.2019). - Tekst : glektronnıy.*
- *https://biobeauty.by/chto-takoe-tseolit-i-kak-on-rabotaet-v-naturalnoj-kosmetike.html (data obrahenıə: 15.08.2020). - Tekst : glektronnıy.*

## İqlim tarazlığı pozulur - Növbəti 5 ildə ciddi dəyişikliklər gözlənilir

**Ümumdünya Meteorologiya Təşkilatının son hesabatına görə, keçən il qeydə alınan yüksək temperatur növbəti beş il ərzində normaya çevrilə bilər. Təşkilatın proqnozuna görə 1850-1900-cü illərin məlumatlarına əsasən, bu dövrdə qlobal orta temperaturun sənayedən əvvəlki səviyyədən 1,5°C-dən çox olacağı ehtimalın 70%-dir.**



Arktika bölgəsi xüsusilə sürətlə istiləşir - 1991-2020 səviyyələri ilə müqayisədə temperatur 2,4°C-dən çox olmaqla, qlobal orta göstəricidən üç yarım dəfə sürətlənib. Bu, Barents, Oxotsk və Berinq dənizləri kimi dənizlərdə dəniz buzunun daha çox əriməsi ilə bağlı narahatlıqları artırıb. Şimali Avropa, Alyaska və Sub-Sahara Afrikası kimi dünyanın bəzi yerlərində daha artıq yağıntı gözlənilir. Eyni zamanda, Amazon bölgəsində quraqlıq şəraitinin gücləncəyi proqnozlaşdırılır.

Ümumdünya Ticarət Təşkilatı vurğulayır ki, son illər dünyada tarixdə ən isti on il yaşanıb və bu tendensiyanın yaxın gələcəkdə dəyişməsi gözlənilmir. Bundan əlavə, Perm Milli Tədqiqat Politexnik Universitetinin mütəxəssisləri 2025-ci ilin yayında Rusiya üçün hava proqnozu tərtib edərək, xüsusilə ölkənin cənubunda təhlükəli meteoroloji hadisələrin tezliyinin və intensivliyinin mümkün artımını qeyd ediblər. Bunlara qasırğalar, güclü yağışlar və küləklər daxildir. İqlim dəyişikliyi ilə əlaqədar valideynlərə uşaqlarda qızdırma əlamətlərini necə tanımaq barədə tövsiyələr də verilib.

## Genetik, biokimyəvi və həyat tərzi faktorlarını əsasında sağlamlıq strategiyası

**Funksional tibb müayinəsi, ənənəvi tibbdən fərqli olaraq, xəstəliklərin yalnız simptomlarını deyil, onların əsas səbəblərini tapmağa yönəlmiş bir yanaşmadır.**



Bu metod, fərdin genetik, biokimyəvi və həyat tərzi faktorlarını nəzərə alaraq, daha fərdi və kompleks sağlamlıq strategiyaları təqdim edir.

Bu yazıda funksional tibb müayinəsinin necə aparıldığını, hansı testlərin edildiyini və bu yanaşmanın sağlamlığa necə təsir etdiyi barədə oxucuları məlumatlandırılır.

Funksional tibb, bədənin bütöv sistemlərə əsaslanan müayinəsini apararaq, xəstəliklərin səbəblərini dərinlikdə araşdıran bir tibb sahəsidir. Simptomların arxasındakı əsas səbəbləri tapmağa çalışır.

Hər bir insanın fərdi bioloji və genetik xüsusiyyətlərini nəzərə alır. Qidalanma, həyat tərzi və ətraf mühit faktorlarını müayinə edir. Xroniki xəstəliklərin idarə olunması və qarşısının alınmasına yönəlir.

Ənənəvi tibbdə xəstəliklərə diaqnoz qoyulub müalicə tətbiq edilsə də, funksional tibb onların kök səbəblərini taparaq müalicəni fərdiləşdirir.

Funksional Tibb Müayinəsi Necə Aparılır? Funksional tibb müayinəsi bir neçə mərhələdən ibarətdir.

1. Ətraflı Sağlamlıq Tarixçəsinin Alınması

Həkim xəstənin keçmiş və mövcud sağlamlıq vəziyyətini dərinlikdə sorğulayır.

Uşaqlıqdan indiyə qədər baş vermiş xəstəliklər, həyat tərzi dəyişiklikləri və genetik fak-

torlar nəzərə alınır. Stress, yuxu, idman, emosional sağlamlıq və ətraf mühit faktorları müayinə edilir. Sağlamlıq tarixçəsi funksional tibb yanaşmasının ən vacib hissələrindən biridir.

2. Həyat Tərzi və Ətraf Mühit Faktorlarının Qiymətləndirilməsi

Xəstənin gündəlik qidalanma vərdişləri və su istehlakı yoxlanılır. İdman və fiziki aktivlik səviyyəsi nəzərə alınır.

Ətraf mühit toksinlərinə (ağır metallar, pestisidlər, kimyəvi maddələr) məruz qalma səviyyəsi dəyərləndirilir.

Funksional tibb, bədənin daxili və xarici təsirlərə necə cavab verdiyini anlamağa kömək edir.

## Yoğun bağırsaq xərçəngindən xilas edə biləcək səhər yeməyi

**Tədqiqatçılar səhər yeməyində heç bir əlavə qatqısı olmayan təbii qatıq yeməyin bağırsaq xərçəngi riskini azaltmağa kömək etdiyi qənaətindədirlər.**



Aparılan tədqiqatda 100 min tibb bacısının və 51 min kişi tibb işçisinin sağlamlığı və qida rasiyonu ilə bağlı məlumatlardan istifadə edilib. Bu iki tədqiqat qrupunda 3079 sənədləşdirilmiş kolorektal xərçəng aşkarlayıblar.

Tədqiqatçılar təsdiqlənmiş xərçəng diaqnozu olan iştirakçılardan alınan toxuma nümunələrini bifidobakteriya DNT-nin miqdarını ölçmüşlər.

Nəticələr göstərib ki, hətta həftədə bir porsiya yeyilən qatıq belə təhlükəli xəstəliyə tutulma riskini azaldır. Müşahidələr bunu deməyə əsas verir ki, uzun müddət həftədə iki dəfə səhər yeməyində müntəzəm qatıq istehlakı daha yüksək nəticələr verir.

İltihab əleyhinə təsiri olan təbii qatığın bağırsaqlara göstərdiyi müsbət təsiri alimlər mikrobiomda və bifidobakteriyalarda dəyişikliklərlə əsaslandırırlar.

## Braziliyalı elm adamları həm təbii qocalma, həm də demensiya ilə əlaqəli zehni geriləməni geri qaytara bilən molekul kəşf ediblər

**"Aging Cell" jurnalında dərc edilən araşdırmada astrositlər - beynin dəstəkləyici hüceyrələri tərəfindən ifraz olunan hevin adlı maddənin siçanlarda neyronlar arasındakı əlaqənin keyfiyyətini yaxşılaşdırdığı və yaddaşı bərpa etdiyi müəyyən edilib.**



Təcrübələr göstərdi ki, hevin səviyyəsinin artırılması həm Alzheimer xəstəliyi modellərində, həm də sağlam yaşlı heyvanlarda koqnitiv geriləmənin qarşısını alır. Maraqlıdır ki, maddə Alzheimerin ənənəvi markeri olan beta-amiloid lövhələrinə heç bir təsir göstərməyib. Bu, müəlliflərin fikrincə, xəstəliyin yalnız lövhələrin yığılması ilə deyil, bir çox amillərin, o cümlədən neyrooplastikliyin azalmasının səbəb ola biləcəyini təsdiqləyir.

Tədqiqatçılar vurğulayırlar ki, onların kəşfinin əsas əhəmiyyəti astrositlərin rolunu yenidən düşünməkdədir. Əvvəllər diqqət neyronlar üzərində idi, lakin indi aydın oldu ki, dəstəkləyici beyin hüceyrələri demans və yaşa bağlı yaddaş itkisi üçün yeni müalicələr üçün əsas hədəflər ola bilər.

## Redaksiyaya göndərilən məqalələrə dair tələblər

1. Məqalələr redaksiyaya həm kağız, həm də elektron formada təqdim olunmalıdır;
2. Məqalələrin əvvəlində müəlliflərin soyadı, adı, atasının adı, elmi dərəcəsi, elmi rütbəsi, iş yeri, vəzifəsi, telefon nömrəsi, elektron ünvanı göstərilməlidir;
3. Material və ona aid şəkillər (şəkillər ayrıca fayl olaraq, böyük ölçüdə) redaksiyanın elektron ünvanına göndərilməli, yaxud da disk və ya yaddaş kartı ilə təqdim edilməlidir;
4. Məqalələr elmi-populyar janrda, Azərbaycan, rus və ingilis dillərindən birində təqdim olunmalıdır;
5. Məqalələr Microsoft Word mətn redaktorunda A4 formatında, TimesNew Roman şrifti ilə 14 pt ölçüdə, 1.5 intervalda işlənilməli, həcmi 4 səhifədən artıq olmamalıdır (məqaləyə aid şəkillər və müəllifin şəkli əlavə edilməlidir);
6. Təqdim olunmuş materiallarda səhifələr, cədvəl və şəkillər nömrələnməlidir;
7. Ədəbiyyat siyahısı verildikdə hər bir istinad olunan mənbənin adı tərcümə olunmadan, məqalədə istifadə olunma ardıcıllığına uyğun olaraq nömrələnməlidir;
8. Məqalələrdə göstərilən məlumat və faktlara görə redaksiya məsuliyyət daşımır;
9. Redaksiyaya daxil olan məqalələr rəyə təqdim edilir və müsbət rəy almış yazılar çapa tövsiyə olunur. Əlyazmalar geri qaytarılmır.

**Ünvan: AZ 1073, Bakı şəhəri, Hüseyn Cavid prospekti, 115**
**"Elm və həyat" jurnalının redaksiyası**
**Tel: ( + 994 12) 538-71-33; 050-353-05-21**
**E-mail: elm.heyat.jurnal@gmail.com**

**Çapa imzalanmışdır: 30 iyun 2025-ci il**
**Tiraj: 300**

*Jurnal* ***"Elm"*** *nəşriyyatında çap olunmuşdur.*